Türk ellərindən-4

ƏLİ ŞAMİL

TÜRKMƏNİSTAN: YOL QEYDLƏRİ, MƏQALƏLƏR

Bakı –2026

Redaktoru: **Vəfa Saleh**

Elmi məsləhətçisi: **Kakacan Janıbəyov**
tarix üzrə fəlsəfə doktoru

Şamil Əli (Şamilov Əli Hüseyn oğlu).
Türkmənistan: yol qeydləri, məqalələr-4,
Bakı: "İmza" nəşrlər evi, 2026, 468 səh.

Kitab müəllifin Türkmənistan Respublikasına səfər zamanı görüşdüyü insanlar, onlarla dövrün ictimai-siyasi vəziyyəti haqqında söhbətləri, elmi toplantılarda oxuduğu məruzələrin mətinləri, araşdırıcıların və bölgənin tanınmış şairləri, alimləri, siyasi xadimləri haqqında bioqrafik ocerklər daxil edilmişdir.

İSBN 978-9952-37-754-5

© Əli Şamil, 2026.

İÇİNDƏKİLƏR

Türkmənistanı mənə bəlkə Rus dili müəllimim sevdirdi 3
Aşqabada: mədəni irs konfransına 14
Daşoğuza nədən Daşkənd, Ürgənc marşurutu ilə getdim 116
Türkmənistanda keçirilən konfranslardakı məruzələrim 164
Əbu Səid Əbül-Xeyri və onun ideyalarının mir Həmzə Seyid Nigari tərəfindən davamı 164
Mahmud Zamaxşari və Azərbaycanın elmi, ədəbi mühiti 193
Türkman şairi Telimxan 215
Dövlətməmməd Azadi bir sufi filosof kimi ... 240
Ruhnameden "Koroğlu" dastanına yeni bakış 252
Türk dünyasının məşhurları 264
Məxdumqulu Fəraqı 265
Seyitnəzər Seyidi 274
Molla Nəfəs 281
Abdulhakim Qulmuhəmmədov 288
Gümüşəli Börıyev 311
İtkilərimiz 325
Azərbaycanı candan sevən Türkmən: Oraz Yağmur 326
Azərbaycan radio və televizyasını dinləməklə böyüyən türkmən alimi Kasım Nurbatov 343
Türkmən elinin Türkoloq övladı 346
"Coratlı" Türkmən akademiki Annaqurban Aşırov 389
Azərbaycan-Türkmən ədəbi əlaqələrində professor Ramiz Əskərin rolu 413
Publisistik məqalələr 437
Türkmən inciləri 438
Türkmənistanda çap olunan yazılarım 459

TÜRKMƏNİSTANI MƏNƏ BƏLKƏ RUS DİLİ MÜƏLLİMİM SEVDİRDİ

Yeniyetməlikdə məktəbimizdə baş vermiş bir hadisəni elə bilirdim unutmuşam. Yaşa dolanda unutduğum sandığım hadisələr xırda detalları ilə yadımda qaldığını gördüm. Məktəbdə oxuyanda haqlı, haqsız müəllimlərimdən çox kötək yemişəm. Yaramaz şagird olduğuma görə döyülmürdüm. Sakit, bir az da çəkingən, müəllimlərin tapşırıqlarını səliqə ilə yerinə yetirməyə çalışan bir şagird idim. Amma hərdən yaramazlıqlarım da olurdu.

Bir dəfə də səbəbini bilmədən Rus dili müəllimim tərəfindən cəzalandırılmışam. Elə bilirdim həmin hadisə yaddaşımdan silinib. Yaşa dolduqca Rus dili müəlliməsinin məni cəzalandırmasının səbəbini bilmişəm.

Rus dili müəlliməmiz orta boylu, dolu bədənli, sarışın bir qadın idi. Haradan gəldiyi, sonra haraya getdiyi ilə heç maraqlanmamışam. Yadımda qalan odur ki, kəndimizdə də, məktəbimizdə də Rus qadınına hörmətlə yanaşırdılar. O dövrdə mənə yaşlı görünən müəllimi xatırlayanda onun 30 yaşlarında ola bilcəyi qənaətinə gəlirəm.

Mənə elə gəlirdi ki, yaxşı dərs deyir. Dərsini sakitcə dinləyir, verdiyi ev tapşırıqlarını vaxtlı-vaxtında yerinə yetirirdim. Buna görə məni əzizləyir, sinif yoldaşlarıma nümüunə göstərirdi. Lakin bir gün mənə bərk hirsləndi, qulağımdan tutub darta-darta müəllimlər odasına apardı.

O dövrdə natamam orta məktəblərdə təhsil 7 illik idi. Bizim kənd kiçik olduğundan, siniflərdə uşaqların da sayı az idi. Məktəbimiz dörd beş otaqda yerləşirdi. Buna görə iki növbəli dərs keçirdik. Direktorun ayrıcı otağı yox idi. Müəllimləri əyləşdiyi otağa oda deyirdik.

Şagirdlərin döyülməsi, müəllimlər odasına aparılması, orada direktorun və başqa müəllimlərin də bir iki qapaz vurmaları gündəlik yaşam tərzimiz idi.

Yadımda qalan odur ki, bərk ağlayırdı. Bunun səbəbi qulağımın ağrımasından deyil, müəllimin mənim üstümə bərk qışqırması, bəlkə də odada derektorun döyəcəyi qorxusundan idi.

Müəllim odada da qulağımı buraxmadan direktora nəsə deyirdi. Balaca boylu, saktit təbiətli direktorumuz müəllimi dinlədikdən sonra durub mənə bir iki qapaz vuracağını gözləyirdim. Amma əksinə oldu. O, yerindən

qalxmadan müəlliməyə nəsə dedi. Müəllimə daha da qızışdı və üyüdüb-tökməyə başladı.

Kəndimizdə müəllim az olduğundan texnikum bitirmiş, Böyük Məzrəli Musa müəllim direktor təyin etmişdilər. Şagirdləri hərdən yaramazlıqlarına görə döysə də valideyinlər heç vaxt ondan narazılıq etməzdi.

Musa müəllim yerində qalxıb bizə doğru gələndə Rus dili müəllimi mənim qulağımı buraxıb arxasını divara söykədi və özünü qoruyur kimi bir vəziyyət aldı. Uşaqlar müəllimlər odsına aparılanda, ağladılanda heç bir müəllim dərsini yarıda qoyub oraya gəlməzdi. Bu dəfə qadının durmadan çığır-bağır etməsindənmi, yoxsa Musa müəllimin səsindənmi müəllimlərdən bir neçəsi də odaya gəldilər. Onlardan bir nəfəri İkinci Dünya Savaşında yaralanıb geri qayıtmişdi, bir də 3-4 il hərdi xidmətdə olmuşdu. Bunu ona görə yazıram ki, müəllimlərimiz arasında Rus dilini bilən, sərbəs danışan və fikirlərini sərbəs yazanlar vardı. Kəndilərimiz yuxarı təşkilatlara ərizələrini onlara yazdırırdılar.

Müəllimlərimiz direktoru sakitləşdirib yerində oturdsalar da özləri Rus dili müəllimimizə nələrsə deyirdilər. Bəlkə də birinci dəfə idi

müəllimlər şagirdin tərəfini saxlayırdılar. Amma Rus dili müəllimimiz də susmaq bilmirdi. Onlara nəsə cavab qaytarırdı.

Sonralar bildim ki, Rus dili müəllimimizi əsəbləşdirən mənim Türkmənistana məktub yazmağım və oradan Türkməncə cavab almağım olub. O, bu yazışmanın arxasında bir millətçilik görüb. Kəndimizdən müharibəyə gedənlərin əksəriyyətini bilərəkdən almanlara əsir düşməkdə, kənddə millətçiliyin baş alıb getməsində görüb.

Əslində isə işin mahiyyətində heç bir millətçilik yox idi. Kəndimizdən müharibəyə gedənlərin əsir düşmələrinin də mənim Türkmənistanla yazışmama heç bir dəxli yox idi. Kəndlilərimiz də öz xoşları ilə əsir düşməmişdilər. Krımda minlərlə əskər və zabit kimi onların da yarmadadan geri çəkilməyə imkanı olmamışdı. Geri çəkilmək üçün gəmilərə minənləri də alman təyyarələri bombalayıb dənizdə batırmışdılar. Bu söhbətləri tez-tez əsirlikdən geri dönənlərdən eşidirdik.



Şəkildə: Əli Şamil 2009-cu il martın 11-13-də Aşqabadda keçirilən "Səlcuqlar dövrünün ədəbiyyatı və mədəniyyəti adlı xalqlar məsləhəti" konfransında məruzə oxuyarkən

Müəllimimizi əsəbləşdirən məktubub yazılmasının səbəbkarı isə özü olmuşdu. Xatırladığım odur ki, şagirdlərinə Rus dilini öyrətməyə çalışan müəllimimiz müxtəlif metodlardan istifadə edirdi. Hətta uşaq oyunu "Qazlar, qazlar, orda nə var?" oynayanda da bizə mətin Rus dilində dedirdirdi. Oyunlar

vasitəsin ilə Rus dilində dnaışmağı öyrətmək istəyirdi.

O dövrdə müəllimlər şagirdlərin ölkənin müxtəlif məktəblərində oxuyan şagirdləri ilə yazışmağa həvəsləndirirdilər. Müəllimimiz də bizi həvəsləndirirdi ki, Rus dilini yaxşı öyrənmək üçün SSRİ-nin müxtəlif şəhər və kəndlərində yaşayan yaşıdlarımıza, bizimlə eyni siniflərdə oxuyanlarla məktub yazaq.

Bu iş çox xoşuma gəldi. Heç kimlə məsləhətləşmədən, müəllimimə demədən mən də Mərv şəhərindəki 1 saylı orta məktəbdə, mənimlə eyni sinifdə, adı jurnalda mənimlə eyni sırada olan bir nəfərə Azərbaycan dilində məktub yazdım, özüm haqqında bilgi verdim və dostluq etmək istədiyimi bildirdim. Aradan 10-15 gün sonra mənə cavab gəldi. Sevincərək bizi bu işə həvəsləndirən Rus dili müəllimimizin yanına qaçdım. Məktubu ona göztərəndə üzü gülürdü. Zərfin içərisindək şagird dəftərinə yazılanları oxuyanda əsəbiliklə çığırdı və qulağımdan tutub məni müəllimlər otağına apardı.

Sonralar bildim ki, Rus dili müəllimimiz Türkmənistana məktub yazıb, oradan Türkmən dilində cavab aldığıma görə valideyinlərimi,

qohumlarımı millətçilikdə suçlayır və onların cəzalandırılmasını istəyirmiş.

Kəndimiz balaça olduğundan və belə şeylər o qədər də əhəmiyyət vermədiklərindən bu hadisə tez də unuduldu. Yadımda o qalıb ki, həmin günlərdə hava çox xoş idi. 1 May bayramını təntənə ilə qeyd etmişdik. Həmin ilin sentyabrında Rus dili müəllimim bizim kəndə gəlmədi. Haraya getdiyi ilə də heç zaman maraqlanmadım.

Sonralar Sumqayıtda yaşayanda da, Bakıda Uuniversitetdə oxuyanda da Türkmənistanı gedib gəzə bilərdim. Qrup oyldaşlarım, yaşıdlarım hərdən paroma minib Krasnovodskitə (indiki Türkmənbaşı şəhərinə) gedər, orada gəzər, qış aylarında mütləq Çərjov qovunu almamış geri qayıtmazdılar. Maddi imkanım və vaxtım olmadığından mən onların təbliğatına uymurdum.

Naxçıvanda işlədiyim 20 ildə Türk xalqlarının vətənlərinə-Kırıma, Quzey Qafqaza getdim nədənsə nə məzuniyyət günlərində Türkmənistana getdim, nə də bir bəhanə tapıb redaksiyadan ezamiyyət alıb getdim. Amma içimdə həmişə Türkmənlərə qarşı bir sevgi vardı, Onların yazıçı və şairlərinin kitablarını,

haqqlarında yazılanları oxuyurdum. Aşxabadda nəşr olunan "Pioner" jurnalının 1982-ci ildə çap olunmuş 3-cü və ya 4-cü sayında bir məqaləm də çap olunmuşdu. "Şərq qapısı" qəzetinin 1983-cü il 30 oktyabr sayında Bakıda nəşr edilmiş "Türkmən inciləri" (Klassik Türkmən şeir antologiyası) toplusu haqqında bir tanıtma məqaləsi yazmışdım.

Bakıya köçdükdən sonra AXC qərərgahına sığınmış Türkmən müxalifətçiləri ilə tez-tez görüşür və söhbətləşirdim.

Türkmənistana ayaq açmamın səbəbi isə orada keçirilən elmi toplantılar oldu. Türkmənistanın Azərbaycandakı səfiri Çarıyev məni kabinetinə çağırıb xeyli söhbət etdikdən sonra qarşıma bir dəvətnamə qoydu. Oradan: "Türkmenistanın Daşaru İşler Ministirligi, Türkmenistanun Ministrler Kabineti yanındakı Tarih İnstitutu, Rusiyanun Türkmenistan bilen Medeni Araqatnaşuklar Jemiyyetinin yardam etmiginadı. Aşqabatda 2000-ci il oktyabrın 10-13-də "Türkmenistanın Medeni Mirası: Gadumu çeşmeler ve hazirki zaman Mümkünçülükleri Halkara Konfransıyası"na dəvət olunduğumu öyrəndim.

Səfirə dəvətin ürəyimdən olduğunu bildirdim. Onda internet, yazışma çox zəif idi. Buna görə də bütün yazışmalarımızı səfirlik vasitəsilə aparırdıq.

Bu səfərdən sonra Türkmənistan və türkmənlərlə əlaqəm sıxlaşdı. Orada keçirilən 7-8 konfransda məruzə oxudum. Elə illər oldu iki dəfə Türkmənistana konfransa getməli oldum. Türkmənistandakı konfransa tez-tez getməkdə məqsədim oraya keçmiş SSRİ-də yaşayan Türk xalqlarından gələn araşdırıcılarla görüşüb, tanış olmaq və onları Azərbaycanda, Türkiyədə, İranda, Avropa ölkələrində keçirilən konfranslara dəvət etmək idi. Heyif ki, istədiyimə nail ola bilmirdim. Söhbət etdiyim araşdırıcıların içərisində Türkiyədə, İranda, Avropa ölkələrində keçirilən elmi toplantılara getməyə böyük həvəs vardı. Onlar heç bir xərcləri çıxmayacaqlarını, konfransı təşkil edənlərin hesabına gedib məruzə oxumaqlarını yaxşı bilirdilər. Arzulayırdılar ki, simpoziumdan sonra bir neçə gün də qalıb Antalyanı, Konyanı, İstanbulu, eləcə də Avropanın məşhur şəhərlərini gəzsinlər. Amma pantürküzmi xofu onlara arzularını reallaşdırmağa imkan vermirdi. İkinci bir tərəfdən də öz sahələrini bilsələr də keçmiş

Sovet sistemindəki qaydalardan kənar, Avropa, Türkiyə elm ocaqlarını tələblərinə uyğun məruzə də yazmağı öyrənmək istəmirdilər. Rus dilindən başqa bir dil bilmirdilər və öyrənməyi də özlərinə sığışdırmırdılar. Onlara görə Rüs dili dünyanın ən hakim və geniş yayılmış dili idi. Yüksək elmi səviyyəli elmi toplantı keçirilirdisə mütləq həmin konfransın aparıcı dillərindən əsası Rus dili olmalı idi. Dünyanın elm ocaqları isə onların arzuları ilə hesablaşmır, elmi texniki tərəqqiyə ayaq uzadırdı.

Türkmənistanda adətən oxudğumuz məruzələrin özətini-xülasəsini Türkmən, Türk, Rus, İngilis dillərində çap edirdilər. Tərcümələr də çox bərbad olurdu. Nöqsanları deyəndə də kiçik vəzifəlilər yalvarırdılar ki, nöqsanları rəhbərliyə deməyin, desəniz bizi cəzalandıracaqlar. 80-100 dollar maaş alan bir elmi işçinin işini itirməsi nə demək olduğunu yaxşı bildiyimizdən susmalı olurduq.

Məruzələrin tam mətnini çap etmək o yana qalsın heç olmasa arxivlərində saxlamırdılar. Konfranslar əsasən təbliğat xarakteri daşıyırdı. Buna görə də sonralar dəvət edilsəm də Türkmənistana getmədim. Amma oradakı araşdırıcılarla əlaqəmi heç vaxt kəsmədim.

Ramiz Əskəri də Türkmən şairlərinin əsərlərini və "Qoroqlu" dastanlarını dilimizə çevirməyə həvəsləndirdim. Onun çevirdiyi bir neçə kitabın redaktoru oldum.

Kitabı hazırlayarkən oraya Türkmənistan haqqında yazdığım məqalələrin hamısını daxil etməyi lazım bilmədim. Çünki, Türkmənisdanda keçirilən elmi konfranslara göndərdiyim məruzələrlə "Türk dünyasının məşhurları" rubrikasında gedən radio verlişlərimin mövzusu eyni idi. Bu yazıların daha oxunaqlı olduğunu düşündüm. Elmi məqalələrimdən də bəzilərini kitaba daxil etdim.

Məqalələrimin oxunmasında, redaktəsində mənə yaxından kömək edənlərə təşəkkürümü bildirirəm.

Türkmənistanda çap olunan yazılarımın siyahısını isə kitabın sonunda verməyi münasib bildim.

AŞQABADA: MƏDƏNİ İRS KONFRANSINA

Aldığım dəvətnamədə Türkmənistan Hökumətinin, Türkmənistan Xarici İşlər Nazirliyinin, Türkmənistan Nazirlər Kabineti yanında Tarix İnstitutunun, Sankt-Peterburqdakı Rusiyanın Türkmənistan ilə Mədəni Əlaqələr Cəmiyyətinin və Aşqabaddakı Türkmənistan-Rusiya Cəmiyyətinin 2000-ci il oktyabrın 10-13-də Aşqabadda "Türkmənistanın mədəni irsi: qədim keçmişi və hazırkı zamanın prespektivləri" mövzusunda uluslararası elmi konfrans keçiriləcəyi göstərilirdi.

Tanıdığım araşdırıcıların bir neçəsinə dəvətnamənin surətini verdım. Onlardan konfransa qatılmaları üçün məruzə özəti hazırlayıb təşkilat komitəsinə göndərmələrini xahiş etdim. Əksəriyyəti mətni oxuyub mövzunun onların araşdırma sahəsi ilə bağlı olmadığını dedilər. Azərbaycanda türkmən, özbək, qazax, qırğız və b. türk xalqlarının mədəniyyətini, ədəbiyyatını, tarixini öyrənənlərin sayı rus və Avropa xalqlarının tarixini, ədəbiyyatını araşdıranlardan qat-qat azdır. Uzun illər aparılmış təbliğatın təsirindən çıxmaq çətin olur. Hələ də türk

xalqlarına geridə qalmış, ədəbiyyatı, mədəniyyəti inkişaf etməmiş kimi baxırlar.

Tələbə elmi cəmiyyətindən başlanan yol

Aşqabad konfransına getmək təklifimi İsmayıl Vəliyev sevinclə qarşıladı. Gəncliyindən türkmən ədəbiyyatı ilə maraqlandığını və bu mövzuda araşdırmaları olduğunu söylədi.

İsmayıl Vəliyev məndən iki il sonra Azərbaycan (indiki Bakı) Dövlət Universitetinin Jurnalistika Fakültəsinə qəbul olunmuşdu. Tanışlığımızın ilk günündən sözümüz-söhbətimiz tutmuşdu.

Universitetin Tələbə Elmi Cəmiyyətinin nizamnaməsinə görə tələbələr birinci kursu bitirdikdən sonra təşkilata üzv yazıla bilərdi. Həmin illərdə hüquq və jurnalistika fakültələrinə qəbul olunmaq istəyənlərdən sənəd verərkən iki il iş stajı tələb olunurdu. Bəzi yaradıcı gənclər oxuduqları ali məktəblərin 2-ci və ya 3-cü kurslarından jurnalistika fakültəsinin birinci kursuna dəyişilirdilər. Hüquq fakültəsinə qəbul çətin olduğundan imtahandan və müsabiqədən keçə bilməyənlər 7-8 il qəbul imtahanlarında iştirak edirdilər.

Ali məktəbin əyani şöbəsinə yaşı 35-i keçənlərin sənədləri qəbul edilmirdi. Bizim kursda oxuyanlardan ikisinin 35 yaşı vardı. Onlar uzun müddət mətbuat sahəsində işlədikdən sonra ali məktəbə qəbul oluna bilmişdilər. Qrupumuzda 22-26 yaşlarında olanlar da oxuyurdu. Buna görə də hüquq və jurnalistika fakültələrinə qəbul olunanların orta yaşı o biri fakültələrdə oxuyanlardan yüksək olurdu.

Mən fakültə Tələbə Elmi Cəmiyyətinin sədri və universitetin Tələbə Elmi Cəmiyyətinin sədr müavini idim. Məsələni tələbə yoldaşlarımızla və müəllimlərimizlə məsələni müzakirə etdik. Sonra onu idarə heyətinin toplantısına çıxardıq. Geniş müzakirədən sonra nizamnamədə dəyişiklik etdik. Beləcə birinci kursda oxuyanların da Tələbə Elmi Cəmiyyətinə üzv yazıla bilməsinə yol açıldı.

İsmayıl Vəliyev də birinci kursda oxuyarkən Tələbə Elmi Cəmiyyətinə ilk üzv yazılanlardan oldu və qısa bir zamanda təşkilatın ən fəal üzvlərindən birinə çevrildi. Universitetdə keçirilən tələbə elmi konfranslarında məruzə etməklə kifayətlənmədi, SSRİ-nin müxtəlif şəhərlərində keçirilən elmi konfranslara da getdi.

Onun İsrafil Qurbanovla Lvov şəhərində səfəri və geri dönərkən tələbə yoldaşımız Əlipənah Bayramova zarafatyana yazdıqları şeir həmin illərin tələbələrinin yadında indi də qalır. Çünki şeirdəki incə yumor nəinki tələbələrin, hətta müəllimlərimizin də marağına səbəb olmuşdur.

Universiteti bitirdikdən sonra İsmail Vəliyev nəşriyyatda işə başladı. Sonra nəşriyyat komitəsində və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitədə işlədi. Rəhbər vəzifələrəd çalışanda da elmi axtarışlardan, bədii yaradıcılıqdan uzaqlaşmadı. Namizədlik və doktorluq dissertasiyaları, 60-a yaxın kitab, yüzlərlə məqalə yazdı, radio verilişləri hazırladı, televiziyada çıxış etdi. Əbrürrəhman Vəzirov 1988-ci ildə mərkəzi komitəyə birinci katib təyin ediləndən sonra aparatda işləyən ermənistanlıların bir qismini "köhnə katibin adamı" deyib işdən uzaqlaşdırdılar.

İsmayıl Vəliyevi də mərkəzi komitədən işdən çıxarıb Azərbaycan Milli Ensiklopediyasına göndərdilər. Direktoru işləsə də tələbəlik və gənclik illərindəki xoş münasibətlərimiz qalırdı. Bir neçə dəfə Türkiyədə keçirilən elmi simpoziumlarda iştirak etmişdik.

Məruzələrimizin özətlərini yazıb Türkmənistana göndərdik. Hər ikimizə dəvət məktubu gələndə xərcimizi İsmayıl Vəliyev çəkəcəyinə arxayın oldum. İşin tərsliyindən yola düşəcəyimiz gün İsmayıl Vəliyevə oktyabrın 12-də prezident aparatında keçiriləcək toplantıya qatılmalı olduğunu dedilər. Bu məsələ qanımı qaraltdı, mənim getməyimi də şübhə altında düşdü.

İsmayıl Vəliyev isə mənim getməyimi təkid etdi. Dedi: "İkimiz də getməsək, ayıb olar. Mütləq sən get və imkan olsa, mənim məruzəmi də oxu". O, məruzəsinin əlyazmasını hazırlasa da, bilgisayarda yazdırmamışdı. Razılaşdıq ki, gəmi yola düşənə kimi məruzəni bilgisayarda yazdırıb limandakı polis növbətçisinin yanına qoysun. Mən oradan götürüm. Gəmi də saat 18.00-da hərəkət etməliydi.

Sovetlər dağılmamış Bakı-Krasnavodski xəttində gəmi-bərələr (parom) işləyirdi. O bərələrlər müxtəlif yüklərlə yanaşı yük və sərnişin qatarları yüklənməsi üçün şərait, sərnişinlər üçün kayutlar var idi. Türkmənistana, Özbəkistana, Qazaxıstan və Qırğızıstana gedən qatarları dəniz limanında bərələrə yükləyirdilər. Sərnişinlər vaqonların kupelərində yatır,

dincəlir, hərdən də gəminin göyərtəsinə enib dənizi seyr edərdilər.

Sovetlər Birliyi dağılandan sonra sərnişin qatarlarının hərəkəti dayandırıldı. Qaz, neft və neft məhsulları daşıyan gəmi-bərələrə də təhlükəsizlik üçün sərnişin mindirilmədi. Beləcə Türkmənistana, Özbəkistana gedib-gəlmək çətinləşdi. Təhlükəsiz yüklər aparan gəmi-bərələrə sərnişin minməsinə icazə verilirdi. Həmin gəmi-bərələrin sayı az, hərəkət qrafiki də dəqiq deyildi.



“Türkmənistanın mədəni irsi: qədim keçmişi və hazırkı zamanın perspektivləri” konfransının iştirakçılarından bir qrupu

Türkmənistanın Azərbaycandakı səfiri Çarıyev İsmayıl Vəliyevlə məni görüşünə çağırtdırmış, onun kabinetində Azərbaycan-Türkmənistan əlaqələrinin yaxşılaşdırılmasından xeyli söhbət etmişdik. Sonda səfir bizim konfransa vaxtında çatmamız üçün oktyabrın 7-də saat 18.00-da Bakıdan Türkmənbaşına (keçmiş Krasnovodskiyə) üzəcək gəmi-bərə ilə getməli olduğumuzu söyləmişdi.

"Türkmənistanını qara gətirərəm"

2000-ci il oktyabrın 7-də günün ikinci yarısında işə getmədim. Səfər çantamı hazırladım, kimlərlə görüşəcəyimi planlaşdırdım.

Saat 17.00-da limana getməyə hazırlaşırdım. Telefonumuz zəng çaldı. Danışan dostum Oqtay Baxşəliyevin bacısı Rahilə idi. Onun böyük oğlu Elnurun toyu olacaqdı. Oqtay Baxşəliyev dəvətnaməni verəndə toyda iştirak edə bilməyəcəyimə görə üzrxahlıq etmişdim. Türkmənistana gedəcəyimi, toya xanımımın gələcəyini söyləmişdim.

Bəy və gəlini evdən çıxarmağa hazırlaşanda məni və xanımımı görməyən Rahilə xanım Oqtaydan səbəbini soruşur. O da Türkmənistana gedəcəyimi deyir. Bundan əsəbiləşən Rahilə xa-

nım evimizə zəng vurub “Sənin Türkmənistanını qara gətirərəm! Elnurun toyunu qoyub hara gedirsən!” deyəndə vəziyyəti yumşaltmaq üçün zarafata keçdim: “Oqtayı yeni tanıyırsan? Zarafat edir! Məni danlatmaq üçün bilmir neyləsin. Əzizə xanım geyinib hazırlaşır, mən də geyinib şadlıq evinə gələcəm” dedim. “Bəylə gəlin qapıdan çıxanda siz burada olmalı, xeyir-dua verməliydiniz” desə də, hirsinin soyuduğunu gördüm.

Çıxılmaz vəziyyətə düşmüşdüm. Bilmirdim neyləyim. Nə Rahilənin qəlbini qırmaq istəyirdim, nə də Türkmənistana getməyimi durdurmaq. Gəmilərin dəqiq qrafiklə işləmədiyini, həmişə gecikmələrlə hərəkət etdiyini bilirdim. Dəniz Liman Polis İdarəsində işləyən, Naxçıvandan tanıdığım Arif Əsədova zəng vurdum. Gəminin nə vaxt yola düşəcəyi ilə maraqlandım. O da məni telefonda gözlədib kiminləsə danışdı. Dedilər, bizim gedəcəyimiz gəmi Bakıya çatıb. Yükünü hələ boşaltmağa başlamayıblar. Onu boşaldıb yeni yük vurandan sonra dənizə çıxacaq.

Mən xeyli sakitləşdim. Əzizəni toya aparmağa gələn cəbhəçi Cəbinin maşınının yük yerinə çantamı qoyub şadlıq evinə getdik. Toy

gözəl keçirdi. Oqtay mənim gəlməyimə çaşmışdı. Gəminin yubandığından xəbərsiz idi.

Tikan üstündə oturmuş kimi olsam da, büruzə verməməyə çalışırdım. Deyib-gülür, adamları oynamağa çağırır, Rahilə xanıma necə fəallıq etdiyimi göstərməyə çalışırdım. Aradabir də limana zəng vururdum. Yükvurmanın başa çatmaqda olduğunu biləndə mikrofonu alıb sağlıq dedim. Mahnı sifariş verib tanışları oynamağa dəvət etdim. Cəbiyə də həyətə enib maşını işə salmasını pıçıldadım. Heç kimə gedəcəyimi demədən, sağollaşmadan tələsik həyətə endim. Çiskinli bir gündü. Cəbi tələsdiyimi bildiyindən sürəti artırıb məni limana gətirdi.

Arif məni görəndə gülərək dedi: "Sənə görə 15 dəqiqədir, gəmini yubadıram. Tez ol, qaç gəmiyə. Sənə "pravitelstvenni" kayutda yer ayırtdırmışam". Polis növbətçisinin yanında mənə yazı qoyub, qoymadıqlarını xəbər alanda əlindəki böyük zərfi uzadaraq. "Belə müdirdən kim razı qalmaz ki?! Yazının yanına da 200 dollar pul qoyub. Azlıq edirsə mən də verim?" dedi. Mən də zarafatla: "Vuran oğul dədəsinə baxmaz. Siz almağa öyrənibsiniz. Versəydin soruşmazdın, pulun üstünə qoymuş olardın"

dedim və əlindəki zərfi aldım. Arif bəyin tapşırığı ilə polis kapitanı mənim çantamı götürərək: "Gömrük yoxlamasından keçirmişik. Sən pasportuna möhür vurdur, arxamca gəmiyə gəl" deyib getdi.

Polis kapitanı çantamı gəmi-bərənin pilləkəni yanında durmuş bir nəfərə verib geri döndü. Mən də gəmi işçisinin ardınca dolanbac pilləkənlərlə keçib kayuta gəldim. Türkmənistana gedəcək iki araşdırıcının harada olduğu ilə maraqlandım. Məni gətirən özünü tanıtdı. Gəmi kapitanının köməkçisi olduğunu dedi və öncədən gələn araşdırıcıların biletlərinə uyğun yerləşdiklərini söylədi. Gördüyüm kayutun genişliyi və səliqə-səhmanı çox xoşuma gəldi. Buna görə də kapitan köməkçisinə: "Biz bir yerdə getməliyik, öncə gələn alimləri də buraya gətirin" dedim.

O, bir az duruxduqdan sonra "Siz gözləyin, mən xəbər gətirəcəm" deyib getdi. Aradan 15-20 dəqiqə keçməmişdi ki, "Xəzər" Universitetinin müəllimi Roza Arazova və Bakı Dövlət Universitetinin müəllimi Tarix Dostiyev səfər çantaları ilə gəldilər.

Biz oturub söhbət edərkən bufetində çalışan işçi bizə çay gətirdi və nəyə ehtiyacımız olduğu

ilə maraqlandı. Təşəkkürümüzü bildirdik. Roza xanım süfrə açdı. Mən toyda yeyib-içsəm də, onlarla süfrəyə əyləşdim. Oradan-buradan söhbət etdik. Roza Arazova gəmi-bərənin saat 22.00-da hərəkət edəcəyini onlara xəbər vermədiyimə görə yüngül gileyləndi də. Sən demə, onlar 18.00-da dəniz limanına gəlib, bilet alaraq gəminin hərəkət etməsini gözləyiblər.

Gəmi-bərənin nə vaxt hərəkət edəcəyimi dəqiq bilmədiyimi söylədim. Süfrə yığışdırılandan sonra göyərtəyə çıxdım. İstədim, Xəzər dənizinin gecələrini seyr edim. Hava çiskinli olduğundan nə göydə ulduz, nə dənizdə dalğa görə bildim. Geri dönüb yerimi rahladım. Planladım ki, səhər tezdən durub günəşin dənizdən çıxmasına baxım.

İpək yolu Türkmənistansız işləməz

Azərbaycanın qonşu dövlətlərlə sərhəddi əsasən su ilədir. Yalnız Ermənistanla sərhəddimiz dağ silsilələrindən keçir. Respublikamız doğudan Xəzər dənizi ilə Türkmənistanla, quzeydən Samur çayı ilə Rusiya Federasiyasının Dağıstan Respublikası ilə, quzey-batıdan Qanıq

(Alazan) çayı ilə Gürcüstanla, güneydən Araz çayı ilə İran İslam Respublikası ilə sərhəddir.

Rusiya sərhədləri elə cızıb ki, Azərbaycan soydaşlarımızın "mühasirəsi"ndə qalıb. İlk baxışda Türkmənlər nisbətən ayrı xalq sayılır. Bunun da səbəbi Xəzər dənizinin böyüklüyüdür. Xəzər dənizi də Araz, Samur, Qanıq (Alazan) çayı kimi kiçik olsaydı, sərhəddin o tayındakı Balkan vilayətində yaşayan türkmənlərin dənizin batı sahillərində yaşayan xalqla eyni soydan gəldiyini, eyni ləhcədə danışdığını görmək olardı.

Azərbaycanın sərhədləri soydaşlarımızla çevrələnsə də, Sovet təbliğatı nəticəsində ayrılıq, niskil şeirlərinin əksəriyyəti Araz çayına yazılıb. Adamlar elə köklәniblər ki, Araz çayının sağ sahilindəki soydaşları ilə birləşməyə can atıblar. Samur çayının sol sahilində, Qanıq (Alazan) çayının sağ sahilində, Kiçik Qafqaz dağ silsiləsinin o tayında, yəni indiki Ermənistan ərazisində yaşayan türklərə birləşmək, bir dövlətin tərkibində olmaq məsələsi sanki unudulub.

Xəzər dənizinin doğusunda yaşayan oğuz türkləri ilə, yəni bu gün türkmən adlandırılanlarla birləşmək istəyənlərin sayı çox azdır. Dənizin böyüklüyü xalqlarımız arasında

ayrılığı da böyüdüb. Bu gün çox adam bilmir ki, Abşeronda, Neftçalada, Salyanda, Cəlilabadda, Biləsuvarda və başqa sahilboyu rayonlarımızda yaşayan əhalinin böyük qismi dənizin o tayında yaşayan türkmən adlandırılan xalqla eyni soydandır. Hətta onlar 20-ci yüzilin başlarınadək eyni dialektdə danışırlarmış.

İstər çar Rusiyası, istər Sovetlər Birliyi zamanında Xəzərin iki sahilində də yaşayan xalqın eyni soylu olduğundan söz açılmırdı. Əksinə dənizin doğusunda türkmənlər, batısında azərbaycanlılar yaşadığı təbliğ edilirdi. Yüz illər boyu Azərbaycanda da, Türkmənistanda da yaşayan xalq eyni dövlətin Səlcuqların, Səfəvilərin, Əfşarların, Qacarların qurduqları dövlətin tərkibində olmuşdu.

Sovetlər Birliyi dağılanda çox az adam Azərbaycanla Türkmənistanın federasiya və ya konfederasiya şəklində birləşməsini istəyirdi. Belə bir birlik olsaydı, iqtisadiyyatımız çox dağıntıya məruz qalmazdı. Buna real zəmin də vardı. Rusiyanın Qafqazda milli zəmində yaratdığı toqquşmalar Azərbaycan, Gürcüstan və Ermənistanın federasiya yaratmasına imkan vermirdi. Azərbaycanla Türkmənistan arasında isə belə ziddiyyətlər yox idi. Lakin belə birliyə

də nə Rusiya, nə də qonşu dövlətlər razı olardılar. Hər iki respublikada yaşayan insanlar da buna hazır deyildilər.

Sovetlər Birliyində beynəlmiləlçilik, xalqlar dostluğu durmadan təbliğ edildiyi vaxtlarda Azərbaycanla Türkmənistan arasında əlaqələr əsasən pambıqçıların sosializm yarışının şərtlərinin yoxlanması, Azərbaycanda ali məktəbləri rus dilində bitirənlərin təyinatla Türkmənistana göndərilməsi, Azərbaycan neftçilərinin Türkmənistanda neft yataqları axtarması və istismara verilməsi şəklində idi. Nə Türkmənistandan Azərbaycana oxumağa tələbə göndərilirdi, nə də Azərbaycandan Türkmənistana. Sovet strateqlərinin yürütdüyü siyasət və yerli məmurların buna rəvac verməsi mədəni, ədəbi əlaqələri arxa plana atmışdı.

Buna baxmayaraq Sovetlər Birliyinin çöküşü ərəfəsindən başlayaraq Azərbaycanın millətsevərləri arasında bir fikir dolaşırdı: Respublikalarımız əsarətdən qurtaranda Azərbaycan və Türkmənistan federativ və ya konfederativ bir dövlət kimi formalaşdırılsın! Bunun reallaşdırılmasına coğrafi, iqtisadi, milli, dini zəmin vardı.

Azərbaycanla Türkmənistan arasında mübahisəli sərhəd, tarixi düşmənçilik yox idi. Əvəzində infrastrukturları bir-biri ilə sıx bağlıydı. Eyni soydan gələn xalq olduqlarına görə dil, din, mədəniyyət birliyi var. Federativ və ya konfederativ dövlət yaradılsa, Xəzər dənizindən daha səmərəli istifadə edilər, gömrük, sərhəd yoxlamaları aradan qaldırılar, İpək yolunda yüklərin daşınmasına, insanların sürətlə, əngəlsiz hərəkətinə şərait yaranardı.

Sovet strateqlərinin və dünya güclərinin bir-biri ilə didişməsi nəticəsində ortaya atılan Dağlıq Qarabağ məsələsi yeni müstəqillik əldə etmiş Azərbaycanın sürətlə inkişafına, iqtisadi yüksəlişinə əngəl oldu.

Müstəqilliyimizə əngəl olmağa çalışan Rusiya, İran və b. dövlətlərin yeritdiyi siyasət nəticəsində Azərbaycanla Türkmənistanın rəhbərləri federativ və ya konfederativ dövlət qurması o yana qalsın, Xəzərdəki neft-qaz yataqlarının istismarı məsələsində az qalmışdı düşmən olsunlar.

Sovet dövründə Azərbaycan geoloqlarının aşkarladıqları və "Kəpəz" adlandırdıqları sərhəd karbohidrat yatağını Türkmənistan prezidenti Saparmurat Niyazov Türkmənbaşının şərəfinə

“Sərdar”, “Azəri” yatağını “Osman”, “Çıraq” yatağını “Ömər” adlandırmışdı. Onlar bu yataqları Türkmənistanın quru sərhəddinə yaxın olduğunu deyərək özlərininki sayırdılar.

Türkmənistan Respublikasının prezidenti Saparmurat Türkmənbaşı “Xəzərdən qan iyi gəlir” deməyə məcbur olmuşdu. “Bəs bu qanın axıdılmasını istəyən kimlərdir” sualına aydınlıq gətirməyən dövlət başçısı: “Amma biz heç vaxt qan qardaşlarımızla vuruşmayacağıq” demişdi. Nədənsə, onun bəyanatının ikinci hissəsinə Azərbaycanda nə siyasi şərhçilər, nə də mətbuat diqqət yetirmədi. Əksinə, bütün diqqət “Xəzərdən qan iyi gəlir” ifadəsinin üzərinə yönəldildi.

Uzun illər bir dövlətin tərkibində olduğumuz, hətta meyvəmizi satmağa apardığımız, evimizə xalça-palaz aldığımız, qız verib, qız aldığımız, tərcüməçisiz, bələdçisiz rahatca gəzdiyimiz Türkmənistan haqqında bu gün xalqımızın geniş bilgisi yoxdur. Olan bilgimiz də yarımçıq, az qala şayiə şəklindədir.

Azərbaycan mətbuatında çox şey tapıb oxumaq olur. Dünyanın o başında hansı aktrisanın alt paltarının nə rəngdə olmasından tutmuş, kiminlə neçə dəfə yatağa girdiyinə

qədər. Amma yaxın qonşumuz, bizimlə eyni soydan olan Türkmənistanda iqtisadiyyat necə inkişaf etdirilir, dövlət quruculuğu necə aparılır, tarixləri necə öyrənilir, qonşu dövlətlərlə münasibətləri necə qurulur və b. suallara cavab verəcək radio-televiziya verilişinə, qəzet-jurnal məqaləsinə rast gəlmək olmur.

Türkmənistanda qeyri-rəsmi olsa da, 100 min nəfərə yaxın adamın anasının, nənəsinin azərbaycanlı olduğu söylənilir. Etnik, iqtisadi və siyasi baxımdan bağlı olduğumuz bu ölkəyə niyə belə biganəyik?! İpək yolundan çox danışırıq. Amma Türkmənistanın üzərindən sükutla keçirik. Unutmamalıyıq ki, Türkmənistansız İpək yolu mümkün deyil!

Xəzərdən doğan günəş

Kapitan köməkçisinə Xəzərdən günəşin çıxmasına baxmaq istədiyimi söylədim. O, gülərək "Rahat yatın. Sizi vaxtında oyadacaqlar" dedi. Mən arxayınlıqla yuxuya getdim. Məni yuxudan oyadıb göyərtəyə çıxaranda axşamkı çən-çiskindən əsər-əlamət qalmamışdı. Qaranlıq olsa da, göydəki ulduzlar havanın aydınlığından xəbər verirdi. 5-10 dəqiqədən sonra gəminin burun tərə-

findən dəniz qızılı rəngə boyanmağa başladı. Xəzərin suları bütövlükdə qızılı rəngə boyandı. Gəmi-bərə sanki su ilə deyil, qızıl üzərində yırğalana-yırğalana irəliləyirdi. Doğmaqda olan günəş adamın gözünü qamaşdırmırdı. Elə bil böyük, qırmızı bir siniyə baxırdım.

Günəş dənizdən çıxandan sonra ona baxmaq olmadı. Gözlərim qamaşmağa başladı. Qızılı rəng yox oldu. Xəzərin suları maviləşdi. Yenidən kayutuma qayıdıb yuxuya getdim. Tarix Dostiyev məni yuxudan oyadıb qəhvəaltıya dəvət etdi. Roza Arazova gözəl bir süfrə hazırlamışdı. Belə yol yoldaşlarım olduğuna görə sevindim. Necə deyərlər, onlarla dünyanın o başına da səfər etməyə dəyər.

Qəhvəaltıdan sonra gah dənizin sularına baxdıq, gah yaradıcılığımızdan, gah da getdiyimiz konfransdan söhbət etdik. Sahil görünəndə gəmi-bərə durdu. Sən demə, Türkmənbaşı limanının suları dayaz olduğundan böyük, ağır yüklü gəmilər oraya girə bilmir. Dənizin dibini qazaraq bir neçə dərin kanal yaradıblar. Gəmilər həmin kanallarla limana yan alır, oradan da həmin kanallarla dənizə çıxırlar. Kapitan bir az diqqətsizlik etsə, gəmidə qəza baş verər, gəmiçilər demiş, “gəmi quruya oturar”.

Ondan sonra gəl görüm gəmini dənizə neçə çıxarırsan. Limandakı gəminin kanalla hərəkət edib dənizə çıxmasını bir saatdan çox gözlədik. O gəmi yaxınlığımızdan keçib açıq dənizə çıxanda bizi aparan gəmi də həmin kanalla sahilə doğru irəlilədi.

Bakıdan hərəkət edəndən təxminən 17 saat sonra Türkmənbaşı limanına çatdıq. Yüz illər boyu Qızılsu adlandırılan liman Rusiya işğalından sonra Krasnovodski adlandırılmışdı. Görünür, ruslar əziyyət çəkib yeni ad qoymaq da istəməmiş, tərcümə etməklə kifayətlənmişlər. Türkmənistan müstəqilliyini elan etdikdən sonra şəhərə və limana Türkmənbaşı adı verilmişdi.

Bizi qarşılamaq üçün gəmiyə gələn Türkmənistan Xarici İşlər Nazirliyinin əməkdaşı Kamil təyyarəyə gecikə biləcəyimizi söyləyərək sərhədçiləri və gömrük işçilərini tələsdirdi. Onun sayəsində tez sahilə çıxıb təyyarə meydanına doğru yol aldıq. Kamil maşını sürətlə sürürdü. Dəniz limanı ilə təyyarə meydanının arası xeyli yoldu. Yaşıllığı olmayan, boz dağların arasından keçib hava limanına çatdıq. Deyəsən, təyyarəyə sonuncu minən biz olduq.

Gəmidən enib sahilə çıxanda gömrük keçid məntəqəsində Türkmənbaşının büstünü və bir

neçə yerdə böyük portretini gördüm. Oradan hava limanına gedərkən də yol boyu və hava limanında yenə də Türkmənbaşının heykəli və büstləri ilə qarşılaşdıq. Sovet dövründə Leninin heykəlləri bu qədər deyildi. Təxminən bir saat sonra təyyarə Aşqabada çatdı. Burada da ilk diqqəti çəkən, gözə girən Türkmənbaşının heykəl və büstləri idi.

Bizi yenə Kamil adlı başqa bir gənc qarşıladı. Söhbətcil, mehriban bir insan olan Kamil hökumətin onu Sarbon Universitetində oxumağa göndərdiyini, geri döndükdə Xarici İşlər Nazirliyində işlə təmin etdiyini söylədi. Parisdə 5-6 il yaşamasına görə ayıq, demokratik görüşlü olduğu qənaətinə gəldim.

Hava limanından Aşqabad şəhərinin mərkəzinə doğru irəlilədikcə bir neçə dəfə Türkmənbaşının heykəlini gördüm. Kamil maşını yolun kənarına çəkib saxladı və bizdən enməyimizi xahiş etdi. Bura Türkmənbaşının heykəli olan böyük meydanmış. Rəngarəng işıqların üzərində bərq vurduğu heykəl çox əzəmətli görünürdü. Maşınlar heykəli saxlayan sacayaq formalı üç sütunun altından keçirdi. Yuxarıda isə fırlanan restoran vardı.

Kamil bəy qızıl suyuna çəkilmiş heykəlin 67 metrlik altlıq üzərində qurulduğunu, səhər yönünün gündoğana olduğunu, sonra günəbaxan kimi günəş hərəkət etdikcə onun da yönünü dəyişdiyini söylədi. Açıq hiss edilirdi ki, şəhərində belə nəhəng heykəlin qoyulması ilə fəxr edir. Görünür, şəhərə gələn qonaqların əksəriyyətini buraya gətirirlər. Hava limanından şəhər mərkəzinə gedən yol buradan olduğundan hamı istəsə də, istəməsə də, bu heykəlin altından keçir.

Aşqabada xarici ölkələrdən gələn prezidentlərin, baş nazirlərin hamısı, hətta Rusiya prezidenti Putin də, demokratiya və insan haqları institutlarının rəhbərləri də bu heykəlin altından keçiblər.

Heykəlin altındakı fırlanan şüşə restoranda əyləşənlər şəhərin mənzərəsini seyr edirlər. Kamil vaxt az olduğuna görə bizi restorana dəvət edə bilməyəcəyini, Aşqabad gecələrini göstərməyə zamanı olmadığını dedi və üzrxahlıq etdi.

Türkmənbaşı və Aşqabad şəhərindəki rəhbərin portretlərinin, büstlərinin, heykəllərin çoxluğu məni yaman qıcıqlandırırdı. Odur ki, Türkmənbaşının növbəti heykəlini görəndə

zarafata salıb Kamilə dedim: “Şəhərdə Leninin nə yaman çox heykəli var?”

Heç 5-6 dəqiqə çəkmədi ki, Kamil maşını bir də saxlatdı. Aşqabadın keçmiş mərkəzi parkının ortasındakı heykəli göstərərək “Hocam, Türkmənistanda Leninin heykəlləri götürülüb. Bir bu gördüyünüz qalıb!” dedi.

Gülməkdən özümü saxlaya bilmədim. Kamil gülüşümdən söhbətin hansı heykəllərdən getdiyini başa düşdü və hotelədək bir daha bizə bilgi vermədi.

İtalyanlara tikdirilən “Ak altun” hotelinin qarşısında maşından endik. Kamil bizi qeydiyyatdan keçirib işinin ardınca getdi.

Şahların həsəd aparacağı taxt

Hoteldə yaşından, vəzifəsindən asılı olmayaraq hərəyə bir otaq ayırmışdılar. Səhər yeməyində Bakı Dövlət Universitetinin kafedra müdiri, professor Qüdrət İsmayılovla və professor Kamil Vəli Nərimanoğlu ilə görüşdük. Onlar gecə təyyarə ilə gəliblər.

Konfrans iştirakçılarını xaricdən alınmış yeni, rahat avtobusla “Ruhaniyyət köşkü”nə gətirdilər. Aşqabad şəhərinin yenidən qurul-

duğunu, abadlaşdırıldığını gündüz daha aydın gördüm. Binaların əksəriyyəti ağ mərmərdən və bir-birindən aralı tikilib. Deyirlər, bir binanın kölgəsi ona yaxın tikilmiş başqa binanın pəncərələrinə düşdüyünə görə Türkmənbaşı tikintisi başa çatmış binanın sökülməsinə əmr verib. Sonra da tapşırıb ki, binaları bir-birinə yaxın tikməsinlər.

Şəhərin mərkəzində saraylar, inzibati idarə binaları, ticarət mərkəzləri ucaldılıb, yollar və yol kənarları abadlaşdırılıb. Fəvvarələr, heykəllər şəhərə gözəllik verir.

Müstəqilliklərini elan etdikləri 7 ildə qazandıqları uğurlara heyran qaldım. Türkmənlər sanki Sovetlər Birliyindəki 70 illik sıxıntının acığını çıxırlar.

"Ruhaniyyət köşkü" adlandırılan bina şərq üslubunda tikilmiş nəhəng bir saraydır. Onun içərisi də çölü qədər gözəldir. "Ruhaniyyət köşkü" haqqında bilgi verəndə onu da dedilər ki, dünyanın ən böyük xalısı "Ruhaniyyət köşkü"nü bəzəyir. Burada qeydiyyatdan keçdik və konfrans iştirakçıları üçün hazırlanmış çantaları verdilər.

Hoteldə olarkən pasportlarımızı özümüzlə götürməyi bərk-bərk tapşırmışdılar. Bunun nə

anlam daşıdığını başa düşməmişdim. Salona girəndə təyyarəyə minənləri necə yoxlayırlarsa, eləcə yoxlandıq. Onda pasportumuzu götürmək tapşırığının səbəbini anladım. "Ruhaniyyət köşkü"nün içərisi toplantı salonundan çox müzeyi xatırladır. Lakin "müzeyi" gəzə bilmədim. Bizi öndəki 5 sırada – dəvət-naməmizdə göstərilən yerlərdə oturtdular. Arxamızda bir boşluq vardı. Buraya 3-4 cərgə oturacaqlar yerləşdirmək olardı. Lakin onlar ortada bircə taxt-kreslo qoymuşdular.

İstanbuldakı Topqapı sarayında Nadir şahın, səhv etmirəmsə, Osmanlı sultanı Birinci Mahmuda bağışladığı taxtı görmüşdüm. Sənədli filmlərdə Avropa ölkələrinin bir neçəsinin kral taxtına, muzeylərdə sultanların, şahların, çarların taxtlarına baxmışdım. Amma heç biri zəriflikdə və gözəllikdə bu saraydakına çata bilməzdi. Görünür, elmi-texniki tərəqqi taxtın hazırlanmasına da öz təsirini göstərib.

İçəri girəndə taxtdan arxadakı 20-25 sıranın və amfiteatrdakı 8-10 sıranın dolu olduğunu gördüm. Milli geyimli alimlər, ziyalılar, gənclər sakit oturub toplantının başlamasını gözləyirdilər. Görünür, ali məktəblərdə dərsləri dayandırıb tələbələri buraya gətirmişdilər.

Qonaqlar yerlərini tutandan təxminən yarım saat sonra salondakıların hamısı ayağa qalxıb alqışlamağa başladılar. Nə baş verdiyini bilmək üçün ayağa durub sağa, sola boylandım. Kimi və nə üçün alqışladıqlarını bilmədiyimdən çaşqın bir vəziyyətdə səhnəyə baxırdım. Orada isə bir tərpəniş yox idi.



Şəkildə: Əli Şamil konfrans salonunda

Ön sıradakılar dönüb arxaya baxanda mən də döndüm. Bizim girdiyimiz qapıdan gələn,

idmançı görkəmli 7-8 gənc salonu diqqətlə gözdən keçirərək ortadakı taxtın yanından keçib o biri qapının ağzında sıralandılar. Onlar sanki dörd gözlə çox təhlükəli bir terrorçunu axtarırdılar. 5-10 dəqiqə sonra orta boylu bir adam ağayana addımlarla taxta doğru irəlilədi. Bu, televiziyalarda gördüyüm, Türkmənistana gələndən azı 10-15 heykəli, büstü, saysız portretləri ilə rastlaşdığım Saparmurat Niyazov – Türkmənbaşı idi. Onun arxasından da 5-6 qorumaçı gəlib giriş qapısı ağzında sırayla durdu. Alqış daha da gurlaşdı.

Biz salona saat 9.00-da girməyə başlamışdıq. Toplantının açılışı isə saat 10.00 oldu. Belə anladım ki, türkmən ziyalıları, alimləri, tələbələri saat 8.00-dən "Ruhaniyyət köşkü"ndə olublar.

Xor oxuyan nazirlər

Səhnənin pərdəsi aralandı. Orada 20-yə yaxın adam sıra ilə durmuşdu. Əksəriyyəti kişi idi. Aralarında bir neçə qadın vardı. Onların boy-buxunu, geyimləri peşəkar musiqiçi olmadıqlarından xəbər verirdi. Sonra onların nazirlər və nazir müavinləri olduğunu öyrəndim.

Türkmənistanın himni oxunmağa başlayanda salondakılar da səhnədəkilərin səsinə səs verməyə başladılar:

Allah birdir, Vatan birdir,

Xalqımızın Sərdarı bir.

Qonaqlardan başqa hamı himn oxuyur. Salonda himnin oxunmasına nəzarət edənlər də varmış. Himn oxumayanlar, toplantıya gəlməyənlər cəzalandırılır.

Türkmənistanda yalnız toplantılara gəlməyənlər, himn oxumayanlar cəzalandırılmır. Təqaüdçülərin mənzillərinin qızdırılmadığı haqqında yazdıqları ərizəsinə vaxtında baxmadığına görə Kommunal Təsərrüfat Nazirinin Şəhər İstilik İdarəsinə çilingər, işdə yol verdiyi nöqsanlara görə Mədəniyyət Nazirinin kənd mədəniyyət evinə müdir göndərildiyini və işdən yayınmasınlar deyə üzərlərinə bir neçə mərtəbəli nəzarətçi qoyulduğunu da eşitdim.

Sovetlər Birliyində qəzetlər "Bütün ölkələrin proletarları birləşin!" şüarı ilə nəşr edilirdi. Türkmənistanda da Saparmurat Türkmənbaşının sözləri onu əvəz edib. Necə deyərlər, ölkədə dövlətlə şəxsiyyət eyniləşdirilib. Əlimə aldığın hər qəzetin adının üstündə bu misraları oxuyurdum:

“Əgər də mən Türkmənistan Vətənimə, Saparmurat Türkmənbaşıya dönüklük etsəm, Qoy mənim ömrüm kül bolsun!”

Toplantıda konfransın kordinatoru, akademik Vadim Masson rus və türkmən dillərində giriş sözü söylədi. Uzun illər Nissan-Parfiyada arxeoloji qazıntılar aparmış Vadim Masson yalnız keçmiş SSRİ-də deyil, Avropada qədim Şərq tarixini öyrənən arxeoloqlardandır. O, sözü Türkmənistan Prezidenti Saparmurat Niyazov-Türkmənbaşına verdi.

Türkmənistanın tarixindən və gələcəyindən bir saatdan çox danışan Türkmənbaşının məruzəsi qədər də alqışlar vaxt aldı. Məruzəsindən sonra prezident türkiyəli, Atatürk Tarix Kurumu başkanı Yusif Halacoğluna və yunanıstanlı Sarianadiyə Türkmənistan Respublikasının fəxri vətəndaşlığı haqqında pasport verdi.

Geyimindən sadə bir əfqan olduğu bilinən Hacı Feyzulla Rəhmədişan oğlunu səhnəyə çağırdılar. Milliyyətcə türkmən olan bu adam çıxışına Türkmənistanın prezidentinə və Pakistandakı səfirliyinin əməkdaşlarına minnətdarlıqla başladı. Sonra türkmən sərkərdələrinin qələbə yürüşlərində başları üzərində dalğalanan

tuğ-bayrağı səhnədə dalğalandırdı. 1214-cü ildə hazırlanmış tuğ-bayrağı Türkmənbaşıya verərkən dedi ki, bolşeviklər Türkmənistanı 1918-ci ildə işğal edəndə babası Rodişan tuğ-bayraq düşmən əlinə keçməsin deyə Əfqanıstana qaçıb. Rusiyanın Əfqanıstana təzyiqinin artdığını görən Rodişan o dövrdə ingilis müstəmləkəsi altında olan Hindistana keçib. Hindistan, Pakistan, Banqladeş ingilislərin müstəmləkəsindən azad olandan sonra Pakistanda yaşayıb. Rodişan öləndə övladlarına Türkmənistan Rusiya işğalından azad olandan sonra tuğu vətənə qaytarmalarını vəsiyyət edib.

Türkmənbaşı tuğ-bayrağın tarixindən xəbərdar olduğuna görə Pakistandakı səfirliyə Rodişanın nəslindən olanları tapmaq haqqında göstəriş verib. Səfirliyin əməkdaşları prezidentin əmrini yerinə yetirmək üçün 5 il vaxt sərf etməli olublar.

Babaları Türkmənistanın Astana vilayətinin Kərki qəsəbəsindən olan Hacı Feyzulla Rəhmədişan oğlu valideynlərinin arzusunun reallaşmasından qürur duyduğunu bildirdi və göz yaşını saxlaya bilmədi.

Türkmənistanda olduğumuz günlərdə öyrəndim ki, yalnız bayraq-tuğ məsələsində

deyil, milli dəyərlərə qiymət verilməsinə də Saparmurat Türkmənbaşı böyük önəm verir.

Aşqabad arxiyepiskopu da Saparmurat Niyazovun yaxasına bir orden taxdı.

Plenar iclasın ikinci hissəsi

Nahardan sonra plenar iclas öz işini davam etdirdi. Akademik Vadim Massonun "Dünya sivilizasiyası tarixində Türkmənistanın mədəni irsi", professorlardan Svetlana İkonnikovanın "Mədəniyyət aləmi xalqları inteqrasiyasının əsasıdır", Vasiliy Kuzişşin "Qədim dünyanın mədəni irsi və hazırkı zaman sivilizasiyası", Aydoğdıyev "Mədəni irs və Türkmənistanın müasir mədəni quruculuq təcrübəsi" mövzusunda məruzələri dinlənildi.

Saat 15.45-də başlayan toplantıda Böyük Britaniyadan J.Herrmann, Fransadan Z.Fussman, Ukraynadan İ.Movçan, Y.Şvek, saat 17.30-da isə Azərbaycandan Qüdrət İsmayılzadə, Pakistandan A.Han, Türkiyədən Yusif Halacoğlu məruzə etdilər.

Konfrans Türkmənistanda keçirilsə də, Rusiyadan gəlmiş alimlərin çoxluğu və onların önə çəkilməsi hər addımda görünürdü. Belə ki,

proqrama 132 məruzə daxil edilmişdir. Ondan 35-i türkmənistanlıların, 22-si rusiyalıların, 10-u türkiyəlilərin, 5-i azərbaycanlıların idi. Pakistan, İran İslam Respublikası, Gürcüstan, Ermənistan, Böyük Britaniya, İspaniya, Fransa, Çin və b. ölkələrin hərəsindən 2-3 məruzəçi gəlmişdi.

Konfransda Rusiyanın ağırlığı

Sovet respublikaları kimi Türkmənistan da SSRİ-nin tərkibindən 1991-ci ildə çıxıb. Dövlətin rəsmi dilinin türkmən dili olduğu elan edilib. Türkmənbaşının ölkədə həyata keçirdiyi islahatlar V.İ.Leninin "Pyotr vəhşi Rusiyaya mədəniyyəti vəhşicəsinə gətirdi" sözlərini yada salır. Türkmənistanda latın qrafikalı əlifbaya keçməyə Azərbaycandan sonra başlasalar da, bizdən öncə bu işi həyata keçirdilər. Dövlət dilinə, milli mirasa sahib çıxmaq məsələsində də Türkmən prezidentinə həsəd aparmağa dəyər. Türkməncə danışa bilməyən naziri elə həmin gün işdən azad edir və bunu televiziyada göstərir. O, sözdə yox, əməldə milli dəyərlərə sahib çıxır və dili sevir, qoruyur.

Türkmənbaşı orta məktəbdə olarkən rus düşüncəli pedaqoqlar tərəfindən yazılmış tarix

kitabını alıb oxuyaraq şagirdləri sorğu-suala tutub. Onların kitabda yazılanları yaxşı başa düşmədiklərini, terminlərin türkmən dilində olduğu kimi deyil, rus dilinin deyiliş və yazılış qaydasında verildiyini görərək hirslənib. 40 min dərs kitabının ləğv edilməsinə, yenidən milli yönlü dərslik yazılmasına göstəriş verib. Bütün bunlar da televiziya ilə göstərilib.

1996-cı il martın 18-19-da Türkmənistan prezidenti Saparmurat Niyazov-Türkmənbaşının Azərbaycana rəsmi səfəri, Heydər Əliyevlə aralarında olan söhbət televiziya ilə verildi. Saparmurat Niyazov-Türkmənbaşı təxminən belə dedi: "Dillərimiz yaxındır. Bir-birimizi başa düşə bilərik, rusca danışmağa ehtiyac qalmaz". Qarşılığında isə Heydər Əliyev onu başa düşmədiyini deyərək rus dilində danışmağa başladı. Əslində Heydər Əliyev başa düşürdü, bilərəkdən Türkmənbaşını aşağılamaq üçün deyirdi. Bunu Türkmənbaşı da yaxşı bilirdi.

Toplantıda ölkəsinin xarici siyasətindən danışarkən dənizdəki neft yataqlarının istismarı ilə bağlı yaranmış qarşıdurmaya işarə edərək Türkmənbaşı dedi ki, Xəzərdən qan iyi gəlir, amma biz qan axıdılmasına yol verməyəcəyik. Türkmənlərlə Azərbaycanlılar eyni soydan gələn

qardaş xalqdırlar. Onlar arasında heç bir düşmənçilik, qarşıdurma yoxdur. Qarşıdurma Heydər Əliyevlə Türkmənbaşı arasındadır. Heydər Əliyev hələ də elə bilir, Sov. İKP MK-nın Siyasi Bürosunun üzvüdür, biz də üzvlüyə namizəd seçilmək üçün ona baş əyməliyik.

Biz Rusiyaya qazı 38 dollara satırıq. Azərbaycan da Rusiyadan 48 dollara qaz alır. Azərbaycan hökumətinə qazı 36 dollara, hətta 34, 32 dollara satmağa hazırıq. Deyirik, pulunuz yoxdur, borc veririk, gələcəkdə də pulunuz olmasa, çətin vəziyyətdən çıxa bilməsəniz, qaz pulunu güzəştə gedərik. Qardaşlar arasında bunlar normal haldır. Amma Heydər Əliyev qazı Rusiyadan almaqla Azərbaycanı da, Türkmənistanı da Rusiyadan asılı vəziyyətə salır.

Türkmənbaşının verdiyi fərmanda məktəblərə, ictimai yerlərə Türkmən milli geyimində gəlməyin vacib olduğu göstərilir. Bu da Türkmən milli geyimləri əsasında yeni paltarlar hazırlanmasına səbəb olub.

Türkmənistanın iqtisadi durumu Azərbaycanınkı kimi ağır olmasına baxmayaraq, harada türkmən adı çəkilirsə, harada türkmən adlı toplum varsa, Türkmənbaşı oraya elmi ekspedisiya göndərir, etnoqrafik materiallar,

folklor nümunələri toplanılır, tarixə, ədəbiyyata dair əsərlərin fotosurəti, mikrofilm əldə edilib Aşqabada gətirilir.

Bütün bunlara baxmayaraq kadrların çoxu hələ də Sovet düşüncəsindən sıyrılıb çıxa bilməyiblər. Bunu istər Türkmənistanda, istər Türkmənistandan kənarda rus dilində təhsil alanların timsalında aydın görmək olar. Onlar açıq şəkildə milli dəyərlərə, türkmən dilinin aparıcı mövqeyə çıxarılmasına etirazlarını bildirməsələr də, gizlində, xüsusən də, xaricdən gələnlərin yanında fikirlərini bildirirlər.

Bunu konfrans boyu da hiss edirdik.

Konservatoriyanın prorektorunun evində qonaqlıq

Türkiyədən Ahmed Bican Ercilasunu, Kazım Yaşar Kopramanı, Erdoğan Merçili, Azərbaycandan Kamil Vəli Nərimanoğlunu və məni qonaq apardılar. Türkmənistandan da Dil və Ədəbiyyat İnstitutunun direktoru Kasım Nurbatov və b. bir neçə nəfər vardı.

Türkmənistan Milli Konservatoriyası 1992-ci il martın 4-də yaradılıb. Ona kimi Dövlət Pedaqoji İnstitutunun nəzdindəki incəsənət

fakültəsində musiqi təhsili verilib. Konservatoriyanın 4 fakültəsi var: 1.Xalq musiqisi, 2.Vokal, xor və musiqi pedaqogikası, 3.Orkestr musiqi alətləri, 4.Kompozisiya, musiqişünaslıq və fortepiano.

Konservatoriyanın prorektoru Yaylım Orazov Sovet dövründə xruşşovka adlandırılan alçaq tavanlı, üç otaqlı mənzilində məclis qurmuşdu. Yerdən salınmış süfrənin arxasında oturub türkmən xörəklərinin dadına baxırdıq.

Evin quruluşundan, içərisindəki avadanlıqlardan kasıb bir ziyalı evi olduğu aydın görünürdü. Buna baxmayaraq, imkanı daxilində zəngin bir süfrə açmışdı. Ət xörəkləri bizim ağız dadımıza uyğun idi. Uyğun olmasa belə, ev sahibinin, xörəyi bişirən xanımın xatiri xoş olsun deyə tərifləyirdik. Ev sahibinin könlünü xoş etməkdə Kamil Vəli Nərimanoğlu fəallıq göstərirdi.

Yaylım Orazovun evində

Yeməkdən sonra süfrəyə meyvə, musiqi alətlərini gətirdilər. Bizimlə birlikdə süfrə başında oturan gənclər və Yaylım bəy musiqi alətlərini "dindirməyə" başladılar. Üçlük

türkmən xalq musiqilərindən parçalar çalırdı. Onlar qonaqların könlünü xoş etmək istəyirdilər. Hərdən qısa fasilələr olur, musiqi haqqında fikir mübadiləsi edirdik. Türkiyəli qonaqlar Türkmən musiqisinin ibtidailiyindən söz açanda gördüm ki, Ahmet Bican Ercilasun portsə, alınsa da, bir söz demədi.



Şəkildə: Türkmənistan MİIli Konservatoriyasınn prorektoru Yaylım Orazovun evində ev sahibi və iş yoldaşları bizi milli musiqilərilə tanış edərkən

Kamil Vəli Nərimanoğlu isə ifaçıları öyməyə başladı və son musiqi parçası haqqında təxminən belə dedi: “Bu musiqini dinləyəndə xəyalıma geniş bir çöl, o çöldə otlayıb dinlənən

qoyun sürüsü gəldi. Çoban çomağına söykənib, köpəyi də onun yanında başını əlləri üzərinə qoyub dincəlir. Hərdən başını qaldırıb havanı qoxlayaraq aramla hürür. Sanki qurda "mən buradayam və sayığam" dəyə xəbərdarlıq edir. Həzin yel isə onun səsini ətrafa yayır. Musiqidə mən sanki mehi də hiss edirdim."

Yaylım Orazov gülümsəyərək Kamil müəllimdən musiqi təhsilini harada aldığı ilə maraqlandı. Kamil müəllim də gülərək: "Mən qarabağlıyam. Qarabağlıların əksəriyyətinin anadangəlmə musiqi duyumlu olur. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirsəm də, radio və televiziyada hazırladığım verilişlərdə musiqiyə geniş yer verirdim" dedi.

Musiqiçilər yenə öz işlərinə başladılar. Meyvə yemək, çay içmək üçün fasilədə türk xalqlarının ortaq əlifbasından söz düşdü. Söhbətin mövzusu şaxələndi. Mənim 1926-cı il Türkoloji Qurultaydakı aydınlarımızın bilmədən Rusiya strateqlərinin təsiri altına düşmələri, əlifbanın dəyişilməsinin böyük yanlışlıq olduğunu söyləməyim kəskin təpki gördü.

Mən fikrimi söyləmişdim deyə mübahisəyə girişmədim. Kazım Yaşar Kopramanla Erdoğan Merçili isə çox çılğınlaşmışdılar. Yaylım

Orazovu, Kasım Nurbatovu sərt ittiham edirdilər ki, niyə Atatürkün qəbul etmiş olduğu əlifbanı olduğu kimi qəbul etmədilər.

Türkmənlər ev sahibi kimi qonaqların xatirinə dəyə biləcək bir söz demirdilər. Kazım Yaşar Kopraman isə ittihamlar yağdırırdı. Birdən Ahmet Bican Ercilasun açıldı, nə açıldı: "Bunlar bizə görə 32 hərflərini dəyişdilər. Biz 1928-ci ildə qəbul edilmiş əlifbaya 2-3 hərf əlavə edə bilmirik. Yeni müstəqilliyə qovuşmuş xalqlara da dərs verməyə çalışırıq. Dil, əlifba uzmanları yaxşı bilirlər ki, Türkiyədə qəbul edilmiş əlifbada nöqsanlar var. Amma hamımız susuruq. Azərbaycana, Türkmənistana, Özbəkistana gedəndə isə dil açırıq!" dedi.

Ahmet Bican Ercilasunun sərt tonu Kazım Yaşar Kopramanın xoşuna gəlmədi. Ona "O, əlifbanı Atatürk qəbul edib, ona toxunmaq olmaz!" deyə əsəbiliklə cavab verdi. Ahmet Bican Ercilasun daha da hirsləndi: "Hər şeyi siyasiləşdirirsiniz. Atatürk dövlət qurucusu idi, komutandı. O, əlifba, dil uzmanı deyildi. Hətta həmin sahələrin uzmanı olsa belə, zamanı nəzərə almaq lazımdır. Türkiyədə əlifba qəbulundan 70 il keçir. Bilgisayar qarşımıza yeni tələblər qoyur. Ortaq türk mədəniyyətindən, türk birliyindən söz

açırıqsa, yalnız Türkiyədə yaşayan bir qrupun fikri aparıcı ola bilməz. Türk xalqlarının bu sahədəki uzmanlarının fikrinə də sayğı ilə yanaşmalıyıq. Ortaqlığa gedən yolu tapmalıyıq" dedi.

Mübahisə xeyli uzandı. Kamil Vəli Nərimanoğlu birtəhər sakitlik yaratdı. Kazım Yaşar Kopraman sakitləşsə də, Ahmet Bican Ercilasun narazı qaldığını açıq-aşkar büruzə verirdi. Bunu konfransın sonrakı günlərində də gördüm.

Bir-iki musiqi ifasından sonra bizi qaldığımız hotelə gətirdilər.

İşsizliyin aradan qaldırılmasının Türkmən variantı

Səhər yeməyindən sonra bölmə iclaslarına getməliydik. Məruzəmi 6-cı bölməyə: "Mədəni irsin çoxsahəliliyi: ədəbiyyat və sənət" bölməsinə salmışdılar. Buna görə də şəhər kənarında yeni tikilmiş Türkmənbaşı adına Milli Muzeyinə getməliydik. Toplantılar bir-birindən xeyli aralıdakı binalarda keçirilirdi. Bu da bir bölmədə iştirak edənin başqa bölmədəki hansısa

məruzəni dinləyib geri dönməsini imkansız edirdi.

"Ak altun" hotelindən bölmə iclasları keçiriləcək salonlara xeyli yol vardı. Ona görə də bizi avtobusla oraya aparır, avtobusla da geri qaytarırdılar.

Türkmənbaşı adına Milli Muzeyə gedərkən şəhər mərkəzində yeni salınmış yolun ortasında 30-a yaxın fəvvarə saydım. Ağ mərmərdən olan fəvvarələrin yanında dar yaşıllıq zolağı vardı. Oraya piyada keçidi qoymadıqları kimi, gəzinti zolağı da yox idi. Fəvvarələr sanki yoldan keçən maşınlar üçün idi. Maşınlara da xeyiri deyil, zərəri dəyirdi. Yel vurduqca fəvvarələrin suyu yola axırdı. Asfalt üzərinə axan su həm yolu korlayır, həm də sürüşgənlik yaradıb qəza törədirdi.

Dil-Ədəbiyyat İnstitutunun direktoru Kasım Nurbatov yolun sağ və solunu göstərərək: "1980-ci illərdə bu yerləri şəhərdə yaşayan aydınlara, sənət adamlarına, müəllimlərə bağçılıq-bostançılıq təsərrüfatı yaratmaq üçün payladılar. Hamı həvəsə gəldi. Borc-xərc torpağı əkinə yararlı hala saldıq. Su çəkdirdik, ting əkdik, yüngül evlər tikdik, evlərə yaşayış üçün lazımi əşyalar yerləşdirdik. Çox sevinirdik.



Şəkildə: Konfrans salonunda. Öndə Atatürk Tarix Kurumunun başqanı Yusuf Halacoğlu, Bakı Dövlət Universitetinin professoru Qüdrət İsmayılzadə, arxada Moskvada yaşayan türkmənistanlı, fəlsəfə elmlər namizədi Maya Kılıceva və Əli Şamil

Şənbə, bazar, bayram günləri burada olur, həm əkdiklərimizi becərir, həm də görüşüb dərdləşirdik. Lakin sevincimiz uzun sürmədi. Suriyaya elmi ezamiyyətə göndərilmişdim. 10-15 gün sonra gələndə gördüm, buldozerlə bütün evləri, ağacları yerlə bir ediblər. Bir ay öncə xəbər etsəydilər, evdəki əşyalarımı götürərdim. Yarımçıq əsərlərimi, kitablarımı məhv etdilər. Bizə dəyən zərərin ödənilməsindən söhbət belə

getmədi. Kimə, hansı təşkilata müraciət etdiksə, bir cavab aldıq: "Türkmənbaşının tapşırığı vaxtında yerinə yetirilməli idi. Yubada bilməzdik". Bu sözdən sonra etiraz etmək bilirsiniz nə ilə nəticələnər?!" dedi.

Aşqabadın güneyində, şəhərdən təxminən 10-15 kilometr aralıda geniş bir çevrə yolu salınıb. Sonra ətrafında da yeni binalar tikilməyə başlanılıb. Tikinti işləri sürətlə gedir. Bizim məruzə oxuyacağımız muzey də oradadır. Yol boyunda, şərq üslubunda, görünüşcə bir-birinə bənzəməyən binaların hotel olduğunu bildikdə maraq məni bürüdü. 27-sini saya bildim. Bir-birinin yaxınlığında bu qədər hotelin tikintisi hamımızın təəccübünə səbəb oldu. Türkmənistan qapalı ölkədir. Buraya qohumlarını görməyə, iş üçün gələnlərin viza alması çox çətin olur.

Ölkədə turizmin inkişafı üçün elə bir baza da yoxdur. Türkmən tanışların bir neçəsindən hotellərə gündə nə qədər qonaq gəldiyi ilə maraqlandım. Cavablar hamısı bir-birinə oxşardı: "Gündə 3-5 qonaq gəlir". Hotellərdə işləyənlərin sayı ilə maraqlandıqda gözüm kəlləmə çıxdı. Dedilər ki, təxminən hər hoteldə 30-40 nəfər işləyir. "Turist yoxdursa, bu qədər hotel tikməyin, hərəsinə də 30-40 işçi

saxlamağın nə mənası var?" sualına isə "Türkmənistanda işsizlər çoxdur. İşsizliyi aradan qaldırmaq üçün iş yerləri açıblar" cavabını aldım. İşsizliyi aradan qaldırmanın Türkmən variantına bilmədim nə deyim.

Ölkədə qaz satışından əldə edilən pullar yeni istehsal sahələrinin yaradılmasına, adamların güzəranının yaxşılaşdırılmasına xərcləməkdənsə, bər-bəzəyə, heykəllərə, fəvvarələrə və əzəmətli binaların tikintisinə xərclənir.

Bölmə iclasımız keçirilən binanın arxasından keçən Kopetdağ silsiləsinin üzərində piyadaların gəzməsi üçün 30 kilometrlik bir yol salınıb. İdman etmək və sağlamlıq üçün bu yolda yerimək istəyənlər şəhərdən 15-20 kilometr aralıdakı bu yerə şəxsi maşın və ya taksi ilə gəlməlidir (Buraya marşrut avtobuslar işləmir). Maşınını dağın ətəyində qoyduqdan sonra pilləkənlərlə yüksəkliyə qalxmalı, orada dağların başındakı asfalt cığırlar və pilləkənlərlə gəzməyə başlamalıdırlar.

"Sağlamlıq yolu"nun kənarındakı elektrik dirəklərində gecələr rəngarəng lampalar yanır. Aşqabada gecə təyyarə ilə gələnlərin havadan diqqətini ilk cəlb edən bu yol olur. Amma bu yolda nəinki gecələr, heç gündüzlər də insan


gözə dəymir. Çünki heç bir kommunal və səhiyyə xidməti yoxdur. Aşqabadın sakinləri isə deyirlər ki, Türkmənbaşının ürəyi xəstə olduğuna görə bu piyada yolunu tikdirdi. Ürəyi xəstə olanlar, idmanla məşğul olmaq istəyənlər, məşq edənlər buraya gəlsinlər.

Aşqabadda işsizliyin aradan qaldırılması üçün açılan iş yerlərinin biri də yaşıllaşdırma trestləridir. Bu təşkilatlar min hektarlarla meşə zolağı salıblar. Aşqabad kimi suyu qıt olan bir yerdə bu qədər meşə zolağının su ilə təmin edilməsinin özü böyük bir problemdir.

Mənim türkmən qardaşım

Kamil Vəli Nərimanoğlu ilə mənim iştirak edəcəyim bölmədə 17 məruzə dinlənilməkdi. Rusiyalı professor Sergey Klyaştornun, Türkmənistan Mədəniyyət Nazirinin müavini Qızılgül Vasovanın, Qazaxıstanlı dosent D.Jumabayevin sədrliyi və Q.Kurayevanın katibliyi ilə keçirilən iclasda nə vaxt fasilə olacağı, kimin nə vaxt məruzə oxuyacağı göstərilməmişdi. Sovet dövründəki kimi uzun bir siyahı yazılmışdı.

Bölməmizdə oxunan məruzələrin əksəriyyəti musiqi və incəsənət sahəsinə aid idi. Mövzuları o qədər də diqqətçəkən deyildi. Ədəbiyyat və dil ilə bağlı məruzələri sona saxlamışdılar. 3-4 məruzəni dinlədikdən sonra Kamil Vəli Nərimanoğlu bezdi. Yorucu məruzələri dinləməkdənsə gedib çay içib, dincəlməyi təklif etdi. Şəhərdən kənarda olduğumuzu, muzeyin binasında da çayxana-bufet olmadığını bildiyimdən və hər ikimizin eyni vaxtda salondan çıxsaq, diqqəti çəkəcəyimizdən ehtiyatlanıb mən getmədим.




Qızılgül Vasovanın yazısı

Məruzəçilərin bəziləri də gəlmədiyindən sıra pozulurdu. Mən həm öz məruzəmi oxumalıydım, həm də İsmayıl Vəliyevin. Biz çay içməyə getsək, məni məruzə üçün çağıracaqlarından ehtiyat etdim. Mən getməsəm

də, Kamil Vəli çay içmək istəyi ilə salondan çıxdı.

Kamil Vəli Nərimanoğlunun getməsindən 5-6 dəqiqə sonra salonda toplantının gedişinə nəzarət edən qız mənə yazılı kiçik bir vərəq verdi. "3-cü mərtəbədəki 312-ci otağa gedin. Orada çay için, mən də gəlirəm" yazılmış qeydi oxuyub salona göz gəzdirdim. Kimin göndərdiyini müəyyənləşdirmək istəsəm də, buna nail ola bilmədim.



Şəkildə: Əli Şamil məruzə oxuyarkən

3-cü mərtəbədəki otağa girəndə süfrənin şirniyyat və quru meyvələrlə bəzədildiyini gördüm. İçəridəki milli geyimli 5-6 tələbə qız ayaqüstə söhbət edirdilər. Məni oturmağa dəvət etdilər və "göy çay" (Azərbaycanda ona yaşıl çay deyirik), qara çay, yaxud kofe içəcəyimi xəbər aldılar. Göy çay içəcəyimi dedim və dəhlizə çıxdım. Mərtəbəni dolandım, ortadakı boşluqdan aşağıdakı mərtəbələri diqqətlə gözdən keçirdim. Kamil Vəli Nərimanoğlunu axtarırdım. Görsəm, tələbələrin birini onu çağırmağa göndərəcəkdim. Lakin onu görə bilməyib otağa qayıtdım. Qızlar gətirdiyi göy çayı içdim. Məndən xəbər almadan ikinci fincanı da gətirdilər.

İkinci fincan çayı içərkən qapı açıldı və içəriyə bir gənc girdi. Onu görəndə məni təəccüb bürüdü. Elə bil gəncliyim qarşımda durmuşdu. Alınının enliliyi, gözlərinin azacıq qıyıqlığı, burunu, ağız quruluşu, çənəsi, hətta üst dodağının sol yanındakı qara xalı eynilə mənimki kimi idi. Amma deyəsən, o, mənim qədər təəccüblənmədi. Yaxın gəlib əl verib görüşdü və qarşımda oturdu. Ona da çay gətirdilər. Çaşıb qalmışdım. Bilmirdim, söhbəti nədən başlayım. Qarşımda oturan gənc də

danışmağa meyilli deyildi. Gülümsəyərək baxırdı.

Ondan az sonra bizim bölmə iclasını aparanlardan, Türkmənistan Mədəniyyət Nazirinin müavini Qızılgül Vasova içəri girdi. Gülə-gülə mənə müraciətlə: "Gördüm qardaşıma çox oxşayırsan. Ona görə maşını göndərdim, gətirtdirdim. Tanış olun" dedi. Otaqdakı tələbələr də maraqla bizə baxır və söhbətimizi dinləmək üçün müxtəlif bəhanələrlə yanımıza gəlirdilər.

Bacısının gəlməsi qardaşı həvəsləndirdi. Mənim haradan gəldiyimlə, atam-anamla, yaşımla, adım-soyadımla maraqlandı. Sonra da axşam dostlarımı da götürüb onlara qonaq getməyimi xahiş etdi. Bacısı isə bizim söhbətimizi maraqla dinləyir və gülümsəyirdi.

Oturduğumuz otağın divarları şüşədən idi. İçəridən dəhlizdən keçənlər görünürdü. Amma dəhlizdən keçənlər otaqların içərisini görmürdülər. Kamil Vəli Nərimanoğlunun dəhlizdən keçdiyini gördüm. Tələbələrdən onu otağa dəvət etmələrini xahiş etdim. Kamil müəllim içəri girəndə qarşımızdakı çay süfrəsini görüb, giley-güzarla "Axtarmadığım yer qalmadı, bir stəkan çay tapa bilmədim. Sən də

gəlib keflə burada çay içirsən. Bayaqdan mənə deyəydin. Dağa-daşa düşməyəydim!" dedi.

Kamil müəllimə məni buraya Qızılgül Vasovanın göndərdiyini söylədim. O, yorğunluqdan və susuzluqdan yanında əyləşmiş oğlanın üzünə belə baxmadan çayını içməyə başladı.

Nahar fasiləsindən sonrakı bölmə iclasında Kamil Vəli Nərimanoğlu "Kitabi-Dədə Qorqud" Azərbaycan və Türkmən xalqlarının qiymətli ədəbi qaynağı kimi", mən İsmayıl Vəliyevin "Türkmən-Azərbaycan bədii fikrinin tarixi-etnik bənzərlikləri" və özümün "Tilimxan türkman şairdirmi?" məruzələrini oxuduq. Nə sual verən oldu, nə mövzu ətrafında çıxış edib, fikir deyən. Azərbaycanlı müəlliflərin deyil, bölmədə oxunan bütün məruzələrlə bağlı sual verən, çıxış edən görmədim.

Türkmən televiziyasında

Kasım Nurbatov axşam mənə bir neçə kitabını bağışladı. Sabir Rüstəmxanlıya və Musa Ələkbərliyə salamını çatdırmamı xahiş etdi. Azərbaycan şairləri ilə tanışlığından, hökumətin onu Suriyaya, İraqa, Liviyaya, Əfqanıstana və b. ölkələrə özlərini türkmən, türkman

adlandıranlarla görüşmək, material toplamaq üçün elmi ezamiyyətə göndərildiyindən söz açdı.

Kasım Nurbatov sabah Ahmet Bican Ercilasun, İvan Steblin-Kamenskiy və mənim Türkmən Televiziyasının birinci proqramındakı 1 saat 20 dəqiqəlik bir verilişə dəvət etdiklərini bildirdi. Televiziyada məni tanıyan kim idi ki?! Görünür, Kasım Nurbatovdan xəbər almışlar, o da bizim adımızı, soyadımızı vermişdi. Televiziyadakı çıxışımızdan sonra Dil və Ədəbiyyat İnstitutunun əməkdaşları ilə görüşə gedəcəkdik.

Televiziyaya gedərkən Kasım Nurbatov verilişdə Türkmənbaşının "Ruhnamə" əsəri haqqında xoş sözlər söyləməmizi xahiş etdi. Mən "Kitabı verin oxuyaq. Sonra baxaq görək fikir deyə bilirik, ya yox". Kasım Nurbatov kitabın hələ çap olunmadığını, qəzet-jurnallarda parçaları çap olunduğunu deyir. Onun xahişinə necə cavab verəcəyimi bilmədim.

Verilişi Kasım Nurbatov apardı. Mən konfransda oxuduğum məruzəmin mətninə baxa-baxa danışdım. Mərkəzi İranın Savə bölgəsində yaşamış Tilimxanın, Mahmudun və b. şeirlərinin möhürbəndində özlərini türkman adlandırmasına aydınlıq gətirdim. Orta yüzillərə yaşamış Şah İsmayıl Xətainin, Məhəmməd Fü-

zulinin və b. özlərini türkman adlandırdıqlarından da söz açdım. Türkman sözünün islamı qəbul etmiş oğuzlara verilmiş ümumiləşdirici ad olduğunu, bugünkü anlamda türk adına uyğun gəldiyini dedim, "Kitabi- Dədə Qorqud"dan və başqa qaynaqlardan misallar gətirdim.

Kasım Nurbatovun istəyinə nə mən, nə də Ahmet Bican Ercilasun əməl etdi. İvan Steblin-Kamenskiy isə Türkmənbaşının "Ruhnamə" əsərini yüksək qiymətləndirdi.



Şəkildə:Türkmən televiziyasında. Soldan: Əli Şamil, Peterburqlu professor İvan Steblin-Kamenskiy, Atatürk Dil Kurumunun başqanı Ahmet Bican Ercilasun, Türkmənistan Dil və Ədəbiyyat İnstitutunun direktoru Kasım Nurbatov

Veriliş zamanı İvan Steblin-Kamenski bir neçə dəfə "İran dilləri" ifadəsini işlədəndə mən müdaxilə edərək bu ifadənin doğru olmadığını, İranın çoğrafi ərazi olduğunu dedim və fikrimi davam etdirmək, izahat vermək istəyəndə Kasım Nurbatov sözümü kəsib özü danışmağa başladı. Televiziyada çıxışımızın yazılması vaxtı uzandığına görə Dil və Ədəbiyyat İnstitutundakı görüşə yubanırdıq. Televiziyadan çıxan kimi maşına minib tələsik instituta gəldik.

Dil və Ədəbiyyat İnstitutunda

İnstitutun əməkdaşları salonda əyləşib səbirlə bizi gözləyirdilər. Kasım Nurbatov hər birimiz haqqında geniş bilgi verdi. Sonra çıxış üçün sözü Ahmet Bican Ersilasuna, onun ardınca İvan Steblin-Kamenskiyə və mənə verdi. Məndən öncə çıxış edənlər ciddi elmi məruzələr oxudular. Salondakıların yorulduğunu görüb mən məruzəmi oxumadım. Düşündüm ki, məruzəmin özəti konfransın materialları kitabında çap olunub. İstəyən oradan oxuyar. Oradan oxumayanlar da yəqin televiziyada çıxışımıza baxarlar.

Ona görə də çıxışımı yüngül söhbət şəkilində qurdum. Təxminən belə başladım: Azərbaycandan kənarda məni görənlər soruşurlar: "Türkmənsənmi?" Cavabım təsdiqedici olur. Soyköküm qarapapaqlara dayandığına görə qarapapaq da olduğumu söyləyirəm. Oğuzlarla da bağlılığım olduğuna görə özümü oğuz da sayıram. Bu gün bizi rəsmi sənədlərdə azərbaycanlı kimi qeyd etsələr də, mən özümü türk, yaşadığım ərazini Azərbaycan sayıram. İranda da, Türkmənistanda da, Özbəkistanda da, Amerikada da, Avropada yaşasam da, mən türk olaraq qalacam. 1937-ci ilədək Azərbaycanda bizim ata və analarımıza verilən sənədlərdə milliyyəti qrafasının qarşısında türk yazılırdı. Qəzet, jurnallarımız, kitablarımız türk dilində nəşr olunduğu göstərilirdi. Teatrlarımız, məktəblərimiz türk teatrı, türk məktəbi adlandırılırdı.

İranda 35 milyondan çox türk var. Lakin onlar İrandilli deyillər. Ümumiyyətlə, irandilli, dağıstandilli ifadələri yanlışdır. İran, Dağıstan coğrafi ərazi adlarıdır. İrandilli deyil farsdilli, türk dilli deyil, türksoylu deməli və yazmalıyıq.

Bizə türkdilli xalq deyənlər yanılır. Biz türk dilini sonradan qəbul etməmişik. Neçə min ildir, indi danışdığımız dildə danışmışıq. Yaşadığımız

coğrafi ərazi geniş olduğundan dillərimizdə fərqlər yaranıb. Bu gün birlikdən danışırıq. Birliyə nail olmağın yolu mədəniyyətimizə, ortaq ədəbiyyatımıza, ortaq sözlərimizə sahib çıxmaqdan keçir.

Mən özümün oğuz, türkmən, qarapapaq soyundan gəldiyini bilsəm də, bu gün türk olduğumu deyirəm. Bəs bu salonda oturanlardan kim özünü türk sayırsa, əlini qaldırsın.

Salondakılar mənim çıxışımı sakit qarşıladılar. Əl qaldıran da olmadı. Toplantıdan sonra isə mənim ətrafıma toplaşanlar, sual verənlər, adresimi alanların sayı çoxaldı. Kasım Nurbatov məni birtəhər işçilərinin arasından çıxarıb maşına oturdaraq "Ak altun" hotelinə gətirdi.

Maşına oturanda Ahmet Bican Ercilasun təbəssümlə əlimi sıxdı. İvan Steblin-Kamenskiy isə sərt şəkildə "Qatı pantürkist" deməklə kifayətləndi.

Səhərisi gün Kasım Nurbatov məni görəndə kənara çəkib, narahatlıqla xəbər aldı: "Dünən bizimlə televiziyaya çıxışa və instituta görüşə gedənin kim olduğunu bilirsinizmi?"

– "Birinci dəfə görüşsək də, əsərləri ilə tanışam. Leninqrad (Sankt-Peterburq) Universitetinin müəllimidir. "Avesta"nı rus dilinə

çevirib. Fars dilləri uzmanıdır. Səhv etmirəmsə, 3-4 il öncə Rusiya Federasiyasının Elmlər Akademiyasına müxbir üzv seçilib. Dilçi-etnoqraf kimi tanınır. Şərqi yaxşı bilir. Yazılarında qaynaqlardan bacarıqla istifadə etdiyi görünür. Heyif ki, metodu yanlışdır. Köhnə qəliblərdən çıxa bilmir" deyəndə Kasım Nurbatov sözümü kəsərək: "Siz nə danışırsınız! Dünyada məşhur alimdir. Necə yəni onun faktlara yanaşma metodu yanlışdır?!" deyə danışmağa başlayanda mən onun sözünü kəsərək: "Kasım Nurbatov, onun məşhurluğunu inkar etmirəm. Mən onun faktlara yanaşmasını, baxışındakı yanlışlığı qəbul etmirəm. Dünən siz televiziyada mənim onunla mübahisəyə girməyimə imkan vermədiniz. Bu gün də gəlib onun haqqında mif yaratmağa çalışırsınız. 200 ildir Avropa alimləri yanlış və ya planlı "İran dilləri" deyə bir termin işlədirlər. İran bir yayla, ərazi adıdır. Orada fars da yaşayır, lor da, türk də, ərəb də. İran dilləri deyiləndə gərək bu dillərin hamısı nəzərdə tutula. Amma onlar İran dilləri deyəndə sadaladığı dilləri deyil, yalnız fars dil qrupuna daxil olan dilləri nəzərdə tutur. Mən buna və bu kimi yanaşmaya etiraz edirəm. Elmdəki bu yanlışlıqlar aradan qaldırılmalıdır.

Biz də onlara qoşulub yanlışlıqları təkrarlamamalıyıq. Azərbaycanda 8 xalq yaşayır. Türklər aparıcı olsalar da, orada fars dil qrupuna daxil olan tatlar, talışlar, kürdlər, dağ yəhudiləri deyilən xalq, etnik qrup kimi qriqorian inanclı tatlar, İber-Qafqaz dil qrupuna daxil olan ləzgilər, saxurlar, rutullar, tabasaranlılar, hətta xristian udinlər də var. Sizcə, biz onların hamısını birləşdirib Azərbaycan dil qrupu adlandıra bilərikmi?!" dedim.

Kasım Nurbatov sualıma cavab vermədi. Bir xeyli üzümə baxıb, başını bulayaraq getdi. Fikrimi qəbul etmədiyi o yana, narazı qaldığını da büruzə verdi. Ürəyim ağrıdı ki, böyük bir institutun direktoru, özünü millətsevər sayan hələ köhnə qəliblərdən çıxa bilməyibsə, qarşımızda görüləsi nə qədər ağır işlər durur.

Konfrans günlərində tanış olduğum alimlər

Konfransa qatılanların sayı çox idi. Onların hamısı ilə tanış olub söhbətləşmək mümkün deyildi. Dil bilgimin olmaması da imkanlarımı məhdudlaşdırırdı. Avropadan, Amerikadan, Hindistandan, Çindən gələnlərin əksəriyyəti ingilis

dilində danışırdılar. İspaniyadan, Fransadan gələn araşdırıcılar isə məruzələrini İspan və Fransız dillərində etdikləri kimi söhbətlərini də ana dildə aparırdılar.

Mənə birinci növbədə Azərbaycan dinləyicisinin başa düşə biləcəyi bir dildə danışanlar lazım idi. Çünki onların səsini yazıb Azərbaycan radiosunda səsləndirə bilərdim. Əhməd Oğuz 1995-ci ilin başlanğıcında özünün aparıcısı olduğu "Qonaq eldən gələr" verilişini mənə vermişdi. Həmin vaxtdan ayda bir dəfə türk xalqları haqqında proqram hazırlayırdım. Proqramın maraq çəkməsi üçün türk xalqlarının səslərinə, musiqisinə ehtiyac vardı. Mənim üçün səs və musiqi əldə etməyin ən münasib yolu qatıldığım simpoziumlarda iştirakçıların səsini yazmaq və oradan musiqi kasetləri gətirmək idi.

Aşqabadda görüşdüyüm adamlardan Azərbaycan dinləyicisinin rahat başa düşəcəyi Suriyanın İsraillə sərhəddindəki Colan təpələrində yaşayan türkmanların səsi idi. Oradan İbrahim Saleh adlı araşdırıcı və Aymən Şaban Faht adlı din adamı vardı.

Aymən Şaban Fahd öncələr də Türkmənistanda olub, bəzən aylarla qalıb, gənclərə və

yeniyetmələrə Qurani-Kərimi oxumağı, şəriət qaydalarını öyrədib.

Türkmənistan müstəqilliyini elan etdikdən sonra ərazisinin geniş, əhalisinin az (Türkmən dili dövlət dili elan edildiyindən ruslar və rusdillilər köçüb gedirlər) olduğunu nəzərə alıb Suriyadakı və İraqdakı türkmanları Türkmənistana köcürməyə həvəsləndirirdilər.

İraqdan qaçıb Türkiyəyə sığınmış Əhməd Günəş Bayatı Ümid körpüsündə işləyən xalq cəbhəsinin üzvlər 1992-ci ilin fevralında başqasının pasportu ilə Naxçıvana gətirmişdilər. Bir neçə gün bizim evdə qalıb vəziyyətlə tanış olduqdan sonra Bakıya və Türkmənistana getmək istədiyini bildirdi. Biz də ona rus sərhədçiləri ilə "dil tapmaq"da mahir olan cəbhəçilərdən iki nəfər qoşduq. Onlar Əhməd Günəş Bayatın oxşarı olan naxçıvanlının sovet vətəndaşlarına verilən pasportu ilə Bakını və Aşqabadı gəzdirib geri qaytararaq Türkiyəyə yola saldılar.

Əhməd Günəş Bayatla Aşqabada gedən cəbhəçilər onu Türkmənistanın rəhbər işçiləri ilə görüşdürə bilmişdilər. Görüşlərin əsas mövzusu da İraq və Suriya türkmanlarının Türkmənistana köçürülməsi məsələsi olmuşdur.

Konfrans günlərində də İbrahim Salehə və Ayman Şaban Fahda daha çox qayğı göstərildiyini görürdük.

Mən İbrahim Saleh və Ayman Şaban Fahdın səsini "Ak altun" hotelinin foyesində yazırdım. Sakitlik idi. Azərbaycanlı araşdırıcılar da söhbətimizi dinləyir, təbəssümləri ilə türkman qardaşlarımızı həvəsləndirirdilər.



Soldan: memar Arif Zeynalov, arxeoloq Tarix Dostiyev, tarixçi Roza Arazova, Əli Şamil

Söhbətimiz axıcı gedirdi. İbrahim Saleh Suriyada yaşamış Azərbaycan kökənli alimlərin ərəb dilində yazdığı 30-dan çox əsərin əlyazması üzərində işlədiyindən, onlara izah və şərhlər yazıb çap etdirdiyindən danışdı. Mən də onun söhbətinə

yön vermək üçün: “Siz elmin hansı sahəsi ilə məşğul olursunuz?” deyə xəbər aldıqda İbrahim Saleh: “Biz ərəblərin ortasında yaşayırıq. Amma danışanda sizin qədər ərəb sözləri işlətmirik” dedi və mənim sualımı cavablandırdı. “Ədəbiyyat tarixi, dil, bəlağət, üslubiyyat və b. sahədə ağnayıram” deyəndə bizimkilər özlərini saxlaya bilməyib güldülər. İbrahim Saleh gülüşün səbəbini anlaya bilmədi. Mən söhbəti birtəhər yoluna qoydum. Səsini sonadək yazdım.

Əslində onun ağnamaq sözünə gülürdülər. Azərbaycan ədəbi dilində ağnamaq sözü heyvanlara aid edilir. Bəzən uşaq toz-torpaqla əlləşəndə, üst-başını toz-torpağa batıranda ona hirslənərək deyirlər: “Nə ağnayırsan!” İbrahim Salehin sonrakı söhbətindən də anladım ki, Colan türkmanları bizim ərəbcədən alıb aktiv işlətdiyimiz “məşğul”, “məşğul oluram” sözünün əvəzinə ağnamaq sözü işlədirlər. Görünür, keçmişdə bizlərdə də ağnamaq sözü geniş işlədilirmiş. Ərəb dlindən məşğul sözünü alıb aktivləşdirdikdən sonra ağnamaq arxaikləşmiş və yalnız heyvanlarla bağlı işlədilmişdir.

Çindən gəlmiş salurların (onlara sarı uyğur da deyirlər) səslərini yazmaq istədim. Onlarla birbirimizi başa düşmədiyimizə görə ingilis dilini

yaxşı bilən bir tərcüməçi tapdım. Tərcüməçi vasitəsilə birtəhər anlaşa bildik. Aydın oldu ki, onlar ingilis dilini də, ana dilini də yaxşı bilmirlər. Əsasən, çin dilində danışırlar. Xalq bütövlükdə əriməkdədir (assimlə olunmaqdadır). Ərimənin önündə də ziyalılar gedir. Mənimlə danışanda özünü Ömər Hüseyn kimi tanıdan adamın verdiyi vizit kartında adı və soyadı Han Youfa, İsmail Nohinin vizit kartında Mu Cheng Yun, Eubo (bu ada biz Eyyub deyirik) İdris Şansibonun vizit kartında Han Xing Vanq yazılmışdır.

Düşünürdüm ki, türk dillərində feil çox mühafizəkardır. Bir az danışdırsam, bəlkə, bəzi sözləri anlayam. Sadə uşaq şeirləri demələrini xahiş etdim. Ömər Hüseyn ana dilində bir xalq şeiri bildiyini söylədi. Diktafonumu açıb yazdım. Sonra diqqətlə qulaq assam da, bir tovşan sözünü anlaya bildim. Salurlardan saylar haqqında bilgi vermələrini istədim. Sayları türk dillərindəki kimi olsa da, onu elə səsləndirirdilər ki, başa düşmək olmurdu. Özləri də etiraf edirdi ki, ana dillərini unudublar. Öz aralarında, ailədə Çin dilində danışırlar.

Alkaqollu içkilərə meyilli olmasam da, toplantılara gedəndə tut arağı aparıram. Bu Sovet dövründən qalma bir adətimdir. SSRİ-də getdiyim

hər yerdə içdiklərini görmüşdüm. Tut arağının tündlüyü də onları özünə çox məftun edirdi. Aşqabada da aparmışdım. Yeməkxanaya aparmasam da, foyedə oturub qəhvə içəndə həmsöhbətlərimi qonaq edirdim. Tut arağına çəviz-qoz ləpəsinin arakəsməsini vurub 40 gün saxladığımdan konyak rəngi alır.

Türkiyədən və keçmiş SSRİ-dən olan tanışlarla foyedə qəhvə içərkən hindli görkəmli birisi bizə yaxınlaşdı. Rusca fikrini birtəhər ifadə edə bilirdi. Pakistandan olduğunu, Azərbaycanı görmək istədiyini bildirdi. Məndən xahiş etdi ki, onu Azərbaycanda keçirilən elmi simpoziumlara dəvət edim. Vəd etdim ki, ona yardımçı olaram. Vizit kartını verdi. Yarmuhammed Badini olduğunu bildim. Toplantıya gedəndə, fasilədə, geri dönəndə mehribancasına salamlaşır, bəzən də avtobusda yanaşı oturub söhbət etməyə çalışırdıq.

Toplantı günlərində tanış olduğum Hindistanlı R.Hangli, M.Haydar və Pakistanlı A.X.Xan özlərinin Moğollar nəslindən olduğunu söylədilər. Hətta A.X.Xan məndən xəbər aldı: "Dostunun bəluc olduğunu bilirsənmi?" Onun Yarmuhammed Badiniyə işarə etdiyini bilərək: "Sizdən öyrəndim" dedim.

Bəlucların yarısının Pakistanda yaşadığını və onların muxtariyyatı olduğunu, İran İslam Respublikasınının Pakistanla sərhəddində toplu yaşayan bəlucların isə heç mədəni muxtariyyatı da olmadığını bilirdim. Yarmuhammed Badini də mənə deyirdi ki, siz azərbaycanlıları da bizim kimi bir-birinizdən ayırmışlar. İran dağılsa, siz də, biz də birləşərik.

Hindistanlı R.Hangli də Türkmən dostumla birlikdə söhbət edəndə dedi ki, Hindistanda bərk narahatdılar. Qorxurlar ki, qədim İpək Yolunda qatarlar işə düşə. Yüklər qatarla Türküstandan Avropaya daşınsa, Hindistanın limanları işsiz qala.

Folklor şöbəsində

Azərbaycanda Elmlər Akademiyası yaradılandan orada folklor bölməsi də olub. Sonralar bölmə şöbəyə çevrilib. Bu şöbə Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərib. Azərbaycan müstəqillik əldə edəndən sonra folklorun toplanması və araşdırılması, təbliği üçün şöbə 1993-cü ildə "Folklor sarayı"na, 1994-cü ilin mart ayından "Folklor Sarayı" Elmi-Mədəni Mərkəzə çevrilib. 2003-cü ildən isə müstəqil

Folklor İnstitutu yaradılıb. İnstitutun bir məqsədi də türk xalqları ilə əlaqələri genişləndirmək, birgə araşdırmalar aparmaq olub.

Türkmənistan folklorçuları ilə əlaqəni genişləndirmək üçün Maxtımqulu adına Dil və Ədəbiyyat İnstitutuna getdim. Köhnə sistemin cəmiyyət üçün buxova çevrildiyini, yenilənməyə əngəl olduğunu görən Türkmənbaşı Sovetlər dönəmindən qalma Elmlər Akademiyasını 1998-ci il iyunun 26-da ləğv edib. Elmlər Akademiyasının Dil və Ədəbiyyat, Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutları və bir sıra başqa strateji mərkəzləri Türkmənistan Prezidenti yanında Ali Elm və Texnika Sovetinə tabe edilib.

Mən gələndə nahar fasiləsi idi. Folklor şöbəsinin müdiri, filologiya elmlər namizədi Qurbancamal İlyasova otaqda tək oturub qarşısındakı bir salxım üzümü çörəyinə yavanlıq edirdi. Bizi də süfrəsinə dəvət etdi. Əzəmətli saraylar tikilən, heykəllər qoyulan ölkədə alim üzüm çörəklə nahar edir. Bu da səbəbsiz deyil, alimin maaşı 30 dollara yaxındı.

Şöbədə işləyən filologiya elmləri namizədi Oğultac Tacova uşaq folkloru – yanıltmacları, Şirin Annanəpəsova laylaları, Camal Qummanova rəvayətləri, Nuru Seyidov xalq adət və

ənənələrini, Oğulurban Xocamuradova Qorqud Ata mövzusunda araşdırmalar aparırlar.

Qurbancamal İlyasovadan AMEA Folklor İnstitutunun kitabxanasına aparmaq üçün Türkmən folklorçularının kitabını istədim. O, utana-utana: "10 ildən çoxdur, şöbədə işləyənlərin heç birinin kitabı çap olunmayıb" dedi. Folklorçu alimləri Azərbaycanda, Türkiyədə keçiriləcək simpoziumlara dəvət edə biləcəyimi söylədim. Qurbancamal İlyasova əməkdaşların normal işləyən faks və e-maili olmadığını bildirdi. Onlar olsa belə, Xarici İşlər Nazirliyindən icazə almadan getmək olmaz. Oradan da icazə almaq çətin bir işdir.

İnstitutun əməkdaşı Murad Bayramdurdu oğlundan öyrəndim ki, Maxtımqulu adına Dil və Ədəbiyyat İnstitutunun 10 şöbəsində 100-ə yaxın əməkdaş çalışır. Son illər bir nəfər də olsun nə aspiranturaya qəbul olunub, nə də müdafiə edən olub. İnstitut üçün ayrılan vəsait əməkhaqqından o qədər də çox deyil.

Üzgün halda taksiyə oturub konfrans salonuna qayıtdım.

Aşqabaddakı azərbaycanlılar

Azərbaycanlıların Türkmənistanda 19-cu yüzilin sonlarından toplu yaşadıqlarını bilirdim. Salman Mümtaz, Qulam Məmmədli və b. 1920-ci illərdən sonra Azərbaycana köçsələr də, Yaqub Nasir kimi yazıçı və onlarla ziyalı geri dönməmişdi. 1930-cu illərdə türkmən gənclərinin Azərbaycanın ali məktəblərində oxuduğundan da xəbərim vardı. Lakin Türkmənistanda yaşayan soydaşlarımızın dəqiq sayı haqqında bilgim yox idi.

Türküstana hücuma keçən general Mixail Skoblev 1881-ci ilin yanvarında Göytəpə şəhərini elə dağıtdırdı ki, nəticədə əsgər və zabitlərin yaşaması üçün bir bina belə qalmadı. Ona görə Aşqabadı tutub orada hərbi istehkam qurdurmağa başlayır. İşğal günlərində kiçik bir qəsəbə olan Aşqabadın əhalisi rusların qorxusundan mal-mülklərini qoyub qaçıbmış.

Ruslar burada yeni məskan saldıqlarına görə işçi qüvvəsinə böyük ehtiyac yaranır. Göytəpə qırğını ilə barışmayan türkmənlər ruslarla əməkdaşlıq etmək istəmirlər. Ona görə də Azərbaycandan, İrandan, Əfqanıstandan buraya tacirlər, sənətkarlar və b. peşə sahibləri gətirilir.

Məşhəd ziyarətinə gedən yolun üzərində olduğuna görə yalnız Azərbaycanın quzeyindən deyil, güneyindəki Ərdəbil, Sərab, Təbriz və b. şəhərlərdən, kəndlərdən gələn adamlar da burada məskunlaşırdılar.

1891-ci ildə Aşqabadın əhalisi 13 min nəfər idisə, 1911-ci ildə 45 min nəfərə çatır. 1939-cu ildə şəhərdə yaşayanların sayı 126 min nəfəri keçir. Onun da cəmi 12 faizini türkmənlər təşkil edir. Aşqabadda teatrın təşkilində, kitab çapında, qəzet, jurnal nəşrində azərbaycanlıların böyük rolu olmuşdur.

İkinci Dünya Savaşı şəhərin inkişafını ləngitsə də, onu durdura bilmir. 1948-ci il oktyabrın 5-dən 6-na keçən gecə saat 2.14-də 7,3 (Çox vaxt zəlzələnin gücünün 9-10 bal olduğunu yazırlar) gücündə zəlzələ baş verir. İlk iki təkan 5-8 saniyə davam edir. Səhər saat 6-da zəlzələ təkrarlanır. Beləcə 4 gün ərzində kiçik təkanlı zəlzələlər davam edir. Buna görə də şəhərdəki tikililərin yüzdə doxsanı uçur. Ölənlərin sayının 60-110 min, 170 min olduğu deyilir.

Bu ağır faciə Türkmənistanda yaşayan azərbaycanlıların sayını azaltsa da, toplu yaşamalarına əngəl ola bilmir. Onları tapmaq,

görüşmək, dərdləşmək üçün ən münasib yerin məscid olduğunu bilirdim. Buna görə də Aşqabada gedəndə məsciddə paylamaq üçün Azərbaycan paxlavası və şəkərburası da aparmışdım.

Biz Aşqabada getməmişdən bir neçə gün öncə orada zəlzələ qurbanlarının anım günü qeyd edildiyini Türkmənistan televiziyasında görmüşdüm. Onu da bilirdim ki, 1995-ci il oktyabrın 6-dan həmin gün rəsmi şəkildə Türkmənistanda zəlzələ qurbanlarının anım günü kimi qeyd edilir.

Türkmən və Azərbaycan məscidlərində

Gətirdiyim şəkərbura və paxlavanı da götürüb günorta namazında məscidə getdim. Taksi məni məscidin qarşısında düşürdü. İçəri girərkən öyrəndim ki, gəldiyim yer türkmən məscididir. Taksi sürücüsü Azərbaycan məscidinin burada olduğunu bilsə də, girişinin harada olduğunu bilmirmiş. Türkmən məscidi ilə Azərbaycan məscidinin arasında uca bir divar vardı.

Tələsik məscidlərin başına fırlanıb Azərbaycan məscidinə girdim. Namaz yeni başa çatmışdı. Azərbaycandan gəldiyimi biləndə

çardağın altında oturtdular. Çay gətirdilər. Adamlar da başıma yığıldı. Böyük samovarlar, qazanlar burada ehsan verildiyinin xəbərçisi idi. Mən əyləşəndə iki böyük samovarda su qaynayırdı. Əlimdəki bağlamanı verdim və içərisində paxlava, şəkərbura olduğunu, onlar üçün gətirdiyimi söylədim.

Hamıya çatsın deyə paxlava və şəkərburaları doğrayıb qablara yığaraq gətirdilər. Yaşlılar daha çox kövrəlmişdilər. Eləsi vardı deyirdi, Azərbaycan paxlavasını, şəkərburasını 20-25 ildir yeməyib.

Çay süfrəsi arxasında bəs qədər giley eşitdim. Gileyin ən başlıcası Azərbaycan ziyalılarının məscidlə əlaqəsinin zəifliyindən, İran İslam Respublikasının səfirliyinin əməkdaşlarının isə hər cümə günü məscidə gəldiyindən oldu.

Gileyləndilər ki, Türkmənlərin məscidinin işçiləri onların məscidinin sahəsinin bir hissəsini tutub.

Məscidlərin təriqətə görə bir-birindən fərqləndiyini görmüşdüm. Yəni şiələrin məscidi, sünnülərin məscidi. Yaxud da hənəfilərin məscidi, şafilərin məscidi, nəqşibəndilərin məscidi, sələfilərin məscidi və s. Burada isə elə

deyil. Azərbaycandan, İran İslam Respublikasından, Gürcüstandan, Ermənistandan, Dağıstandan getmiş insanlar şiə inanclısı da, sünnü inanclısı da Azərbaycan məscidinə gəlir. Onların arasında türkmənlərlə eyni təriqətdən olanlar da Türkmən məscidinə getmir.

Xeyli dərdləşdik. Kimin babalarının Aşqabada haradan və nə vaxt gəldiyi haqqında neçə-neçə həyat hekayəsi dinlədim. Bu həyat hekayələri son 200 ilin tarixini özündə əks etdirirdi. Hər biri də bir bədii əsərin, sənədli və bədii filmin, bəziləri də çoxseriyalı filmin mövzusu ola bilər. Heyif ki, etik qaydaları pozmamaq xatirinə onların səsini yazmadım.

Səhərisi gün tanıdığım Türkmən alimlərinə təklif etdim ki, gəlin ziyalılardan bir qrup yaradaq, gedək məscidlərin arasındaki ziddiyyəti aradan qaldıraq. Hamısı mənə heyrətlə baxdı. Dedilər: "Azərbaycanda siz belə bir iş görərsiniz. Amma Türkmənistanda bu mümkün deyil. Biz elə bir qrup yaratsaq da, heç məscidə gedib çatmayacağıq. Qarşımızı kəsib deyəcəklər: "Sizə aid olmayan işə qarışmayın".

Məsciddə öyrəndim ki, zəlzələdən sonra azərbaycanlılar bizim qaldığımız "Ak altun" hotelinin yanında məhəllə salıb, orada toplu

şəkildə yaşamağa başlayıblar. Qaldığımız hoteli azərbaycanlılar yaşayan məhəllədən bir yol ayırsa da, vaxt tapıb oraya gedə, soydaşlarımızla geniş söhbət edə, onların ata-babalarının həyat hekayəsini dinləyə bilmədim.

Memar Arif Zeynalovun narazılığı

Arif Zeynalovla 1982-ci ilin yayında Naxçıvanda tanış olmuşdum. Valideynlərini görməyə gəlmişdi. Həmin illərdə qəzetlər, radio və televiziya vətəndən kənarda işləyən məşhur adamlar haqqında yazılara geniş yer verirdi. Mən də "Şərq qapısı" qəzetində işlədiyimdən məzuniyyətini ata-baba yurdunda keçirməyə gəlmiş memar haqqında məqalə hazırlamağı planlaşdırmışdım.

Azərbaycanda institutu bitirib təyinatla Türkmənistana işləməyə getmiş, orada uğur qazanmış, vəzifə pillələri ilə irəliləmiş Arif Zeynalovla söhbətimiz maraqlı alındı. Sonrakı illərdə də Naxçıvana gələndə mənə zəng vurar, görüşüb söhbətləşərdik. 1989-cu ildən sonra ondan xəbər tuta bilmədim.

Daha dəqiq desəm, 1988-ci ildən gecə-gündüzümü azadlıq hərəkatına həsr etdiyimdən

nəinki dost-tanışı, qohumları axtarmağa, yazı-pozu işlərinə də vaxtım qalmadı.

Aşqabada gedəndə Arif Zeynalovu da axtarıb tapmağı, ondan xəbər tutmağı planladım. Məndə olan telefonuna zəng vurdum. Telefonu dəyişməmişdi. Danışdıq. Aşqabada gəldiyimə sevindiyini bildirdi. Qaldığımız "Ak altun" hotelinə gələcəyini söylədi. Şərtləşdiyimiz vaxtda gəldi. Yeməyə dəvət etsə də, onu xərcə salmamaq üçün vaxt azlığını bəhanə edib getmədim.

Naxçıvanda qəzet üçün məqalə hazırlayanda layihəsi ilə tikilən binalardan xeyli söhbət açmışdı. Həmyerlimin layihəsi ilə tikilən binaları görməyi yeməkdən vacib saydım. Həmin binaları görmək istədiyimi bildirdim. Köhnə "Jiquli"si ilə şəhəri gəzməyə başladıq.

Yol boyu Türkmənistanda yaşam şərtlərinin ağırlığından, Azərbaycanda münasib bir iş tapa bilmədiyindən, Kanadaya köçmək istədiyindən danışdı. Türkmənistan müstəqilliyini elan etdikdən sonra azərbaycanlı kadrların sıxışdırıldığından, onun vəzifədən uzaqlaşdırıldığından, ali məktəblərdə rektor, prorektor, dekan və b. rəhbər vəzifələrdə olanların işdən çıxarıldığını da dedi.

Bir az dincəlmək üçün çayxanaya getdik. Oturub çay içərkən parkdan keçən bir nəfəri yanımıza dəvət etdi. Arif Zeynalovun köhnə tanışlarından olduğunu hiss etdim. Mehribanlıqla görüşdülər. Dəvət gözləmədən stul çəkib oturdu. Arif Zeynalov onu mənə tanıtdı. Memar olduğunu, uzun zaman bir yerdə işlədiklərini dedi. Sonra da mənim haqqımda "Əli Şamilovla Naxçıvanda tanış olmuşuq. Qəzetdə işləyirdi. İndi Bakıda yaşayır və Aşqabadda keçirilən beynəlxalq elmi konfransa gəlib" dedi.

Onun gəlişi söhbətimizin yönünü dəyişdi. Arif Zeynalov xarici ölkələrə getməyin yolları haqqında suallar verməyə başladı. Başa düşdüm ki, bizimlə çay stolu arxasında oturan milliyyətcə yəhudidir. Sovetlər Birliyi dağılanda Almaniyaya köçə bilib. Almaniyada yaşasa, oranın vətəndaşlığını alsa da, çox vaxt Aşqabadda olur. Yəni Almaniyadan aldığı sosial yardımla Aşqabadda "ağa kimi yaşayır".

Arif Zeynalov da xaricə getmək üçün yollar axtardığını deyəndə keçmiş iş yoldaşı təxminən belə cavab verdi: "Arif, amanın günüdür, bu fikirdən daşın. Getsən, peşman olacaqsan. Orada sahibsiz itin də, pişiyin də hörməti var, amma mühacirlərin hörməti yoxdu. Mən oraya

köçəndən havamı dəyişmək üçün evimin yanındakı parka gedirəm. Oradakı qocaların əksəriyyətini sifətdən tanıyıram. Hər dəfə onları görəndə hörmət əlaməti olaraq salam verirəm. Salamımı alan, "yanımda otur, kimsən, nəçisən, haradan, nə vaxt, niyə gəlibsən?" deyən olmur. Amma sahibsiz bir it, pişik görən kimi onu yanlarına çağırırlar, tumarlayır, əzizləyir, yedirtməyə çalışırlar. İti danışdırırlar, amma alman dilini bilsəm də, məni danışdıran olmur. Verdikləri sosial sığorta ilə yaşamaq olur. Yeyib-içməyə, geyməyə çatır".

Arif Zeynalov isə xaricdəki həyat tərzini, qanun-qaydanın olduğunu tərifləyirdi.

Arif Zeynalova hədiyyəlik əşyalar almaq istədiyimi dedim. O da Türkmənistanda hədiyyəlik əşyalar olmadığını söylədi. Mən şəhər kənarında "Çöl bazarı" deyilən bir bazarın olduğunu, orada evdə toxunan yun məhsulların, milli bəzək əşyalarının satıldığını söylədim. Etiraz etmədi. Maşınını şəhərdən təxminən 8-10 kilometr aralıda olan, "Çöl bazarı" deyilən yerə sürdü. Bizim Binə bazarını xatırladan bu bazarda mallar əsasən açıq havada satılır. Çindən, Özbəkistandan, Türkiyədən gətirilmiş mallarla yanaşı, türkmənlər evlərində olan

əşyaları da satırdılar. Qiymətlər Azərbaycanla müqayisədə çox ucuz idi.

Yerdə oturub məişət əşyaları və geyim satan bir qarıya yaxınlaşdıq. Qarşısında yundan toxunmuş bəzək əşyaları, corablar, kiçik xalçalar, dəvə yunundan belbağı, türkmən qadınların donlarının qollarını tutan bəzək əşyaları və s. satırdı. Mən qolbağları neçəyə verdiyini xəbər alanda Arif Zeynalov əsəbləşərək: "Niyə onunla türkmən dilində danışmağa çalışırsan" dedi. Mən də heyrətlə: "Bəs hansı dildə danışmalıyam?" deyə xəbər aldıqda: "Rus dilində de! Qoy canları çıxıb öyrənsinlər. Pul qazanmaq istəyirsə, rus dilini də öyrənsin" dedi.

Arif Zeynalovun bu sözü məni heyrətləndirdi. Güzəranını təmin etmək üçün bütün günü quru torpaq üstündə oturub, ev əşyaları, geyimlər, yun və pambıq iplərdən toxunmuş milli naxışlı dekorativ əşyalar satan bu qocalar və qarılar 70 yaşında rus dilimi öyrənməli idilər? Bazara gələnlər arasında ruslar 5-10 faiz olmazdı.

Bazardan geri qayıdanda Arif Zeynalov maşınını "Ak altun" hotelinin yanındakı sirk binasının qarşısında saxladı. Layihəsini Arif

Zeynalovun verdiyi sirk binasının yanında gəzərkən bir nəfər yaxınlaşıb Ariflə görüşdü və hal-əhval tutdu. Arifin onunla könülsüz danışdığını görürdüm. Ayrılandan sonra arxasınca "Satqın rus, mənim işçim idi. Ara qarışan kimi türkmən dilini öyrəndi. İndi şəhərin baş memarının müavinidir" dedi.

Arif Zeynalovla söhbətdən anladım ki, yalnız onu deyil, rəhbər vəzifədə işləyən, ali məktəblərdə dərs deyən azərbaycanlıların çoxu 30-40 il burada yaşasalar da, türkmən dilini öyrənməyiblər. Türkmənistan müstəqilliyini elan etdikdən sonra türkmən dili dövlət dili elan edildiyindən onlar vəzifədən uzaqlaşdırılıblar.

Yadıma "Molla Nəsrəddin" jurnalında oxuduğum kiçik bir lətifəyə bənzər yazı düşdü. Yazının məzmunu təxminən belə idi: "Birisi məndən soruşdu ki, Molla əmi, azərbaycanlı ilə türkmənin arasında nə fərq var? Mən də dedim: "Bir həftə". Cavab qaytardı ki, sizi bir ağıllı, savadlı adam bilirdim. Sizdən millətlərin arasında fərqi xəbər alıram, amma siz mənə bir həftə deyirsiniz.

Dedim: azərbaycanlı gedib bir həftə Türkmənistanda qalsa türkmən olacaq, türkmən

də gəlib bir həftə Azərbaycanda qalsa, azərbaycanlı olar".

Türkmənbaşının hədiyyələri

Oktyabrın 13-də saat 15.00-da bizi konfransın açılışı olan "Ruhiyyət köşkü"nə gətirdilər. Yenə də təyyarəyə minərkən yoxlanılan kimi yoxlandıq. İçəri girəndə gördüm arxa sıralar tamam doludur. Araşdırıcılar, rəhbər işçilər, tələbələr yerlərini tutublar. Bir boş yer belə gözə dəymir. İçəridəkilərin hamısı elə sakit dayanıblar ki, milçək uçsa, vızıltısı eşidilər. Demək, onlar bizdən yəqin bir saat öncə gəlib, yoxlamadan keçib, yerlərini tutublar.

Biz də içəri keçib dəvətnaməmizdə göstərilən sırada yerlərimizi tutduq. Təxminən yarım saat sonra salonu alqışlar bürüdü. Arxaya dönüb baxmağıma ehtiyac qalmamışdı. Bilirdim ki, Türkmənbaşı gəlib salonun ortasındakı taxtında əyləşəcək. Ondan 5-10 dəqiqə sonra alqışlar kəsiləcək. Alqış kəsilən kimi səhnənin pərdəsi qaldırıldı.

Səhnədə birinci Oğuzxanı təmsil edən aktyor göründü. Geyimi çox bahalı və gözəl idi. Yəqin ki, qədim dövrün geyiminə

uyğunlaşdırmışdılar. 5 dəqiqəlik bir mətnlə Türkmənbaşını tərifləmişdi. Onun arxasınca Qorqud Ata, Alparslan, Sultan Səncər, Osman Qazi, Koroğlu, Bayram xan, Əmir Teymur, Qurban Murad İşanın rolunu oynayan aktyorlar səhnəyə çıxıb Türkmənbaşını öydülər. Diqqətlə qulaq asırdım. Aktyorlar üçün yazılmış mətnlərdə bir-birini təkrarlayan fikir eşitmədim.

Çox gözəl geyinmiş aktyorları yaxşı makiyaj etmişdilər. Hamısı da rollarını təsirli oynayırdı. Görünür, rejissor aktyor seçimində, məşqlərdə çox əziyyət çəkib.

Sonra səhnəyə Vadim Masson çıxdı. Konfransın gedişi haqqında Türkmənbaşına geniş hesabat verdi və dəfələrlə təşəkkürünü bildirdi ki, belə gözəl bir toplantı təşkil edib. Vadim Masson Türkmənbaşını səhnəyə dəvət etdi. Alqışlar altında səhnəyə çıxan Saparmurat Türkmənbaşı 30-35 dəqiqə Türkmənistanın müstəqillik əldə etdikdən sonra mədəniyyətə, xarici siyasətə göstərdiyi qayğıdan danışıb keçib taxtında oturdu.

Prezidentin çıxışından sonra səhnə sənət adamlarının ixtiyarına verildi. Konsertdə ölkənin beş vilayətinin hər birindən iki müğənni (bir qadın, bir kişi) hərəsi də iki mahnı oxudu. Mah-

nıların əksəriyyəti sərdara, Türkmənbaşıya, onun ata-anasına həsr edilmişdi.

Konsert başa çatanda Türkmənbaşını səhnəyə dəvət etdilər. Türkmənbaşı cibindən bir zərf çıxarıb Vadim Massona verdi və içərisində 10 min dollar olduğunu söylədi. Sonra orkestrin rəhbərini çağırıb içərisində 5 min dollar olduğunu söylədiyi zərfi verdi. Səhnəyə dəvət etdiyi konserti hazırlayanlara və müğənnilərə 1000 və 500 dollar olan zərflər verdi. Qadın müğənniləri isə öpərək hər birinin boynuna qızıl zəncirli medalyon taxdı.

Yanımda əyləşənlər, Kamil Vəli Nərimanoğlu "Lap özünü şahlar kimi aparır!" deyəndə mən etiraz etdim: "Xeyr, şahlar "məni istəyən buna bir xələt versin" deyər və ya xəzinədarına, ilxıçısına və b. məmurlarına tapşırardı ki, onun dediyi mükafatı, hədiyyəni çatdırsınlar. Onlar da şahın dediyi hədiyyəni verər və qeydiyyat aparardılar. Saparmuratın nəğd verdiyi bu pulların isə nə hesabını aparmaq, nə də vergiyə cəlb etmək mümkündür. Bu da idarəçilik üçün ağır zərbədir" dedim.

Türkmən tanışlarımdan xəbər aldım ki, Türkmənbaşının payladığı zərflərdə bəlkə pul onun dediyindən azdır. İki cavab aldım. Biri

dedi: “Türkmənbaşı əlini hansı cibinə salıb oradan zərf çıxarırsa, bilirəm ki, içərisində nə qədər dollar olacaq.” O birisi isə “Kimin hünəri var, pulu sayıb deyə azdı. Lap boş zərf versə belə, heç kim qorxusundan səsini çıxarmaz”.

Mənim üçün həmin toplantıdan xoş olan mükafat alanlar sırasında Bakı Dövlət Universitetinin kafedra müdiri Qüdrət İsmayılzadənin də olmasıydı.

Türkmənistanı tanımayan hər hansı bir adam belə bir toplantıda iştirak etsə, ölkənin durumunun necə olduğunu bilər. Bir sözlə, Türkmənbaşı nə edirsə, yerlərdəki “balaca padşahlar”, “sərdarcıqlar” da onu təkrarlayırlar.

Konsertdən sonra Türkmənbaşı “Ak altun” sarayında konfrans iştirakçılarının şərəfinə zəngin bir süfrə açdırdı. Süfrənin açılışı Türkmənbaşının yanında əyləşmiş din xadiminin süfrə duası ilə başladı. Türkmənbaşı əlini süfrəyə aparandan sonra hamı yeməyə başladı. Süfrədə içki də bol idi. Başqa günlərdə həvəssiz, çox az içki içənlərin indi həvəslə içdiklərini gördüm.

Bizi qarşılayan və konfrans günlərində mənə çox sayğı ilə yanaşan Xarici İşlər Nazirliyinin əməkdaşı Kamil yanıma gəlib pıçıltı ilə: “Əli bəy,

buradakı içkilərdən və şokoladdan heç yerdə tapa bilməzsiniz. Sərdarın xüsusi sifarişi ilə hazırlanıb. Mütləq dadına baxın" dedi. Süfrədəki araq butulkasını sakitcə alıb, diqqətlə gözdən keçirdim. Üzərinə "Sərdar" yazılmışdı. Sərdarın Saparmurat Niyazova müraciət forması olduğunu bilirdim, amma araq və şokolad adı olduğunu bilmirdim. Mən də zarafatla Kamilə dedim: "Mən içmirəm, amma süfrədən duranda payımı aparacam. Bakıda qurman (dequstator) tanışlarıma içirdəcəm. Görüm dediklәriniz nə qədər doğrudur." Kamil həyəcanla üzümə baxdı. Elə bildi, mən həqiqətən də süfrədən araq götürüb sallaya-sallaya aparacağam. Həyəcanla dedi: "Onda məni cəzalandıracaqlar. Özü də çox sərt. Amandır, elə bir iş etməyin. Mən bufetdən araq götürüb sizin çantaya qoyaram. Amma siz buradan araq götürməyin" dedi. Mən zarafat etdiyimi söyləsəm də, məclisin sonunadək Kamilin məni izlədiyini gördüm. Asılqandan konfransda bizə verilmiş çantamı götürəndə ağır olduğunu hiss etsəm də, açmadım. Otağa gələndə gördüm, mən "zarafat edirəm" desəm də, Kamil sözünün üstündə durub, çantama iki butulka "Sərdar" qoyub. Bakıya gələndə "Sərdarı" özlərini içki bilicisi sayan dostlarıma verdim, heç

nə demədim. İçib bərk tərifladilər və haradan aldığımla maraqlandılar, yenə alıb gətirməmi istədilər. Türkmənistandan gətirdiyimi deyəndə çox təəccübləndilər. İnana bilmirdilər ki, Türkmənistanda belə araq istehsal edilir.

Göytəpə faciəsi

Vadim Massonun konfransın təşkilatçıları sırasında olması yalnız rusiyalı araşdırıcıların, arxeoloqların çoxluğunu təmin etməmişdi. O, uzun illər Aşqabaddan 18 kilometr aralıdakı qədim Nissa şəhərinin xarabalıqlarında arxeoloji qazıntı aparmış, əsərlərinin çoxunu da buraya həsr etmişdir. Miladdan öncə 3-cü yüzildən miladın 3-cü yüzilliyinə kimi Parfiya şahlığının ən əzəmətli şəhəri, şahların möhtəşəm sarayları olan yer kənardan torpaq təpələrini xatırladır.

Konfrans iştirakçılarını Nissa xarabalıqları ilə tanışlığa da apardılar. Qədim dövrdə burada tikintidə çiy kərpicdən, möhrədən istifadə edildiyindən zəlzələlər binaları uçurmuş, qar-yağış suları kərpicləri yumuşdur. Xarabalıqları gəzən insan bir zaman buranın əzəmətli şəhər olduğuna, sarayların varlığına inana bilmir. Şəhər xarabalıqları və ətrafı bomboz çöldür.

Necə deyərlər, diş qurdalamağa bir çöp belə tapmaq olmaz. Adamda sual yaranır, böyük şəhərin əhalisi suyu haradan alırmış? Bağ-bağçasız necə yaşayırlarmış?

Yalnız Nissa xarabalıqları deyil, 1881-ci ildə rus ordularının xarabaya çevirdiyi Göytəpə şəhərinin görünüşü də Nissan xara balıqlarından seçilmir. Göytəpə şəhərinin xarabalıqlarında Türkmənbaşı 1994-1995-ci illərdə Fransız Bouygues Construction firmasına bir məscid tikdirib. Böyüklüyünə görə Türkmənistanın ikinci məscidi sayılır.



Göytəpə məscidinin qarşısında. Soldan: Əli Şamil, türkmənistanlı Oğulcemal Annayeva, qazaxıstanlı Anel Kasimcanova

Göytəpəyə gedərkən yolda Göyçə kəndini gördük. Yadıma ata-baba yurdum olan Göyçə mahalını, Göyçə (Sevan) gölünü saldı. Qəribədir, Sovet dövründə Türkiyə və İranla yollar bağlı olduğundan gediş-gəliş, kitab, qəzet və jurnal gətirmək mümkün olmamışdı. Qazaxıstan, Özbəkistan, Türkmənistanla əlaqələri kəsilməmişdi. Onda nədən "Kitabi-Dədə Qorqud"dan yazan araşdırıcılarımız oradakı "Gökçə dənqizi", Göyçə kəndi və Göyçə sözü ilə bağlı onlarla toponimi, hidronimi nədən diqqətdən kənarda qoyublar. "Gökçə dənqizi" sözünü oxuyan kimi Göyçə (Sevan) gölündən başqa bu adla bağlı toponim və hidronimlərdən söz açmamışlar?!

Axı qədim dövrlərdə Oğuzlar Almalıq dağı ətəklərində yaşayanda indiki Balxaş gölü adlanan göl Gökçə dənqizi adlanırmış. Səlcuqlar batıya doğru hərəkət etdikcə Gökçə adını Özbəkistanda, Türkmənistanda, İranda, Qafqazda, Türkiyədə toponim və hidronimlərə möhür vuran kimi vurub getmişlər. Əhərlə Təbriz arasındakı aşırıma bu gün də Gökçəbel deyirlər. Türkiyədə neçə Gökçə adlı kəndə rast gəlmişəm. Batıya doğru getdikcə son gördüyüm Türkiyədəki Gökçə adadır. Nədənsə,

Türküstandan Egey dənizinədək olan xətt boyundakı Göyçə/ Gökçə/ Gögçə toponim və hidronimlərini araşdırmamışıq.

Aşqabadın 45 kilometrliyində olan Göytəpə məscidinin mavi gümbəzi və minarələri uzaqdan diqqəti cəlb edir. 1996-cı ildə istifadəyə verilən məscidin ətrafında yaşıllıq zolağı da salınıb. Ətrafında yaşayış məskəni olmayan bir yerdə belə nəhəng məscidin tikilməsini başa düşə bilmədim. Məscid adamların toplanması, namaz qılması, dua etməsi üçündür. Yaxınlığında yaşayış məskəni olmayan məscidə kim gələcək, kim namaz qılacaq ki? Buraya Aşqabadda keçirilən toplantı iştirakçılarını avtobuslarla gətirirlər. Xarici qonaqların əksəriyyəti namaz qılmır. Bundansa rusların Göytəpədəki qəddarlıqlarını göstərən bir muzey tiksəydilər, daha yaxşı olardı.

18-19-cu yüzillərdə bölgənin ən abad şəhəri olan Göytəpədə Rusiyanın işğalı ərəfəsidə 40 mindən çox adam yaşayırmış. 1880-ci ildə rus generalı Mixail Skoblev 6 minlik ordu ilə şəhəri mühasirəyə alır. Tıkma Sərdar Göytəpənin müdafiəsini təşkil edir. Ruslar topla və odlu silahlarla hücuma keçsələr də, möhrədən və çiy

kərpicdən olan qala divarlarını aşıb şəhəri ala bilmirlər.

Rus generalı Mixail Skoblev türkmən kankanlarına qala divarının altına tunellər vurdurur. Tunellərə barıt doldurur. Mühasirənin 24-cü günü, 1881-ci il yanvarın 12-də barıd partladılır. Divarlar tamam dağıdılır. Rus ordusu qalaya daxil olur. Şəhərdən qaçmaq istəyənləri rus süvariləri qılıncla doğrayır.

Göytəpə mühasirədə olanda türkmənlər imkan tapıb rus əsgər və zabitlərini öldürəndə general Mixail Skoblev vəhşicəsinə bağırırmış: "Təkə Türkmənlər yer üzündə bir qara ləkədir. O qara ləkə yox edilməlidir!" Məhdud dünyagörüşlü general Təkə Türkmənlərin İranda da, Azərbaycanda da, Osmanlı torpaqlarında da yaşadıqlarını bilsəydi, yəqin belə bağırmazmış. O, heç Türküstandakı Təkə Türkmənləri yox edə bilmədi. Özü ölüb getdi. On minlərlə insanın qanı bahasına aldığı torpaqlar 100 il sonra azadlığına qovuşdu.

Abad Göytəpənin yerində torpaq təpələrindən başqa bir şey qalmır. Amma Təkə Türkmənlər yovşan kimi ölkənin başqa kəndlərində, qəsəbələrində yaşadılar, artdılar, çoxaldılar. Bu gün Türkmənistanın ən nüfuzlu

tayfalarından biri, dövlət idarəçiliyində, orduda nüfuz sahibi yenə də Təkə Türkmənlərdir.



Şəkildə: soldan Əli Şamil, Moskvada yaşayan, türkmənistanlı, fəlsəfə elmlər namizədi Maya Kılıceva və azərbaycanlı professor Kamil Vəli Nərimanoğlu

Geri dönüş

Getdiyim şəhərlərin bazarlarını gəzmək, bəzən bir şey almasam belə, oraya muzey kimi baxmaq adətimdir.

Aşqabad şəhərinin mərkəzindəki böyük bazara əhalinin əksəriyyəti "Ofiser (rusca zabit deməkdir) bazarı" deyir. Bazara hədiyyələr almaq üçün gedəndə Kasım Nurbatovdan xəbər aldım ki,

ofiserin bazarla nə əlaqəsi? Niyə buraya "Ofiser bazarı" deyirlər?

Kasım Nurbatov köks ötürərək dedi: "Biz qəribə millətik. Bazarın adı keçmişdə türk tayfalarından olan ovşarların (avşar, əfşar) adından yaranıb. Bu bazarı quran, oraya gələn, mal satanlar əsasən ovşarlar olub. Ruslar ovşar sözünün mənasının tayfa adı ilə bağlı olduğunu bilmədiklərindən, dillərinə yatmadığından ona "ofiser bazarı" deyiblər. Biz də başlamışıq onların dediklərini təkrarlamağa".

Ovşar bazarından bir şey almasam da, Təkə bazardan nəinki quru meyvə, püstə, ərik dənəsi və b. çərəzlərlə yanaşı, çöldən yığılıb gətirilmiş təzə göbələk də aldım. Beləcə, konfransın rəsmi və qeyri-rəsmi hissəsini başa vurmuş oldum.

Gələndə axşam hava limanında bizi qarşılayan Kamil bəy günorta da hoteldən bizi götürüb Aşqabad hava limanına gətirdi. Biz buradan Türkmənbaşı şəhərinə uçacaq, oradan da gəmi ilə Bakıya gedəcəkdik. Gəldiyimiz kimi yenə də Roza Arazova, Tarix Dostiyev və mən birlikdə qayıdırdıq.

Təyyarə biletlərini gedəndə olduğu kimi geri dönəndə də mən aldım. Pasportlarını və biletlərini Roza xanımla Tarix müəllimə verəndə

sakitcə biletlərin pulunu cibimə qoymaq istədilər. Mən buna imkan vermədim. Hadisə elə nəzakətlə baş verdi ki, mən onlara aldığım biletin qiymətini deyə bilmədim. Üçümüz üçün təyyarə biletlərinə gələndə də, gedəndə də 12 dollara yaxın pul vermişdim. Niyə bu məsələyə belə önəm verirəm. 500-600 kilometrlik yolu təyyarə ilə getməyin qiymətinin belə ucuz olması maraqlı idi.

Azərbaycandan Qüdrət İsmayılov və Kamil Vəli Nərimanoğlu Aşqabaddan Bakıya Lufhanza şirkətinin təyyarəsi ilə getdikləri kimi həmin təyyarə ilə də geri qayıdırlar. Təyyarə bileti 700 dollardan yuxarıdır. Yəni Almaniyadan Aşqabada olan biletlə Bakıdan Aşqabada olan biletin qiyməti arasında elə bir fərq yoxdur. Bir saatlıq yolçuluğa bu qədər pul alınması soyğunçuluqdur.

Bakıdan Türkmənbaşına (Qızıl suya) kiçik təyyarələr 30-40 dəqiqəyə uçur. Türkmənistan Hava Yollarının təyyarələrinin belə reysləri təşkil etməsinə icazə verilərsə, təxminən 10 dollara, bəlkə də, ondan ucuz qiymətə Aşqabada getmək olar. Bu, yalnız Türkmənistanda yaşayan azərbaycanlıların qohumlarını görməyə getməsi

üçün deyil, həm də mədəni, iqtisadi əlaqələrimiz üçün də yaxşı olar.

Aşqabadda olarkən valyuta dəyişmə məntəqəsi görmədim. Valyuta bankda və hoteldə dəyişdirilirdi. Rəsmi kursla qara bazarda valyuta dəyişmə arasında fərq o qədər çox idi ki, hətta Amerikadan, Avropadan gələn imkanlı alimlər belə hədiyyə almaq üçün pullarını qara bazarda dəyişirdilər. Hotelin yaxınlığında, bazarlarda və şəhərin müxtəlif yerlərində valyuta dəyişilmirdi. Yalnız Əlyazmalar İnstitutunun yaxınlığındakı evlərdə yaşayanlara valyuta verib Türkmən manatı almaq olurdu. Bir küçədə 4-5 ailənin valyuta alveri ilə məşğul olduğunu polis bilməmiş deyildi.

Rəsmi icazə ilə xarici ölkələrə gedənlərə hökumət banklardan valyuta almağa icazə verirdi. Xarici ölkələrdə olmuş tanıdıqlarımdan aldığım bilgiyə görə, onlara 200-300 dollar almağa icazə verilirdi. Bu məbləğ də xaricdə yəqin ki, çay pulunu və taksi pulunu ancaq ödəyərdi.

Qara bazarda bir dollara 24 min manat verdilər. Çörəyin də qiyməti 1000 manatdır. Yəni bir dollara 24 çörək almaq olur.

Türkmənbaşı şəhərinə şər qarışanda çatdıq. Hava limanında bizi yenə də Xarici İşlər

Nazirliyinin oradakı nümayəndəsi Kamil qarşıladı. Konfransın neçə keçdiyi ilə, bizim razı qalıb-qalmadığımızla maraqlandı. Biz də təşəkkürümüzü bildirdik. Kamil bəy bizi dəniz limanına gətirdi.

Gedəcəyimiz gəminin vaxtını öyrənmək üçün qapısına Yükdaşıma və Xarici Əlaqələr İdarəsinin rəisi yazılmış otağa girdi. Təxminən 40 yaşlarında bir nəfər öndə, Kamil bəy də arxasınca yanımıza gəldilər. Yeni görüşdüyümüz adam özünü təqdim etdi və bizi kabinetinə apardı.

Kamil bəy içəridə olarkən bizim haqqımızda Murad bəyə bilgi vermişdi. Murad bəy bizi köhnə tanışlar kimi çox səmimi qarşılayır. Əyləşməmiz üçün iş stolunun arxasında deyil, kabinetindəki divan-kreslolarda oturmağı təklif etdi. Özü də bizimlə yanaşı əyləşdi. Bu zaman iki çaynikdə çay və armudu stəkanlar, mürəbbə gətirirlər. Murad bəy çaynikdəki çayların birinin bizim alışdığımız qara çay, o birisinin də Türkmənistanda çox içilən göy çay olduğunu bildirir. Armudu stəkanlar və mürəbbə Murad bəyin azərbaycanlıların çay içmə alışqanlığına bələdliyindən xəbər verirdi.

Çay süfrəsi arxasında keçən söhbətimiz çox səmimi alındı. Elə bil Türkmənistanda deyildik. Murad bəy çox sərbəst danışırdı. Söhbətinin əsas mövzusu Türkmənbaşıdakı limanın 1991-ci ilədək Xəzər Dəniz Gəmiçiliyi İdarəsinin tabeliyində olduğundan, onda işlərin yaxşı getdiyindən, indi vəziyyətin ağırlığından danışdı. O, yükdaşımanın azaldığından, texniki qurğu və avadanlıqların köhnəliyindən, idarəetmənin normal olmadığından şikayətləndi.



Türkmənbaşı dəniz limanında Murad bəyin kabinetində

Söhbətindən ali məktəbi bitirəndən sonra limanda işə başladığını, tez-tez Azərbaycanda olduğunu öyrəndik. Onun azərbaycanlı dostları və tanışları arasında yalnız liman işçiləri, dənizçilər deyil, başqa peşə sahibləri, incəsənət adamları da vardı.

Söhbətin axarına uyğun olaraq mən də fikirlərimi bölüşməyə çalışdım. Azərbaycanla Türkmənistan federativ və konfederativ bir dövlət olarsa, problemlərin çoxunun aradan qalxa biləcəyini, hər iki respublikanın iqtisadiyyatının inkişafına təkan olacağını, mədəni əlaqələrimizin genişlənəcəyini dedim. Murad bəyin stəkan əlində qaldı. Heyrətlə mənim üzümə baxaraq: "Azərbaycanda sizin kimi düşünənlər çoxdurmu?" dedi və cavab verməmi gözləmədən də "Harada işləyirsiniz? İxtisasınız nədir?" deyə xəbər aldı. Mən ixtisasca jurnalist olduğumu, AMEA Folklor İnstitutunda işlədiyimi və Azərbaycanla Türkmənistanın bir dövlət şəklində birləşməsini istəyənlərin çox az olduğunu bildirdim. Murad dərindən köks ötürərək: "Az olduğumuza görə bu gündəyik" dedi və söhbətin mövzusunu dəyişdi.

Gəmidə yükvurma getdiyini, işlər başa çatandan sonra bizi gəmiyə aparacaqlarını söylədi. Onu yormamaq və işindən ayırmamaq üçün icazə istəyib ayağa qalxanda təkidlə oturmağımızı xahiş etdi. Biz onun sözünü yerə salmadıq. Kabinetindən telefonla kimlərəsə zəng vurdu. İki nəfər gəldi. Yüngül bir süfrə açdılar. Türkmən-Azərbaycan xalqlarının şərəfinə badə qaldırdıq. Onlar Azərbaycandakı dostlarını, onlarla keçirdikləri xoş günləri, biz Türkmən dostlarımızı yada saldıq. Məlum oldu ki, Murad, Kasım Nurbatovun Türkmənbaşıda yaşayan qohumlarını yaxından tanıyır. Qısa bir zaman içində çox mehribanlaşdıq. Ünvanlarımızı paylaşdıq ki, onlar Bakıya gələndə, biz Türkmənistana gedəndə görüşək.

Maraqlı söhbətimiz gəmi hərəkət edənə kimi davam etdi. Murad bəy və yoldaşları bizi gəminin kayutlarına gətirib sahilə döndülər. Bilet almağımıza ehtiyac olmadığını dedilər.

Türkmənistana gedib-gələnlərdən gömrükdə və sərhəd xidmətində olanların pul qoparmaq xatirinə adamları incitdiyini, hətta belə bir səfərə çıxdıqlarına peşman etdiklərini çox eşitmişdim. Amma bizi yola salanlara görə heç bir əziyyət çəkmədik. İstər gedəndə, istərsə də geri dönəndə sanki gömrük işçilərini və sərhədçiləri

görmədik. Pasportlarımızı bizi yola salanlara və qarşılayanlara verməklə kifayətləndik. Gəmidə sərnişin kimi bizdən başqasını da görmədik.

Gəmi işçilərinin maaşı o qədər aşağı idi ki, biz bir məbləğ pul yığıb onlara verdik. Bu da bizim kapitan köməkçisi ilə münasibət qurmamıza səbəb oldu. O, 20 yanvar gecəsi limanda dənizə çıxmağa hazırlaşan gəmidə olubmuş. Həmin geçə baş verənlərdən danışdı. Gəmiçilərin həmrəylindən söz açanda özü də kövrəldi, bizi də kövrəltdi. Hərbi gəmilərin Bakı limanına girməsinin necə qarşısını aldıqlarından, hərbi gəmilərin taranla qarşısını almağa cəhd göstərdiklərindən, SSRİ Dənizçilik Nazirliyinin yüksək vəzifəlilərinin Bakı dənizçilərinə təzyiq göstərməyə, təhdidlər etməyə çalışsa da, heç bir şeyə nail olmadığından xeyli söhbət etdi.

Sovet hərbçilərinin Azərbaycan Televiziya və Radio ötürücüsünün enerji blokunu partlatdıqlarından Bakıda baş verənlər haqqında informasiya yayılmırdı. Onda Bakı limanında olan gəmilərin radistləri əlbirlik nümayiş etdirərək, dünya okeanlarında üzən Azərbaycan gəmiləri ilə əlaqəyə girib, hərbçilərin dinc əhaliyə divan tutduqları haqqında bilgi veriblər.

Onlardan da xahiş ediblər ki, bu bilgiləri sürətlə yaysınlar.

Gəmi radistlərinin arasından xarici dilləri bilənlərin olması da Bakı qırğını haqqında xəbərin geniş yayılmasına səbəb olub.

Dənizçilərimizin hünəri layiqincə qiymətləndirilmədiyi kimi onların yaydıqları radioqramlar, aldıqları cavablar da indiyədək toplanıb çap edilməyib. Nəşr edilsə 20 yanvar hadisələrinin dünyaya yayılmasına aydınlıq gətirən dəyərli sənəd olardı.

Səhərisi gün şər qarışanda Bakı limanına çatdıq. Türkmənistanın Azərbaycandakı səfirliyinin əməkdaşları bizi qarşılayıb evimizə kimi yola saldılar.

Türkmənistan haqqında düşüncələrim və ya yazıma son söz

Sovetlər Birliyinin çöküşü başlayanda Türkmənistanda nə mitinqlər oldu, nə də tətillər. Necə deyərlər, Türkmənistan qansız-qadasız, mübarizəsiz müstəqilliyini əldə etdi. Buna baxmayaraq, onun da iqtisadiyyatına ağır zərbə dəydi. Sovet dövründəki fabrik və zavodların istehsal etdiyi məhsulları alan olmadı.

Avadanlıqları və dəzgahları sıradan çıxdı. Xarici ölkələrlə Türkmənistanın birbaşa əlaqəsi olmadığından və yeni yaranmış hökumətin büdcəsində valyutanın yoxluğundan dəzgah və avadanlıqları, bir sözlə, texnologiyanı yeniləyə bilmədilər.

Ən gəlirli sahə sayılan pambıqçılıq iflic vəziyyətinə düşdü. Lakin bu çox da uzun sürmədi. Ölkədə zəngin qaz yataqlarının olması iqtisadiyyata öz təsirini göstərdi. Xarici ölkələrə qaz satıb valyuta əldə edə bildilər. Türkiyə iş adamlarının köməyi ilə Aşqabad yaxınlığında yeni texnologiya ilə işləyən bir pambıq əyirmə və toxuculuq fabriki qurdular. Fabrikdə istehsal edilən cins kişi və qadın kostyumlarını, uşaq geyimlərini Amerika və Avropa ölkələrinin bazarlarından almaq olur, amma Azərbaycanda tapmaq olmur.

Fabrikdə toxunan döşəkağı, balıncüzü, hamam xalatı, dəsmal, cins parçadan geyimlər və başqa əşyalar keyfiyyətcə Türkiyədə və Avropa ölkələrində hazırlananlardan heç də geri qalmır. Qiymətləri isə oradakılardan iki dəfə ucuzdur. Konfransa gələn qonaqların əksəriyyətinin döşəkağı, balıncüzü dəstləri, geyim aldığını gördüm. Türkmən xalçaları adla deyilsə də, onu

almaq istəyənlərin sayı çox az idi. Bunun da səbəbi bazardan və mağazadan alınan xalı və xalça məmulatını gömrükdən keçirərkən başağrısı yaradılması idi. Xalı və xalça məmulatı alan adam mütləq gedib Mədəniyyət Nazirliyinin hansısa bir idarəsinə pul verib aldığı xalının tarixi əhəmiyyət daşımadığı haqqında sənəd almalıdı.

Türkmənistanın şəhər və kəndləri nəhəng bir tikinti meydanına çevrildi. Avropa standartlarına uyğun şosse yollar çəkildi. Aşqabadı 10-15 il öncə görənlər bu gün onu tanıya bilmirlər. Ağ mərmər üzlüklü saraylar, hotellər, məktəblər, muzeylər ucaldılıb. Gözəl parklar salınıb, yaraşıqlı və müasir tələblərə cavab verən hava limanı istifadəyə verilib.

İlk baxışda hər şey gözəl və əhalinin maddi rifahı baxımından yaxşı, yüksək səviyyədə görünür. Ölkədə su, qaz, duz, yod və s. tam pulsuzdur. Elektrik enerjisi isə adambaşına 35 kilovat pulsuz, ondan artıq işlədildikdə isə cüzi pul ödəməklə istifadə edilir.

Burada istər yerli jurnalistlərin, istərsə kənardan gələnlərin həyatı həmişə təhlükədədir. Çəkdiyin bir fotoda xarabalıq, köhnə bina varsa, qanın getdi. Həbs ediləcək və sorğu-suala tutulacaqsan. Xaricdən gələnlərin sərbəst gəzməsinə

icazə verməmdikləri kimi, istədiyin yerdə foto çəkməyə də icazə verilmir. Küçələrin kəsişdiyi yerlərdə, parklarda gecə və gündüz 2-3 polis bir tərəfdə, 2-3 hərbçi o biri tərəfdə gəzişir. Şəkil çəkmək istəyərkən yaxınlaşıb sorğu-suala tutur, haradan gəldiyinlə, nə çəkdiyinlə maraqlanır. Məhdud dünyagörüşlü və biliksiz bu adamları başa salmaq çox çətin olur. Çünki onlar nəinki qanunları, onlar üçün verilmiş təlimatları belə doğru-düzgün bilmirlər.



Gəmi ilə Bakıya dönərkən. Soldan: Əli Şamil, tarixçi Roza Arazova və gəmi kapitanının köməkçisi

Səni saxlayan, sorğu-suala tutan polis və ya hərbçiyə polis bölməsinə gedək deyəndə qaçıb aradan çıxmağa can atır.

Elə bil N.S.Xruşşovun vəd verdiyi kommunizmin birinci mərhələsinə Türkmənistan çatıb.

Əslində bütün bunlar avtoritarizmin bəhrəsidir. Xalq bütövlükdə bundan əziyyət çəkir və Türkmənbaşı olmayanda da uzun illər bunun acısını çəkəcəkdir.

Hər şey ucuz olan bu ölkədə əmək haqqı olduqca aşağıdır. Hamı qorxu içərisində yaşayır. Türkmənistandakı ucuzluq israfçılığa, təsərrüfatsızlığa gətirib çıxarır. Xalq öz qazancının haraya və necə xərcləndiyinə nəzarət edə bilmir.

Tükmənbaşının milli şüuru oyatmaq, tarixi yaddaşı bərpa etmək sahəsində xidmətləri nə qədər böyük olsa da, xalqı gözüqıpıq etmək, yaltaq və məddah bir kütləyə çevirməsi ondan daha çox təhlükəlidir.

Saparmurat Türkmənbaşının portretlərinin, heykəllərinin, büstlərinin sayı Sovet dönəmindəki Leninkindən çoxdur. Onun atasının, anasının, hətta atının da heykəllərini qoyublar. Muzeylər, əyləncə yerləri də bu ailənin adıyla bağlıdır. Nəinki pulun üstünü, hətta şokoladların, konfetlərin, araq, konyak butulkalarının üzərini də Türkmənbaşının portretləri

bəzəyir. 50 ilin əkinçisinə, ilxıçısına, dəvəçisinə, mexanizatoruna, müəlliminə, bir sözlə, bütün peşə sahiblərinə kim dərs verir: Əlbəttə, Türkmənbaşı! Ölkədə belə bir əhval-ruhiyyə yaradılıb: Türkmənbaşı hər şeyi yaxşı bilir və hamının əvəzinə düşünüb tədbir görür.

Ömürlük prezident seçilmiş Saparmurat Türkmənbaşı, millətin sərdarıdır və onun başqa neçə-neçə titulları var. Şəhərlər, qəsəbələr, küçələr onun adı, titulları və ata-anasının adıyla adlandırılır. Avtoritar rejimin bütün xüsusiyyətlərini bu ölkədə görmək olar. Qəribəsi budur ki, istər Saparmurat Niyazov Türkmənbaşı, istər onun ətrafına toplaşan yaltaq və məddahlar heç vəchlə nəhəng Sovet imperiyasının məhvindən ibrət götürmürlər. Hətta iqtisadi məsələlər haqqında sərbəst fikir söyləməyə heç kim cəsarət etmir. Cəsarət edənlər sərt cəzalandırılırlar. Mətbuat, radio və televiziya dövlət monopoliyasındadır.

Saparmurat Türkmənbaşı özünü ömürlük prezident seçdirsə də, zaman öz işini görür. Heç kim dünyanı tutub durmadığı kimi Türkmənbaşı da əbədi yaşamayacaq. O, başını yerə qoyan kimi heykəlləri də götürüləcək, onun adına olan

şəhər və qəsəbələrin, küçələrin də köhnə adları özünə qaytarılacaq.

Dünyanı bir demokratikləşmə havası, xalqların özünü tanıma istəyi bürüyür. Bu da Azərbaycanla – Türkmənistanı avtoritar rəhbərlərin istəyindən asılı olmayaraq yaxınlaşmağa vadar edir. Bu yaxınlaşma, bəlkə də, hər iki ölkəni federasiya və ya konfederasiya şəklində birləşməyə gətirib çıxaracaqdır. Avropa Birliyi modeli özünü doğruldursa, niyə türk xalqlarının birliyi ideyasına şübhə ilə baxılsın?

15-27 ktyabr 2000-ci il

"Aşqabada: mədəni irs konfransına" yol qeydlərim "Ayna" qəzetinin 2002-ci il oktyabrın 18 çap olunmuş (sayı 41, səh. 10) "Türkmənistan milli oyanışla avtoritarizm arasında" adlı məqaləm əsasında hazırlanmışdır. 2021-ci ildə "Elm və təhsil" nəşriyyatının çap etdiyi "Parçalanmış Türküstanı gəzərkən" (262-319) məqaləsi alınaraq burda verilmişdir.

DAŞOĞUZA NƏDƏN DAŞKƏND, ÜRGƏNC MARŞURUTU İLƏ GETDİM

2009-cu il sentyabrın 23-25-də Türkmənistanın Daşoğuz şəhərində "Koroğlu süjeti və Şərq ədəbiyyatı" mövzusunda simpozium keçiriləcəkdi. Simpozium üçün göndərdiyim məruzə qəbul edilmişdi. Məruzəmin qəbul ediləcəyini öncədən Annakurban Aşırov demişdi.

Daşoğuz simpoziumuna mən nə uğurlarımı nümaiş etdirmək, bölgənin tarixi abidələrini görmək, gəzmək məqsədilə getmirdim. Elmi simpozumlara səfərləri planlaşdırarkən heç vaxt gəzmək, istirahət etməyi düşünməmişəm. Əsas məqsədim aydınlarla görüşmək, onlarla Türk xalqlarının yaxınlaşmasını yollarını axtarmaq olub. Necə deyərlər səfərlərimin görünən tərəfinin arxasında bir görünməyən tərəfi də olub.

"Koroğlu süjeti və Şərq ədəbiyyatı" simpoziumuna getməyimin arxa planında Daşkəndə getmək, akademiyanın Til və Ədəbiyyat İnstitutunun rəhbərləri ilə görüşmək planı dururdu.

Ata babaları Elazıq Ələvilərinin dədələrindən olan olan dos. Ali Yamanla 2006-ci il mayın 25-27-də Türkiyənin Urfa şəhərində keçirilən "GAP bölgəsində Ələvi-Bəktaşı yerləşimləri və Şanlıurfa kültür mozagində (çoxrəngliliyində) Kisas" mövzusunda Uluslararası simpoziumda tanış olmuşduq. Oxuduğum "Koroğlunun Urfa səfəri və dastanda Ələvi-Bəktaşı gələnəği" məruzə deyəsən diqqətini çəkmişdi.

Koroğlu mövzusunda söhbət edərkən Ali Yamana çalışdığım AMEA Folklor İnstitutu ilə onun işlədiyi Bolu şəhərindəki Abant İzzet Baysal Universitetinin birgə elmi simpoziumunu keçirməyi təklif etdim. Simpoziumun mövzusu da Türk xalqları arasında geniş yayılmış qəhrəmanlıq dastanı "Koroğlu" olsun. Ali Yaman təklifimi bəyəndi. Hələ ikimizin razılığa gəlməyimiz problemi həll etmirdi. Hər ikimizin vəzifəsi kiçik olduğundan onu reallaşdırmaq üç il çəkdi.

Ötən müddətdə boş durmadıq, internetdə yazışdıq, görəcəyimiz işləri planlaşdırdıq. Qərarlaşdırdıq ki, bizim çalışdığımız elm ocaqları ilə kifayətlənməyək, buraya Türküstandakı elm və təhsil ocaqlarını da qataq.

Bizim təklifi işlədiyimiz təşkilatların rəhbərləri də bəyəndilər. Onların icazəsi ilə Özbəkistanın, Türkmənistanın, Qazaxıstanın, Qırğızıstanın elmi-tədqiqat institutlarının, ali məktəblərin rəhbərlərinə məktublar göndərdik, orada çalışan tanışlarımızı işə qoşduq.

2007-ci il noyabrın 13-15-də Aşqabadda keçirilən "Abulsait Abulhayrı gündoğarın böyük ağıldarı. Uluslararası İlmi Konfransı"nda "Miras" Mədəni İrsin rəhbəri, Türkiyədə Türkmənistan Respublikasının səfiri işləyərkən tanış olduğumuz Annakurban Aşirovla görüşdüm. Ona Türkiyədəki Abant İzzet Baysal Universiteti və AMEA Folklor İnstitutunun "Koroğlu" dastanı mövzusunda birgə konfrans keçirmək istədiyini, bütün xərcləri Türkiyə tərəfi ödəyəcəyini söylədim. Ondan Türkmənistanı da bu təşkilata qatmasını xahiş etdim. O, təklifimi alqışladı. Lakin qatılacaqları haqqında qəti bir söz demədi. "Baxarıq" deməklə kifayətləndi.

Heyif ki, Türkmənistanda olduğu kimi, Qazaxıstanda, Qırğızıstanda, Tatarıstanda və Başqırdıstandai da şəxsi tanışlarım işlədikləri elm ocaqlarının rəhbərlərini razı sala bilmədilər.

AZƏRTAC-ın Türküstandakı müxbiri Qulu Kəngərlini də işə qoşmuşdum. O, çox get-gəldən

sonra Özbəkistan EA Til və Ədəbiyyat İnstitutunun direktoru, akademik Törə Mirzəyevin razılığını ala bilmişdi.

2009-cu il martın 11-13-də Aşqabadda keçirəcəkləri "Səlcuqlar dövrünün ədəbiyyatı və mədəniyyəti adlı xalqlar məsləhəti" simpoziumuna gedəndə Annakurban Aşirov dedi ki, yazdığın məktubları oxuyuram. Bilirsən ki, Azərbaycanla, Özbəkistanla Türkmənistan arasında diplomatik vəziyyət istədiyimiz kimi deyil. 2009-cu il sentyabrın 23-25-də Daşoğuz şəhərində "Koroğlu süjeti və Şərq ədəbiyyatı" mövzusunda simpozium keçirməyi plana saldırmışam. Tanıdığın, arzuladığın araşdırıcıların adlarını və soyadlarını Kakacan Janıbəyova göndər. Kakacan sənin xatirini çox istəyir və sənə inanır. Ona da tapşıracam, məsləhət bildiyin adamları diqqətdə saxlayacaq.

2009-cu ilin martın 28-də Ali Yaman Bakıya gəldi. İşlədiyi Universitetin rektorunun vəkili kimi bizim institutun direktoru ilə müqavilə imzaladı. Müqavilənin bir surətini də Qulu Kəngərliyə göndərdik ki, Törə Mirzəyevə imzalatsın. Çətin də olsa, Qulu bəy bu işin öhdəsindən gəldi. Beləliklə, 2009-cu ilin oktyabrın 17-18-də Abant İzzət Baysal Universiteti Bolu Xalq Kültürünü

Araşdırma və Uygulama Mərkəzi (BAMER), AMEA Folklor İnstitutu və Özbəkistan Respublikası Fanlar Akademiyası Til və Ədəbiyyat İnstitutu birgə "Birinci Uluslararası Koroğlu, Bolu tarix və kültürü simpoziumu" keçirməyi planlaşdırdı.

Özbəkistana yolçuluq planım

Qərar qəbul edilmiş, müqavilə imzalanmış, dəvətnamələr göndərilmişdi. Amma siyasi duruma görə özbək qardaşlarımız çox astagəllik edirdilər. Mən durumu aydınlaşdırmaq, onları bir az ruhlandırmaq, sözlərindən qaçmamağa təhrik etmək üçün Daşkəndə getməyi qərara aldım. Yolpulunun ödənməsinə nə mənim, nə də idarəmizin imkanı vardı. Bunun üçün Türkmənistanın Daşoğuz şəhərində keçiriləcək simpoziumun verəcəyi yolpulundan yararlanmağı qərara aldım. Daşkəndə gedən təyyarə reyslərini öyrəndim.

Türkmənistandan gələn dəvət məktunda yazmışdılar ki, bilet alıb gəlin. Yol pullarınızı burada ödəyəcəyik. Bu məktub əsasında mən 800 dollara yaxın ödəyib Lufhanza şirkətinin 55 dəqiqəyə Bakıdan Aşqabada uçan təyyarəsi ilə

getməli, gecəni bizim üçün ayırdıqları 5 ulduz hoteldə keçirməli, səhər tezdən də simpozium təşkilatçılarının aldığı biletlə Aşqabaddan Daşoğuza uçmalıydım. Bilet baha olsa da, ən rahat yol bu idi.

Mən ölçüb-biçdikdən sonra Özbəkistan Hava Yolları Şirkətinin təyyarəsinə bilet almağı qərarlaşdırdım. Bilet ucuz olsa da, yol uzun və yorucu idi. Daşkənddə Til və Ədəbiyyat İnstitutunun rəhbərliyi ilə görüşmək və onların Boluda keçiriləcək simpoziuma getmələrini qətiləşdirmək üçün uzaq və ağır yolu seçdim.

Bakıdan Daşkəndə, oradan da yerli reyslə Ürgəncə getməyi, Aşqabadda keçirilən simpoziumda tanış olduğum Ürgənc Universitetinin professoru Jumaboy Yusupovla görüşüb birlikdə Daşoğuza getməyi qərarlaşdırdım. Bakı-Daşkənd-Ürgənc təyyarəsinə isə gediş-dönüş bileti 600 dollardan bir az çox idi.

"Koroğlu" süjeti və Şərq ədəbiyyatı" mövzusunda təşkil ediləcək simpoziumun ağırlığını daşıyan Kakacan Janıbekova vəziyyəti yazdım. Dedim ki, maliyyə idarələrindən mənim Özbəkistandan gəlməyimə icazə alsın. Özbəkistandan gələrəmsə, təşkilatınız 200 dollara qənaət etmiş olar. O, iki gün sonra mənə

yazdı ki, maliyə işçiləri üçün biletin ucuzluğu, bahalığı önəmli deyil. Onlar hər şeyə şübhə ilə yanaşırlar. İnadla deyirlər ki, dostunuz Lufhanza şirkətinin təyyarəsi ilə niyə gəlmir? Çox çətin də olsa, razılıq ala bildim.

Kakacan Janıbekovun xoş xəbərindən sonra Özbəkistan Hava Yolları şirkətindən bilet aldım.

Til və Ədəbiyyat İnstitutunda

Özbəkistan Elmlər Akademiyas Til və Ədəbiyyat İnstitutunun direktoru, akademik Törə Mirzəyev məni kabinetində əyləşən araşdırıcılara tanıtdı. Sonra əsas mövzuya keçdi. Simpoziuma hazırlığın vəziyyəti ilə maraqlandı. Hər şeyin yolunda olduğunu, yalnız onların bilet alıb Türkiyəyə getməli olduğunu eşidəndə üzü güldü.

Ürgənc və Xivə ilə tanışlıq

Sözdə hər şey gözəl getsə də içimdə bir narahatlıqla Ürgəncə uçdum. Sentyabrın 21-də saat 9.30-da professor Jumaboy Yusupov oğlu Muradla məni qarşıladı. Həmin gün Ürgənc Universitetinə gedib rektorula və Özbəkistanın

tanınmış folklor araşdırıcısı Saparmurat Razumbayev görüşdük. Xivəyə getməyimiz, orada görüşdüyün adamlarla söhbətlərim mənə unudulmaz günlər yaşatdı. Səhəri gün Daşoğuza yola düşdük.

Sərhəd keçid məntəqəsində qalmaqal

Sərhəd-keçid məntəqəsində qonaq olduğuma görə yoldaşlarım məni irəli verdilər. Özbəkistan tərəfdən problemsiz keçdik. Gömrük işçiləri çantalarımızı açdırıb baxmadan, sərhədçilər sorğusual etmədən pasportlarımıza möhür vurub növbədənkənar yola saldılar.

Türkmənistan tərəfdə də gömrük işçiləri bir söz demədilər. Sərhədçi isə pasportumu o tərəf, bu tərəfə çevirib diqqətlə səhifələyib yana qoydu və yoldaşlarımın pasportlarına möhür vurub qaytardı. Mən pasportumu nədən qaytarmadığını soruşanda sərhədçi saymazyana "vizanız yoxdur" dedi. Onun saymazyana hərəkəti məni əsəbləşdirdi. Qatlanmış orta barmağımın arxası ilə sərhədçinin qarşısındakı taxtanı tıqqıldadaraq "taxta səs verir, sənin başın səs vermir! Diqqətlə oxu, mənim pasportum xidməti pasportdur" – dedim.

Hərəkətim sərhədçini özündən çıxardı. Şüşənin arxasından mənə bağırdı ki, başqalarına mane olmayım, yolu açım. Mən də ondan bərk bağırdım ki, növbə rəisini çağırın. Səs-küyümüzə Jumaboy Yusubov geri dönmək istədi ki, mənə kömək etsin. Onu mənim yanıma gəlməyə buraxmadılar.



Daşoğuzda konfrans iştirakçılarının qarşılanması.

Səs-küyə yanında iki əsgər olan bir zabit gəldi. O, nə baş verdiyi ilə maraqlanmadan mənə hirsləndi ki, niyə qaydanı pozuram. Mən də əsəbiliklə onu acıladım və işlərini

bilməməkdə, savadsızlıqda suçladım. Dedim ki, Türkmənistan Xarici İşlər Nazirliyi xidməti pasportu olanlardan viza tələb etmir. Siz nə haqla məndən viza tələb edirsiniz?

Zabit məni boğmağa hazır olsa da, sərhədçinin əlindən pasportumu aldı və açıb baxmadan əsəbiliklə "Xidməti pasportunuz olsa da, miqrasiya xidmətindən icazəniz yoxdur" – dedi. Əsəbi olsam da, özümü toparlayıb, istehza ilə gülərək: "Əlifba bilirsinizmi? Əlifbanı tanısaydınız, miqrasiya xidmətinin siyahısında mənim adımı oxuyardınız. Biz birlikdə Daşoğuza simpoziuma gedirik. Siyahıda da 4 alimin adı var. Siz savadsızsınızsa, mən neyləyim" dedikdə zabit və onunla gələn sərhədçilər şüşə ara-kəsmənin o tərəfindən fırlandılar ki, gəlib məni harayasa aparsınlar. Bu zaman ortaboylu bir nəfər içəri daxil oldu. Sərhədçilər, görünür, onu tanıdıqlarından özlərini yığışdırdılar. O, mənimlə əl verib görüşdü və zabiti tənəli baxışla süzüb: "Hakimin qonaqlarını beləmi qarşılayırsınız?!" dedi.

Zabit sakit geri dönüb sənədlərə möhür vuran sərhədçini yerindən qaldırdı, siyahıya baxıb mənim pasportuma möhür vurub özümə qaytardı. Bizi qarşılamağa gələn nümayəndə ilə

çölə çıxıb maşınlara mindik. 15-20 dəqiqə sonra Daşoğuzdakı simpozium iştirakçılarının qalacağı Diyarbəkir hotelinə çatdıq. Hoteldə yerləşəndən sonra Jumaboy Yusubov dedi ki, saxlandığını Daşoğuz vilayət İcra Hakimiyyətinin nümayəndəsinə deməsəydik, səni müxtəlif bəhanə ilə sərhəddə saxlayacaqdılar. Burada qanun-qaydaya deyil, özlərindən yuxarı vəzifədə olanların dediklərinə əməl edilir.

Bizi arağa qonaq edən kənd imamı

Axşam yeməyindən sonra Jumaboy Yusubov xahiş etdi ki, birlikdə Daşoğuzda yaşayan əmisi oğlunu görməyə gedək. Etiraz etmədim. Taksiyə əyləşib Jumaboy Yusubovun dediyi ünvana sürməsini istədik.

Şəhərin çoxmərtəbəli evlərindən sonra birmərtəbəli evlər başlandı. Dünyanın hər yerində şəhərlər böyüdükcə yaxınlığında olan kəndləri öz içərisində əridir. Daşoğuzda da belədir.

Birmərtəbəli evlərdən birinin qarşısında dayanırıq. Jumaboy Yusubovun səsinə bizdən 5-10 yaş kiçik bir qadın çıxıb evə dəvət etdi. Az keçməmiş 50-60 yaşlarında, saqqallı bir kişi içəri girdi. Jumaboyla qucaqlaşıb öpüşdü, bir az

da kövrəldilər. Ev sahibi mənimlə də görüşəndən sonra xanımına çantadakı arağı soyuducunun buzluğuna qoymasını tapşırdı.

Jumaboy Yusubov hoteldə mənə əmioğlusunun kənd məscidinin imamı olduğunu demişdi. Buna görə özümlə Türkiyədə nəşr edilmiş, zərli Qurani-Kərim, təsbeh və canamaz götürmüşdüm. İçəri girəndə onları evin xanımına Azərbaycandan hədiyyə kimi vermişdim.

Ev sahibi əlhəşir edir, xanımına və evdəkilərə göstərişlər verir, Jumaboy Yusubov da onu sakitləşdirməyə çalışırdı. Söhbətlərindən başa düşdüm ki, ev sahibi bölgəsəl yeməklər hazırlatmaq istəyir, Jumaboy Yusubov da onlara əngəl olurdu. Yeyib gəldiyimizi söyləyirdi. Sonda razılığa gəldilər ki, yüngül bir süfrə ilə keçinsinlər.

Məscid imamı əmioğlusunun həvəsini nəzərə alıb soyuducudakı yeddi yüz əlli qramlıq arağı süfrəyə gətirtdi. İndiki vəzifəsini də, dini inancının qadağan etməsini də yaddan çıxardaraq gənclik illərində keçirdikləri günlərdən, yeyib-içmək məclisindən danışa-danışa araq içməkdə Jumaboy Yusubova yoldaşlıq edirdi. Söhbətin mövzusu tez-tez dəyişirdi. Ən çox da ötən günlərin xiffəti edilirdi. Həmişə özbəklərlə türkmənlərin mehriban yaşadıqları

bölgədə özbəklərin sıxışdırılmasından, sərhəd rejiminin sərtliyindən gileylənirdilər. Söhbətlərindən başa düşürdüm ki, xeyir-şərə vaxtında gedə bilmirlər, bölgədəki məmurların sırasında özbəklər gündən-günə azalır. Buna görə də Daşoğuz vilayətindən Özbəkistana köçənlərin sayı artır.

Jumaboy onu da bildirdi ki, arxın suyunu duruldub içmək üçün, yararlı hala salmaq məqsədilə vaxtilə Xivə xanı burada daşdan böyük hovuz tikdirib. Ona görə də buraya Daş hovuz deyirlərmiş. İndi türkmənlər onu Daşoğuza çeviriblər.

Jumaboyla əmioğlusu şirin-şirin uşaqlıq və gənclik illərindən, kolxozda pambıq yığmağa getdiklərindən, pambıq tarlalarının kənarında bitmiş qarpızların böyüklüyündən və şirinliyindən danışdıqca ürək ağrısı keçirirdim. Bərabərlikdən, 8 saatlıq iş günündən, demokratiyadan gen-bol danışılan Sovet hökumətində uşaq əməyinin istismarı, insanların kölə kimi işlədilməsi, iaşə və səhiyyə xidməti olmadan onları ilin 7-8 ayı pambıq tarlalarında qızmar günəş altında işlətdikləri, lilli su içirdikləri gözlərim qarşısına gəlir.

Xarəzm bölgəsində yaşayan özbəklərin və türkmənlərin dili o qədər yaxındır, bəzən özbəkcəmi, yoxsa türkməncəmi danışdıqlarını ayıra bilmirəm. Azərbaycan türkcəsinə çox yaxın olduğundan, terminlər də rus dilindən alındığından danışıqlarını anlamaqda çətinlik çəkmirəm. Bu mövzuda Jumaboyla söhbət edəndə o giley və əsəbiliklə: "Bizi bir-birimizdən ayırmaq üçün Rusiyanın məmurları da, alimləri də çox məkrli plan hazırladılar. Daşkənd ləhcəsini ədəbi dilə çevirməklə həm Xarəzmliləri çətin vəziyyətə saldılar, həm də ədəbi dilimizin Türkməncədən, Türkcədən, Azərbaycan türkcəsindən uzaqlaşdırılmasına nail oldular. 70 ildir, Daşkənd ləhcəsi ədəbi dildir. Orta məktəblərdə dərslər bu ləhcələrdə keçilir. Amma Xarəzmdən Daşkəndə oxumağa və ya hər hansı bir iş dalınca gedən gənclər danışanda özbəklərin çoxu onlara gülür. Xarəzmli ali məktəbi bitirdikdə təyinatını başqa bölgələrə, başqa bölgələrin gənclərinin təyinatını da Xarəzmə verirlər. Xarəzmdə qalıb işləyən gəncləri imtiyazlarla şirnikləndirirlər ki, həmişəlik burada qalsınlar. Bu metodla istəyirlər, Xarəzm ləhcəsini əritsinlər".

Gecə hoteldə Jumaboyla xeyli söhbət etdik. Mən onun şirin xatirələrini korlamaq istəməsəm

də, pambıqçılığın millətin genefonduna vurduğu zərərdən, pambıq əkinində zəhərli gübrə və dərmanlardan yerli-yersiz istifadə edilməsinin vurduğu zərərdən söz açdım.

– Dediklərin doğrudur. Əslində uşaqlıq və gəncliyimizi yarıac, yarıtox, günümüzün çoxunu pambıq tarlasında keçirməklə yaşadıq. Necə deyərlər, sanki cəhənnəmi gördük. Amma insanlar həmişə keçmişdəki ağrı-acıları yada salmaq istəmir. Xoş bir şey yadda saxlamağa, onu söyləməyə və yaşatmağa çalışırlar – dedi.

Aşqabaddan gələnlərin qarşılanması

Səhər saat 6.00-da bizi yuxudan oyadanda nə baş verdiyini anlaya bilmədim. Hava limanına gedəcəyimizi dedilər. Elə bildim, harayasa uçacağıq. Yol çantalarımızı və hotel qeydiyyatçısındakı pasportlarımızı götürməyə qoymadılar. Hava limanına niyə gedirik, nədən gedirik sualını da cavablandırmadılar.

Hava limanına gələndə əllərində şirniyyat tabaqları tutmuş, milli geyimli qızları, məktəbliləri, vurnuxan vəzifə sahiblərini görəndə anladım ki, burada bir qarşılama törəni olacaq. Amma o qarşılanan biz deyildik.

Avtobusdan enib açıq havada gözləməyə başladıq.



Şəkildə: Türkmən süfrəsində. Soldan Əli Şamil, özbəkistanlı araşdırıcılarından professorlar Jumaboy Yusubov, Mamatkul Jurayev və Rüstəm Abdullayev

Gündüz havalar isti keçsə də, səhər tezdən çox sərin idi. Yay paltarında gələnlərin bir çoxu qayıdıb avtobusa mindilər. Bir azdan bir neçə avtobus da gəldi. Avtobusdan enənlər arasında tanıdığım xeyli araşdırıcı və Elmlər Akademiyasının texniki işçiləri vardı. Tanışlarla görüşdük. Öyrəndim ki, onlar Aşqabaddan dünən

yola düşüblər. 600 kilometrlik yolu 11 saata gəliblər. Onları hotelə aparmadan, yuyunmalarına, dincəlmələrinə imkan vermədən birbaşa aeroporta gətiriblər. Hamısının üz-gözündən yorğunluq yağırdı.

Aşqabaddan gələn təyyarə səhər saat 7.40-da Daşoğuzda yerə endi. Gələnlərin təntənəli qarşılanması başladı. Onda bildim ki, araşdırıcıları, işçiləri avtobusla yola salıblar, rəhbərlər isə təyyarə ilə gəlib. Rəhbərlərin və xarici ölkələrdən gəlmiş qonaqların qarşılanması bir saatdan çox çəkdi. Sonra bizi qaldığımız hotelə qaytardılar. Türkmənistandan olan məruzəçiləri və akademiya işçilərini "Daşoğuz", "Uzboy" hotellərinə apardılar.

Yüngül səhər yeməyindən sonra simpozium iştirakçılarını Əndəlib adına Dövlət Musiqili Dram Teatrına gətirdilər. Burada qeydiyyatdan keçib proqram aldıq. Proqramda simpoziuma 26 ölkədən 130 araşdırıcı qatıldığı yazılmışdı. Onların 55-i xaricdən gələnlərdi. Qeydiyyatdan keçəndən sonra proqramda adı olan tanışlardan bəzilərinin gəlmədiyini gördüm.

Proqram da nə proqram. Türkmən, rus və ingilis dillərində hazırlanmış proqramda 5 bölmənin hər birində 25-28 araşdırıcının adı,

soyadı və məruzəsinin adı heç bir sistem gözlənilmədən, sıra ilə yazılmışdı. Məruzələr, sual və çıxışlar üçün neçə dəqiqə vaxt ayrıldığı göstərilməmişdi. Sovet dövrünün elmi konfranslarının proqramına bənzəyirdi. Türkmənistanda olanda hər dəfə təşkilatçılara bunu irad tutsaq da, "doğrudur, düzəldəcəyik" deyirdilər. Yenidən gələndə görürük, köhnə hamam, köhnə tas.

Proqramda məruzə, sual və çıxışlara dəqiq vaxt göstərilməməsinin ağrısını türkmənistanlı araşdırıcılar çəkirdi. Hörmət əlaməti olaraq xarici ölkələrdən gələnlərin sözünü kəsmirdilər. Onların bəziləri də 20 dəqiqə əvəzinə 30-40 dəqiqə məruzə oxuyur. Nəticədə, yerli araşdırıcıların əksəriyyətindən 5-10 dəqiqədə fikrini yekunlaşdırmalarını tələb edirlər, ya da heç söz vermirdilər.

Türkmənistanda keçirilən simpoziumların ən böyük nöqsanı məruzələrin çap edilməməsidir. Öncədən məruzə mətnlərini alsalar da, heç vaxt onların çap edildiyini görmədim. Həmişə məruzələrin özətlərini üç dildə nəşr etməklə kifayətlənirlər. Ən acınacaqlısı isə toplanan məruzələrin mətnlərinin arxivdə saxlanmaması idi. Bir dəfə Aşqabada simpoziuma gedərkən iki

il öncə oxunmuş bir məruzənin mətni ilə tanış olmaq istədim. Onda öyrəndim ki, mətnlər saxlanılmır.

Hər dəfə qonaqlar özətlər çap olunmuş kitabı oxuyanda narazılıq etdiyini, təşkilatçıların isə onları dilə tutduqlarını görürdüm. Təşkilatçılar tərcümələrdəki səhvləri üzə vurmamamızı xahiş edirdilər. Deyirdilər: "Siz hay-küy salsanız, rəhbərlik bizi cəzalandıracaq". Səhvlər yalnız ingilis, rus dillərinə tərcümədə olmurdu, türk, rus, ingilis dillərindən türkmən dillərinə çeviridə də kobud səhvlərə yol verilirdi. Əgər simpoziumdakı özətlərdən kimsə qaynaq kimi istifadə etmək istəsə, gərək özətin yazıldığı dildən, orijinalından istifadə etsin.

Plenar iclas

Proqramlarımız, özətlərimiz nəşr edilmiş kitablar, dəftərçə, qələm, döş nişanı olan çantaları alıb iclas salonuna keçirik. Təntənəli açılış Türkmənistanın prezidenti Qurbandurdu Berdimuhəmmədovun təbrik məktubunun oxunuşu ilə başladı. Plenar iclasda Rusiyadan Arian Yermolayevin, Ukraynadan kırım tatarı İsmət Zaatovun, Azərbaycandan İsa Həbibbəyli

və Əbülfəz Quliyevin, Qırğızıstandan Eqemberdi Toktarov və Baybulat Abutovun, Koreyadan Li Ok Ryönin, Özbəkistandan Jumaboy Yusubovun, İspaniyadan Helga Kegelin, Yaponiyadan Sakay Hurokinin məruzələri dinlənəcəkdi. Azərbaycandan İsa Həbibbəylinin vacib bir işi çıxdığına görə gəlməmişdi.

Yorğun olduqlarından adamların çoxunu yuxu basırdı. Toplantılarda şirin yuxuya getdiyimdən məni oyatmasa idilər, yəqin ki, salonda yatıb qalacaqdım.

Plenar iclas başa çatdıqdan sonra bizi Türkmənistan Prezidenti Qurbandurdu Berdimuhəmmədovun sağlığına sədəqəyə apardılar. Türkmənistanda sədəqə deyəndə böyük yemək süfrəsi nəzərdə tutulur. Orada 5-6 simpoziumda olsam da, prezidentin sağlığı şərəfinə verian sədəqə ilə, prezidentin adından verilən qonaqlığın fərqini ayıra bilməmişəm.

Rəsmi yeməklərdə hökumət adamlarının yanında mötəbər din xadimləri də oturur. Onlar süfrə duası oxumasa, heç kim əlini yeməyə uzatmır. Süfrə başında hörmət göstərdikləri din adamlarını məmurların sevmədiyi açıq-aşkar bilinir. Bu, Sovet dönəmində ateist bir ruhda

böyümüş məmurların din xadimlərinə ikili yanaşması idi.

Plenar iclasdan sonra qonaqların yolpullarını ödəyirdilər. Növbə mənə çatanda biletimdə göstərilən məbləği verdilər. Mən etiraz etdim. "Azərbaycandan gələnlərə min yüz dollardan çox yolpulu verdiyiniz halda mənə niyə 600 dollar verirsiniz" dedim. Mənə verdiyiniz pul azdır. Onlar izah edirdilər ki, yolpulu hansı ölkədən gəlməyinizə görə deyil, aldığınız biletə görə verilir. Mən "başa düşmək" istəmirdim. "Miras" təşkilatının gənc üzvləri isə məsələyə qarışmır, gülümsəməklə kifayətlənirdilər.

Bizim mübahisəmiz yanımızdan keçməkdə olan Annakurban Aşırovun da diqqətini çəkdi. Məndən deyil, maliyə idarəsinin rəisindən nə hadisə baş verdiyini soruşdu. O da mənim qanunsuz olaraq çox pul istədiyimi söylədi. Annakurban Aşırov əlini bərkdən çiynimə vuraraq, maliyə idarəsinin rəisinə: "Bileti Daşkənd üstündən almasına əngəl olmaq istədiyinizə görə sizi hirsləndirir. İstəyir, sizə dərs versin. Hamıya şübhə ilə yanaşmasanız, büdcədə qənaətiniz çox olar" deyib vilayət rəhbərləri və Aşqabaddan gələn rəhbərlərin yanına getdi.

Maliyə idarəsinin rəisi dostlarımın bizim söhbətimizə baxıb güldüklərini görsə də, heç nə demədi. Acığını kassirə tökdü.

Bölmə iclasları

Simpozium nahardan sonra 5 bölmədə işini davam etdirdi. Bölmə iclasları bir-birindən çox aralıdakı binalarda olduğundan proqramda qeyd etdiyim məruzələri dinləmək mümkün olmadı. Yalnız daxil olduğum bölmədəki məruzələri dinləyə bildim. Bu hal Amerikadan, Avropadan, Türkiyədən gələnlərin hamısının, keçmiş SSRİ məkanından gələnlərin də mənim kimi tək-tükünün narazılığına səbəb olurdu.

Nahara gedərkən Jumaboy Yusubovu görməyə gəlmiş qohumları ilə tanış oldum. Jumaboy dedi ki, qohumlarım məni kəndə aparacaq. Birlikdə getsək, yaxşı olar. Həm qohumlarımla tanış olar, həm də uşaqlıq və gəncliyim keçən kəndi görərsən. Axşam da bizi Daşoğuza gətirəcəklər.



Şəkildə: Türkiyədən prof. Fikrət Türkmən, Özbəkistandan Jumaboy Yusubov və Azərbaycandan Əli Şamil

Nahardan sonrakı məruzəçilər sırasında olduğumu dedim. Jumaboy Yusubov: "Sənin məruzə etmədiyinə diqqət yetirən olmayacaq. Gəldin, göründün, yetərlidir. Görürsən ki, siyahıda adı olan türkmənlərin bəziləri ya gəlmir, gəlsə də, məruzə oxumur" – deyərək məni dilə tutmağa çalışdı. Onunla razılaş-madığımı görüb ata-anasının, doğmalarının qəbrini ziyarət etməyə və doğmaları ilə görüşməyə getdi.

“Koroğlu” dastanı Türkmən tarixini öyrənməkdə mühüm çeşmədir” adlandırılan 5-ci bölmənin toplantısı Əndəlip adına Sazlı (musiqili) Dram Teatrının kiçik zalında keçirilirdi. Proqramda həmin bölmədə 25 nəfərin məruzə oxuyacağı yazılmışdı. Mənim sıram 22-ci idi. Bölmənin yolbaşıları (rəhbərləri) Slovakiyalı Mixail Şimigel və Qurtniyaz Xanmıradov olsa da, sonadək toplantını qonaq apardı.

Bölmə rəhbərləri öz məruzələrini oxuduqdan sonra başqalarına söz verdilər. “Xələc variantında Koroğlunun Türkmən səfəri” mövzusunda məruzəmi öncədən türkmən dilinə çevirtdirdiyimdən aramla həmin mətni oxudum. Onu da vurğuladım ki, “Koroğlu” dastanında Türkmən dedikdə bugünkü türkmənlər deyil, indiki Özbəkistanda, Türkmənistanda, İran İslam Respublikasında, İraqda, Suriyada, Türkiyədə, Qafqazda, Balkanlarda və b. bölgələrdə yaşayan islamı qəbul etmiş oğuzlar nəzərdə tutulur.

Gözləyirdim ki, ən çox türkmən araşdırıcıları sual verəcək. Lakin sual verən olmadı. Ümumiyyətlə, çox az halda məruzəçiyə sual verilirdi. Sual verənlər də əsasən xaricilər olurdu. Bölməmizdə siyahıya salınmış 25

məruzədən 14-ü dinlənildi. Bölmə iclası dəyərləndirilmədən qapadıldı.

Diqqətimi çəkən o oldu ki, salonda susan türkmən araşdırıcılar fasilədə mənimlə mübahisə etməyə başladılar. Onların dediyi bu idi ki, Türkmənistan dedikdə indiki Türkmənistan və ona bitişik İran İslam Respublikasındakı Türkmənsəhra nəzərdə tutulmalıdır. Mən onlara məruzəmdən parçaları təkrar oxuyur və xəbər alırdım: "Bu mətnlərə etirazınız varmı? Mətnləri mən özümdən quraşdırmamışam ki?" Etiraz edən olmadı. Amma mənim fikrimlə də razılaşmadıqlarını bildirdilər.

Folklorşünas Qurbancamal İlyasovanın: "Əli Şamilin məruzəsi bizə bir istiqamətverici olmalıdır. Orada Türkmənistanın indiki Türkmənistandan çox böyük olduğu göstərilir. Böyük Türkmənistanımız parçalana-parçalana bizə bir ovuc qalıb" deməsi ətrafımızdakıları sakitləşdirdi. Mən Saparmurad Türkmənbaşının "Ruhnamə" əsərinin əsas ideyasını, Oğuzların Türkmənləşməsi məsələsini onların yadına saldım. Bundan sonra etiraz edən, söz güləşdirən olmadı.

Axşam Əndəlib adına Sazlı (musiqili) Dram Teatrının əsas salonunda simpozium iştirakçıları

üçün konsert verdilər. Həmin konsertdən mənə ən çox zövq verən Üzeyir Hacıbəyovun "Arşın mal alan" operettasından Əsgərlə Gülçöhrənin duetinin oxunması oldu.

Təhlükəsizliyimizə cavabdehlər, yoxsa bizi güdənlər

Yemək yediyimiz restoranla qaldığımız Diyarbəkir hotelinin arasında kiçik bir bağ vardı. Yolumuz yaxın olsa da, bizi hər gün hotelin qarşısında dayanan təzə Mersedes avtobuslara mindirir, restoranın qarşısında endirirdilər. Adamlar heç vaxt deyilən vaxtda avtobusa minmirdilər. Buna görə də hoteldən restorana getməyimiz 30-40 dəqiqə çəkirdi. Avtobusda oturub yubananları gözləmək isə məni əsəbləşdirirdi.

Piyada getməyimizə də müxtəlif vasitələrlə əngəl olurdular. Bunu bizim rahatlığımız və təhlükəsizliyimiz kimi qiymətləndirirdilər. Əslində bu kiçik əyalət şəhərində, hətta respublikanın paytaxtı Aşqabadda küçə və meydanlarda bir sakitlik, dinclik hakimdir. Küçələrin kəsişdiyi yerlərdə, meydanlarda bir tərəfdə 2-3 nəfər milis, o biri tərəfdə 2-3 nəfər

də əsgər gəzişir. Ölkəni BMT tərəfsiz elan etdiklərindən əsgərlər hərbi təlimlərə cəlb edilmir. Əsgərliyə səfərbər edilənlər ya küçə və meydanlarda, ya da idarə və təşkilatların girişində növbətçilik edirlər.



Şəkildə: Əli Şamil Türkmən araşdırcıları ilə birlikdə

Dəfələrlə Türkmənistanda simpoziumda olanda qonaqların yerli sakinlərlə görüşmələrini istəmədiklərini bilirdim.

Daşoğuzda olduğumuz ikinci gün yenə də hər gün şahidi olduğumuz hadisə təkrarlanırdı. Mən adamların sallana-sallana avtobusa

minməsini gözləməkdən bezdiyimdən arxamca səslənənlərə əhəmiyyət vermədən iti addımlarla parka keçdim. Mənim bu ölçülüb-biçilməmiş hərəkətimi görən 28-30 yaşlı, uca boylu gənc hotelin qarşısındakı kiçik dəmir hasarın üstündən atılıb qarşıdakı parka gəldi. Onu sifətdən tanıyırdım. Aşqabadda da görmüşdüm. Sakitcə simpozium iştirakçılarını müşahidə edənlərin arasında olardı. Heç kimlə ünsiyyətə girməzdi. Mən hoteldən enəndə də o, avtobusdan bir az aralıda durub baxışları ilə adamları izləyirdi.

Məni geri qaytarmağa çalışdığını bildiyimdən iti addımlarla ona yaxınlaşıb salam verdim. O, çaşbaşlıqla mənə baxdı. Yanımızdan keçməkdə olan milli paltarlı türkmən qızlarına işarə ilə: "Sən cavansan. Bu yerləri də yaxşı tanıyırsan. Qızları axşam bara dəvət elə. Bir yerdə əylənək. Xərcini mən çəkəcəm" – dedim. Sifətində bir çaşqınlıq yarandı. Mən onun nə deyəcəyini gözləmədən "türkmən dilini bilmirsən, yoxsa lalsan? – dedim və əlimi yellədərək "Məndən də qocasan. Səndən bara gedən olmaz" – deyərək yoluma davam etdim. Restoranın qarşısına çatandan 15-20 dəqiqə sonra avtobuslar gəldi.

Düşündüm ki, mənim bu həyasızlığımdan sonra bizi "qoruyan"lar bir daha mənə "haraya gedirsən", "haradan gəlirsən" deməz. Amma Annakurban Aşırov abrımı bükdü. "Sənə neçə dəfə demişəm, KQB işçiləri ilə işin olmasın. Sən gedirsən, sonra mənə irad tuturlar. Rəhbər işçiləri də saya salmırsan. Bura Türkiyə, Azərbaycan deyil" – dedi. Mən də: "Aşırov, onda məni bir daha simpoziuma çağırmayın. Bilirsiniz ki, dəyişən deyiləm" – deyəndə sakit və gülümsəyərək: "Çox vaxt ürəyimdən keçənləri, demək istəyib deyə bilmədiklərimizi sən deyirsən. Onlar da görür ki, belə sözləri dilə gətirmək olar. Alimlərimiz, xüsusən gənclər sizlərin davranışından nümunə götürməyə çalışırlar, cəsarətlənirlər" – dedi.

Köhnə Ürgəncə gedə bilmədik

Sentyabrın 24-də bizi gəzməyə İzmışkır qalasının xarabalıqlarına apardılar. Orda da məktəblilər, əmək adamları, musiqiçilər qonaqları təntənəli qarşıladılar. Milli geyimdə, təxminən eyni boyda, eyni yaşda gözəl qızlar qonaqlara çörək, şirniyyat, kişmiş, şərbət və s. payladılar. 12 nəfər ağ saqqallı, türkmən milli geyimində olan qocaları

elə bəzəmişdilər, elə bil, canlı insan deyil, manikendirlər.

Xaricdən gələnlər böyük həvəslə qoca türkmənlərlə və gənc, gülərüz qızlarla şəkillər çəkdirirdilər.

Oradan bizi İmamat ata qalasının xarabalarını gəzdirməyə apardılar. Gəzinti proqramındakı Mahmud Zamaxşarinin movzeleyi mənim üçün daha önəmli oldu. 1075-ci ildə qədim Xarəzmin Zamaxşar kəndində doğulmuş böyük alimin təfsir, kəlam, fiqih, bəlağət sahəsində dəyərli əsərləri olsa da, mən onun lüğəti ilə tanış idim. Mahmud Kaşğari ərəblərə türk dilini öyrətmək üçün lüğət hazırlamışdısa, Əbülqasım Mahmud Ömər oğlu da türklərə ərəb dilini öyrətmək üçün lüğət yazıb. İradəsinə heyran qaldığım bu insan uşaqlıqda bir ayağını itirib, ömrünün sonunadək ağac ayaqla gəzib. Yeniyetməliyində Buxaraya gedərək mədrəsə təhsili alıb. Sonralar Xorasanı, İsfahanı gəzib. Bağdaddakı Nizamiyyə Mədrəsəsində oxuyub. İki dəfə Həcc ziyarətinə gedib. Uzun müddət Məkkə və Mədinədə yaşayıb. Dövrünün məşhur elm adamları ilə görüşüb. Onlardan öyrənib və onlara da bildiklərini öyrədib. Yorulmadan elmlə məşğul olub. Ömrünün sonunda

Qurcanda-Ürgəncdə yaşayıb. 69 yaşında 1144-cü il iyun ayının 13-də ərəfə gecəsi dünyadan köçüb.

Mahmud Zamaxşari haqqında bir elmi məruzə yazıb simpoziumda çıxış etmişdim. Onun məzarını ziyarətdən sonra bizə Koroğlu rayonunda nahar verəcək və oranı gəzdirəcəkdilər. Orada elə gəzməli-görməli yer olmadığından kiyevli Anotoli Momriklə Köhnə Ürgəncə getməyi planladıq. Jumaboy Yusubovu dilə tutduq ki, bizə bələdçilik etsin. O, yarıkönül razılaşdı. Lakin planımız baş tutmadı. Taksini saxlayıb bizi endirdilər. Bəhanələri də bu oldu ki, sizin təhlükəsizliyinizi qoruyuruq. Simpoziumun təşkilatçıları mənim cığallıq etdiyimi gördükdə söz verdilər ki, sabah nahardan sonra istədiyiniz bir neçə adamla sizi Köhnə Ürgəncə aparar, sentyabrın 26-da səhər yeməyindən sonra Ürgəncə yola salarıq. Mən onların dediyinə inanmasam da, yol yoldaşlarımın təkid etmədiklərini görüb sakitləşdim.

Hakimin Elçibəyin adını çəkməsinə heyrətləndim

Sentyabrın 24-də axşam yeməyinə gedəndə təşkilatçılardan biri: "Yeməyə getməyin, gözləyin" dedi. Hotelin foyesində gözləməli oldum. Təxminən bir saatdan sonra məni qara Mersedesə mindirib yola saldılar. Nömrəsindən hökumət maşını olduğu bilinirdi. 300-500 metr gedəndən sonra maşın Daşoğuz Vilayət Hakimiyyətinin binası qarşısında dayandı. Öncədən hara gedəcəyimi desəydilər, özüm gəzə-gəzə gələ bilərdim.

Binanın girişində məni qarşılayanla ikinci mərtəbəyə qalxdıq. Qəbul otağında Annakurban Aşırovu gördüm. Onunla birlikdə hakimin otağına geçdik. Otaqdakı 30-35 yaşlı gənc yerindən qalxıb bizi qarşıladı. Oturmağa yer göstərdi. Özü haqqında onu dedi ki, ixtisası neft mühəndisi olsa da, idarəetmə sahəsində çalışır.

Özüm haqqında heç nə demədim. Bilirdim ki, Annakurban Aşırov lazımı bilgini verib. Ehtiyat üçün yanımda götürdüyüm "Quzey Kıbrıs" kitabıma avtoqraf yazıb, üzərinə də vizit kartımı qoyub verdim. Hakimin mədəniyyət üzrə müavini olan qadın da gəldi və bizi hakimin

istirahət otağına dəvət etdi. Burada açılmış süfrə bizi gözləyirdi.



Tarixi yerləri gəzərkən. Qırğızıstanın Oş şəhərindəki universitetin prorektoru Baybolat Abıtovla söhbət.

Hakim mənim sağlığıma badə qaldırdı, Annakurban Aşırova bizi tanış etdiyi üçün təşəkkürünü bildirdi. Azərbaycanla Türkmənistanın mədəni, iqtisadi, siyasi, qohumluq əlaqələrini möhkəmləndirilməsinin vacibliyini vurğuladı və Türkmənistanda rəhbər vəzifədə işləyənlərin təxminən 30 faizinin anası və ya nənələrinin Azərbaycanlı olduğunu dedi.

Mənim içməməyim gözündən yayınmadı. Annakurban Aşırov məsələyə aydınlıq gətirmək üçün "spirtli içki içməməyi dini inancı ilə bağlı deyil" dedi.

Sonra Annakurban Aşırov sağlıq dedi. Mənim türk xalqlarının yaxınlaşmasına çalışdığımı vurğuladı və hakimin şərəfinə uzun bir nitq söylədi. Ondan sonrakı sağlıqlar qısa oldu.

Sağlıqlar arasında hakim İranda və Türkiyədəki əhalinin milli tərkibi, İraq və Suriyadakı türkmanlarla Türkmənistandakı türkmənlərin dil və mədəniyyətinin fərqli cəhətləri haqqında suallar verirdi. Mən də onun suallarını bilgim səviyyəsində cavablandırırdım.

Azərbaycanın siyasi vəziyyətindən söz düşəndə hakimin xalqın indi Elçibəyə münasibətinin necə olmasını xəbər alması mənim üçün gözlənilməz oldu. Qısaca olaraq dedim ki, tarixin heç bir dönəmində xalq müasirlərini doğru dəyərləndirə bilmir. Hakimiyyətdə olanların təbliğatı da xalqı çaşdırır.

Annakurban Aşırov səfir işləyərkən tanış olduğumuzdan, Türkiyə mətbuatında çap olunmuş bir neçə məqaləmi oxuduğundan, oradakı yazıda öncəgörənlik etməyimdən söz açdı. Dedi: "Heydər Əliyev Surət Hüseynovu

baş nazir təyin edəndən bir neçə ay sonra Əli Şamil yazmışdı ki, Heydər Əliyev deyəcək: "Surət Hüseynov gənc olduğuna görə etimad göstərdik, vəzifə verdik, dedik, işləsin, millətin qulluğunda dursun. Görün o nələr elədi. Vətənə və millətə necə zərbə vurdu!"

Türkmənbaşı haqqında elə bir yazı çap olunsaydı, Türkmənbaşının xəbəri olana kimi bunu aradan götürərdilər" dedi. Sonra da mənim "Ayna" qəzetində 2002-ci il oktyabrın 18-də çap olunmuş "Türkmənistan milli oyanışla avtoritarizm arasında" məqaləmin məzmunundan söz açdı**.** Dedi ki, Türkmənbaşı xarici ölkələrdən gələn alimləri qəbul edərkən Heydər Əliyev, Türkmənistan-Azərbaycan münasibətləri haqqında nə demişdisə, hamısını yazmışdı.

Hakim məqaləyə görə mənə hansı cəzanın verildiyi ilə maraqlandı. Mən heç bir cəza almadığımı deyəndə inanmadığını üzündən oxudum. Annakurban Aşırov: "Qarşınızda sakit durmasına baxmayın. Hər dəfə simpoziuma gələndə bir qalmaqalı olur" dedi və mənim səhər parkda bizi qorumalı olan gəncə dediklərimi xatırlatdı. Hakimin də, müavinin də üzü güldü.

Hakimin müavininin telefonu zəng çaldı. O, danışmaq üçün dəhlizə çıxdı. Mən

Türkmənistanda olarkən bizi qarşılayan, şəhəri gəzdirən türkmən gənclərinə hərdən zarafatla "Leninin heykəli nə yaman çoxdur" deyirdim. Onlar da çox vaxt "Lenin heykəli yoxdur, onları yıxmışıq. Türkmənbaşının heykəlidir" deyirdilər. Hətta bir dəfə Sarbon Universitetini bitirib, Türkmənistan Xarici İşlər Nazirliyində işləyən Kamilə də belə bir zarafat edəndə eyni cavabı almışdım. Sonra da bizi Leninin Aşqabadda qalmış yeganə heykəlinin yanına aparıb: "Türkmənistanda təkcə burada Leninin heykəli qalıb" demişdi. Mənim gülüşümdən nəyə işarə etdiyimi bilsə də, üstünü vurmamışdı.

2006-cı ildə Saparmurat Türkmənbaşı (Nıyazov) öləndən sonra görürdüm ki, onun heykəllərinə münasibət dəyişib. 2009-cu il martın 11-13-də Aşqabadda keçirilən "Səlcuqlar dövrünün ədəbiyyatı və mədəniyyəti" Uluslararası Simpoziumda iştirak edəndə eşitdim ki, Türkmənbaşının şəhərin mərkəzindəki qızıl suyuna çəkilmiş, üzü günəşə doğru fırlanan nəhəng heykəlini təmir ediləcəyi adıyla götürməyi planlayırlar[1]. Türkmən tanışlarımın

[1] Həmin heykəl 2017-ci ilin iyulunda tam söküldü və atasının şərəfinə adlanan Atamırat rayonu və Atamırat şəhəri Kərkin rayonu və Kərki şəhəri, Dyanyev rayonunun Niyazov qəsəbəsi

bəziləri buna görə məndən muştuluq da istəmişdilər.

Türkmənbaşıya qarşı münasibətin dəyişməkdə olması, hakimin də yeni təyin edilməsi məni bir az da cəsarətləndirdi. Yemək-içmək süfrəsi arxasında olduğumuzdan cəsarətim bir az da artdı. Oturduğum yerdən şəhər meydanı aydın görünürdü. Müavininin çölə çıxdığından, içəridə üçümüzdən başqa bir kimsənin olmadığından istifadə edərək əlimi pəncərəyə tərəf uzadıb, gülümsəyərək dedim: "Meydan çox gözəl və səliqə-səhmanlıdır. Yaraşığını "Lenin"in heykəli pozur. Onu nə vaxt götürəcəksiniz?" Hakim tükünü pursutmadan, arxasına baxmadan sakitcə "Siz Azərbaycanda "Leninin" heykəllərini götürəndə biz də götürəcəyik. Siz bizim böyük qardaşımızsınız. Sizin arxanızca gedir, gec də olsa, sizin etdiklərinizi təkrarlamağa çalışırıq" cavabını verdi. Onun hazırcavablığı məni pərt vəziyyətdə qoydu.

Hakimin müavini geri qayıdanda yanında iki nəfər də vardı. Onlar gələnədək biz türkmən,

Qaraşsızlık, Sərdarabat rayonu Çarcev adlandırıldı və Böyük Türkmənbaşı adına rayon ləğv edilərək ərazisi Dövlətli rayon inzibati vahidinə verildi.

Azərbaycan dillərinin qarışığında danışırdıq. Onlar süfrəyə əyləşəndən sonra söhbətimiz rus dilində davam etdi. Gələnləri tanıyırdım. Keçmiş Yakutiya Respublikasından idilər. SSRİ dağılandan sonra özlərini Saxa adlandırdılar və bunu rəsmiləşdirdilər. Özlərini bizim saklar dediyimiz qədim türk xalqının varisi sayırlar.

Saxadakı M.S.Amasov adına Beynəlxalq Olonxo Mərkəzinin rəhbərləri olan Lena Fyodorova və Vitali Vlasovla söhbətimiz gileygüzarlı keçdi. Onlar müstəqillik əldə etmiş respublikalardan kömək gözləyirlər. Bizlərdən çox uzaqda olan sakaları isə elə bil tamam unutmuşuq. Təklif edirdilər ki, hər il yayda keçirdikləri Olonxo bayramına Türk və Azərbaycan Respublikalarından araşdırıcılar, sənət adamları qatılsınlar. Birgə layihələr əsasında mədəniyyətimiz, folklorumuz öyrənilsin və təbliğ edilsin.

Onlara açıq dedim ki, sizin istədiklərinizi həyata keçirməyi arzulayan milli şüurlu insanların o qədər yolpulu yoxdur ki, toplantılarınıza qatılsın, sizləri dəvət etsin. Hakimiyyətdə olanlar isə vəzifələrini itirməmək xatirinə, Rusiyanın hakim dairələrinin qorxusundan belə bir iş görməzlər.

Tez-tez mövzu dəyişir, söhbətin əsas mövzusu ictimai-siyasi, milli məsələlər olsa da, hərdən şəxsi məsələlərə də keçirdi.

Hakimin kabinetindən ayrılanda baxdım ki, saat 23-ü keçib.

Münasib bilmədiyimə görə hakimə sual vermədim ki, sizin ananız və ya nənələrinizdən hansısa Azərbaycanlıdırmı? Onun sualından özüm üçün belə nəticə çıxardım ki, Azərbaycanlı olmasa, bu məsələni niyə vurğulasın ki?!

Bu dəfə də Özbəkistan sərhəddində…

Sentyabrın 25-də bölmə iclasları yekunlaşdırıldı. Saat 13.30-da isə iştirakçıların hamısını Daşoğuzdakı Əndəlib adına Sazlı (musiqili) Dram Teatrına gətirdilər. Burada yüksək vəzifəlilərin də iştirak etdiyi bağlanış toplantısı oldu.

Proqramda simpozium 2009-cu il sentyabrın 21-də başlayıb 26-da bitəcəyi göstərilmişdi. Yazılan kimi də oldu. Elmi məruzələrin dinlənməsi və müzakirəsi məqsədi daşıyan toplantıya cəmi bir gün ayrıldı. Qalanı qonaqların qarşılanmasına, tarixi yerlərin

gəzdirilməsinə və yola salınmasına həsr edildi. Ümumiyyətlə, Türkmənistanda iştirak etdiyim simpoziumlar elmdən çox ölkənin tanıdılmasına, təbliğinə xidmət etdiyini gördüm.

Saat 14.30-da Türkmənistan Prezidenti Qurbandurdu Berdimuhəmmədovun adından qonaqlıq verdilər. Süfrəyə yeni əyləşmişdim ki, təşkilatçılardan biri məni çölə çağırdı. Elə bildim, dünənki höcətləşməmizdən vilayətin hakimi xəbər tutub. Bizi Köhnə Ürgəncə göndərəcəklər. Maşına minəndə gördüm ki, ukraynalı Anotoli Momrik yoxdu. Jumaboy Yusubov, Mamatkul Jurayev və Rüstəm Abdullayev sakitcə arxa sırada əyləşiblər.

Anladım ki, bizi Özbəkistana göndərməyi planlayıblar. Hotelə gətirib dedilər ki, gömrük-keçid məntəqəsi bağlana bilər. Ona görə də tez çantalarınızı toplayıb yola düşməlisiniz. Başqa çıxış yolu qoymadılar.

Apar-topar yol çantamızı hazırlayıb hotelin həyətinə endik. Gələndə bizi iki maşın və vilayət hakimliyinin dörd işçisi qarşılamışdısa, gedəndə bizi bir maşında, sürücü ilə yola saldılar. Maşında özbəklər gileyləndilər ki, süfrədən yolda yeməyə meyvə götürməyə belə imkanları olmayıb.

Saat 16.20-də bizi Daşoğuz-Ürgənc keçid məntəqəsinə gətirdilər. Yolda Rüstəm Abdullayev təklif etdi ki, mən də onlarla birlikdə Daşkəndə dönüm. Mamatkul Jurayev də onun fikrinə şərik çıxdı. Etiraz etmədim. Razılaşdıq ki, Ürgəncdən Daşkəndə birgə uçaq. Jumaboy Yusubov bizim planımıza münasibət bildirmədi.

Gömrük-keçid məntəqəsinə çatanda qonaq olduğuma görə, hörmət əlaməti olaraq yenə məni irəli verdilər. Adamlar çox olsa da, gömrük-keçid məntəqəsinin qapısında duran sərhədçilər pasportlarımıza baxıb, haradan gəldiyimizi xəbər aldılar. Sonra da onlardan biri öndə gedərək bizə yol açdı. Pasportlarımızı gətirib şüşənin arxasındakı sərhədçiyə verdi. Adamlarla çənə-boğaz edən, yüklərini açdırdıqdan sonra pul qoparmaq üçün höcətləşən gömrük işçiləri sanki bizi görmürdülər. Nə çantalarımızı açdırdılar, nə də baxdılar.

Gözüm biz gələrkən növbədə olan sərhədçiləri və zabitləri axtarırdı. Heç birini görə bilmədim. Heç bir söz söruşmadan və gözlətmədən pasportlarımıza möhür vurub verdilər. Beləcə, Türkmənistan tərəfdən çox rahat keçdik.

Çox da uzun olmayan neytral zonanı keçib Özbəkistan gömrük-keçid məntəqəsinə gəldik. Yenə öndə mən idim. Gömrük işçiləri çantalarımızı yoxlamadığı kimi sərhədçi də heç bir söz xəbər almadan möhür vurub pasportları özümüzə qaytardı. Üzümüz güldü ki, rahat keçdik. Bir də baxdıq, Mamatkul Jurayev yoxdur.

Mamatkul Jurayev bizimlə birlikdə binaya daxil olmuşdu. Arxada gəlirdi. Dördümüzün də pasportunu bir yerdə vermişdik. Başa düşdüm ki, pasportuna möhür vursalar da, onu saxlayıblar. Onun yubadılması bizim təyyarəyə gecikməyimiz, planımızın pozulması demək idi. Ürgəncdə nə Jumaboy Yusubovun evində, nə də hoteldə qalmaq istəyirdim. Odur ki, Mamatkul Jurayevi Özbəkistanda Milliy Havfsızlık Hızmatı adlandırılan keçmiş KQB işçilərinin əlindən almağa cəhd etdim.

Geri dönməyimə yer yox idi. Adamlar keçmək üçün basabas salmışdılar.

Göz gəzdirdim. Baxdım ki, Mamatkul Jurayevi sərhədçilər oturub pasportlara möhür vurduqları arakəsmənin axasındakı otaqlara apara bilərlər. İti addımlarla oraya tərəf irəlilədim və bir neçə dəfə var səsimlə

“Mamatkul! Mamatkul! Mamatkul!” – deyə bağırdım. İçəridən çıxan ortayaşlı, dolu bədənli birisi bədəni ilə qapını kəsdi. Sanki mənim içəri girməmə əngəl olmaq istəyirdi. O da əsəbiliklə: “Buraya niyə gəldiniz?” deyə xəbər aldı. Əsəbiliklə “Tualet! Bura tualet qoxuyur!” dedim.

O, mənim səsimdən və qırımımdan tualet axtarmadığımı bildi və əsəbiliklə pasportumu istədi. Mən soyuqqanlıqla xidmət pasportumu verdim. O, diqqətlə pasportumu gözdən keçirərək özümə qaytardı və irəlini göstərdi. Tualetin yerini işarələyirdi.

Mən səbrimi basa bilməyib “hər yerdə buralar eyni qoxu verir!” dedim və onun ağzını açmasına imkan vermədən “1925-ci ildə nə qədər ÇK işçisi həbs edildi və güllələndi?” deyə sual verdim və cavab gözləmədən “1938-ci ildə Yejov güllələnəndə nə qədər KQB işçisi güllələndi və həbs edildi? Bəs 1953-cü ildə Beriya güllələnəndə həbs edilən və güllələnən KQB işçilərini də yadınıza salımmı?” deyə sualı suala caladım. Qarşımdakı mənim yarı özbək, yarı Azərbaycan türkcəsində dediklərimi çaşqınlıqla dinləyirdi. Bizim səsimizə içəridən iki gənc çıxdı. Onları göstərərək: “Professoru bunlarmı dapros edir?

Professoru Daşkəndə gedəndə nəzakətlə çağırıb söhbət edə bilməzlərmi? Gərək qohumlarına görə KQB-də özlərinə iş tapmış bu savadsızları dindirələr?" – dedim.

Qarşımdakı adam geri dönüb sakit səslə arxasındakılara "gedin" komandası verdi və qoluma girərək məni gəldiyim yerə tərəf apararkən təmkinini pozmadan, sakit səslə "Harada işləyirsiniz? deyə xəbər aldı. Mən "Azərbaycan Milli Elmlər Akademiyası Xarici Ölkələrlə Əlaqələr bölməsində" dedim. Səhvimi düzəltmək, Folklor İnstitutunun Xarici Ölkələrlə Əlaqələr bölməsi demək istədim. Bu dəfə o mənə imkan vermədi. "Pasportuna baxdım, çox ölkədə olubsan. Getdiyin yerlərlə buranı müqayisə etmə. Bura Özbəkistandır!" dedi.

O sanki Azərbaycan türkcəsində, Xarəzm ləhcəsində danışırdı. Danışığından türkmənmi, özbəkmi, Azərbaycanlımı olduğunu seçə bilmədim. Jumaboy Yusubov və Rüstəm Abdullayevin yanına çatanda o, nüfuzedici nəzərlə yol yoldaşlarımı süzərək: "Birlikdəmi gedəcəksiniz?" dedi və cavab gözləmədən "Siz həyətə çıxıb təmiz hava alın. Mamatkul Jurayev də beş dəqiqəyə gələr" – dedi.

Jumaboy Yusubov və Rüstəm Abdullayev susurdular. Beş-altı dəqiqə sonra Mamatkul Jurayev gəldi. Bizi qarşılamağa gələn maşına minib Ürgənc Hava limanına getdik. Yol boyu heç kim ağzını açmadı.

Mənim bu cür davranmam bəzilərinə inandırıcı gəlməyə bilər. Bu cəsarəti mənə milli azadlıq hərəkatı vermişdi. Döyülsəm də, söyülüb təhqir edilsəm də, sonda haqlı mən olmuşdum. İllər keçəndən sonra bizi döyənlər, söyənlər, üçrəngli bayrağı əlimizdən alıb cıranlar ya üzrxahlıq etmişlər, ya da xeyirdə-şərdə üz-üzə gəlməməyə çalışmışlar. Çox vaxt da "Neyləyək, vəzifəmizi itirməmək, balalarımızı dolandırmaq üçün sizə qarşı sərt davranırdıq" deməklə özlərinə haqq qazandırmağa çalışıblar.

1988-ci ildən başlayaraq Sovet ordusunun generalları, komendant Makaşov, Dubinyak, eləcə də SSRİ KQB-sinin yüksək çinli generalları, Sov.İKP MK-nın katibi Girenko, Sov.İKP MK-nın şöbə müdiri Mixalkov, SSRİ Millətlər Sovetinin sədri Nişanov, Azərbaycan KP MK-nın birinci katibləri Vəzirov, Mütəllibov və onlarla yüksək vəzifəlilərlə o qədər mübahisələrdə iştirak etmişdim ki, onların xofu daha məni basmırdı.

Mübahisə etdiyimiz yüksək vəzifəlilərin yanında sərhəddə işləyənlər, gömrükdə işləyənlər, polis zabitləri mənə çox kişik görünürdü. Mənim cəsarətli olmağımın səbəbi haqlı olmağım, qayda-qanunlara əməl etməyim idi. Haqlı olmadıqda heç vaxt inad etməzdim.

Ürgənc hava limanında Mamatkul Jurayevlə Rüstəm Abdullayev Ürgənc-Nukus-Daşkənd təyyarəsinə bilet aldılar. Mənə bilet olmadı. Bir neçə saat sonraya Ürgənc-Daşkənd reysi və səhərə yaxın Ürgənc-Buxara-Daşkənd reysi vardı. Mən getmək istədiyimi bildirdikdə Jumaboy Yusubov hava limanında işləyən birisi ilə danışdı. Əlavə pul verməklə bilet ala biləcəyini söylədi. Mən həmin dəqiqə razılaşdım. Azərbaycanla müqayisədə Özbəkistanda çox ucuzluq olduğundan bilet pulu da mənə çox ucuz gəldi.

Beləcə Daşkəndə oradan da Bakıya döndüm.

* * *

Qısa sözardı. Jumaboy Yusubov vəsiyyət edibmiş ki, öləndə doğma kəndində, valideynləri və qohumları uyuduğu qəbiristanlıqda dəfn etsinlər. Cənazəni Daşoğuza aparmağa Türkmənistan tərəfdən icazə ala bilməyiblər. Mən də çox çalışdım. Yazışdım. Tanıdıqlarımın hamısına

müraciət etdim. Dedim, heç olmasa ölümünün ildönümündə Jumaboy Yusubovun vəsiyyətini reallaşdıraq, onu da bacarmadım. Gördüm ki, məmurlar insanın yalnız dirisindən deyil, ölüsündən də qorxurlar.

Türkmənistanın hakimiyyət orqanlarında çalışanlar düşünürlər ki, Jumaboy Yusubov kəndində dəfn edilərsə, Özbəkistanda onun doğum və ölüm günlərində, dini bayramlarda qəbrini ziyarətə gələrlər. Onların başına da yerli özbəklər toplanar. Bu toplantı isə hakimiyyət orqanları üçün başağrısına çevrilər.

Daşkənddə yazmağa başladığım yol qeydlərini Boluya simpoziuma getdiyimə görə tamamlaya bilmədim. Oradan geri qayıdandan sonra yazmağa davam etdim.

Daşkənd-Ürgənc-Daşoğuz-Bolu-Bakı
9-12 noyabr 2009-cu il.

Kitaba daxil edilmiş məqalə "Parçalanmış Türküstanı gəzərkən" kitabımdakı ("Elm və təhsil", 2021) "Koroğlu" dastanı mövzusunda simpozium istəyim" məqaləsinin (səh. 116-217) qısaldılmış variantıdır.

TÜRKMƏNİSTANDA KEÇİRİLƏN KONFRANSLARDAKI MƏRUZƏLƏRİM

ƏBU SƏİD ƏBÜL-XEYRİ VƏ ONUN İDEYALARININ MİR HƏMZƏ SEYİD NİGARİ TƏRƏFİNDƏN DAVAMI

Özət

Məqalədə sufi poeziyasının banisi və Xorasanın yeddi pirindən biri hesab olunan böyük filosof Əbu Səid Əbül-Xeyrinin həyat yolu, təsəvvüf fəlsəfəsinə gətirdiyi yeniliklər və bu ideyaların Azərbaycan mühitindəki təzahürləri araşdırılır. Tədqiqatda mütəfəkkirin "məqam" və "hal" kateqoriyalarına dair fərqli yanaşması, xüsusən "Qırx məqam" risaləsinin sufi təfəkküründəki yeri təhlil edilir. Müəllif tarixi mənbələrə və epiqrafik abidələrə istinad edərək, XI əsrdən etibarən Əbu Səid müridlərinin Azərbaycanda (xüsusən Şirvanda) geniş xanəgah şəbəkəsi qurduğunu, Baba Kuhi Bakuvi və Pir Hüseyn Şirvani kimi alimlərin bu mühitdə yetişdiyini diqqətə çatdırır. Məqalənin son hissəsində Əbu Səidin fəlsəfi irsinin XIX əsr Azərbaycan sufi şairi Mir Həmzə Seyid Nigari tərəfindən necə davam etdirildiyi və Nigarinin sufizmi antimüstəmləkəçi ideologiya ilə zənginləşdirməsi məsələləri elmi müstəvidə şərh olunur.

Açar sözlər: Əbu Səid Əbül-Xeyri, Mir Həmzə Seyid Nigari, Sufizm, Məqam və hal, Xorasan, Şirvan xanəgahları, Antimüstəmləkə ideologiyası, Azərbaycan sufi ədəbiyyatı.

THE LEGACY OF ABU SAID ABUL-KHAYR IN AZERBAIJAN: FROM MEDIEVAL SUFI THOUGHT TO THE ANTI-COLONIAL IDEOLOGY OF MIR HAMZA SEYID NIGARI

Abstract

The article explores the life journey, spiritual innovations, and philosophical legacy of the great sufi thinker Abu Said Abul-Khayr, considered one of the founders of sufi poetry and one of the seven "pirs" of Khorasan. The research particularly analyzes the thinker's unique approach to the categories of "maqam" (station) and "hal" (state), highlighting the significance of his treatise *"Maqamat al-Arba'in"* (The Forty Stations) in sufi thought.

Drawing on historical sources and epigraphic monuments, the author demonstrates that from the 11th century onwards, followers of

Abu Said established an extensive network of khaneqahs (sufi lodges) in Azerbaijan, especially in the Shirvan region. This spiritual environment played a crucial role in the development of prominent local scholars such as Baba Kuhi Bakuvi and Pir Hossein Shirvani.

The final section of the article examines how Abu Said's philosophical heritage was sustained and transformed in the 19th century by the Azerbaijani sufi poet Mir Hamza Seyid Nigari. The study interprets how Nigari enriched traditional Sufism with anti-colonial ideology, positioning spiritual perfection as a form of intellectual resistance. The paper concludes that the ideas of these two great thinkers, separated by nine centuries, continue to serve as a bridge for moral and spiritual enlightenment in the Turkic-Islamic world.

Keywords: *Abu Said Abul-Khayr, Mir Hamza Seyid Nigari, Sufism, Maqam and Hal, Khorasan, Shirvan khaneqahs, Anti-colonial ideology, Azerbaijani sufi literature.*

Giriş

Azərbaycan dilinin qaydalarına görə mürəkkəb adlar bitişik yazıldığından, böyük sufi filosofunun adı və soyadı Əbusəid Əbülxeyri kimi yazılmalıdır. Lakin bu ad və soyad qaynaqlarda müxtəlif şəkillərdə qeyd olunur. Dilimizin qaydaları əsasında yazılmış ad və soyadla internetdə axtarış verərkən çox az materiala rast gəlirik. Buna görə də ad və soyadı sufizmin araşdırmaçısı Məsiağa Məhəmmədlinin yazdığı şəkildə — Əbu Səid Əbül-Xeyri kimi yazmağı münasib saydıq.

Övliyalar vətəni kimi tanınan Xorasanın yeddi ulduzu deyildikdə yeddi pir — İslam dininin sultanı həzrəti İbrahim Ədhəm, həm İslam dininin, həm də ariflərin sultanı, "Kitabül-əqtab"ın müəllifi Bəyazid Bistami, kəramət və halət sahibi Əbülfəzl Sərəxsi (Sərəxs baba), kəramətli pir həzrət Əbu Səid Əbül-Xeyri, "Qurani-Şərif"ə böyük təfsir yazan kəramətli pir həzrəti Xoca Abdulla Ənsari, kəramətli pir həzrəti Əbülhəsən Xaraqani və məşhur üləma, kəramətli pir həzrət Fəridəddin Əttar Nişapuri nəzərdə tutulur. Bu yeddi pirin içərisində Əbu Səid Əbül-Xeyri sufi poeziyasının banisi sayılır (Abu Seyit, 2007, s. 13). Ömrünü sufizmin

öyrənilməsinə və təbliğinə həsr etmiş dəyərli araşdırmaçı Məsiağa Məhəmmədli "Əbu Səid Əbül-Xeyrin «Qırx məqam» risaləsi" əsərində yazır:

"Sufizmin tarixi və nəzəriyyəsinə dair ədəbiyyatın yarandığı dövrdən (10-cu əsrin sonu – 11-ci əsrin əvvəllərindən) etibarən «məqam» və «hal» kateqoriyaları onun başlıca predmetini təşkil etmişdir. Bu da təsadüfi deyildir, çünki əgər sufinin əsas və son məqsədi Allaha qovuşmaqdırsa, onda bu məqsədə nail olmağın üsul və vasitələri ən vacib məsələ kimi meydana çıxır. Məhz bu səbəbdən təsəvvüf nəzəriyyəçiləri sufinin Allaha doğru yolunda («təriqət» və «süluk»da) başlıca mənəvi-əxlaqi və psixi-ruhani pillələr kimi «məqam» və «hal» anlayışlarını geninə-boluna şərh etmişlər. Bu anlayışların özü isə iki cəhətdən fərqləndirilmişdir: a) davamlılıq baxımından – «məqam» nisbətən dayanıqlı və daimi psixoloji vəziyyətdir, «hal» isə ötəri və keçəridir; b) əldə olunmaq baxımından – «məqam» sufinin (salikin) özü tərəfindən qazanılır, «hal» isə ona Allahın inayəti kimi bəxş olunur. Təsəvvüf terminologiyası ilə desək, məqam – «kəsbi», hal isə «vəhbi» olur" (Məhəmmədli, 2007).

1. **Azərbaycanda sufiliyin yayılmasının səbəbləri**

Coğrafi ərazi insanların da, dövlətlərin də həyatında aparıcı rol oynayır. Azərbaycanın Şərq ilə Qərbin kəsişdiyi bölgədə yerləşməsi ticarət yollarının və orduların burada qarşılaşmasına səbəb olmuşdur. Bu da bölgədə mədəniyyətin inkişafına təkan vermişdir. İslam dininin yayıldığı ilk dövrlərdə burada yaşayan xalqların müsəlmanlaşması nisbətən zəif getmişdir. Sufizmin inkişafı isə İslamın yayılmasına güclü təkan vermişdir. Sufilərin xoşməramlı İslam anlayışı insanların qəlbinə tez yol tapa bilmişdi.

Araşdırmaçılarımız dövrümüzədək gəlib çatmış pirləri, qəbir daşlarını, abidələri və bir sıra kitabələri öyrənərkən bu qənaətə gəlmişlər ki, Azərbaycanda sufizm geniş yayılmışdır. Ömrünü epiqrafik abidələrin öyrənilməsinə həsr etmiş tarix elmləri doktoru Məşədixanım Nemətova jurnalist Maral Poladovaya verdiyi müsahibədə deyir:

“Sufizmin inkişafının ilk mərhələsində Küfə, Bəsrə, Bağdad, sonralar isə Nişapur kimi şəhərlər mühüm rol oynamışdır. Şeyx Əbu Səid

Əbül-Xeyri Nişapurda sufi cəmiyyətinə başçılıq edən zaman Əbu Abdullah ibn Bakuyyə (Baba Kuhi), Məhəmməd Bakuvi və onun qardaşı Pir Hüseyn Şirvani kimi Azərbaycan alim-filosofları da onun ətrafına toplaşmışlar. Tarixçi Məhəmməd ibn Münəvvərin verdiyi məlumata görə, Əbu Səid Əbül-Xeyrinin nəzəriyyəsini yayan müridlərin yalnız Şirvanda 400-ə yaxın xanəgahı olmuşdur" (Poladova, 2004, s. 200).

Şirvanda 400-ə yaxın xanəgahın olması Şeyx Əbu Səid Əbül-Xeyrinin nəslindən olan tarixçi Məhəmməd ibn Münəvvərin verdiyi şişirdilmiş rəqəm kimi görünür. Azərbaycanda fəlsəfi fikir tarixinin araşdırmaçısı Zakir Məmmədov və başqaları da bu fikri təsdiqləyirlər. Epiqrafik abidələri öyrənən prof. Hacı Fəxrəddin Səfərli də "Ordubad şəhərinin müsəlman epiqrafik abidələri" kitabında yazır:

"Epitafiya Ön Asiyada sufizmin banilərindən, Nişapurda və Miyanədə xanəgahlar yaradaraq ətrafına müridlər toplayan və onlar vasitəsilə öz ideyalarını yayan Şeyx Əbu Səid Əbül-Xeyrinin yeddi arxa övladlarından olan eyni adlı şeyxin — Şeyx Əbu Səidin xatirəsinə hazırlanmışdır. Şeyx Əbu Səid XIV yüzillikdə Ordubad şəhərində özünün xanəgahını yaradaraq

ətrafına müridlər toplamış və onlar vasitəsilə ulu babasının ideyalarını yaymışdır. Şeyx Əbu Səidin xanəgahı hazırda «Malik İbrahim» qəbiristanlığının mərkəzində yerləşən binanın yerində durmuşdur... O, monqolların yürüşləri zamanı başlanmış xalq hərəkatının təşkilatçısı və rəhbəri olmuşdur. 1357-ci ildə vəfat etmişdir" (Səfərli, 2009, s. 114).

Azərbaycanda sufi xanəgahlarının çox olmasının səbəblərini prof. Məşədixanım Nemətova belə izah edir: "Şeyx Əbu Səid Əbül-Xeyrinin tərcümeyi-halına əsasən müəyyənləşdirmək olur ki, xanəgahlara tacirlər tərəfindən çox köməklik dəyib" (Poladova, 2004, s. 205).

Araşdırmaçılara görə, Azərbaycanda sufizmin geniş inkişafına səbəb Şeyx Əbu Səid Əbül-Xeyri olmuşdur. Onun təsiri altında Əbu Hüseyn Dündari Şirazi (vəf. 353/964), Hüseyn ibn Yəzdinyar, Əbülhəsən, Əbu Zürə (vəf. 415/1024), Əbu Abbas, Əbu Səid Abdal Bakuvi, Əbu Abbas Əhməd, Əxi Fərəc Zəncani (vəf. 457/1065), Baba Fərəc, Xacə Məhəmməd Xoşnam, Səid Qasim oğlu Bərdəvi və s. kimi alimlər yetişmişdir (Əliheydər, t.y.).

2. Əbu Səid Əbül-Xeyrinin ömür yolu

Əbu Səid Əbül-Xeyrinin nəzəriyyəsini yayan müridlərin sayı Azərbaycanda çox olsa da, zaman keçdikcə bu ünlü filosof ölkəmizdə unudulmağa başlamışdır. Hətta vəziyyət o yerə çatmışdır ki, sovet dövründə çap olunan "Azərbaycan Sovet Ensiklopediyası"nda onun haqqında məqalə verilməmişdir.

Əbu Səid Əbül-Xeyri haqqında ən dəyərli qaynaq şeyxin nəvəsi və ya nəslindən olan davamçısı kimi tanınan Məhəmməd ibn Münəvvər tərəfindən yazılmış "Əsrar ət-tövhid" (Asrar et-towhid) adlı məşhur sufi mənbəyidir. Orada verilən bilgiyə görə, sufi ədəbiyyatında ənənəvi olaraq yeddi məqamdan (tövbə, vərə, zöhd, fəqr, səbr, təvəkkül, riza) və on haldan (müraqibə, qürb, məhəbbət, xof, rica, şövq, üns, itminan, müşahidə, yəqin) söhbət gedir.

"Qırx məqam" əsərini nəşrə hazırlayan Məsiağa Məhəmmədli yazır ki, Əbu Səid Əbül-Xeyri Meyhəninin (967-1049) "Məqamati-ərbəin" ("Qırx məqam") adlanan və fars dilində yazılmış əsərində digər sufi müəlliflərin «hal» adlandırdığı vəziyyətləri də «məqam» anlayışı altında verir, yəni "məqam-hal" bölgüsünə riayət etmir. İkincisi, o, yeddi deyil, qırx məqamdan

söhbət açır. Təsəvvüfdə qırx rəqəminin xüsusi məna daşıdığını (ərbəin, çillə) nəzərə alsaq, bu, heç də təsadüfi sayılmamalıdır. Üçüncüsü, Əbu Səid «bəqa» məqamından sonra da bir çox məqamlardan bəhs edir, halbuki digər müəlliflərdə bu, təriqət əhlinin ən yüksək məqamı kimi qiymətləndirilir. Nəhayət, dördüncüsü, risalədə sonuncu — qırxıncı məqam kimi «təsəvvüf» götürülür. Bu da kifayət qədər əsaslı və məntiqidir. Məşhur sufi şeyxi Cüneyd Bağdadi (vəf. 910) «təsəvvüf nədir?» sualına belə cavab vermişdi: «Təsəvvüf odur ki, Allah səni səndə öldürsün və Özündə diriltsin». Bu baxımdan, Əbu Səidə görə, məhz sadalanan məqamları keçdikdən sonra «salik» əsl sufi — təsəvvüf əhli olur (Məhəmmədli, 2007).

Əbu Səid Əbül-Xeyrinin ömür yolu haqqında ən dəyərli qaynaq "İslam Ansiklo-pedisi" sayılır. Orada yazılır:

"1 Məhərrəm 357 (7 dekabr 967) tarixində Xorasanda Sərəxs ilə Əbivərd arasında yerləşən Havran bölgəsində Meyhənə (Mehnə) qəsəbəsində doğuldu. Atası Əbül-Xeyr Əhməd sufilərin dostu olan və səma məclislərinə davam edən bir əttar idi. Uşaqlığını Meyhənədə keçirən Əbu Səid atasıyla birlikdə getdiyi səma

məclislərində təsəvvüfü tanıdı. Mütəsəvvif şair Əbülqasım Bişri-Yasinin dərslərinə davam edib dil və ədəbiyyat elmlərində ondan faydalandı, şeir və təsəvvüf anlayışından da etkiləndi. Ondan öyrəndiyi şeirləri müxtəlif söhbət məclislərində oxudu və bu şeirlər onun üçün ilham mənbəyi oldu. Bir rəvayətə görə, 30.000 beyt əzbərləmişdi. Əbu Səid fiqh, təfsir və hədis bilgisini irəlilətmək üçün Mərvə getdi. Burada Şafei fiqh alimi Əbu Abdullah Məhəmməd b. Əhməd əl-Həzrinin vəfatından sonra beş il Əbu Bəkir Abdullah b. Əhməd əl-Qaffal əl-Mərvəzinin dərslərinə davam etdi. Daha sonra Sərəxsə gedərək Əbu Əli Zahir b. Əhməddən təfsir, fiqh üsulu və hədis dərsləri aldı. Burada dönəmin ünlü sufilərindən Loğmanı Sərəxsi ilə tanış oldu. Loğman onu Əbu Nəsr əs-Sərracın müridlərindən Şeyx Əbülfəzl Məhəmməd b. Həsən əs-Sərəxsi ilə tanış etdi. Əbül-Xeyr, kendisine zikr təlqin edən bu şeyxdən ciddi surətdə etkiləndi, tövsiyəsinə uyub Meyhənəyə döndü. Yedi il riyazət həyatı yaşadı, dözülməsi zor çilələr çıxardıqdan sonra təkrar Sərəxsə döndü. Şeyx Əbülfəzl burada onu daha da çətin çilələrə tabe tutub bir sürə sonra Meyhənəyə göndərdi. Əbu Səid Meyhənədə cami və

tualetlərin təmizliyiylə uğraşır, hər namaz öncəsi qüsl edir, sürəkli susur, yamaq üstünə yamaq yapıldığı üçün ağırlaşan bir çuha geyir, iyirmi-otuz gün qalmaq üzrə səhralara çıxır, buralarda inzivaya çəkilir, dərin düşüncələrə dalırdı. Nə qədər şiddətli riyazətlərə və çətin çilələrə girdiyini anlatmaq üçün, Babil Quyusunda baş aşağı asılaraq çilə çıxardıqları rəvayət edilən Harut və Marut kimi bəzən bir ağaca özünü ayaqlarından asaraq, bəzən də bir quyuya baş aşağı sarkaraq çilə çıxardığı (çiləyi-məkusə), Quran oxuduğu və bu durumda namaz qıldığı (salatı-məklubə) rəvayət edilir. Daha sonra təkrar Sərəxsə gedən Əbu Səid bu çiləli həyata Əbülfəzl'in yanında da davam etdi. Ardından şeyxin tövsiyəsinə uyub Nişabura getdi. Burada İmamül-Hərəmeyn əl-Cüveyni, Əbdülkərim əl-Quşeyri kimi alim və mütəsəvviflərlə tanış oldu. Daha öncə Sərəxsdə Əbülfəzldən xirqə geyib-geymədiyi bilinməyən Əbu Səid, Nişaburda ünlü sufi Əbu Əbdürrəhman əs-Süləmidən xirqə geydi" (İslâm Ansiklopedisi, 1994, cild 10, s. 220).

3. Əbu Səid Əbül-Xeyri haqqında yazılanlar

Əbu Səid Əbül-Xeyrinin uşaqlığı Türküstanın çox qarışıq dövrünə düşür. Xilafətdən ayrılan Türküstanda Qaraxanilər dövləti qurulur. Lakin bu dövlətin də ömrü çox uzun sürmür. Türküstanda bir yeniləşmə və dəyişikliklər dövrü başlayır. Əbu Səid Əbül-Xeyrinin də İslama olan baxışları dəyişir. Qazaxıstanlı alim Aşirbek Muminov deyir: "Əbu Səid Əbül-Xeyri klassik sufiliyi təriqət halına gətirmişdir" (Muminov, 2007, s. 427). Dünənədək Allah tərəfindən cəzalandırı-lacaqlarından qorxaraq namaz qılan, oruc tutan və şəriətə ciddi əməl edənlərin bir çoxu indi Allaha sevgi ilə yanaşırlar. Allaha qovuşmağın yolunun sevgidən, məhəbbətdən keçdiyinə inanırlar.

Türkmənistanlı alimin qeydlərində yazılıb: «Əbu Səid Əbül-Xeyri öz müasirləri Baba Tahir, Əttar, Sənayi, Abdulla Ənsari və başqaları ilə birlikdə sufi görüşlərini təbliğ edirdilər" (Cəmilov, 2007, s. 453). Sufi görüşləri isə əsasən belə idi: dilindən, dinindən, irqindən asılı olmayaraq insana yaxşı əməllərinə görə qiymət verən sufilərin təbliğatı, sürülər arxasında

yaylağa-arana getdiklərindən və at belində döyüşlərə atıldıqlarından vaxtlı-vaxtında oruc tuta, namaz qıla bilməyən türklərə olduqca doğma və xoş idi. İslam dinində yeni yaranan təriqətlər Allahı sevən və şəfqətli kimi tanıtmağa başladılar. Sufilərin başladığı bu iş İslama marağı daha da artırır. Beləcə, sufilərin sayəsində İslamda bir yüksəliş başlayır. Xüsusən Türküstanda sufi xanəgahlarının və zaviyələrinin sayı gündən-günə artır.

Əbu Səidin kəramətləri haqqında sonsuz sayda rəvayətlər vardır. Bunlarda Əbu Səidi daha çox möcüzəvi biri kimi xatırlayırlar. Onun kəramət sahibi olduğunu ilk görən şeyxlər şeyxi Əbülqasım Gürcani (Bişir Yasin Gürgənli) olur. Kiçik yaşlarından Qurani-Kərimi əzbərdən söyləyən Əbu Səidi bir gün Əbülqasım Gürcani evinə gətirir. Ondan xahiş edir ki, taxçadakı arpa çörəyini gətirib ona versin. Əbu Səid çörəyi şeyxə verir. Şeyx çörəyin yarısını kəsib uşağa verir, yarısını da özü yeyir. Uşağın atası Əbül-Xeyr Məhəmməd şeyxdən nə üçün ona çörək vermədiyini xəbər alır. Şeyx Əbülqasım deyir: "Çörək 30 il idi ki, taxçada sahibini gözləyirdi. Övliyalıq məqamının boş qalacağını, bu dərvişlərin, tələbələrin bizdən sonra zay olub

gidecəklərini görərkən hüzurla ölə bilməzdim. İndi bu uşağı gördükdə ürəyim rahatlandı. Sənin oğlun əlini çörəyə vuran kimi o, yenicə təndirdən çıxmış kimi isti və yumşaq oldu. O çörək sənin oğlunun və mənim qismətim idi. Vəlilik məqamı bu uşağın nəsibi olacaq".

Ömrü səyahətlərdə keçən Əbu Səid Əbül-Xeyri 30 günlük Sərəxs səfəri zamanı Şeyx Loğman Sərəxsi ilə görüşür. Paltar yamamaqla məşğul olan şeyx Əbu Səidi gördükdə onun duyma qabiliyyətini, fitri istedadını hiss edərək sufilərə məxsus bir dillə: "Sənə də bir yamaq vurdum, get!" deyir və onu Əbülfəzl Həsən Sərəxsin (Sərəxs baba) yanına gətirərək əlini pirin əlinə verir və "sənin yolun budur" deyir.

Aynur Qəzənfərqızı yazır: "Meyhənə şəhərində qeyri-adi istedadı ilə məşhur olan Əbu Səid Əbül-Xeyrini Əbu Həsən Tuni ismində biri çox lənətləyir, dinsiz adlandırırdı. Əbu Həsənin Əbu Səidə kini o qədər idi ki, hətta onun olduğu küçədən belə keçməzmiş. Əbu Səid bir gün buyurur: "Atımı yəhərləyib hazırlanın. Əbu Həsən Tuninin yanına gedəcəyik". Bir çoxu bunun arxasında hansı hikmətin olduğunu anlamayıb heyrətləndilər. Əbu Səid isə buyurdu:

“O, həqiqətən bizim yanlış yolda olduğumuzu zənn edir və Allah rizası üçün yanlışa lənət edirsə, bu lənət səbəbi ilə Allah-Taala ona rəhmət edər”.

Tələbələrindən bir neçəsi ilə yola düşdülər. O, Əbu Həsənin yaşadığı yerə yaxınlaşdıqda tələbələrindən birini göndərib onunla görüşmək istədiyini xəbər verdi. Əbu Həsən Tuni bunu xəbər alınca: “Onun burda nə işi var? O, kilsəyə getsin! Onun yeri oradır” deyir. Tələbəsi məcbur qalıb xəbəri olduğu kimi əfəndisinə gətirdikdə Əbu Səid:

“Bismillah, madam ki elə deyir, biz də oraya gedərik” — deyə buyurub kilsəyə gedir.

Onların kilsəyə getdikləri vaxt xristianlar ayinə toplanmışdılar. Əbu Səid içəri girdi, divarda İsa peyğəmbərin və həzrəti Məryəmin şəkilləri olan iki böyük tablo var idi. Əbu Səid şəkillərə baxıb: “Ey Məryəm oğlu İsa! Allahı buraxıb məni və anamı iki ilahi olaraq qəbul etməyi və sitayiş etməyi insanlara sənmi söylədin?” (Maidə surəsi, 116) ayəti-kəriməni oxudu və “Məhəmməd əleyhissalamın dini haqq isə, bu dəqiqə bu iki şəkil də səcdə etsinlər” — buyurdu. Allah-Taalanın izni ilə o iki şəkil yerə düşdü. Üzləri Kəbə tərəfə olub səcdə halında

durdu. Oradakı xristianlar fəryad etdilər. Oradakı xristianlardan qırx nəfəri dərhal kəlmeyi-şəhadət gətirərək müsəlman oldular. Bu xəbər Əbu Həsən Tuniyə çatdıqda, o, xətasını anladı. Əbu Səid həzrətlərindən üzr diləyib onun sadiq tələbələrindən birinə çevrildi (Qəzənfərqızı, 2012).

Əbu Səidin uşaqlıqdan fitri istedad sahibi, dərin zəkalı, məntiqli və düşüncəli olduğu haqqında qaynaqlar maraqlı bilgiler verir. Onun iti ağlı və zəkası sayəsində tələbələri də olduqca sərrast və hazırcavab olmuşlar. Hindistanlı alim Əhməd Nizar Əbu Səid Əbül-Xeyri haqqında olduqca gözəl bir məlumat qeyd edir: "Məhəmməd ibn Münəvvər «Əsrar ət-tövhid» kitabında qeyd edir: Bir dəfə tələbələrdən biri öz müəlliminə (Əbu Səid Əbül-Xeyriyə) üç sualla müraciət edir:

1. Dünyada Allah varmı? Əgər varsa, onda mənə göstər görüm o necə görünür?
2. Tale nədir?
3. Əgər şeytan oddan yaranıbsa, onda onu cəhənnəmə atmağın nə mənası var? Onsuz da oddan olan şeytana cəhənnəmdəki od nə edə bilər ki? Necə olur ki, Allah bunu düşünməyib? Müəllim qəfil şagirdin üzünə bir şillə vurur.

Ağrıdan gözlərindən yaş çıxan şagird müəllimindən niyə onu vurduğunu soruşur. Müəllim də bu şillənin onun hər üç sualına cavab olduğunu deyir. Heç nə anlamayan tələbəyə müəllim deyir ki, sən üzündəki ağrını mənə göstər görüm o necə olan şeydir. Əgər sən ağrını görmür və onu sadəcə hiss edirsənsə və onun var olduğunu bilirsənsə, bu sənin birinci sualının cavabıdır. Sən bura gələnə qədər bilirdinmi ki, üzünə şillə vurulacaq? Bilmirdin, amma yaşadın. Bax bu sənin ikinci sualının cavabıdır. Mənim əlim də, sənin üzün də ətdən, qandan yaradılıb. Əgər mən ətdən-qandan olan əlimlə sənin ətdən-qandan olan üzünə şillə vurub onu acıtdımsa, onda niyə oddan yaranan şeytana od əziyyət verməsin? Bax bu da sənin üçüncü sualının cavabıdır" (Əhməd Nizar, 2007, s. 499).

Əbu Səidin atası Qəznəli Sultan Mahmudu çox sevdiyindən "Üç Şeyxin Sarayı" deyə tanınan evini Sultan Mahmudun əsgərlərinin və zabitlərinin şəkillərilə bəzəyir. Bunu görən Əbu Səid atasından xahiş edir ki, ona bir otaq ayırsın. Atası oğlunun istəyini yerine yetirir. Əbu Səid otağının divarlarını "Allah" sözüylə bəzəyir. Atası ondan bunun səbəbini soruşduqda Əbu Səid deyir ki, sən divarları öz dostunun

əsgərlərinin şəkillərilə bəzəyibsən, mən də divarlarımı öz dostumun adıyla bəzəmişəm. Atası oğlunun nə demək istədiyini anlayaraq evindən sultanın və əsgərlərinin şəkillərini yığışdırır. Əbu Səid heyratamiz möcüzələri, insanların düşüncələrini oxuması və gələcəyi görməsilə ətrafındakıları heyrətləndirib. Ətrafında böyük inanc sahibləri olub. Nə yazıq ki, o, fikirlərini yazılı şəkildə yaymağa cəhd göstərməyib. Fikirlərini şifahi yaymağa üstünlük verib. Onun böyük loğman Əbu Əli ibn Sina ilə görüşü və İbn Sinanın böyük şeyxə heyran qaldığı haqqında günümüzə maraqlı söhbətlər gəlib çatmışdı. Əbu Səid və onun böyük mürid ordusu Səlcuqlular dövlətinin ideoloji əsaslarını hazırlayıblar. Səlcuq hökmdarları da sufilərə böyük ehtiram göstərib, onların təbliğatının gücündən bacarıqla istifadə ediblər. Onun bir çox fikirləri özündən sonrakı şair və alimlərin adına çıxılmışdı. İranlı alim Məryəm Şaxxoseyn: "«Əsrar ət-tövhid»də Əbu Səidin nəvəsi Məhəmməd ibn Münəvvər qeyd edir: Xoca Busaid danışardı ki, hər kəs düşünür ki, öz nitqimdə dediyim şeirləri mən bədahətən deyirəm. Ancaq elə deyil. Mənim özümün cəmi bircə bənd şeirim var. Qalan şeirlərimin hamısı

mənim pirimin şeirləridir ki, mən nitqim zamanı onları deyirəm" (Şaxxoseyn, 2007, s. 465).

Qaynaqlar Əbu Səid Əbül-Xeyrinin Azərbaycanla sıx bağlı olduğundan, böyük şair və dövlət adamı Əfzələddin Xaqaninin əmisinin Məlhəm Şəfa evinə gəldiyi və burada çalışdığını da yazırlar. Şirvanlı tacir Əbu Nəsir Əbu Səidin müridlərindən olmuş, Şirvanda və Azərbaycanın bir çox yerlərində mürşidinin ideyalarını yaymışdı. İranlı alim belə qeyd edir ki, Əbu Səid Əbül-Xeyrinin mənəvi davamçıları Əbülfəzl Xəzan Sərəxsi, Abdulla Dastani, Əbu Əbdürrəhman Süləmi, Əbülhəsən Xaraqani, Əbülqasım Bişər Yasin və başqalarıdır. Şagirdləri isə Əbubəkr Abdulla Nesəc, Əbu Əli Fəmadi, Əbu Nəsr Şirvani və Şeyx Cəm olmuşdur (Abuzər, 2007, s. 437).

Miladi 1049-cu ildə (hicri 440) doğulub da Meyhənə (Mihənə) şəhərində vəfat edən Əbu Səidin cənazəsi musiqi sədaları altında və ilahilər oxunaraq qəbiristanlığa aparılmışdı. Cənazəsi götürülərkən vəsiyyəti ilə aşağıdakı sətirlər oxunmuşdur:

"Dünyada bundan daha xoş hansı iş var? Dost Dosta gedir, yar yarına. Vaxt iki nəfəs

arasındadır. Biri keçdi, biri hələ gəlmədi. Elə isə dünən getdi, bəs sabah hardadır?"

Əbu Səidin yaşadığı şəhərdən günümüzə əsər-əlamət qalmasa da, çölün ortasında böyük sufi şeyxinin məqbərəsi əzəmətlə ucalır. Ətrafda bir yaşıllıq, su mənbəyi olmasa da, insanlar yayın istisində, qışın soyuğunda buraya ziyarətə gəlir, məqbərənin yanındakı quyudan su içir, dincəlir, sağlamlıq və mənəvi bir rahatlıq tapıb geri dönürlər. Sovet dövrünün qadağaları da insanları bu müqəddəs məkana ziyarətdən çəkindirə bilməmişdir.

4. Əbu Səid Əbül-Xeyri haqqında hələ də aydınlanmayan məsələlər

Böyük sufi filosofunun dünyadan köçməsindən 1000 ilə yaxın keçsə də, hələ də ömür yolu və yaradıcılığı haqqında mübahisələr davam edir. Türkmənistanda və Türküstanda daha çox Mənə Baba kimi tanınan filosofun 726 rübaisinin, 88 müxtəlif ölçüdə şeirinin və 38 natamam (parça halında) misralarının günlərimizədək gəlib çatdığını yazırlar.

Sağlığında Avropada belə adı çəkilən, Azərbaycanda müridlərinin sayı bilinməyən,

yalnız Şirvanda onun adı ilə bağlı 400 xanəgahın olduğu söylənilən filosofun adı orta yüzilliklərdən sonra yavaş-yavaş unudulmağa başlanmışdır. 1977-ci ildə "Gənclik" nəşriyyatının çap etdiyi "İnci xəzinəsi" kitabına Abbasəli Sarovlunun fars-tacik dilindən tərcümə etdiyi 41 müəllifin 500-ə yaxın şeiri daxil edilmişdir. Kitaba akademik Mirzə İbrahimov yığcam və dərin məzmunlu müqəddimə yazmışdır. Əli Şamilov "Şərq qapısı" qəzetinin 1978-ci il martın 12-də nəşr edilən 60-cı sayında yazırdı:

"Kitaba şeirləri daxil edilən şairlərin bəziləri ilk dəfədir ki, azərbaycanlı oxuculara təqdim olunur. Yaxın və Orta Şərqdə fəlsəfi rübailəri ilə məşhur olan Əbu Səid Əbül-Xeyrinin (963-1048) 26 rübaisi və "Dünyanın halı" şeiri daxil edilmişdir".

Şifahi xalq ədəbiyyatından zəngin bəhrələnən şair rübailərinin birində yazır:

"Canan küsüb, mən həsrətəm yara indi, Divanəyəm, günüm olub qara indi. Gəlib məndən öyüd alar Məcnun özü, Cünunluğum gör ki, çatıb hara indi".

Bu gün də xalq arasında dolaşan, tez-tez işlədilən "Kərki olub öz tərəfinə yonunca mişar

ol, bir dəfə özünə, bir dəfə də özgəyə tərəf yon” atalar sözündən istifadə edən şair deyir:

“Külüng olma zərbələrin daşı dələ, Rəndə kimi möhtac qalma hər bir ələ. Bu həyatda sən mişara bənzə ancaq, Özün də ye, özgəni də saxla hələ”.

Əbu Səid Əbül-Xeyrinin rübailərində sufi rəvayətlərindən gəlmiş çoxlu təşbeh və ifadələr var. Sufi filosof dünyanı belə dəyərləndirir:

“Bu dünyanın hər işini xəbər aldım bir arifdən, Dedi: «Cahan qum-torpaqdır, bir küləkdir, əfsanədir». Dedim: «Kimlər hərisliyə, acgözlüyə mübtalədir?» Dedi: «Həris insan bil ki kordur, kardır, məstanədir». Dedim: «Söylə həyatımız, varlığımız, ömür nədir?» Dedi: «Ömür çaxan şimşək, yanan şamdır, pərvanədir».”

Şeirin son misralarını belə ümumiləşdirir:

“Naz-nemətə biganədir, vəfasızdır dünya özü, Ona uyan dünya kimi bivəfadır, biganədir” (Sarovlu, 1977, s. 18).

Araşdırmaçılara görə, böyük tərəfdar ordusu və müridləri olan Əbu Səid Əbül-Xeyri dediklərini nə özü yazıb, nə də müridlərinin yazmasına icazə verib. Buna baxmayaraq, kitabxanalarda onun adına neçə-neçə əsər vardır.

5. Əbu Səid Əbül-Xeyrinin ideyalarının daşıyıcısı Mir Həmzə Nigari

Elə insanlar var ki, sağlığında şöhrətin zirvəsinə çatır, bir az keçməmiş unudulur. Elə insanlar da var ki, zaman ötdükcə şöhrəti artır. Belə insanlardan biri də Əbu Səid Əbül-Xeyridir. Onun ideyalarını daşıyan azərbaycanlı sufi şairlərdən biri də Mir Həmzə Seyid Nigaridir.

Qarapapaq türklərindən olan Seyid Mir Həmzə 1805-ci ildə (bəzi qaynaqlarda 1795, 1797) Qarabağ xanlığının Bərgüşad mahalının (indiki Laçın rayonunun) Cicimli kəndində anadan olub. İlk təhsilini Nuxanın (indiki Şəki) Dəhnə kəndində alan Mir Həmzə dövrünün tanınmış sufi alimi, antimüstəmləkə hərəkatının ideoloqlarından olan İsmayıl Şirvaninin (Kürdəmiri) müridi olmuşdur.

Çar Rusiyası Qafqazı işğal edəndən sonra İsmayıl Şirvanini doğma yurdundan sürgün etmişdir. Seyid Mir Həmzə də mürşidinin arxasınca Anadoluya getmişdir. 20 ildən çox Sivasda və Amasiyada şeyxinin yanında qalmışdır. Şeyxinin icazəsi ilə Konyada Mövlanə Cəlaləddin Ruminin türbəsini ziyarət edən, sonra da Məkkəyə, Mədinəyə, Şama və

Qüdsə səfər edən gənc sufi, orada dövrünün tanınmış alimləri ilə görüşmüş, onlardan öyrənmişdir. Uzun səfərdən sonra şeyxinin yanına dönən Mir Həmzə bir il orada qalaraq "seyri-süluk"unu tamamladıqdan sonra mürşidi onu Qarabağa göndərmişdir.

Qısa müddətdə bölgədə böyük nüfuz qazanan və özünə tərəfdarlar toplayan Mir Həmzə Seyid Nigari Krım uğrunda Rusiya ilə Osmanlı arasında savaş başlayanda bir qrup tərəfdarı ilə birlikdə Qars şəhərinə gəlir. Rusiyaya qarşı cihad elan edir və onlara qarşı vuruşur. Savaşdan sonra Ərzurumda qalır və 3 ilə yaxın orada məsciddə xütbələr oxuyur, müridlərini aydınladır.

Bir ara İstanbula gedən Mir Həmzə Seyid Nigari oradan Amasiyaya dönür. Gənclərə təfsir və hədisdən dərs verir, sufi görüşlərini təbliğ edir. Bu görüşlərin təbliği antimüstəmləkə xarakteri daşıdığından Çar Rusiyasını bərk narahat edir. Çar Rusiyasının təzyiqi altında Osmanlı sultanı Mir Həmzə Seyid Nigarini mürşidi İsmayıl Siracəddin Şirvaninin (Kürdəmiri) 1840-1848-ci illərdə sürgün həyatı yaşadığı Harputa sürgünə göndərir. O da mürşidi kimi sürgündə — 1885-ci ildə Harputda

dünyasını dəyişir. Vəsiyyətinə görə Amasiyaya gətirilərək mürşidi İsmayıl Siracəddin Şirvaninin qəbri yanında dəfn edilir.

Şeirləri əzbərlənərək tərəfdarları tərəfindən zikr məclislərində mistik bir həyəcanla oxunan Mir Həmzə Seyid Nigarinin ölümündən sonra da müridləri Çar Rusiyası üçün bir qorxu mənbəyi olmuşdur. Mühiddin İbn Ərəbinin "Fütuhatül-Məkkəyə" əsərinə yazdığı "Təvzihal", həmçinin "Nigarnamə", "Saqinamə" əsərləri və şeirləri günümüzədək gəlib çatmışdır. İstər mürşidi İsmayıl Siracəddin Şirvaninin, istərsə də Seyid Mir Həmzə Nigarinin sufizmə gətirdiyi bir yenilik də antimüstəmləkə ideologiyası idi (Qarabağ, 2012).

Sonuc

Əbu Səid Əbül-Xeyrinin yaşadığı dövrlə Seyid Mir Həmzə Nigarinin yaşadığı zaman arasında 900 ilə yaxın bir vaxt var. Seyid Mir Həmzə Nigarinin dünyadan köçməsindən 125 il keçir. Yenə də insanlar mənəvi kamilliyə qovuşmağın yollarını axtarır. Bu işdə onlara yol göstərən sufilər və sufi ədəbiyyatı olmuşdur. İstər Şərqdə, istərsə də Qərbdə bu mövzu həmişə araşdırmaçıların diqqət mərkəzində olmuş, bu

mövzuda yüzlərlə kitab yazılmış, geniş tədqiqatlar aparılmışdır. Amma hələ də nə Əbu Səid Əbül-Xeyrinin, nə də Seyid Mir Həmzə Nigarinin əsərlərinə və ömür yollarına lazımınca aydınlıq gətirilməmişdir.

Qaynaqlar

Abuzər, İ. T. (2007). Əbu Səid Əbül-Xeyri – Şərqin böyük mütəfəkkiri. *"Gündoğarın böyük ağıldarları" Beynəlxalq Elmi Konfransın materialları* (s. 437). Aşqabat.

Abu Seyit Abul Hayrı. (2007). *Şeyx Fehretdin Attar Nişapurının Hatırlaması* (J. Atayev, Haz. və Tərc.). Aşqabat: İran İslam Respublikasının Türkmənistandakı Səfirliyinin Mədəniyyət Mərkəzi.

Cəmilov, M. (2007). Miyanə baba dövrünün görkəmli ilahiyyatçısı. *"Gündoğarın böyük ağıldarları" Beynəlxalq Elmi Konfransın materialları* (s. 452). Aşqabat.

Əhməd Nizar. (2007). Klassiklər və müasir nəzəriyyə: Əbu Səid Əbül-Xeyri və insan ehtiyatının paradiqması. *"Gündoğarın böyük ağıldarları" Beynəlxalq Elmi Konfransın materialları* (s. 499). Aşqabat.

Əliheydər. (t.y.). *Azərbaycanda təsəvvüfün yayılması*. http://az.islam.az/news/a-506.html ünvanından əldə edilib.

İslâm Ansiklopedisi. (1994). *Ebû Saîd-i Ebü'l-Hayr* (Cild 10, s. 220). İstanbul: Türkiye Diyanet Vakfı.

Məhəmmədli, M. (2007, 22 noyabr). *Əbu Səid Əbül-Xeyrin "Qırx məqam" risaləsi*. https://mesiha.blogspot.com/2007/11/bu-sid-bul-xeyrin-qirx-mqam-risalsi.html ünvanından əldə edilib.

Mirhəmzə Seyid Nigari. (2010). *Divan*. Bakı: Elm və Təhsil.

Muminov, A. (2007). Əbu Səid Əbül-Xeyri Şərq mistisizminin banisi kimi. *"Gündoğarın böyük ağıldarları" Beynəlxalq Elmi Konfransın materialları* (s. 427). Aşqabat.

Poladova, M. (2004). *Ömrün izləri: Pir Hüseyn və Şeyx Xorasani xanəgahları*. Bakı: Əbilov, Zeynalov və Qardaşları.

Qarabağ, S. (2012, 26 aprel – 2 may). Mir Həmzə Seyid Nigari irsi. *Cəmiyyət və Din*, s. 6.

Qəzənfərqızı, A. (2012, 26 aprel – 2 may). Əbu Səid Əbül-Xeyri. *Cəmiyyət və Din*, s. 6.

Sarovlu, A. (Tərc.). (1977). *İnci xəzinəsi*. Bakı: Gənclik.

Səfərli, H. F. (2009). *Ordubad şəhərinin müsəlman epiqrafik abidələri*. Bakı: MBM.

Şamilov, Ə. (1978, 12 mart). Şərq şeirindən nümunələr. *Şərq qapısı*, (60).

Şaxxoseyn, M. (2007). Əbu Səidin poetik istedadı. *"Gündoğarın böyük ağıldarları" Beynəlxalq Elmi Konfransın materialları* (s. 465). Aşqabat.

Özəti Çap olunub: Abulsait Abulhayri və onun ideyalarının Mir Hamza Seyid Nigari tərəfindən davam etdirilməsi. Abulsait Abulhayrı Gündoğarın böyük ağıldarı.Uluslararası elmi konfransın özetləri, Aşxabat, 2007, 13-15 Noyabır, səh. 148(türkməncə), ingiliscə(338), rusca (515)

MAHMUD ZAMAXŞARİ VƏ AZƏRBAYCANIN ELMİ, ƏDƏBİ MÜHİTİ

Özət

Güclü dövlətin yaranması həm iqtisadiyyatın, həm elmin, həm ədəbiyyatın, həm də mədəniyyətin inkişafına zəmin yaradır. Orta əsrlərin qüdrətli imperiyası olan Böyük Səlcuq İmperiyası dövründə xalqlar hələ Türkmənistan və Azərbaycan kimi ayrı coğrafi vahidlərə bölünmürdü. Dili və dini bir olan xalq vahid dövlət daxilində, eyni mədəniyyətin daşıyıcısı kimi yaşayırdı. Bu qüdrətli dövlət Mahmud Zəmaxşəri (1075–1144) kimi böyük bir alim yetişdirmişdir. Onun əsərləri qısa zamanda Səlcuq İmperiyasının bütün bölgələrinə yayılmışdır.

Mahmud Zəmaxşəri dövründə indiki Azərbaycan ərazisində də elm, sənət və ədəbiyyat sürətlə inkişaf etmişdir. Mənbələrə görə, təkcə Bərdə şəhərində Məkki ibn Əhməd əl-Bərdəi, Səid ibn əl-Uru əl-Əzdi, Əbdüləziz ibn əl-Həsən əl-Bərdəi kimi böyük alimlər yetişmişdir. Məşhur İslam coğrafiyaşünası Yaqut əl-Həməvi Məkki ibn Əhməd əl-Bərdəidən bəhs edərkən yazır: "O qədər çox kitab yazmışdır ki, bunu təsəvvür etmək belə çətindir". Mahmud Zəmaxşərinin müasiri olan Təbrizli Xətibin, Əbu Zəkəriyyə Yəhya ibn Əli və Əbu Mənsur ibn Əhmədin, Xoylu Əbu Miaz Abdanın,

Şamaxılı Əbu Bəkr Məhəmməd Şirvaninin, Fazil Fəridəddin Şirvaninin və digər alimlərin əsərləri imperiyanın hüdudlarından kənarda da oxunurdu.

Azərbaycanın məşhur tədqiqatçı və şairlərindən Xətib Təbrizi, Qətran Təbrizi, Pir Hüseyn Şirvani, Xaqani Şirvani, Fələki Şirvani, Əbül-Üla Gəncəvi, Məhsəti Gəncəvi, Nizami Gəncəvi və Mücirəddin Beyləqani Mahmud Zəmaxşərinin yaradıcılığı ilə yaxından tanış olmuş və ondan bəhrələnmişlər. Bu qarşılıqlı əlaqələr dünya mədəniyyətinə dəyərli əsərlər bəxş etmişdir.

Açar sözlər: Mahmud Zəmaxşəri, Səlcuqlular dövründə Azərbaycanda elm, sənət, mədəniyyət, qarşılıqlı təsir.

MAHMUD ZAMAKHSHARI AND THE SCIENTIFIC AND LITERARY ENVIRONMENT OF AZERBAIJAN

Abstract

The emergence of a powerful state creates the necessary groundwork for the development of the economy, science, literature, and culture. During the era of the Great Seljuk Empire, a formidable empire of the Middle Ages, peoples were not yet divided into distinct geographic units such as modern-day Turkmenistan and Azerbaijan. Sharing a common

language and religion, these people lived within a unified state as carriers of the same culture. This powerful state fostered the growth of great scholars like Mahmud Zamakhshari (1075–1144). His works spread rapidly across all regions of the Seljuk Empire.

During Zamakhshari's time, science, art, and literature flourished in the territory of present-day Azerbaijan as well. According to historical sources, the city of Barda alone produced great scholars such as Makki ibn Ahmad al-Bardai, Said ibn al-Uru al-Azdi, and Abdulaziz ibn al-Hasan al-Bardai. When discussing Makki ibn Ahmad al-Bardai, the famous Islamic geographer Yaqut al-Hamawi wrote: "He wrote so many books that it is difficult even to imagine." The works of Zamakhshari's contemporaries—such as Khatib Tabrizi, Abu Zakariya Yahya ibn Ali and Abu Mansur ibn Ahmad, Abu Miaz Abda of Khoy, Abu Bakr Muhammad Shirvani of Shamakhi, Fazil Faridaddin Shirvani, and others—were read far beyond the borders of the empire.

Renowned Azerbaijani researchers and poets, including Khatib Tabrizi, Qatran Tabrizi, Pir Hossein Shirvani, Khaqani Shirvani, Falaki Shirvani, Abul-Ula Ganjavi, Mahsati Ganjavi, Nizami Ganjavi, and Mujiraddin Beylaqani, were closely acquainted with Mahmud Zamakhshari's

creative output and benefited from his scholarship. These mutual relations bestowed valuable works upon world culture.

Keywords: Mahmud Zamakhshari, science in Azerbaijan during the Seljuk period, art, culture, mutual influence.

Giriş

İslam dininin meydana çıxması ilə dünyada böyük bir dəyişiklik baş verdi. Dövrün qüdrətli dövlətləri, minillik ənənəyə malik dinlər və inanclar yeni ideologiya qarşısında davam gətirə bilmədilər. Ümmətçilik insanların böyük qruplarını birləşdirə bildi. Yeni din insanlara vicdan azadlığı, birlik və azadlıq gətirdi. Cəmiyyətdə qadınların və uşaqların rolu artdı. Böyük Sasani imperiyası süqut etdi. İslam orduları Bizansın paytaxtının qapılarınadək irəlilədi. Hər yerdə qalib gələn İslam döyüşçüləri türkləri döyüşdə məğlub edə bilmədilər. Bizans tarixçisi Mihael Kmoska bunu belə təsvir edir:

"Möhtəşəm hücumlarına bütün İran dağlarının və o dövrün iki böyük dövlətinin bütün hərbi qüvvələrinin müqavimət göstərə bilmədiyi ərəblərin Qafqaz qapılarında dayandırılması və Qafqaz keçidlərinin böyük bir dövlət tərəfindən deyil, yalnız köçəri xəzərlər tərəfindən müdafiə olunmasına baxmayaraq irəliləyə bilməməsi heyrət doğurur" (Qəzənfəroğlu, 2005, s. 80).

Avropanın məşhur şərqşünası Leon Cahun "Türk tarixi" əsərində bunu belə tamamlayır:

"Həqiqət budur ki, ərəblər silah gücü ilə türkləri məğlub edə bilməmişlər… Əgər ərəblər daha ustalıqlı olmasaydılar, qüvvə və qüdrət baxımından türklər üstün gələrdi. Amma nəhayət, siyasətdə və bəlağətdə mahir olan ərəblər, düşmənə zərbə vurmaqda usta olduqları halda, söz deməkdə bir qədər sadə olan qədim döyüşçülər üzərində qələbə qazandılar" (Qəzənfəroğlu, 2005, s. 80).

1.1. İslam mədəniyyətinin yüksəlişində türklərin rolu

Tarix üçün qısa bir müddətdə İslam dini Çindən İspaniyayadək geniş bir əraziyə yayıldı. Təəssüf ki, xəlifələr və onların təyin etdikləri sərkərdələr, valilər hər zaman İslam dəyərlərinə sadiq qalmadılar. Buna görə də xilafət daxilində üsyanlar baş verdi. Bundan istifadə edən səlibçilər Şərqə doğru hücumlara başladılar. Belə çətin vəziyyətdə İslam dünyasını türk döyüşçüləri qorudu. Çünki türklər inanc yaxınlığı səbəbilə İslamı qəbul etmişdilər. Araşdırmaçıların fikrincə, oğuz-türk etnosu İslamı qəbul etməklə dinini dəyişsə də, iman və etiqadını dəyişməmişdir. İslam dini elmin inkişafına təkan verdi. Dilindən, irqindən asılı olmayaraq böyük bir mədəniyyət – İslam mədəniyyəti formalaşdı.

Səlcuqluların tarix səhnəsinə gəlməsi ilə bu proses daha da gücləndi. Saparmurad Türkmənbaşı "Ruhnamə" əsərində haqlı olaraq yazırdı: "Böyük Səlcuq dövləti Oğuz mədəniyyəti ilə birlikdə İslama böyük əhəmiyyət vermiş, beləliklə sərhədlərini İstanbuldan Çinə qədər genişləndirmişdir. Hətta İslam aləminin qoruyucusu olaraq böyük dövlət olmaq şərəfinə nail olmuşdur" (Türkmənbaşı, 2001, s. 226).

Təəssüf ki, rus tarixşünaslığının, xüsusilə də sovet ideologiyasının təsiri ilə Azərbaycan tarixçiləri də Səlcuq yürüşlərini yanlış təqdim etməyə çalışmışlar. Onları "iqtisadi əsası olmayan", "vəhşi köçərilər", "inkişaf etmiş ölkələri viran qoyanlar" kimi qələmə vermişlər. Halbuki eyni tarixçilər etiraf edirlər ki, Səlcuqlular dövründə elm inkişaf etmiş, yeni məscidlər, körpülər, karvansaralar və kitabxanalar tikilmişdir. Bu isə belə bir sual doğurur: əgər iqtisadiyyat çökmüş və təsərrüfat dağıdılmışdısa, bu tikinti və inkişaf necə baş verirdi? Səlcuq memarlığı tarixə mühüm bir mərhələ kimi daxil olmuşdur.

Sovet İttifaqı dağıldıqdan sonra yazılan tarix kitablarında bu məsələyə münasibət dəyişmişdir. Azərbaycanın müstəqillik əldə etməsindən sonra nəşr olunan ilk tarix kitablarında oxuyuruq: "Sultan Toğrul bəyin başçılıq etdiyi Səlcuq qoşunu XI yüzilin 50-ci illərinin ortalarında Azərbaycana daxil

oldu. Bundan əvvəl də onlar Azərbaycana bir neçə dəfə gəlmişdilər. Lakin Toğrul bəyin bu yürüşü əvvəlkilərə bənzəmirdi. Rəvvadi hökmdarı Vəhsudan və Şəddadi hökmdarı Şavur siyasi hakimiyyəti qorumaq məqsədilə müqavimətsiz tabe oldular… Bunun bir səbəbi onların hərbi zəifliyi idisə, digər səbəbi Səlcuqluları özləri ilə dili və soyu bir olan qohum hesab etmələri idi" (Azərbaycan tarixi, 1994, s. 290).

Səlcuqlular dövrü Şərqdə elmin və mədəniyyətin sürətlə inkişaf etdiyi bir mərhələ idi. Həmin dövrdə Azərbaycanda doğulub Türküstanda yaşamış, İbn Sinanın sevimli şagirdi Əbülhəsən Bəhmənyar ibn Mərzban, Əbusəid Urməvi, Abdullah Urməvi, Təbrizli Əbu Səid, Qətran Təbrizi, Xətib Təbrizi və digər alimlər yetişmişdir. Onların elmi və ədəbi fəaliyyətlərini yalnız Azərbaycanın hüdudları ilə məhdudlaşdırmaq doğru olmaz; onlar bütövlükdə İslam mədəniyyətinə xidmət etmiş alimlərdir. Bu fikir, bizcə, Zəmaxşəriyə də aiddir.

1.2. Mahmud Zəmaxşərinin ömür yolu və yaradıcılığı

Mahmud Zəmaxşərinin ömür yolu və yaradıcılığı son yüzilliklərdə Azərbaycanda ciddi öyrənilməyib. Ziya Yusif Şirvaninin 1966-cı ildə çap

etdirdiyi məqaləsində Mahmud Zəmaxşəri haqqında qısa bilgi verməsini və prof. Vasim Məmmədəliyevin 1985-ci ildə çap etdirdiyi "Ərəb dilçiliyi" kitabındakı qeydlərdən başqa Azərbaycanda elə ciddi bilgiyə rast gəlmirik.

Doğulduğu kəndin adını özünə soyad kimi götürən, məşhurlaşdıqca kəndini də dünyaya tanıdan Mahmud Zəmaxşəri, Rəhman İlməmmədova görə, 1075-ci il martın 8-də Xarəzmin Zəmaxşər (indiki Daşoğuz vilayətinin Köroğlu rayonu) kəndində anadan olmuşdur. Onun adı bütövlükdə Əbülqasım Mahmud bin Ömər bin Məhəmməd əl-Xarəzmi əz-Zəmaxşəri kimi yazılır. Uşaqlıqdan qəza nəticəsində bir ayağı şikəst olsa da ruhdan düşməmiş, dünyanın bir çox ölkələrini gəzmiş, müqəddəs yerləri ziyarət etmiş, 70 ilə yaxın ömür sürmüşdü.

Mahmud Zəmaxşəri tarix səhnəsinə yeni atılmış, elmə, mədəniyyətə yüksək qiymət verən Səlcuqlular dönəmində yaşadığından onun fitri istedadının cilalanması üçün gözəl şərait yaradılmışdır. Kənd mollası olan atası Ömər Mahmudu dərziyə şagird vermək istəyib. Lakin hökumətin elmə, alimə, mədəniyyətə böyük qayğı göstərdiyini gördükdə onu Xarəzmdəki dövrünün ən böyük elm mərkəzlərindən olan mədrəsəyə oxumağa göndərir. Mahmud qısa bir zamanda mədrəsədə məşhurlaşır. Sonra da təhsilini davam etdirmək üçün dövrünün məşhur elm ocaqlarına yol alır.

Səlcuqluların qərbə doğru yürüşləri, 1055-ci ildə Abbasilər xilafətini asılı vəziyyətə salmaları Şərqdə bir dinclik, əminlik yaratmışdı. Karvanlar rahat və təhlükəsiz hərəkət edə bilirdilər. Ticarətin inkişafı şəhərləri dirçəldir, yolları abadlaşdırır, elmə və sənətə marağı artırırdı.

Mahmud Zəmaxşəri də Səlcuqluların yaratdığı imkanlardan bacarıqla yararlanır. Dövrünün məşhur alimlərindən Şeyx Əbu, İmam Rüknəddin Mahmud əl-Uşuli və İmam Mənsurdan, Şeyx Sədid əl-Həyyati və başqaları ilə görüşür, onlardan dərs alır. Bir neçə dəfə Bağdada gedib orada da məşhur alimlərdən dərs alan Zəmaxşəri, 1118-ci ildə xəstələndikdə müsəlmanların müqəddəs məkanı, hər il milyonlarla müsəlmanın həcc ziyarətinə yollandığı Məkkə şəhərinə gedir. Məkkənin nüfuzlu alimlərindən olan Əbül-Həsən Əli Həmzə tərəfindən səmimi qarşılanır və onlar arasında dostluq gündən-günə möhkəmlənir. Zəmaxşəri Məkkədə 5 ilə qədər qalır və İslami elmləri dərindən öyrənir. Buna görə də ona "Allahın qonşusu" mənasını daşıyan "Carullah" ləqəbini verirlər.

Mahmud Zəmaxşəri Məkkədə olarkən ciddi elmi axtarışlar aparır. İslam dininə dair bir sıra olduqca dəyərli əsərlər yazır. Bu əsərlər arasında ona daha çox şöhrət qazandıran "Əl Kəşşaf" adlı təfsir kitabı olur. Məkkədə yazmağa başladığı təfsir kitabını görünməmiş bir sürətlə iki ildə, yəni 1134-

cü ildə tamamlayır. Qurani-Kərimin müfəssəl təfsiri olan “Kəşşaf təfsiri” əhli-sünnə alimlərinin əksəriyyəti tərəfindən yüksək qiymətləndirilir və təfsirin ən mükəmməl kitablarından biri kimi qəbul edilir.

Alimin özünə inamı o qədər güclü olub ki, çox vaxt çağdaşlarına meydan oxuyacağı bir şəkildə müraciətlər də edib. “Kəşşaf təfsiri” kitabında bəzi islam alimlərini xurafata varmaqda suçlamaqdan belə çəkinməyən Mahmud Zəmaxşəri, Əbu Keyrs dağına çıxaraq ərəb qəbilələrinə “babalarınızın, atalarınızın dilini gəlin məndən öyrənin” deyə səslənib də! Ərəb dilini belə mükəmməl bilməsi onun şöhrətini o dövrdə islam aləmində daha da artırıb.

Məkkədən Bağdada gedən Zəmaxşəri, Böyük Səlcuq sultanları Alp Arslan (1068–72) və Məlikşahın (1072–92) vəziri olmuş Nizamülmülkün açdığı Nizamiyyə mədrəsəsində 1138-ci ildən dərs deməyə başlayır (Yüce, 1985, s. 509–514).

Vətənə dönən Mahmud Zəmaxşərini böyük ehtiramla qarşılayırlar. Ona saray kitabxanasında vəzifə də verirlər. Zəmaxşəri vətənə döndükdə Xarəzm inkişaf etmiş, gündən-günə çiçəklənən bir şəhərə çevrilmişdi. Bölgənin mədəni mərkəzlərindən olan şəhər və çevrəsinə türklərin oğuz, qıpçaq və kanqlı boyları-tayfaları hakim idi. Günümüzdə kəngərli kimi işlətdiyimiz söz orta yüzilliklərdə

kanqlı kimi işlədilir və yazılırdı. Hətta şəhərdə və bölgədə türkcənin yeni bir ləhcəsi, Xarəzm ləhcəsi formalaşmışdı. Bu ləhcəni oğuzlar da, qıpçaqlar da, qarluqlar da rahat başa düşürdülər.

Bölgədə türk tayfaları əhalinin çoxluğunu təşkil etsə də, saraylarda fars dili, mədrəsələrdə ərəb dili daha çox işlədilirdi. Ümumiyyətlə, orta çağlarda yaxın Şərqdə üçdillilik normal bir hala çevrilmişdi. Amma alimlər, tacirlər və bəzi peşə sahiblərinin arasında mübahisələr getdikcə dərinləşirdi. Bəziləri ərəb dilinə üstünlük verir, bu dildə peyğəmbərimiz Məhəmməd əleyhissalamın danışdığını, islam dininə dair kitabların çoxunun bu dildə olduğunu söyləyərək əsas dil sayır və bu dili bildikləri ilə qürur duyur, özlərini xalqdan uca tuturdular. Bəziləri isə fars dilinə üstünlük verir, bu dili ədəbiyyat, şeir dili sayır, fars dilində yazdıqları və danışdıqları ilə qürur duyurdular. Əhalinin çoxluğunu təşkil edən, ordu yaradanlar isə ana dillərinə – türkcəyə üstünlük verirdilər.

Kaşqarlı Mahmud ərəblərin türk dilini öyrənməsi üçün "Divanü lüğat-it-türk" əsərini yazmışdı. Xarəzmşah Atsız ibni Muhamməd də (hakimiyyəti 1127–1156) Mahmud Zəmaxşəriyə türklərin və farsların ərəb dilini öyrənmələri üçün bir kitab yazmasını tapşırır. Mahmud Zəmaxşəri "Müqəddimətül-ədəb" adlı sözlüyünü yazır.

Xarəzm hökmdarı Atsız Məhəmməd Anuğ Tiginə həsr edilmiş lüğət ərəbcə olsa da, sətirarasında Xarəzm türkcəsində, farsca, monqolca, cağatayca və b. türk ləhcələrində izahlar və tərcümələr də verilmişdir. Zəmaxşəri "Müqəddimətül-ədəb" əsərində yalnız ərəb sözlərinin qarşılığını verməklə kifayətlənməmiş, yeri gəldikcə türklərin müsbət insani keyfiyyətlərindən, igidliklərindən də söz açmışdır.

Mahmud Zəmaxşəri "Müqəddimətül-ədəb" əsəri ərəb dilində olan sözlərdən təşkil olunmuş qısa cümlələrdən ibarət bir lüğətdir. Lüğət olduqca sadə və aydın bir üslubla yazılmışdı. Azacıq təhsil görmüş, ərəb dilini bilməyən türklər və farslar müəllim yanına getmədən, mədrəsə təhsili görmədən də bu kitab vasitəsilə ərəb dilini öyrənə bilər.

Zəmaxşəri kitabında müxtəlif türk tayfalarının (uruklarının) ləhcələri haqqında məlumatlar vermiş, lüğətdə oğuz, qıpçaq, qarluq boylarının dil xüsusiyyətlərindən söz açmışdır. Ümumiyyətlə, kitab ərəb dilində yazılsa da, əsasən, türk dillərinə müraciətlə yazıldığından ortaq türk ləhcələrinin söz xəzinəsini öyrənmək baxımından olduqca maraqlıdır. Kitabda Mavəraünnəhr və ətrafındakı türk ləhcələrində işlənən bəzi nadir kəlimələr (sözlər) işlədilmişdir.

Zəmaxşəri "Müqəddimətül-ədəb" (Ədəbiyyatşünaslığa giriş) əsərilə sanki Kaşqarlı

Mahmudun “Divanü lüğat-it-türk” əsərindəki boşluğu doldurmağa çalışmışdı. Müəllif kitabının bəzi yerlərində qrammatik izahlar vermiş, yer adlarını geniş izah etməyə çalışmışdı.

Çox təəssüf ki, Zəmaxşərinin “Müqəddimətül-ədəb” əsərinin orijinalı günümüzədək gəlib çatmasa da, qaynaqlar uzun illər bu kitabın yaxın Şərqin mədrəsələrində dərslik kimi istifadə edildiyindən xəbər verir (Zamahshari, 2004, s. 64–175).

Mahmud Zəmaxşərinin 60-dan çox əsəri haqqında bilgi verən qaynaqlarda onun ölümü haqqında fərqli fikirlər var. Bəzi qaynaqlara görə, Zəmaxşəri Bağdad şəhərindən Xarəzmə gedib Ceyhun çayı sahilindəki Ürgənc şəhərində bir neçə il yaşadıqdan sonra 1144-cü ildə vəfat edib. Bəzi qaynaqlara görə isə alim son səyahəti zamanı ayağı donduğundan vətəni Xarəzmdə 1144-cü il iyunun 13-də (alimin 14 iyun 1134-cü ildə vəfat etdiyini yazanlar da var) vəfat edib.

Zəmaxşərinin əsərləri az zaman içərisində Səlcuq İmperiyasının hər tərəfində yayılmış, Azərbaycanın bir çox məşhur şairləri Qətran Təbrizi, Pir Hüseyn Şirvani, Xaqani Şirvani, Əbül-Üla Gəncəvi, Fələki Şirvani, Mücirəddin Beyləqani və b. bu böyük alimin əsərlərindən bəhrələnmişlər.

Zəmaxşərinin “Müqəddimətül-ədəb” əsəri bu gün də Orxon-Yenisey abidələrindəki kimi, Kaşqarlı Mahmudun “Divanü lüğat-it-türk” əsəri kimi dil

tariximizi, soykökümüzü öyrənmək baxımından olduqca dəyərli abidədir.

2. Qətran Təbrizi

Qətran Təbrizi adı ilə məşhurlaşan Əbu Mənsur 1012-ci ildə Təbriz yaxınlığındakı Şadiabad (Pinəşalvar) kəndində anadan olmuşdur (Bəktəli, 1967, s. 3). İlk təhsilini Təbrizdə almış, ilk şeirlərini də burada yazmışdır. Şair kimi tanındıqdan sonra dövrün mədəniyyət mərkəzlərindən olan Gəncəyə gəlir. Burada şair Sipəhdar Əbülyasirinin köməyi ilə Arranda hakim olan Şəddadilər sarayında fəaliyyət göstərir və məşhur əmir Əbülhəsən Ləşkərinin (1034–1050) dövründə yaradıcılığının yüksəliş mərhələsini yaşayır (Azərbaycan ədəbiyyatı tarixi, 1960, s. 59).

Əmir Ləşkəriyə yazdığı qəzəldə deyir: "Şöhrətli əmir idin ki, bizi şöhrətləndirdin. Həmişə qızıl xəzinən olduğundan, bizi də qızıl sahibi etdin. Belə lütf göstərməklə başımıza tac qoydun. Mənə bu kifayətdir ki, şeirimin bir beytini sən əzbərləmisən."

Şair yalnız Ləşkəriyə deyil, onun əmirlərindən olan Əbülfəzlə də qəsidələr yazmışdır. Bunlar tarixi baxımdan olduqca dəyərli olmaqla yanaşı, bədii dəyərini də günümüzədək qorumuşdur. Onun dövrünün iki əmiri – Əbülhəsən Ləşkəri ilə Əbülfəzl Cəfərin barışığına həsr etdiyi məsnəvi də

diqqətəlayiqdir. O yazır: “İndi iki aslan bir yerə toplaşdı, İndi Ayla Günəş qovuşdu. Düşmənlər əriyib məhv olacaq, Onların bədəni qəm və həsrət çəkəcək” (Təbrizli, 1967, s. 19).

Qətran Təbrizi Səlcuq yürüşlərinin canlı şahidi olmuş, əsərlərində bu hadisələrdən ilhamla bəhs etmişdir. Burada məşhurlaşan gənc şair bir müddət sonra Naxçıvana – Əbu Dülef Dəyraninin sarayına dəvət olunur. Bir neçə il orada yaşadıqdan sonra doğulduğu şəhər üçün darıxdığını belə ifadə edir: “Məndə doğma Təbrizi görmək arzusu oyandı, Sanki canıma yandırıcı bir od düşdü.”

Şair Təbrizdən uzaqda yaşadığı dövrdə də daim doğma şəhərini xatırlamışdır. 1043-cü ildə baş vermiş Təbriz zəlzələsinə həsr etdiyi şeir tədqiqatçıların həmişə diqqət mərkəzində olmuşdur. Şair sonradan Təbrizə qayıdaraq Əmir Vəhsudan və oğlu Məmlanın sarayında işləmiş, ömrünün sonuna qədər orada yaşamışdır. Onun şöhrəti isə Azərbaycanın hüdudlarından kənara yayılmışdır. Nasir Xosrov “Səfərnamə” əsərində 1046-cı ildə Təbrizdə Qətran Təbrizi ilə görüşünü belə təsvir edir: “Təbrizdə gözəl şeirlər deyən Qətran adlı bir şairlə görüşdüm.” Qətran Təbrizinin doğulduğu ildə dünyaya gəlmiş Rəşidəddin Vətvat (1088–1182) şairin yaradıcılığını yüksək qiymətləndirərək onu “Həkim Qətran” adlandırır və yazır: “Mən öz həyatımda yalnız Həkim Qətranı əsl şair kimi

tanıyıram, digərləri isə ümumiyyətlə elm sahibi deyil, sadəcə şeir yazanlardır.”. Əbivərdi Ənvəri 1134–1135-ci illərdə Qətran Təbrizinin əsərlərini topladıqdan sonra onun “Divan”ını tərtib etmiş və belə adlandırmışdır: “Şairlərin ən bəlağətlisi, bəlağət sahiblərinin ən yaxşısı, gözəl söz ustalarının kamili Əbu Mənsur Qətran Cilinin Azərbaycan şeirləri” (Bəktəli, 1967, s. 5).

Qətran Təbrizinin yaz, yay və qış mövzularına həsr etdiyi şeirlər sonrakı şairlər üçün məktəb rolunu oynamışdır. Onun təbiət şeirlərindəki epitetlər dövründə bədii yenilik sayılırdı. Şair yazır: “Qırmızı yaqut yerə damcı-damcı yağırdı, Ağac budaqları yaqut kimi qırmızı meyvə verirdi. Gül torpaqda dost üzü kimi gülümsəyirdi, Bulud isə gözüm kimi hönkür-hönkür ağlayırdı.”

Şairin yaradıcılığında qəsidə xüsusi yer tutur. Qəsidələrin mövzusu dövrdə baş verən hadisələrdir. Beləliklə, şair bir tarixçi kimi gördüklərini şeirlə təsvir etmişdir. Onun qəsidələrində dövrünün 32 əmiri, dövlət xadimi və sərkərdəsi haqqında qiymətli məlumatlar vardır. Qətran Təbrizi həm də ensiklopedik biliklərə malik alim, dilçi və lüğətçi kimi tanınmışdır. Onun hazırladığı “Ət-təfasir” kitabı fars dilinin ilk lüğətlərindən biri hesab olunur. Qaynaqlarda onun “Qövsnamə” və ya “Quşnamə” adlı məsnəvisinin də olduğu qeyd edilir.

Qətran Təbrizi 1088-ci ildə Təbrizdə vəfat etmişdir. Onun müasirlərindən Ənvəri şairin əsərlərini toplayaraq yazdığı ön sözdə onu "əfsəhü'ş-şüəra", "əbləğü'l-füsəha", "əkməlü'l-büləğa" kimi yüksək ifadələrlə səciyyələndirmişdir. Məhəmməd Ovfi (?–1227) isə "Lübabü'l-əlbab" əsərində yazır: "Şairlər damladır, Qətran isə dənizdir. Başqa fəzilət sahibləri zərrədirlər, o isə Günəşdir. Onun şeirləri ustalıqlı sənət nümunəsidir. Sözləri başdan-başa sevilməlidir. Özü də Təbrizin səxavət sahiblərindəndir" (Bəktəli, 1967, s. 5). XII yüzilin tanınmış şairi Ruhi Vəlvələci yazır: "Divanımdakı şeirlərim ruh kimi olduğuna görə Mənim də ləqəbim Ruhi olmuşdur. Qəsidəmin başlanğıcı Fərruxi, sonu Qətran olsa da, Mən bu sahədə onların üçüncüsüyəm" (Təbrizli, 1967, s. 5). Əsədi Tusi (?–1072) "Lüğətü'l-fors" əsərinin ön sözündə, Əmir Müizzi Nişapuri (?–1147) və Xaqani Şirvani öz şeirlərində, Əbdürrəhman Cami isə "Salman və Əbsal" əsərində Qətran Təbrizidən ehtiramla bəhs etmişlər.

3. Xətib Təbrizi

Xətib Təbrizi kimi tanınan Yəhya Əli oğlu 1030-cu ildə Təbrizdə anadan olmuşdur. İlk təhsilini doğma şəhərində almış, ədəbiyyata şeir yazmaqla gəlmişdir. Məşhur təzkirəçi İbn əl-Əsir Xətib

Təbrizinin divanı olduğunu yazsa da, təəssüf ki, günümüzə onun yalnız ərəb dilində yazdığı bir neçə şeir gəlib çatmışdır. Xətib Təbrizi rübailərindən birində deyir: "Yorulub səfərdə çox dolaşanlar, Usandım bir yerdə qalmaqdan artıq. Uzaqlarda çətinlik içindəyəm, Deyirlər ki, pisdən də pis doğular" (Mahmudov, 1983, s. 45).

Yəhya Əli oğlu 20 yaşında elm öyrənmək üçün piyada şəkildə qədim Şamın Məarrə ən-Numan şəhərinə yola düşmüşdür. Orada dövrünün məşhur alim-şairi, filosofu Əbül-Əla əl-Məərridən dil, ədəbiyyat, tarix, fəlsəfə və ilahiyyat elmlərini öyrənmişdir. Suriya və Misirin bir çox şəhərlərini gəzən, məşhur alimlərlə elmin müxtəlif mövzularında müzakirələr aparan Xətib Təbrizi Bağdada gəlmişdir. Burada Səlcuq əmirlərinin maddi dəstəyi və təşəbbüsü ilə tikilən və vəzir Nizamülmülkün şərəfinə "Nizamiyyə" adlandırılan mədrəsənin (1067) qurulmasında yaxından iştirak etmişdir. Ömrünün sonuna qədər bu mədrəsənin kitabxanasına rəhbərlik etmiş və filologiya elmlərinin tədrisini təşkil etmişdir. Ərəb dilinin zəngin söz ehtiyatını mükəmməl bilən, özündən əvvəlki alimlərin əsərlərinə dərindən bələd olan Xətib Təbrizi ərəb dilçiliyini və qrammatikanı zənginləşdirən bir sıra əsərlər yazmışdır. Onun Qurani-Kərimi dini-fəlsəfi baxımdan izah edən dörd

cildlik əsəri həm öz dövründə, həm də sonrakı əsrlərdə tədqiqatçıların diqqət mərkəzində olmuşdur.

Ərəb poetikasına həsr etdiyi üç cildlik əsər də Qərb tədqiqatçıları tərəfindən yüksək qiymətləndirilmişdir. O, Cahiliyyə dövrü şairlərinin yaradıcılığını araşdıraraq tarix, məntiq, poetika və dilçilik sahələrində dərin bilik sahibi olduğunu göstərmişdir.

Tədqiqatçılar Xətib Təbrizinin yaradıcılığını belə qruplaşdırırlar:

1. Poetik əsərlərin şərhləri.
2. Dilçiliyə aid traktatlar.
3. İlahiyyata dair tədqiqatlar.
4. Poetika məsələləri (Mahmudov, 1983, s. 49).

"On qəsidənin şərhi" onun ilk elmi əsərlərindən hesab olunur. Bu əsərdə Cahiliyyə dövrünün məşhur şairləri – İmru əl-Qeys, Tərəfə, Züheyr, Ləbid, Əntərə, Əmr ibn Gülsüm, Haris, eləcə də Əişə, Nəbiğə və Abidinin qəsidələrini təhlil etmişdir. 1093-cü ildə yazdığı "Mufəddaliyyat şərhi", "Suad məni tərk etdi" qəsidəsinin izahı, "Məqsura şərhi" və digər əsərləri onun ərəb dili, folkloru və tarixini dərindən bildiyini göstərir.

"Həmasə"yə yazdığı şərh onun son əsəri hesab olunur. Təxminən 60 yaşlarında yazdığı bu əsərdə özü haqqında da məlumat vermişdir. 1828-ci ildə bu əsəri nəşrə hazırlayan alman şərqşünası onu "qaranlıq gecədə on dörd gecəlik aya, səhrada yol

göstərənə" bənzətmişdir. Təəssüf ki, bütün dövrlərdə olduğu kimi, XI yüzildə də Xətib Təbriziyə paxıllıq edənlər olmuşdur. Onun müasiri şair Əmid Fəyyad belə yazır: "Yəhya Əlinin oğluna deyin ki, Dedi-qoduların dayağı yoxdur. …Sən fəzilətin saf bulağısan, Sən elmin elə bir gövdəsisən ki, Başqaları onun yalnız budağı ola bilər. Sən sonsuz bir dənizsən!" Xətib Təbrizi 1109-cu il yanvarın 3-də Bağdadda vəfat etmiş və "Bab əl-Əbraz" qəbiristanlığında dəfn olunmuşdur.

Sonuc

Əbülhəsən Bəhmənyar ibn Mərzban, Əbusəid Urməvi, Abdullah Urməvi, Təbrizli Əbu Səid, Qətran Təbrizi, Xətib Təbrizi və başqaları Azərbaycanda doğulsalar və ya burada yaşayıb-yaratsalar da, ümumilikdə İslam mədəniyyətinə xidmət etmişlər. Onların əsərlərindən Mahmud Zəmaxşəri də bəhrələnmişdir. Eyni zamanda Zəmaxşərinin əsərlərindən Azərbaycan alimləri də istifadə etmişlər.

Əbülqasım Carullah Mahmud ibn Ömər Zəmaxşərinin bir sıra əsərləri ərəb dilçiliyinin ən gözəl nümunələri hesab olunur. Azərbaycan alimlərindən Əbülfəzl Hüseyn ibn İbrahim Tiflisi (?–1203) və Cəmaləddin Məhəmməd ibn Əbdülğəni Ərdəbili (?–1247) onun əsərləri əsasında qiymətli tədqiqatlar yazmışlar. Zəmaxşərinin "Əl-Kəşşaf an həqaiq ət-tənzil" əsərinə şərhlər yazmış Cəmaləddin

Ərdəbilinin "Əl-Ünmüzəc" ("Nümunələr") kitabı xüsusilə məşhurdur. Bu əsər İranda, Peterburqda və başqa yerlərdə dəfələrlə nəşr olunmuş və dərslik kimi istifadə edilmişdir (Məmmədov, 1978, s. 86). Buradan aydın olur ki, biz eyni dövlət daxilində yaşamasaq da, eyni mədəniyyətin daşıyıcıları olmuşuq və bu gün də belədir.

Qaynaqlar

Azərbaycan Elmlər Akademiyası. (1960). *Azərbaycan ədəbiyyatı tarixi* (3 cilddə, 1-ci cild). Bakı: Azərnəşr.

Azərbaycan Elmlər Akademiyası. (1961). *Azərbaycan tarixi* (3 cilddə, 1-ci cild). Bakı: Azərnəşr.

Azmi, M. (2004). *Abbasiler döneminde Babek isyanı*. Ankara.

Bəktəli, Q. (1967). *Qətran Təbrizi və onun Divanı*. Bakı: Elm.

İlmamedov, R. (2011). Zemahşerî'nin Mukaddimetü'l-Edeb'inde Kur'ân'la İlgili Terimler. *UÜ İlâhiyat Fakültesi Dergisi, 20*(2), 191–207.

Mahmudov, M. (1972). *Xətib Təbrizinin həyatı və yaradıcılığı*. Bakı: Elm.

Mahmudov, M. (1982). *Piyada… Təbrizidən Şama qədər*. Bakı: Gənclik.

Mahmudov, M. (1983). *Xətib Təbrizi*. Bakı: İşıq.

Məmmədov, Z. (1978). *Azərbaycan fəlsəfəsi tarixi*. Bakı: Elm.

Merçil, E. (1991). *Müslüman-Türk devletleri tarihi*. Ankara: Türk Tarih Kurumu.

Qəzənfəroğlu, F. (2005). *Azerbaycan Türklerinin dini-felsefi dünya görüşü*. İstanbul.

Sadıqova, C. (1969). Qətran Təbrizinin lüğəti. *Azərbaycan EA Xəbərləri (Ədəbiyyat, dil və incəsənət seriyası)*. Bakı.

Təbrizli, Q. (1967). *Divan*. Bakı: Azərnəşr.

Türk Dünyası El Kitabı. (1992). (Cilt 1: Coğrafya-Tarih). Ankara.

Türkmənbaşı, S. (2001). *Ruhname*. Aşgabat.

Yüce, N. (1985). Zemahşerî. *İslam Ansiklopedisi* (13-cü cild, s. 509–514). İstanbul.

Yüce, N. (2013). Zemahşerî. *TDV İslâm Ansiklopedisi* (Cilt 44, s. 235–240). İstanbul.

Zamahshari, J. (2004). *Jarollah bagışlanıp geçirilyan halkara konferasiyasının makalelarının yığındışı*. Aşgabat: Medeniyyet Merkezi.

Çap olunub: Mahmit Zamanşarı ve Azerbaycanın ılmı-edebi ümmanı. Mahmit Zamanşarı ve gündoğarın ılmı-edebi galkınışı. Halklara ılmı maslahatın gısgaça beyanı. 2007-ncı yılın Magtumgulu(may) ayının 23-25. Aşgabat-Daşauz, 2007, seh.106 (Türkməncə), səh. 310(İngilisce), səh.471.(Rusca)

TÜRKMAN ŞAİRİ TELİMXAN

Əsas gücünü hərbi sahəyə yönəldən Rusiya qısa vaxtda Avropanın ən işğalçı dövlətinə çevrildi. I Pyotrun vəsiyyətlərinə sadiq qalan Rus çarları qonşu dövlətləri zəiflətmək, sonra da hərbi güclə ələ keçirmək üçün hər vasitəyə əl atırdılar. Müxtəlif fasilələrlə 30 ildən artıq davam edən müharibədən sonra Qafqaz işğal edildi. Lakin Qafqaz xalqları Rus işğalçılarına qarşı döyüşləri daha 30 il davam etdirdilər.

1813-cü ilin oktyabrın 24-də (noybrın 5-i). Gəncə yaxınlıqındakı Gülüstan qalasında[1], 1828-ci ilin fevralın 10 (22)-də Təbriz yaxınlığındakı Tükmənçay kəndində[2] bağlanmış müqavilələr nəinki Azərbaycanı ikiyə böldü, bölgənin əhalisini tarixi ən'ənəvi mədəniyyət mərkəzlərindən ayırdı. Uzun illər azərbaycanlılar dili bir, dini bir qardaşlarından ayrı düşdülər. Rusiya isə işğal altında saxladığı Azərbaycanda yeni bir mədəniyyət, yeni bir tarix formalaşdırmaq istəyirdi. Bu Azərbaycan xalqını öz kökündən ayırmağa xidmət edirdisə, başqa bir tərəfdən Rusiya vasitəsilə Avropaya çıxış sürətlə inkişaf edən Avropanı öyrənmə,

tanıma Azərbaycanın özünün də inkişafına şərait yaradırdı.

Rusiyanın imperiya siyasətini onun xarabalıqları üzərində ucalan gənc Sovet İttifaqı da davam etdirdi. Üzdə qardaşlıqdan, bərabərlikdən dəm vurulsa da əməldə müstəmləkə altında olan xalqları parçalamaq, əritmək üçün yüzlərlə plan hazırlanıb həyata keçirilirdi. Xalqların elm, mədəniyyət xadimlərinə xaricdəki həmkarları ilə əlaqə saxlamaq yasaqlanmışdı. Sovet İttifaqının tərkibində olan xalqların birbaşa əlaqəsi müxtəlif bəhanələrlə əngəllənirdi. Hər şey Moskvanın əli ilə, onun vasitəçiliyi ilə həll olunurdu. Belə ki, hətta Oğuz soyundan olan Azərbaycan türkləri və Türkmənlər bir-birylə Moskva vasitəsilə əlaqə saxlamalı idi. Orijinaldan tərcümədə yüksək qiymətləndirilsə də Türkmən yazıçı və şairlərinin rusca çap olunmuş əsərlərinin Azərbaycan türkcəsinə çevrilməsinə icazə verilirdi. Ötən 60-70 ildə bu xalqların əlifbasının zorakılığa üç dəfə dəyişdirilməsi onları bir-birindən ayrı salmağa xidmət edirdi. Belə bir çətin vəziyyətə salınmış mədəniyyət xadimləri öz tarixlərini, ədəbiyyatlarını geniş, müqayisəli öyrənə bilmirdilər.

İranda hakimiyyət başına fars şovinistlərinin gəlməsi də həm mədəni əlaqələrimizin inkişafına, həm də mədəniyyət araşdırılmasına ağır zərbə vurmuşdu. Ölkədə türkcə məktəblər bağlanmış, qəzet-jurnal, radio, televiziya, kino əngəllənmişdir.

İrticaçı şah rejiminin devrilməsi ölkədə milli məsələdə bir yumşalma yaratsa da xarici əlaqələrin yasaqlanması ümumi inkişafa ağır zərbə vurmuşdur. 1979-cu il İran İslam İnqilabından sonra ölkədə yaşayan türklər ana dillərində qəzet və jurnallar nəşr etməyə başladılar.[3] Düzdür bunların əksəriyyəti sonralar qapandı. Amma zehniyyətlər də öz təsirini göstərdi. Xalqımız ayıldı ki, bizim tariximizi, ədəbiyyatımızı, folklorumuzu, etnoqrafiyamızı bir sözlə özümüzü öyrənmə sür'ətimiz müasir elmi-texniki tərəqqi ilə ayaqlaşmır. Çox təəssüf ki, bu günə kimi Telimxan (1742/43—1829) kimi bir şair haqqında nəinki dərsliklərdə bilgi verilib, heç normal bir araşdırma, şe'rlər kitabı belə əldə yoxdur.

Telimxan haqqında elm aləminə ilk bilgi verən Əli Kamali (1944-1996) olmuşdur.[4] İran İslam Respublikasının Əraq ostanına (vilayətinə) daxil olan Savə şəhərinin yaxınlığındakı Bəndəmir kəndində doğulan Əli Əkbər oğlu

Kamali Tehran Universitetinin hüquq fakültəsini bitirmişdir. Ömrünün sonunadək Tehranda vəkil işləyən Əli Kamali həm də ədəbiyyatşünas kimi tanınmışdır. İran qaynaqlarında "Orta İran türkləri", "Savə türkləri" adlandırılan xalqın ədəbiyyatının, folklorunun elmi ictimaiyyətinin diqqətinə çatdırılmasında onun rolu əvəzsizdir. Tehranda Türkcə və farsca nəşr olunan "Varlıq" jurnalının 1981-1989-cu il saylarında Ə.Kamalinin 20-dən çox araşdırması dərc edilib. [5]

XX yüzilliyin başlanğıcında Savə bölgəsində 729 kənddə türklər yaşamışdır[6] (hazırda həmin kənddə sayı 450-yə enib—Ə.Ş). Ə.Kamali bu kəndlərdən 30-a yaxın dastan, ədəbiyyat tariximizə daxil olmamış 100-ə yaxın şairin şe'rini, atalar sözü, nağıl, bayatı və s. toplamışdır. Onun topladığı "Qərib və Şahsənəm", "Tahir və Mirzə", "Əsli Kərəm", "Məhəmməd və Pəri", "Həmrah" ,"Səyyad və Səadət", "Duxarxanlı Abbas" və b. dastanlar indiyədək Türkiyədə, İranda, Azərbaycanda, Türkmənistanda və b. yerlərdə çap olunanlardan həcmcə böyükdür. "Koroğlu" dastanının qolları isə yeni variant kimi olduqca maraqlıdır.[7]

Əli Kamali toplayıb nəşrə hazırladığı əsərlər arasında Telimxan "Divanı"nın xüsusi yeri var. 10 min beyti əhatə edən "Divana" araşdırıcı

kimi ön söz yazmış, şe'rlər də geniş işlədilən 5 minə yaxın ərəb və fars sözünün, eləcədə 5 min cinasın izahını vermişdir. Bu onu göstərir ki, türk xalqları ədəbiyyatında Telimxan qədər cinasa önəm verən ikinci bir sənətkarımız yoxdur.[8]

Telimxanın həyat və yaradıcılığını dərindən araşdıran Ə.Kamali yazır: "Marağa Mızılqan (Nobəran) bəxşinin (rayon —Ə.Ş.) kəndlərindən birisidir ki, Telimxan bizim əziz qardaş və böyük şairirmiz o kənd əhlidir. Maraqlıdır onlar öz əsillərini türkmən sayarlar".[9]

Bu fikri Telimxanın şe'rləri də təsdiqləyir. Məs.:

Bilənlər bilsin mən Telimxanam,
Bilməyənlər bilsin, gövhərəm kanam.
Sakini Mərağey, əsli Türkmanam.
Gəzə -gəzə bu cahannan gəlirəm.

Yaxud:
Türkmən Tilim, belə qəmdən quruma
Var getginən İstanbula Uruma,
Tor qurmuşdum tərlan gələ toruma,
Tərlan şikarı da sar olub mənə.[10]

Yaxud:
Mömin puşişi qullandım,
Yedim, içdim mən sullandım,
Behiştə getdim mən dolandım,
Türkmən Telimxan a mən döndüm.

Hətta Telimxan la deyişən Bayat Cəfər də ona
Məndən salam olsun Türkmən Tilimə,
Haqqü şəriətdən gəl xəbər verim.[11]

—deyə müraciət edir.

Əli Kamalininin xalqdan topladığı rəvayətlərə görə Marağadakı türklər orta yüzilliklərdə orada yerləşmiş beş Türkmən qardaşın törəmələridir. O qardaşların birinin adı Asqin imiş. Telimxan da Asqin nəslindəndir. Atasının adı Temurxan, babasının adı isə Qaraxan imiş. 14-15 yaşlarında əmisi qızı Mehri xanıma vurulmasıyla şe'r söyləməyə başlayan Telimxan xalq arasında "haqq aşığı" kimi məşhurlaşır. Rəvayətə görə Mehri xanımı ona deyil, başqasına ərə vermişlər. Əri də söz-sovdan yaxa qurtarmaq üçün Mehrini də alıb Şiraz şəhərinə köçür. Telimxan da Şiraza gedir. 7 il orada "qaltaqsudluq" (dəvə çulu və at yəhəri

düzəltmək Ə.Ş.) etməklə güzəranını tə'min edir və sevgilisinin udduğu havanı udduğu ilə təskinlik taparaq ona şe'rlər qoşur.

Ömrünün sonunadək Mehri xanım hara köçsə oraya köçən, orada yaşayan Telimxan ölüm ayağında sevgilisi yanına gəlməyənədək can vermir.[12] Ə.Kamali Telimxan ın tərcümeyi-halını dəqiqləşdirərkən sənədlərə və şairin şe'rlərinə istinad edir. Şe'rlərin birində Telimxan 60, başqa bir yerdə isə 90 yaşı olduğu söyləyir. Buna əsaslanan araşdırıcı şairin doxsan ildən çox ömür sürdüyü qənaətinə gəlir.

Telimxan ın mülk alqı-satqısı haqqında bağladığı müqavilədəki tarix isə hicri 1244 (miladi 1818/19) ildir. Araşdırıcı nəinki Telimxanın doğum və ölüm tarixini müəyyənləşdirir həm də şairin nəvə-nəticələrinin siyahısını tərtib edir. Telimxanın oğlu Qulamhüseynbəy, nəvəsi Qəribbəy, nəticəsi Muradxan, kötücəsi Türkmən Mahmud təxəllüsü ilə şe'rlər qoşan Mirzə Mahmud olduğunu göstərir. Mirzə Mahmudun oğlu Hüseyn də, oğulları Əhməd və Həsən sağ olduqlarını yazır.[13]

Telimxan əruz vəznin müxtəlif bəhrələrində şe'r yazsa da yaradıcılığının əsasını heca vəznində yazılmış şe'rlər tutur. Lirik qoşmaları,

gəraylıları, təcnisləri, bayatıları ilə yanaşı ictimai-siyasi məzmunlu eləcə də didaktik (tərbiyəvi) şe'rləri də çoxdur. Onun poeziyasının tədqiqi, ayrı-ayrı janrlarda yüksək sənətkarlıq nümayiş etdirməsi ayrı-ayrı elmi məqalənin, mə'ruzənin mövzusudur.[14]

Şerlərinin möhürbəndində əsasən Telimxan, Telimxan , Tellixan işlədib. Əli Kamaliyə görə bu saç, Tük anlamını verən Tel sözündəndir. Bu günün özündə də Telli adına Azərbaycanda rast gəlinir. XIX yüz ildə yaşamış Qaçaq Nəbinin (1854-96) döyüş dostlarından biri də Telli Qaradır.

Biz yalnız onu qeyd edəcəyik ki, Telimxan ın yaradıcılığı ilə tanışlıq ədəbiyyatımızda janrların yaranma tarixi ilə bağlı söylənilən bə'zi hökmlərə yenidən nəzər salıb dəyişməyi tələb edir. Məs: Azərbaycan ədəbiyyatşünaslarının əksəriyyəti heca vəznində dodaqdəyməzi ilk dəfə Göycəli Aşəq Ələsgər (1821-1926) söylədiyini yazırlar. Aşıq Ələsgərdən 66 il) öncə doğulmuş Telimxan ın da dodaqdəyməzləri var. Özü də çox kamil nüsxələrdir. Məs:

Səyyad gəzər şikarının dağıynan,
Lala ağlar zari-giryan dağıynan,

Aşıq deyər dağıynan,
Qar əlləşir dağıynan
Eşqini çəkənnərin
Ciyərində dağıynan.
Aşıq deyər: həsrətiynən, dağıynan
Aç zülfünü sinən üstə ağla da.[15]

Telimxan yaradıcılığındakı cığalı dodaqdəyməz təcnislərin cığalarının 4 və 6 misralı nümunələrinə də rast gəlinir. Sənətkarlıq cəhətdən bitkin nümunələr onu göstərir ki, bunlar ilk qələm təcrübəsi, yə'ni şarini yeni axtarışından doğan, yeni yaranan nümunələr deyil. Belə qənaətə gəlmək olar ki, Telimxan ın müasirləri və özündən əvvəl yaşamış şair və aşıqlar da dodaqdəyməzlər yaratmışlar. Çox təəssüf ki, hələlik onlar əlimizdə yoxdur.

Telimxan dilimizdəki sözlərin çox mə'nalılığından və səslərin ahəngindən məharətlə istifadə edərək sözlə musiqinin vəhdətinə nail olmuş əvəzsiz sənət inciləri yaratmışdır.

Məs:
Gül başımdan gül ağlımı gül aldı.
Gül qaşların, gül gözlərin, gül üzün.
Gül təklifi gül bizlərə gül etmə,
Gül, gedin siz gülşənindən gül üzün.

***

Gül seyr edin, gül bağlarda gül dərin,
Gül bülbüllər gül bəkləyib, gül dərin,
Gül eşqidir, gül dərmanı gül dərin,
Gül qəvvaslar, gül dəryada gül tərin.

Şair beş bəndlik şe'rdə "gül" sözünü ayrı-ayrı mənalarda 60 dəfə işlətmişdi.[16]

Telimxan ın ərəb əlifbası ilə yazılmış şe'rlərini bu gün Türkmən oxucusu Maxmud-qulunun şe'rləri kimi, Azərbaycan oxucusu M.P.Vaqifin şe'rləri kimi asan oxuyur və özününkü sayır.

Rəhmətlik Əli Kamali böyük bir iş gördü. Telimxan ın şe'rlərin toplayıb nəşrə hazırladı. Çox təəssüf ki, əcəl ona aman vermədi. Telimxan "divanı"nı nəşr etdirib oxucularının ixtiyarına verə bilmədi. Yarımçıq qalmış bu iş elmi ictimaiyyətin diqqətindən kənar qalarsa bir neçə il sonra nəhəng bir xəzinəni itirdiyimizə təəssüflənməkdən başqa əlacımız qalmaz.

Ə.Kamali Telimxan la yanaşı həmin mühitdə yaşayıb-yaratmış, onlarla şairin də şe'rini toplayaraq nəşrə hazırlamağa çalışmışdır.

Telimxan soyundan olan XIX —XX yüzillikdə yaşamış Mirzə Mahmud da

şe'rlərində Türkmən Mahmud ləqəbindən istifadə etmişdir.[17] Bütün bunlar onu göstərir ki, XI yüzillikdən başlayaraq qərbə doğru köç edən, iranda Qafqazda, Türkiyədə, hətta Balkanlarda məskunlaşan oğuzlar XX yüzilliyin başlanğıcınadək özlərini türkmən deyə təqdim etmişlər. Özünü türkmən adlandıran bu şairin şe'rlərindəki dil, üslub, ritm nəinki orta əsrlərdə yaşamış Türkmənistanlı şairlərin, hətta müasir Türkmən şairlərinin yaradıcılığında bir ortaqlıq var. Bu ortaq cəhətləri aşkarlamaq üçün yeni axtarışlar, yeni araşdırmalar gərəkdir.

Qaynaqlar

1. Azərbaycan Sovet Ensiklopediyası. 6-cı cild. Bakı, 1982.s.119.

2. Yenə orada, 9-cu cild. Bakı, 1986, s. 411.

3. Arazoğlu. Müxtəsər Azərbaycan tarixi. B. 2000, s.111-141.

4. Rəhmətlik Əli Kamali. Həyatı və yaradıcılığı (hazırlıyan: h.M. Güneyli), Tehran, 1996.

5. "Varlıq" (Tehran) jurnalı, 1981-1989.

6. Əli Kamali. Qara buluddan çıxan ay (Telimxan). "Varlıq" jurnalı, 1981, № 25, s.51.

7. Əli Hüseyn oğlu Şamil. Əli Kamali ilə üç görüş. “Bilgə” jurnalı, 1997, №16, s. 20

8. Əli Şamil. Tanıdığım insanlar. Bakı. 2000. S.103.

9. Əli Kamali. Qara buluddan çıxan ay (Telimxan). “Varlıq” jurnalı, 1981, № 25, s.51.

10. Əli Şamil. Tanıdığım insanlar. Bakı. 2000. S.103.

11. Telimxan (hazırlayan: Yavur Akpınarlı). “Kardaş ədəbiyyətlar” jurnalı. Ərzurum. 1997,№39, s. 28-29

12. Əli Kamali. Qara Buluddan çıxan ay (Telimxan). “Varlıq” (Tehran) jurnalı, 1981, №25, s. 52.

13. Yenə orada. S. 52-54.

14. Əli Kamalinin şəxsi arxivi. Tehran.

15. Azərbaycan Şifahi Xalq Ədəbiyyatının tədqiqləri. IX cild.

16. Şəxsi arxivimizdən.

17. Əli Kamali. Türkmən Mahmud. “Varlıq” jurnalı, 1981, №28-29, s. 55-59.

ТУРКМЕНСКИЙ ПОЭТ ТИЛИМХАН

Бросив основные свои силы в усиление и укрепление военной базы, Россия превратилась в самую агрессивную и захватническую страну Европы. Российские цари, преданные заветам Петра I, пользовались любыми средствами для ослабления соседних государств и дальнейшим завоеванием их военных сил. После продолжавшейся с определенными перерывами тридцатилетней войны был захвачен Кавказ, но народы Кавказа продлили войну еще на тридцать лет воюя с русскими агрессорами.

Договора, заключенные 24 октября (5 ноября) 1813 года в ближащей крепость Гюлюстане[1] к Гяндже и 10 (22) февраля 1928 года в близлежащей деревне к Табризу Туркменчае[2] не только разделили Азербайджан на две части, но и удалили традиционно исторические культурные центры от основного населения региона. Многие годы азербайджанцы были вынуждены разлучиться с братьями по вере языку. Россия же хотела захватив Азербайджан, создать для республики новую культуру и заново переделать ее историю.

Все служило тому, чтобы оторвать Азербайджан от своих корней.

Но присоединение северного Азербайджана к России вопреки всему имело и свои положительные стороны. Посредством России Азербайджан был приобщен к быстро развивающейся Европе и это благотворно влияло на его развитие.

Политику империи России продолжила страна, выросшая на ее развалинах — молодая страна Советов. Говоря на словах о братстве и равенстве Россия на самом деле претворяла в жизнь планы по разобщению народов, по их растворению. Было запрещено людям науки поддерживать какие-либо связи с коллегами из-за границы. Народам, входящим в состав Советского Союза запрещалось общаться с людьми из-за рубежа. Все решалось посредничеством, “руками” Москвы. Азербайджанские тюрки и тюркмены уходящие глубокими корнями к Огузцам вынуждены были поддерживать связь через Москву.

В мировой литературе имеется перевод с оригинала. Увы, произведения тюркменских писателей переводились на азербайджанский лишь после перевода этих произведений на русский. Замена трижды алфавита этих народов за последние 60-70 лет служила разобщению тюркоязычных народов. И естественно, что поставленные в такое сложное положение

деятели культуры не могли многосторонне изучить их различия.

Приход к власти Ирана для персидских шовинистов было ударом для развития культурных взаимоотношений, а также литературных исследований. В стране закрылись школы на тюркском языке, газеты, журналы, радио, телевидение, кино реанемировались.

Хотя свержение шахского режима относительно и смягчило национальный вопрос, запрет на международные взаимоотношения лежал тяжким бременем на общем развитии.

После Ирано-исламской революции 1979 года тюрки, жившие в стране издают газеты на родном языке. Правда многие из них впоследствии закрылись[3]. Но все это имело силу воздействия. Народ наш понял, что **с**корость современного научно-технического развития не идет в ногу с изучением нашей истории, литературы, фольклора, этнографии, одним словом, изучением самих себя. К великому сожалению до сих пор литературоведение не обратилось к изучению такого поэта как Тилимхан: нет о нём сведений в учебниках, нет анализа его произведений, нет даже книги его стихов. Наука впервые получила сведения о Тилимхане у Али Кямали (1944-1996),[4] родившегося в деревне Бандамир, которая

находилась недалеко от города Сава, и которая входила в свою очередь в остан (область) Эраг Иранской Исламской Республики. Али Акбер оглы Кямали окончил юридический факультет Тегеранского Университета. Работал адвокатом до последних дней своей жизни, Али Кямали был известен также как литературовед. Заслуга его огромна в изучении и довидении до научной общественности литературы и фольклора, так называемых иранских источников: “Средние — иранские тюрки”, “Саваинские тюрки”. В номерах за 1981-1989 годы журнала “Варлыг”, изданного в Тегеране, вышли в свет более 20-ти научных статей Али Кямали.[5]

В начале XX века тюрки проживали в 729 деревнях области Сава[6] (в данное время число этих деревень уменьшилось до 450 — А.Ш.). Из этих деревень Али Кямали собрал около 30-ти дастанов, стихотворений ста поэтов, не вошедших в историю литературы, а также пословицы, сказки, баяты и т-д. Собранные им дастаны — “Гариб и Шахсенем”, “Таир и Мирза”, “Асли — Керем”, “Магомед и Пери”, “Хамрах”, “Саййад и Саадат”, “Аббас Дурханский” и другие обьемные дастаны, изданные на сегодняшний день в Турции, Иране, Азербайджане, Туркмении и в других регионах,

представлают интерес как новый вариант, а также части (голлар) дастана “Кероглы”[7].

Среди собранных и подготовленных для издания (но, к сожалению не изданных) произведений Али Кямали “Диван” Тилимхана занимает особое место. Али Кямали в качестве исследования написал предисловие к “Дивану”, состоящему из 10000 бейтов, дал разьяснение около 5 тысячам арабских и персидских слов, часто употребляемых в стихотворениях, а также 5 (пяти) тысячам джинасов (ъинас). Следует отметить, что в литературе тюркских народов нет второго такого художника как Тилимхан, который бы уделял столь важное место джинасу[8].

Глубоко изучивший жизнь и творчество Тилимхана Али Кямали пишет: Марага одна из деревень Мызылканской (Новеран) Бахши (район — А.Ш.) из которого родом наш родной брат и великий поэт. А Марагинцы считают своими корнями Туркменов[9].

Эту мысль подтверждают стихи самого Тилимхана:

Билянляр билсин мян Тилимханам,
Билмяйянляр билсин, эювщярям канам.
Сакини мяраьаей, ясли тцркманам.
Эязя -эязя бу ъащаннан эялирям.

(Пусть знают все, что я Тилимхан
Пусть знают незнающие, что я дорогоценен
Из мараги я, считаюсь тюркменом
С любовью гуляю по этим местам.)

или:
Тцркмян тилим, беля гямдян гурума
Вар эетэинян Истанбула -Урума,
Тор гурмушдум тярлан эяля торума,
Тярлан шикары да сар олуб мяня.[10]

или же:
Мюмин пушиши гулландым,
Йедим, ичдим мян сулландым,
Бещиштя эетдим мян доландым,
Тцркмян Тилимхана мян дюндцм.

Даже Баят Джафар перекликался с ним в стихотворной форме (дейишмя), обращался к нему следующим образом:

Мяндян салам олсун Тцркмян Тилимя,
Щаггц шяриятдян эял хябяр верим.[11]

(Приветствую я Туркмена Телима
обращаясь к нему законами шариата)

По сведениям собранным Али Кямали у своего народа — турки из Марагов происходили из пяти туркменских родов - братьев, живших в Средние века. Одного их этих братьев звали Асты. Тилимкан как раз был из рода Асты. Отца Тилимкана звали Темурхан а деда Карахан. Влюбившись 14-15 летним юношей в свою двоюрную сестру — Мехри ханум — Тилимхан сочиняет стихи и приобретае у народа славу “ашуга правды”. По обстоятельством Мехри выдают замуж за другого и муж дабы избежать кривотолков переезжает в город Шираз. Тилимхан также перезжает в Шираз и преобретает успокоение души тем, что дышит тем же воздухом, что и Мехри ханум. Проживая в течении 7 лет благодаря “калбаксудству” влюбленная душа Тилимхана не успокаивается, посвящая стихи своей влюбленной.

До конца своих дней оставаясь преданным своей любви и переезжая туда, куда переезжает его возлюбленная Тилимхан так и покидает этот мир, не увидев в смертный час Мехри ханум у своего одра[12].

А.Камяли уточнил данные биографии Тилимхана основываясь не только на документы, но и на стихи поэта. В одних из стихов ему 80, в другом 90. Опираясь на эти стихи исследователь

приходит? К выводу, что Тилимхан прожил более 90 лет.

Договор, заключенний им по продаже своего имущества датируется. 1244 годом по хиджери (1818) 19 по миладии. Исследователь не только определяет дату его рождения и смерти, но и составляет список его детей и внуков. В списке сына его зовут Гуламгусейнбек, внука — Гариббек, правнука Мурадхан — внука-корня

Туркмен- Махмуд — поэта прозванного Мирза Махмудом. Али Кямали пишет также о том, что сын Мирза Махмуда Гусейн, а также внуки его Ахмед и Гасан живы.[13]

Основу творчества Тилимхана составляет “щеъа вязни”, хотя он писал и в разных формах “яруз вязни” наряду с лирическими гошма, герайлы, теджнисы, баяты у него немало стихотворений общественно-политического, а также дидактического содержания.[14]

В своих стихотворениях, в строках, где обычно авторы указывают свои имена поэт называл себя по разному: Телимхан, Тилимхан, Теллихан. По Кямали в основе всех имен слово “тел” — что в переводе означает прядь волос. И сегодня мы встречаем в Азербайджане схожие имена, такие как Телли. Одного из друзей Качак Неби, жившего в XIX веке, звали Телли Кара.

Хотелось бы отметить, что биографию исследования творчества Тилимхана необходимо пересмотреть и изменить выводу по поводу истории возникновения литературных жанров. Например:

Сяййад эязяр шикарынын даьыйнан,
Лала аьлар зари-эирйан даьыйнан,
Ашыг дейяр даьыйнан,
Гар ялляшир даьыйнан
Ешгини чякяннярин
Ъийяриндя даььыйнан.
Ашыг дейяр: щясрятийнян, даьыйнан
Ач зцлфцнц синян цстя аьла да[15].

Большинство, литературоведов считают, что в “щеъа вязни” додаг дяймяз впервые сочинения Гекчайлы Ашыг Алескер (1821- родившегося за 66 лет до Ашыга Алескера Тилимхана тоже имеются сочинения в том жанре. Экземпляры этих стихов достаточно совершенны. Например: у Тилимхана встречаются образцы 4 и 6 строчные “ъыналы додагдяймяз”. По совершенству мастерства этих стихов, чувствуется, что этот жанр не является новшеством поэта, новыми образами в поэзии. Очевидно, что и современники Тилимхана и поэты, жившие до него пользовались этим

жанром, но увы их стихи не дошли до наших дней. Тилимхан мастерски пользуясь многозначимостью слов и их созвучностью, достиг единства слова и музыки и создал незаменимые жемчужины поэзии.

Эцл башымдан эцл аьлымы эцл алды.
Эцл гашларын, эцл эюзлярин, эцл цзцн.
Эцл тяклифи эцл бизляря, эцл етмя
Эцл, эедин сиз эцлшяниндян эцл цзцн.

***

Эцл сейр един, эцл баьларда эцл дярин,
Эцл бцлбцлляр эцл бякляйиб, эцл дярин
Эцл ешгидир, эцл дярманы эцл дярин.
Эцл гявваслар, эцл дярйада эцл тярин.

Поэт в пятикуплетном стихотворении употребив слово “цвето” 60 раз, воспользовался разными значениями этого слова[16].

Сегодня туркменский читатель воспринимает стихи Тилимхана, написанные на арабском языке также легко как стихи Махтумгулу, азербайджанский же читатель читает их также легко как и стихотворения М. П. Вагифа. Покатный Али Кямани собрав и напечатав стихи Тилимхана внес свою лепту в тюркоязычное литературоведение. К сожалению

он не смог напечатать “Диван”ы Тилимхана и представить их читателям. Оставленное на полпути научное иследование требует немедленного общественного внимания, иначе ученые могут потерять неоценимое сокровище.

Следует отметить, что А.Кямали наряду с Тилимханом стремится собрать и издать стихотворение десятка поэтов, живших в тот же период и в той же атмосфере.

Принадлежавший к роду Тилимханов и 4 года живщий уже в XIX-XX столетиях Мирза Махмуд также в своих стихотворениях пользовался псевдонимом Туркмен Махмуд.[17] Все это лишний раз подтверждает, что кочевав, начиная с XI века в сторону (Запада) и обосновавшиеся в Иране, Кафказе, Турции, даже в Балканах, Огузы до начала XX века считали себя туркменами. Отсюда и схожесть языка, стиля, ритма поэта назвавшего себя Туркменом Махмуд не только с творчеством поэтов средних веков, но и с творчеством современных тюркских поэтов. А для изучения схожестей стилей, направлений, языка, ритма необходимы новые исследования тюркоязычной поэзии.

Сноска:

1. Азербайджанская Советская Энциклопедия. Т.6. Баку,1982, с.119

2. Там же, Т.9. Баку, 1986, с. 411.

3. Аразоглы. “Краткая история Азербайджана”. Баку, 2000, с. 111-141.

4. Покойный Али Кямали. Æиçнь и творчество (подготовил: Х.М. Гюнейли), Тегеран, 1996.

5. Журнал “Варлыг” (Тегеран), 1981-1989.

6. Али Кямали. “Луна выходлщяя из черной тучи. (Тилимхан). Журнал “Варлыг”, 1981, № 25, с.51.

7. Али Гусейн оглы Шамил. “Три встречи с Али Камали”. Журнал “Билге”, 1997, №16, с. 20.

8. Али Шамил. Знакомые мне люди. Бакы. 2000. С.103.

9. Али Кямали. “Луна выходлщяя из черной тучи. (Тилимхан). Журнал “Варлыг”, 1981, № 25, с.51.

10. Али Шамил. Знакомые мне люди. Бакы. 2000. С.103.

11. Тилимхан (готовил: Явур Акпынарлы). Журнал “Кардаш едебиййятлар”. Арзурум. 1997, №39, с. 28-29.

12. Али Кямали. “Луна выходлщяя из черной тучи. (Тилимхан). Журнал “Варлыг”, 1981, № 25, с.51.

13. Там же. с. 52-54.

14. Личный архив Али кямали. Тегеран.

15. Исследования Устного Народного творчество Азербайджана. IX том.

16. Из нашего личного архива.

17. Али Кямали. Туркмен Махмуд. Журнал “Варлыг” 1981, №28-29, с. 55-59.

Çap olundu: Türkmen şairi Tilimhan. Türkmenistanın Medeni Mirası: Gadumu çeşmeler ve hazirki zaman Mümkünçülükleri Halkara Konfransıyası. Türkmenistanın Daşaru İşler Ministirligi, Türkmenistanun Ministrler Kabineti yanındakı Tarih İnstitutu, Rusiyanun Türkmenistan bilen Medeni Araqatnaşuklar Jemiyyetinin yardam etmiginadı. Aşğabat, 2000, 10-13 oktyabr, mövzu:

DÖVLƏTMƏMMƏD AZADİ BİR SUFİ-FİLOSOF KİMİ

Özət

İndiki Türkmənistan Respublikasının Ətrək bölgəsindəki doğulan Türdmən şairi və filosofu Dövlətməmməd Azadi Azadi Xivədə təhsilini başa vurduqdan sonra ata-baba yurduna qayıtmışdır. Şairin istər günümüzədək gəlib çatan şeirlərindən, istərsə "Vəzi-Azad" adlı didaktik-fəlsəfi poemasından onun sufi ənənəsinə sadiq bir sənətkar olduğu ortaya çıxır.

Əruz vəzninin failatun-failatun-failat bəhrində yazdığı "Vəzi-Azad" əsərin həcmi 6 min beytə yaxındır. Şair bu əsərində ədalətli cəmiyyət, yetkin vətəndaş və milli dövlət ideyalarını irəli sürüb, necə deyərlər bir növ, mənzum konstitusiya yazıb, özünün fəlsəfi, əxlaqi və sosial görüşlərini ortaya qoyub.

Dövlətməmməd Azadi öz şəxsiyyəti və poeziyası ilə başda oğlu Məxdumqulu Fəraqi və nəvəsi Qurbandurdu Zəlili olmaqla türkmən ədəbiyyatının bir çox nəslini tərbiyə etmişdir. Seydulla Seydi, Seyidnəzər Seydi, Şeydayi, Məğrubi, Qayıbı, Talibi, Kəminə, Molla Nəfəs və başqaları onun müsbət təsiri ilə yetişmişlər.

Dövlətməmməd Azadim 1760-cı ildə ata-baba yurdunda dünyadan köçmüşdür.

Açar sözlər: Dövlətməhəmməd Azadi, Məxdumqulu Fəraqi, Xivə xanlığı, Türkmənistan, feodal pərakəndəliyi.

Giriş

Dünaynın elm və sənət beşiyi kimi tanınan Doğu 18-ci yüzildən çökməyə başladı. Avropa dövlətləri odlu silahların istehsalının artırmaqla, gəmiçiliyin inkişaf etdirməklə yeni torpaqlar işğal etdi. Müstəmləkələrdən gətirdikləri xammalı sənayenin inkişafına təkan verdi. Bu yüksəliş özünü elmdə və təhsildə də göstərdi.

Mərkəzi dövlətlərin zəiflməsi, yeniliyə qarşı mühafizakar münasibət, sənayenin inkişafına əngəllər Türkistani da çöktürürdi. 1722-ci ildə Dərbəndi işğal edib oradan işğal etmək istədiyi bölgələrin rəhbərlərinə fərmanlar göndərən Birinci Pyotrun ölümündə 9 il sonra, 1734-cü ildə Rus qoşun birlikləri Qafqazı və Türküstanı keçərək Məşhəd şəhərini tutur. Müsəlmanlar, xüsusən şiələr üçün müqəddəs sayılan, Məşəh şəhərinin işğalına ciddi müqavimət göstərilmir.İmam Rzanın məzarı Rus tapdağı altında qalır. Ürəkağrıdan odur ki, əsas qüvvələrindən ayrı düşmüş bir bölük Rus hərbiçisini Məşəddən döyüşlə deyil 1735-ci ilə Gncədə bağlanmış andlaşam ilə çıxarırlar.

Belə bir anlaşmanın bağlanmasına səbəb isə Nadir şahın uğurlu yürüşləri olur. Nadir Şah 1722-ci ildən Rusiya işğalı altında qalmış bölgələri təmizləyir, Dağıstanda baş qaldırmış üsyanı yatırdır, Sulak çayını Rusiya ilə Səfəvilər dövlətləri arasında sərhəddə çevirdi. Nadir şahın Rusiyaya və yerli feodallara qarşı uğurlu yürüşləri Türküstanlıları ruhlandırdı. Onlar gündən-günə güclənən Rus ordularını geri oturtmağın mümkün olduğuna inandırdı. Bir tərəfdən də Xivə feodallarını qorxuya

saldı. Nadir şahın onları da əzə biləcəyini göz önümə gətirdilər. Qanlı döyüşlərin getdiyi dövrdə Dövlətməhəmməd Azadinin artıq 30-35 yaşı vardı.

1. Dövlətməhəmməd Azadinin soy və ömür yolu

Çox vaxt «Türkmən Sədisi» adlandırılan Dövlətməmməd Azadi 1700-cü ildə indiki Türkmənistanın Ətrək vilayətində dövrünün qabaqcıl ziyalısı Məxdumqulu Yonaçının ailəsində doğulub. **(Türkiye Dışındaki, 1998:183, 11-ci cild)** Göklən boyunun Gərkəz nəslindən olan Dövlətməmməd atası da şair olmuşdur. Onun «Gürgənin» adlı şeiri indi də məşhurdur. Azadi sonralar böyük şair olan oğlu Məxdumqulu Fəraqiyə öz atasının adını qoymuşdur.(Fəraqi, M.,(1980:3).

Dövlətmhəmməd Azadi ilk təhsilini atasından və bölgədəki mollaların açdıqları ibtidai məktəbdə almışdır. Sonra xanlığım mərkəzi olan Xivəyə gedərək oradakı mədrəsədə ərəb, fars və çağatay dillərini, başda Quran olmaqla ilahiyyatı, həndəsə, hesab, nücum, tarix, coğrafiya və digər fənləri dillərini, islami elmlərdən olan bəlağəti, fiqhi və şəriəti öyrənmişdir. Poezyaya böyük maraq göstərdiyindən Xoca Əhməd Yəsəvi, Füzuli, Nəvai, Nəsimi, Hacı Bəktaş Vəli, Yunus İmrə, Nizami, Hafiz, Xəyyam, Cami, Dəhləvi və b. Şairlərin əsərlərini oxumuş, onların yaradıcılığından dərs almışdır.(Azadi D., 2012:3) Bütün bunlar onun şair və mütəfəkkir kimi yetişməsində mühüm rol oynamışdır.

Azadi təhsini başa vurduqdan sonra öz doğma obasına qayıdaraq burada müəllim kimi fəaliyyət

göstərmiş, el ağsaqqalı, tanınmış alim, pedaqoq və ictimai xadim kimi böyük şöhrət qazanmışdır. Lakin şairin şəxsi həyatı faciələrlə keçmişdir. Oğlu Abdullanın hansı səbəbdənsə ata yurdunu tərk etməsi şairi daima narahat etmiş, ölənədək oğlunu görmək həsrətində olmuşdur. edərək qürbətə get-mişdir. Övladın doğma el-obanı tərk etməsi, ondan heç bir xəbər alınmaması. Məxdumqulu Fəraqi „Qardaş Abdulla" şeirində atasının bu sıxıntısını belə təsvir etmişdir:

Sən gedəndən doqquz ildir ötəni,
Harda vətən tutdun, qardaş Abdulla?
Heç gəlməzmi bir insanın gedəni,
Harda vətən tutdun, qardaş Abdulla?

Üstümüzə hicran odu səpildi,
Evimizə kədər-qüssə təpildi,
Qan ağlar, atamın beli büküldü,
Harda vətən tutdun, qardaş Abdulla?

(Maxtımqulu F.,2010:4)

1754-cü ildə Dövlətməhəmmədin oğlu Canəsən, qızı Xanmənli və gəlini Bayram eyni gündə öldüyünü yazırlar. Ailəsində baş vermiş ağır sarsıntıya dözməyən şairin səhhətini pisləşmişdir. Oğlu Məxdumqulunun iki uşağının kiçik yaşda ölməsi, başqa övladının olmaması Azadinin sıxıntılarını daha da artırmışdır. Fəlsəfi, didaktiq şeirlərilə bölgədə şöhrət qazanmış şair 1760-cı ildə ömrü başa vurmuşdur. (Azadi D., 2012:3).

Məxdumqulu Fərağı „Azadım hanı?"

qoşmasında atasının ölümündən duyduğu dərin kədəri „şəhrimin sultanı", „minbərin əzanı", „bağımın reyhanı" adlandırmışdır. „Atamın" şeirində isə Azadinin yüksək insani keyfiyyətlərini, təvazökarlığını, dünya malında gözü olmadığını, daim axirəti düşündüyünü belə qələmə alıb:

Altmış beşdə, novruz günü, lu ili,
Bu əcəl yolunu pusdu atamın,
Bu dünyanın işi belədir, bəli,
Ömür kəndirini kəsdi atamın.

Bu cahanın işrətini sevmədi,
Sərvətini, dövlətini sevmədi,
Köhnə şaldan artıq paltar geymədi,
Axirətdi ancaq qəsdi atamın.

Derdi: «Dünya fani, ömrə bəha yox»,
Gündüz rövzə, gecə uyğu, röya yox.
Münkir bilməz, müxislərdə dua çox,
Peyğəmbər dəstidir dəsti atamın.

Bilirəm, söylərəm işin içindən,
Kam alar, kim möhkəm yapışsa dindən,
Yarısı mələkdən, yarısı cindən,
Mücavirsiz olmaz üstü atamın.

Nüqabədə üç yüz ərən uğraşdı,
Çiltəndə atama nəzərim düşdü,
Nücabədə həftənlərə qarışdı,
Abdulladır çün peyvəsti atamın.

Məxdumqulu, gizli sirr var bu işdə,
Kamil ərə gərək deyil fərištə,
Məhşər günü birbaş girər behištə, –
Hər kim candan olsa dostu atamın**.**

(Maxtımqulu F.,2010:5)

Araşdırcılar Dövlətməhəmməd Azadinin 1760-cı ildə 60 yaşında öldüyü qənaətində olsalar da şairin oğlu atasının 65 yaşında özü də Novruz günü, lu ilində dünyadan köçdüyünü yazır.

2.Dövlətməmməd Azadinin yaradıcılıq yolu

Dövlətməhəmməd Azadinin yaşadığı dövrdə bu günkü Türkmən ədəbi dili formalaşmadığından bölgənin əksər qələm sahibləri kimi o da cığatayca yazıb-yaratmışdır. şeirlərində dilə gətirmişdir. Şairin əsərlərinin çoxu qorunmadığından günümüzədək gəlib çatmamışdır. Bunun bir səbəbi Türkmənlər arasında tayfa davaları olmuşdursa ikinci səbəbi də ateist idyolagiyalı Sovet rejimi dini-didaktik münasibət bəslənilməsi olmuşdur. İdeoloji səbəblərə görə şairin əsərlərinin nəşrinə barmaqarası baxılmışdır. Hətta 1920-ci illərində Dövlətməmməd Balqızılın şeirləri Dövlətməmməd Azadinin əsərləri kimi nəşr edilmişdir.

Dövlətməmməd Azadinin ilk kitabı 1962-ci ildə Aşqabadda çap edilmişdir. Naşirlər özlərini sığortalayaraq üçün ön sözdə şairin didaktıq görüşlərində də bir islami baxış gördüklərindən üstüörtülü də olsa onu tənqid etməkdən çəkinməmişlər. (Azadi D., 2012:5).

Şairin dillər əzbəri olan “Gürgənin” şeiri folklor nümunəsinə çevrilsə də, «Hekayəti-Cabir Ənsar», «Münacat», «Behiştnamə» adlı məsnəviləri, bəzi qəzəlləri günümüzə kimi gəlib çatsa da ona şıhrət qazandıran «Vəzi-Azad» adlanan didaktik-fəlsəfi poemasıdır. Əruz vəzninin failatun-faulatun-failat bəhrində yazılmış əsərin həcmi təqribən 6 min beytdir. Burada şairin fəlsəfi, əxlaqi və sosial görüşləri öz əksini tapır. Azadi hələ o dövrdə ədalətli cəmiyyət, yetkin vətəndaş və milli dövlət ideyalarını irəli sürmüş, bir növ, mənzum konstitusiya yazmışdır. Əsər şairin yaşadığı bölgədə deyil ondan uzaqlarda da sevilə-sevilə oxunmuşdur.

Orta yüzilliyin ədəbi ənənəsinə uyğun yazəlmış əsərdə “Qabusnamənin”, “Siyasətnamə”nin, “Əxlaqi-Nasir”in ruhu aydın hiss edilir. Dörd fəsildən ibarət əsərin ön sözü xatırladan yüz beytlik münacatdan sonra şair birinci fəsildə ədalət və adil şahın necə olması haqqında oxucusuna bilgi verir. Fikirlərini əsaslandırmaq üçün bəzi tarixi və əfsanəvi şəxslərin – Süleyman, Davud, Ömər, Keyqubad, Bəhram, Nuşirəvan, Harun ər-Rəşid, Səbük Təkin, İsmayıl Samani, Abdulla Tahir və b. həyatından, peyğəmbərimiz həzrəti Məhəmmədin hədis və nəsihətlərindən ibrətamiz misallar gətir və bu qənaətə gəlir ki, ədalətliliyin bəhrəsindən insanlar bu dünyada deyil, həm də axirətdə bəhrələnə bilərlər.

«Vəzi-Azad»ın ikinci fəslində şair humanizm, xeyriyyəçilik, səxavətlilik mövzularını qələmə alır. İnsan və toplumun əlaqəsi haqqında olduqca dəyərli fikirlər söyləyir. Toplumun, dövlətin yaşaması üçün

hakimiyyətdə olanların yollar, kanallar, körpülər, karvansaralar, məktəblər, mədrəsələr, məscidlər, şəfaxanalar və digər sosial-mədəni ocaqlar tikdirmələrinin vacib olduğunu vurğulayır. Sonda bu qənaətə gəlir ki, abadlıq işləri görənin qəlbi saf və təmiz olmalıdır.

Əsərin üçüncü fəsildə şair elm və alim mövzusuna işıq salır. Mənəvi məsələləri qabardır, elmin və alimin cəmiyyət və dövlət üzərindəki təsirinin gücündən söz açır. Bu qənaətə gəlir ki, sözü ilə əməli bir olmayan „alimi-biəməllər" toplum üçün çox təhlükəlidir. haqqında da söz açmışdır.

İslam dininin yayılmasında sonra bu dini yaymaq və yaşatmaq üçün sufizmidən və sufi dəvrişlərdən çox idtifadə edilir. «Vəzi-Azad»ın son fəslində dərvişlərin toplumun həyatındakı rolundan və vəzifələrindən söz açılır.

Dövlətməhəmməd Azadi „Vəziri-Azadi" əsərinin sonunda yazır:

İşbu nəzm içrə əgər sorsan sənə,
Min yüz altmış yeddi ərdi, bilsənə.

Bu, beytdən aydın görünür ki, poema 1167-ci ildə miladi tarixlə 1753/54-cü ildə başa çatıb.

„Vəziri-Azadi"də bir sıra orijinal fikirlər irəli sürən, Türkmən xalqının yaşam tərzini verən şairin ədəbi və elmi dünyagörüşünün formalaşmasında Nizami Gəncəvinin, Sədi Şirazinin, Xoca Əhməd Yəsəvinin, Əbdürrəhman Caminin və Əlişir Nəvainin təsiri aydın sezilsə də o, reallığa söykəndiyi üçün bir çox məsələlərdə fərqli görünür.

Elə buna görə də əsər bu gün də öz aktuallığını itirməyib, gənc nəslin dünyagörüşünə təsir edə bilir.

Dövlətməmməd Azadi poeziyası və şəxsi nümunəsi ilə nəinki oğlu Məxdumqulu Fəraqi və nəvəsi Qurbandurdu Zəlilinin, hətta Seydulla Seydi, Seyidnəzər Seydi, Şeydayi, Məğrubi, Qayıbı, Talibi, Kəminə, Molla Nəfəs və başqalarının yaradıcılığına da təsir edə bilmişdir.

Sonuc

Dövlətməmməd Azadi sufi ənənəsinə sadiq bir sənətkar olduğundan onun əsərlərində insan qəlbini müqəddəs məkan kimi dəyərləndirilir. Şairə görə insanın mənəvi dünyası ilahi həqiqətin məskənidir. Ona görə də insan qəlbini incitmək ən böyük günahlara bərabər tutulmalıdır. İnsana yüksək dəyər verən Dövlətməmməd Azadi sufilər kimi insan qəlbini Allah evi adlandırır. Şerləbunu belə təsvir edir:

Bu könül Tanrı düzəldən xanədir.
Kim pozarsa, Tanrıdan biganədir.
Bu könül tanrı öyüdir, yox güman,
Kim pozar – Tanrı bilən olar yaman.

İnsayı yüksək dəyərləndirən, xeyirxahlığı və insansevərliyi inanclardan və etiqadlardan üstün tutan şairin bu yanaşma sufizmdə "könül fəlsəfəsi" kimi tanınan konsepsiya ilə üst-üstə düşür.

Dövlətməmməd Azadi insanın mənəvi kamilliyi və cəmiyyətin ədalətli quruluşu barədə mühüm

ideyalar irəli sürürməklə yanaşı şeirlərində dövrün sosial problemlərini əks etdirmişdir.

Günmüzdə bəzi alimlər və onların elmi insanlıa xidmət etmək əvəsinə sanki toplumu çıxılmaza söxmağa xidmət edir. Buna görə də şair-filosof elm və alimdən söz açarkən mənəvyyat məsələlərinə diqqəti artırır sözü ilə əməli düz gəlməyən alimi "alimi-biəməllər" adlandırır, onları nadandan daha qorxulu hesab edir.

Şairin yaradıcılığında diqqətçəkən məqamlardan biri də odur ki, o, dini mənsubiyyətindən asılı olmayaraq bütün insanları bir-birinə yardım etməyə səsləyir. Elə buna görə də onun fikirləri çağdaşlarımız arasında da aktuallığını saxlayır.

Qaynaqlar

1. Azadi Dövlətməmməd.(2012) (Tərtib edən, türkməncədən uyğunlaşdıran və ön sözün müəllifi: Prof. Dr. Ramiz ƏSKƏR) Seçilmiş əsərləri,Bakı, , 216 s.

2. Azadi. Dövletmahemmet (2012). Eserler yıqındısı, (Çapa tayyarlayan: Rahmanberdi Qodarov), Türkmenistan Ilmlar Akademiyası Milli Qolyazmalar İnstituı,Uludağ Üniversitesi Basımevi, Bursa.

3. Əsker Ramiz.(2010) Mətimqulu Fəraii, Seçilmiş Eserleri, Türksoy yay., 2010, Bakı.

4. Fəraqi, M. (1980). *Seçilmiş əsərləri*. Bakı: Yazıçı.

5. KAHRAMAN ALİM (2003). Mahtumkulu İSLAM Ansiklopedisi, Diyanet İşleri Başkanlığı yay, *Ankara, 27. cild, sə393-394.*

6. Klassik türkmən şeri.(1983). [Mətn] /tərc. ed. F. Əliyev ; ön söz. müəl. P. Xəlilov, Bakı: Yazıçı.

7. Mahtumkulu Feragı. Seçilmiş Eserleri. Türkmenceden Çeviri. Bakü, MBM, 2010, 448 s. Molla Nefes. Bu Mekana Gelmişim. Türkmenceden çeviri. Bakü, MBM, 2010, 160 s.

8. Molla Nefes. Seçilmiş Eserleri. Türkmenceden çeviri. Bakü, MBM, 2010, 240 s.

9. Türkiye Dışındaki Türk Edebiyatları Antolojisi » Türkmenistan Türk Edebiyatı 10.-11. Ciltler https://ekitap.ktb.gov.tr/TR-78526/turkmenistan-yazili-turk-edebiyati.html

10. Türkmen Şiiri Antolojisi (XVII-XIX yy.). Türkmenceden Çeviri. Bakü, 2011, MBM, 400

11. Yılmaz, Hayati, Mahtumkulu'nun Hayatı, Edebi Kişiliği ve Şiirlerinden Örnekler, Bilge Dergisi, Mart 2007, c.13, say.50, s.108

Tezisi çap olundu: Dövletmammet Azadi-pelsepesçi sopı (səh.72), Dovletmammet Azadi as a sufi-philosopher (210), Довлетмаммед Азади как

философ-суфист (стр. 341), Dövletmammet Azadi XVIII asır Türkmen durmuşı-Dovletmammet Azady and Turkmen lıfe ın the XVIII century-Довлетмаммед Азади и жизнь Туркмен XVIII века. (Halklara ylmy maslahatyn nutuklarynyn gysgaça beyanı 2012-nji yylyn 14-15-nji maıy), Aşgabat, 2012.

RUHNAMEDEN "KOROĞLU" DASTANINA YENİ BAKIŞ

Neinki Türkler arasında, hatta Türklerle konşu olan halklarda da Koroğlu dastanı genış yayılmışdır. Dastanla ilgili aparılan araşdırmaların sayı da oldukca çokdur. Araştırıcılar onu farklı yönlerden ögrenmeğe çalışılmışdı. Kimi Koroğlunu Yunan mitolojisindeki Heraklos'la, kimi Homerin Tarih eserindeki Korogullar'ı ile, kimi miladi yeddinci yüzyılda Çin hükmdarlarına karşı ayaklanmış küdretli serkerde An Lu Şan'la, kimi orta yüzilliklerdeki Celalıların ayaklanmaları ile ve b. alakalandırmışlar. Kaynakları sıralasak böyük bir kitab alınar. Amma bu araştırmaları bitmş hesab etmek olmaz. Son yıllarda Bakıda yayınlanan Koroğlu dastanının iki nushasında ve yayına hazırlanan Ali Kamali arşivindeki nushada olan melzemeler araştırıcıları yeniden konuya dönmege zorlayır.

Şöyle geniş alanı kapsayan ve sevilen dastanın dünyada yayılması, onun Avropa metodları ile araştırılması dastanı yaratan ve yaşatan halkın oğullarının adıyla degil, polonyalı-leh şair, tercümeçi, araştırıcı Aleksandr Hodzkonun adıyla bağlıdır. Rusiya Missionerler Cemiyyeti terefinden tercümeçi kibi İrana gönderilmiş Aleksandr Hodzko İranın Raşt, Gilan kentlerinde Rusiyanın konsulu

olarken Aşık Sadıkdan "Koroğlu" dastanını toplamışdır. O, dastanın düzyazısını-nesrle olan hisselerini Farscaya çevirse de şiirlerini söylendigi kibi-Türkce kaleme almışdır.(Koroğlu,1997:4)

Şu Aleksandr Hodzkonun folklor toplamakda ilk işi deyildi, 1830. yılda Héştérhan nogaylarından olan Elibéy Şarapovdan "*Edige"* dastanını toplamış, onun yardımı ilé dastanının düzyazısını-nésr hissésini Farscaya çevirmişdir. (Poslovii, 1990:39)

Aleksandr Hodzko Londona gitdikde her iki Türk dastanını 1842'dé İngilisceye çevirtdirek yayınlatmışdır. Şununla da o, dastanlarımızın Avropada yayılmasının ve araştılılmasının özülünü koymuşdur.

"Koroğlu" dastanı az bir zamanda Fransiz, Alman ve Rus dillerine tercüme idilerek yayımlanmışdır. Aleksandr Hodzko folklor metninin posportlaştırılmasına önem vererek dastanın Hacı Mirze İskenderin istegiyle Aşık Sadık adı ile tanınan Sadık beyin söyledigini, metni Mirze Abdulvahab yazıya aldıgını, Mirze İskenderin nökerleri ve kullukçuları Mirze Mehdi Gilani, Hezretkulu bey ve Yakub bey ise şu işe şahitlik etdiklerini gösterir. Metnin yazıya

alınmasını hicri tarihile 1250'de Çerşenbe günü Rebbül Evvel ayının 15'de oldugu gösterilir. Şu da miadi tarihile 1832. demekdir.(Koroğlu,1997:6)

Araştırıcıların fikrince Hacı Mirze İskender Aleksandr Hodzkonun Şarklısayak yazılışıdır(Azerbaycan, 2003:156). Hakikatan da Doğuda Aleksandr adı hemişe İskender kibi yazıldığı hamıya aydındır.

Avropa'da ve Amerika'da tekrar-tekrar yayınlanan kitablardan araştırıcılar yararlansalar da Parisde saklanan orjinalda dikket yetirmemişdiler. Çünki Aleksandr Hodzko dastanı yayınlatsa da yıllarla araştırıcılarımız elyazmanın nerede olduğundan xebersizdiler. Birleşmiş Milletler'in Medeniyyet Meseleleri Şöbesinde (UNESKO) çalışan soydaşımız Ramiz Abutalıbov'un teşebbüsü ve Paris Milli Kitabxanasının işçisi Jak Karoyan'ın yardımıyla duzyazısı-yurtyerı Farsca, şiirleri Türkce olan, arab alibasıyla yazıya alınmış dastanın elyazması Azerbaycan'a getirildi. Elyazma Parisde saklandğından 1997'de Bakıda kiril alifbasıyla yayımlanan kitab Paris nüshası adlandırıldı. (Koroğlu, 1997:3) Şu nüsha böyle başlayır:

“Koroğlunun esl-nesebi Teke-Türkmannandı. Onun atasının adı Mirze Sarraf, öz adı ise Rövşen idi. O zamanlar Mirze Sarraf Türküstan şahı Sultan Murad’ın baş ilhıçısıydı. Türküstan padşahının ne ki ilhısı vardı, hamısı Mirze’nin elinde idi. Bir gün ilhıçılardan biri Mirze’ye haber getirdi ki, Ceyhun çayından bir at çıkıb iki madyana basıb, sonra kayıdıb suya girib” (Koroğlu, 1997:11).

Babasını Meşed’de defn eden Rövşen Azerbaycan’a gelmek isterken Horasan vilayetinde eşkiya Deli Hasan’la karşılaşır. Onu yendikden sonra birlikde Kaflan gedigini aşıb Azerbaycan’da Göycebel’de kendilerine yurt kururlar. Onların gelişinden Azerbaycan hakiminin rahatsız olduğunu görüb Rum iline doğru hereket edirler.

“Koroğlu” dastanının Rusların da dikketini çekmişdir. Rus şarkiyyatçısı Şopen 1856’da Aleksandr Xodzkonun Avropada bastırdığı “Koroğlu” dastanını Rus diline çevirerek “*Kafkas”* gazetesinde yayına hazırlayanda ona ön söz de yazıb.O, ön sözde yazır: “*Asiyada ve ümumiyyetle Şark ölkelerinde ele bir yer tapılmaz ki, Koroğlunun şöhreti oraya gedib çıxmasın. Onun adını hatta Bessarabiya ve*

Moldaviyada da eşitmek mümkündür. Göresen bu Koroğlunun döyüşkenliginden başka onun müeyyen bir tarihde ifa etdigi önemli rolun sübutundan savayı ne ola biler? Her halda Koroğlunun Asyadakı şöhreti Homerin Yunanıstandakı şöhreti kadar azamatlidir"(Sadıkov,1986:50)

Avroasiyada ikinci öyle dastan tapmak olmaz ki, "Koroğlu" kadar geniş yayılmış olsun. Şunun sebebini Azerbaycan Türklerinden olan, Rus şarkiyyatçısı Mirze Kazım bey böyle anlatır: "*Halklar Koroğlunun zülme karşı adalatli mübarizesinde kendi arzularını gördükleri için onu kendi etnik hüsusiyyetleri ile uyğunlaşdırmağa çalışmışlar*"(Hakki, 2003:28).

Dastanın İngilisceden Ruscaya çevrilerek Kafkas gazetesinde yayımlatmaları Kafkas Türklerinin de dikketini konuya çekmiş ve kendi kültürlerine sahib çıkmağa çalişmışlar. 1889'da Mirze Velizade şimdiki Gürcüstan Cumhuriyetine bağlı Kosalar köyünden yaşayan aşıkdan "Koroğlu" dastanının parçalarını toplayarak *SMOMPK* toplusunda yayınlatmışdır.(Velizade,1989:121-126)

"Koroğlu" dastanının eski elyazmalarından biri de Tebriz nüshasıdır. 19 yüyılda Tebrizde

anonym katib terefinden yazıya alınan, sonra Tbilisiye getirilen dastan yıllarla araştırıcıların dıkketından kanarda kalmışdır. Şu elyazma hakkında ilk defe Gürcü araştırıcısı Lia Çalaidzenin doktoro tezinde bilgi vermişdir. Azerbaycanlı araştırıcı Dilare Aliyeva yazır: *"..Men hele 1958'de Azerbaycan-Gürcü adabi alakalarine hesr olunmuş kitabımda söz açmış, bu mövzuya ayrıca makale de hesr etmişdim. Sonralar Halık Koroğlu Koroğlu'nun hemin elyazmanın geniş tesvirini vermişdir...*" (Koroğlu, 2005:3)

Gürcüstan Bilimler Akademisinin K.Kekelidze adına Elyazmalar Enstitutusunda saklanan şu nüsha hakkında araşdırıcıların 50 yıldan çokdur bilgisi olsa da basılması 2005'de baş tutdu. Arab alifbasında yazılmış, 28 meclisten, 384 varak-yaprakdan, yanı 768 sehifeden oluşan şu nüsha şimdiyedek yayımlanan Koroğlu dastanının en böyügüdür. Araştırıcı Dilare Aliyeva bu nüshanı 1980 yıllardan yayına hazırlamağa başlasa da 1990'de trafik kazasından ölmesi dastanın yayınlanmasını yubatdı. Dilare hanımın başladığı işi Azerbaycan Milli Bilimler Akademisi Folklor Enstitusunun araştırıcısı

Elnare Tofik kızı bitirdi ve Bakıda latın alifbasıyla yayınlatdı.(Koroğlu, 2005).

Şu nüshanın Paris nüshasiyle okşarlığı çokdur.

İranın Save bölgesında döğulmuş ve Tehranda avokatlık yapmış Ali Kamalının(1943-1996) topladığı ve terefimizden yayina hazırlanan "Koroğlu" dastanı da oldkca dıkketıcekendır. Buradakı 8 meclis Aşık Aliekber Kurbanıden banta alınıb, 6 meclisi ise İslam Efşar Halaci ve b. yazıya alarak Ali Kamaliye veribler. Aşık Aliekber Kurbani'den banta alınmış nüshede Koroğlu Eyvaz'ı Türkmen elinden getirir. Aşık konuya aydınlık getirmek için Türkmensahra'nın tesvirini verir. Ali Kamali'nin kimden topladığını bilmediyimiz, pasportlaşdırmadığı bir variantda Eyvaz qessabın değil, Türkmenistan'da Kaşkay ilbeyinin oğludur (Şamil, 2002:4, 117). Ali Kamali arşivindeki Koroglu dastanında yalnız Koroglu ve Ayvaz degil delilerin de çokusu Türkmendir. Yayın için hazırladığımız şu nushada Koroglunun soyu ile ilgili faktlar da dikketiçekendir. Böyle ki, İslam Efşar Halacinin yazıya aldığı nushadakı "Dastanı- Koroğlu ve

Nigar" meclisinde öyünde konak kaldığı karı Koroğluya degir:

Yedigin boynuna almaz,
Heş kim böyle kılınc çalmaz,
Emisi Şabandan kalmaz,
Bir utanmaz vardır üzü.

Zöre diyer baxsın süze,
Ebes konak oldu bize,
Dedesı milehor Mirze,
Kırat üsse çıkdı gözü.

"Koroğlunun Türkmen seferi" meclisinde degilir:

Yalan sözünden utanmaz,
Yedügün boynuna almaz,
Emisi Şabannan kalmaz,
Hiç yokdur utanan üzü.

Men kurbanam ala göze,
Heşm eyleyib bakdı bize,
Atasıdı Hace Mirze,
Kırat üste çıkdı gözü.

Koroğludur Roşan hanay,
Menim bu cismimde canay,
Keys kızı Selbidir anay,
Kırat vurub sındı dizi.

Yenı yayına hazırlanan variantda Arap Reyhan, Mustafa beg ve onların Koroğlu ve Eyvazla akrabalıklarıyla ilgili maraklı faktlar var. Bütün bunlar onu gömsterir ki, Sovet döneminden önce yazıya alınmış variantlarda ve 20. Yüzyılda İrandan yazıya alınmış variantda Koroğlu ve delileri Turkmen kibi tanıtılır.

Azerbaycan'da Veli Huluflu, Hümmet Alizade, Memmedhüseyin Tehmasib, Azad Nebiyev'in yayınlatdığı dastanlarda Koroğlu Eyvaz'ı Türkmenistan'dan ve ya Teke Türkmenden getirir. Eyvaz'ın babası da qessab Alıdır. İran'da yayınlanan ve Ali Kamali'nin Aşık Alekber Kurbani'den topladığı nushalarda da böyledir.

Maalisev devletler arasındagı durum ve demir perdeler Koroğlu dastanını gereyince araştırılmasını engellemişdir. Dastanla ilgili araştırmalar bölgesel yönden olmuşdur. Azerbaycanda, Türkmenistanda, Turkiyede, İranda ve b. ölkelerde yayınlanmış kitab ve

makalelerde araştırıcılar Koroğlunun mehz onların bölgesinde yaşadığını isbatlamğa çalışırdılar. Buna dastanın iyice toplanıb yayınlanmaması da imkan vermemiodir.

Son yıllarda yayımlanan nüshaları diqqetle inceledikde görünür ki, Oğuzların keçib geldikleri yol Koroğlu dastanında eyniyle tekrarlanır. Harezm'dan başlanan yol Horasan'dan, Azerbaycan'dan keçerek Urfa, Diyarbekir, Van, Erzurum, İstanbul, Malatya, Süleymaniye ve b. ve b. bölgelerini çevreleyir. Şu da Türkmenbaşının "Ruhname"sinde ireli sürülen strateji hatta uyğundur.

Araştırıcılarımız "Koroğlu" dastanının son yıllarda basılmış nüshalarını da göz önüne sererek inceleseler görecekler ki, Ozuzların Türkmen adlandırıldıkdan sonra yartdıklar en böyuk adabi abidelerden biri "Koroğlu" dastanıdır. Türkmenler nereye gitmişlerse şu möhteşem abideni de kendilerile daşımış, yaşatmış, konşu halklara ögretmekle dünya kültürünr hizmet etmişler.

Kaynak ve notlar:

1. Abbasov, Elçin: Azerbaycan şifahi halk edebbiyyatına dair tedkikler. “Seda” neşriyatı, Bakı,2003

2.Hakki,Behruz: Koroğlu tarihi mifoloji gerçeklik. “Nurlan” neşriyyatı, Bakı 2003.

3.Koroğlu:Toplayanı: Hümmet Alizade. “Azerneşr” neşrıyyatı, Bakı 1941.

4.Koroğlu: Tertib edeni: M.H. Tehmasib. Azerbaycan EA neşrıyyatı, Bakı 1956.

5.Koroğlu: Yayına hazırlayan Karrıyev B.A. “Nauka” neşriyatı, Moskva 1983.

6.Koroğlu (Paris nüshesi): Yayına hazırlayanı ve ön sözü İsrafılAbbaslı, “Ozan” neşrıyyatı, Bakı 1997.

7.Koroğlu (Vali Huluflu neşri): Yayına hazırlayanı ve ön sözü Azad Nabıyev. “Elim” neşrıyyatı, Bakı 1999.

8.Koroglu: Yayına hazırlayan Elnare Tofik kızı. “Seda” neşrıyyatı, Bakı 2005.

9.Poslovii i pokovorki narodov Karaçaevo-Çerkesii(Ata sözü ve degimler): Sostaviteli:R.A.K. Ormabaeva, M.İ.Mijaev, S.U.Çikatueva,A.İ.-M.Sikaliev. Çerkessk 1990.

10.Adabiyyat ve incesenet. 17 dekabr1986, “Koroğlu dastanı Jorj Sandın” sayı,50. (Sadıkov M)

11.Şamil, Ali: “Koroğlu eposunun variantları Ali Kamalı arşivinde”. Dede Korkut (Bakı 2002) sayı, 4.

12.Şamil, Ali: “Ali Kamalı arşivindeki Koroğlu eposunun variantlarında metinşünaslık meseleleri”. Ortak Türk keçmişinden ortak Türk geleceyine III Uluslararası Folklor Konfransının (13-16 Kasım 2005) materialları, (Bakı 2005).


13.Velizade, Mirze: Kaçak Koroğlu hakkında efsane. SMOMPK(Sbornik materialov dlya opisaniya mestnostey i plemen Kavkaza-Kavkaz halkları ve onların yaşadıkları bölgelerin tesvir eden senedlerşn toplusu), 9 kitab (Tibilisi 1989)

Çap olunub: Müqəddəs Ruhnamədə Koroğlu. Müqəddəs «Ruhnamə» və dünyanın ruhu genişliyi. (Halklara ılml maslahatın nutuklarının qısqaca beyanı, Ruhname -2006-ncı yılın sentyabr ayının 12-13-i), Aşgabat, 2006, səh. 174(Türkməncə), səh.449(İngiliscə), səh.681(Rusca).

TÜRK DÜNYASININ MƏŞHURLARI

Türkmənistanda elmi konfranslarda oxuduğum məruzələrdə Əbu Səid Əbül-Xeyri, Mahmud Zəmaxşəri, Dövlətməhəmməd Azadi haqqında geniş bilgi verdiyimdən təkrara yol verməmək üçün onlar haqqında TRT və Azərbaycan İçtimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə getmiş verlişlərin mətinlərini buraya daxil etmədik.

MƏXDUMQULU FƏRAQI



Məxdumqulu Fəraqi *(türkm. Magtymguly Pyragy, əski əlifba ilə*: مخدومقلی فراغی, *rus. Махтумкулú, (1733 - 1783)*

Məxdumqulu Fəraqinin 1733-cü ildə indiki Türkmənistan Respublikasının Ətrək vilayətinin Kümbəzhovuz qəsəbəsinin doğusundakı Hacı-qovşan qışlağında anadan olduğunu yazırlar. (Şairin Qızılbayır (indiki Şarlavuk) obasında doğulduğunu yazan araşdırcılar da var.) Araşdırcıların uzun illər axtarmalarına baxmayaraq Maxtımqulunun doğulduğu ili, ayı, günü təsdiqləyən ciddi bir sənəd ortada yoxdur. Ədəbiyyat tarixində şairin Türkmənlərin Göklər soyunun Gerkəz tirəsinə daxil olan Qışıq nəslindən olduğu hakimdir.

Maxtımqulunun atası Dövlətməmməd (1700-1760) mədrəsə təsili görmüş, Azadi

ləqəbilə şeirlər yazmış, divan yaratmışdır bir Türkmən aydınıdır. Oğlunun ilk təhsili ilə də özü məşğul olmuşdur. Sonra isə Maxtımqulunu qonşu Qızılayaq qışlağındakı İdris Babanın açdığı məktəbdə oxumağa göndərmişdir.

1754-cü ildə Qızılayaqda təhsilini başa vurun Maxtıqulunu atası Buxaradakı məşhur Kökəltaş mədrəsəsinə oxumağa göndərib. O, mədrəsədə öyrədilən ilahiyyat, həndəsə, hesab, nücum, tarix, coğrafiya və b. fənləri mənimsəsə də daha çox ədəbiyyata, bəlağətə diqqət yetirmişdir. Xoca Əhməd Yəsəvinin, Füzulinin, Nəvainin, Nəsiminin, Yunus İmrənin, Xəyyamın, Caminin, Hafizin, Dəhləvinin və b. əsərlərini böyük həvəslə oxumuş, onların bir çox şeirlərini əzbərləmişdir.

Buxarada oxuyarkən Maxtımqulu nəqşibəndi təriqətinin miridləri ilə tanış olur. Təriqət mürşidlərində olan Mövlana Nuri Kazım ibn Baharlıya müridlik edir, onunla birlikdə indiki Özbəkistana, Tacikistana, Əfqanıstana, Hindistana və b. yerlərə səfər edir. Təxminən iki illik səyyahətdən sonra Xivə şəhərinə qaydırlar.

Xivə şəhəri həmin dönəmdə bölgənin inkişaf etmiş mədəni mərkəzlərindən biri idi. Xivə xanlığının mərkəzi olan bu şəhərdə bir neçə

mədrəsə, bazar, hamam və s. vardı. Maxtımqulu buraya gəldikdə Xivə xanı Şirqazinin 1713-cü ildə tikdirdiyi, elə buna görə də onun adını daşıyan Şirqazi mədrəsəsində təhsilini davam etirir. Maxtımqulu mədrəsədəki dövrün dərin bilikli ailimlərindən dərs almaqla yanaşı, həm də orada dərs deyir.

Şairin yaşadığı dövrdə bölgə qarışıqlıq içində idi. Səfəvilər dövləti çökmüşdü. Feodal pərakəndəliyi ölkənin iqtisadiyyatına ağır təsir göstərmişdir. Xanlıqların hər biri müstəqil dövlət kimi formalaşmağa çalışırdı. Buna görə də xanlar ərazilərini genişləndirmək, daha geniş əraziyə sahib olmaq üçün bir-birilə savaşırdılar. Bu azmış kimi, xanlıq daxilindəki tayfalar arasındakı toqquşmalar da ara vermirdi. Eyni dildə danışan, eyni dinə inanan insanlar bir birinin kəndlərinə basqın edir, arvad-uşağı əsir alir, var dövlətini talayırdı. Vəziyyət o qədər gərginləşmişdi ki, Rusiyanın əsgəri birlikləri Məşhəd şəhərinədək gəlib çıxa bilmişdi.

Belə qarışıq bir zamanda Afşar tayfasından olan Nadirqulu tarix səhnəsinə çıxır və mərkəzi hökumətə tabe olmayan xanların və tayfaların üzərinə yürüşlər təşkil edir. Onun qələbələrlə başa vurduğu yürüşlərindən yalnız mərkəzi

hakimiyyətə tabe olmaq istəməyən xanlar deyil, dinc əhali də əziyyət çəkir.

Maxtumqulunun ailəsi də belə qarışıq bir zamanda sakit və firəvan yaşaya bilmir. Qardaşı Abdulla hansı səbəbdənsə ata yurdunu tərk edir. 1754-cü ildə ailə üzvlərindən üçü – bacısı Xanmənli, kiçik qardaşı Canəsən və onun arvadı Bayram eyni gündə dünyasını dəyişir. Şairin iki oğlu kiçik yaşlarında öldüyündən, çırağını yandıracaq başqa övladı qalmır. Məxdumqulu bütün bunları «Bəxtim qaradır» şeirində təsvir edir.

Nadirqulu böyük sərkərdəlik məharəti sayəsində asiləri sərt cəzalandırır və Muğanda böyük qurultay çağıraraq özünü şah elan edir. Ölkənin getdikcə abadlaşmasından, hökumətin güclənməsindən narahat olanlar, xarici güclər Nadir şaha sui-qəst təçkil edirlər. Nadir şah Afşarın ölümü ölkəni yenə də bərbad hala salır.

Türkmən xalqının soykökündə iştirak edən təkə, yomut, göylən, əlili, yazır, salır və b. tayfalar arasındakı ziddiyət ara vermir. Ona görə də şair «Türkmənin», «Türkmən binası», «Tökər olduq yaşımız», «Çovdur xan», «Çovdur xan üçün», «Ya Əhməd şah», «Dövlətəlinin», «Gürgənin», «Hasar dağındadır», «Sonu dağı», «Gözlərəm», «Sizindir» və b. şeirlərində

soydaşlarını birliyə çağırırdı. Şair yazırdı:

Türkmənlər bağlasa bir yerə beli,
Qurudar Qülzümü, dəryayi-Nili,
Təkə, yomut, göylən, yazır, əlili,
Bir dövlətə qulluq etsək beşimiz.

Vətənpərvər şair Türkmən birliyinin bir gün mütləq baş tutacağına, Türkmən xalqının iqbalının çiçək açacağına böyük ümidlər bəsləyirdi. Məxdumqulu el qeyrəti çəkən Çovdur xan, Dövlətəli, Övəzgəldi kimi siyasi xadimlərə, Əhməd şah, Ataniyaz xan kimi rəhbərlərə həsr etdiyi şeirlərdə onların qəhramalığını öyməklə yanaşı, həm də bir vətəndaş kimi milli birliyə çağırırdı.

1760-cı ildə atasının ölümündən xəbər tutan gənc şair ailəsinin yanına qayıtmalı olur. Xivədən ayrılmaq istəməyən şair üç il «məkan tutub duzunu yediyi», dərin bilik və böyük mənəvi sərvət qazandığı «qızıl qapılı» mədrəsəni ömrü boyu unutmur və şeirlərində onu vəsf edir.

Ailəsinin yanına qayıtdıqdan sonra iki qardaşının ölümü, başlıq parasını ödəyə bilmədiynə görə sevdiyi qız Mənlinin başqasına

verilməsi Maxtımquluya ağır təsir edir. Ondan sonra şeirlərini Fərağı ləqəbilə yazmağa başlayır. Qüssə-kədər içərisində olan şair səyyahət etmək, öyrənmək və bildiklərini təbliğ etmək məqsədilə ömrünün müxtəlif illərində səyyahətə çıxır.

Şairin ömür yolu haqqında doğru-düzgün bilgilər yoxdur. Araşdırıcıların bəziləri onun şeirlərindəki misralara dayanaraq Azərbaycana, Kayseriyə, Qarsa, Manqışlağa, Həştarxana səyyahət etdiyini yazırlar. Maxtımqulunun şeirlərində nəinki Misirin, Həbəşin, Zəngistanın, Firənistanın, Yunanstanın, Rumistanın, Çin-Maçının, Hindistanın və s. bölgələrin adı çəkilir, hətta oraya qədər olan məsafə də göstərilir. Məs.:

On iki min ağac cayi-Hindistan,
Altı min ağac yol ərzi-Rumistan,
Dörd min Səklab, Səncab, dörd min Zəngistan,
Sanki keçib varan seldir bu dünya.

Üç min üç yüz ağac əhli-islamdır,
İraq, Xəzirbaycan, Misirdir, Şamdır,
Xorasan, Fars, Bəzirkuhda tamamdır,
Yox olunca, qalmaqaldır bu dünya.

Maxtımqulu Fərabinin, Biruninin, ibn Sinanın, əl-Xarəzminin, Həllac Mənsurun, Qəzalinin, Zəməxşərinin, Nəiminin, Bəyazid Bistaminin və b. elmi-fəlsəfi irsi ilə yaxından tanış sənətkar olsa da şeirlərinin böyük bir qismini heça vəznində yazmışdır. Beləliklə o, klassik ədəbiyyatı folklor ilə yaxınlaşdırmışdır. Türkmən və ümumtürk folklorunu dərindən mənimsəyən və inkişaf etdirən şair şeirlərində doqquz dəfə pirlər əlindən badə içdiyini təsvir etmişdir. Hansı ki, dastanlarımızda qəhramanın badə içmə mərasimi cəmi bir dəfə baş veir.

Türkmən ədəbiyatını ərəb və fars təsirlərindən təmizlənməsində də Maxtımqulunun əməyi əvəzsizdir. Şairin vafat tarixini araşdırıcılar 1783-cü il, 1793-cü il, 1798-ci il kimi göstərirlər.

Azərbaycanda Türkmən ədəbiyyatının ən çox təbliğ edilən nümayəndəsi Maxdımqulu Fəraqidir. Salman Mümtaz 1920-ci illərdə yazırdı ki, qonşuluğumuzda Qızılsu (Krasnovodski), Manqışlaq (Gümüştəpə), Kümbəti Kabus, xüsusən Xəzər boyu bölgədə yaşayanlar tamamilə bizim ləhcəmizdə və ya ona yaxın bir ləhcədə danışır. Araşdırıcı Əmin Abid isə 1927-ci ildə çap etdirdiyi "Heca vəzninin tarixi"

məqaləsində Maxtımquludan söz açmış və onun şeirində nümunə vermişdir.

1960-cı ildə şairin Bakıda "Şeirlər" kitabı çap olunmuş və "Klassik türkmən antologiyası" kitabına isə xeyli şeiri daxil edilmişdir. 1983-ci ildə Maxtımqulunun anadan olmasının 250 illiyi təntənə ilə qeyd edilərkən Fəxrəddin Əliyevin tərtib və tərcümə etdiyi «Türkmən inciləri» kitabında Məxdumqulunun bir neçə şeiri verilmişdir. 1984-cü ildə isə şairin «Qəm seli» adlı şeirlər kitabı nəşr edilmişdir. İsmayıl Vəliyevin tərtib və tərcümə etdiyi bu kiçik həcmli kitabda 102 şeir daxil edilmiş, professor Pənah Xəlilov isə 7 səhifəlik önsöz yazmışdır. Sovet dövründə Pənah Xəlilov Sovet Sosialist Respublikaları İttifaqı xalqlarının ədəbiyyatı proqramına Maxtımqulunu da daxil etmiş, yazdığı dərslikdə şairin həyat və yaradıcılığından söz açmışdır.

Azərbaycanda yazılan bir neçə dissertasiyada Maxtımqulunun yaradıcılığından bəhs edilsə də, şairin həyat və yaradıcılığının dərindən öyrənilməsi və əsərlərinin tam şəkildə nəşr edilməsi Sovetlər Birliyinin çöküşündən sonra baş vermişdir. Filologiya elmlər doktoru Ramiz Əskər 2010-cu ildə Məxdumqulu Fəraqinin 448 səhifəlik "Seçilmiş əsərləri"ə

geniş şərhlər yazaraq nəşr etdirmiş, şairin haqqında Azərbaycanda, Türkiyədə, Türkmənistanda və b. ölkələrdə keçirilən elmi sempozyumlarda məruzələr oxumuş, qəzet və jurnallara məqalələr yazmş, radio və televizyalarda verlişlər hazırlamışdır.

TRT və Azərbaycan İçtimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2010-cü il dekabrında, saat 12.15-də efirə getmişdir.

SEYİTNƏZƏR SEYİDİ

Şeyxnezer Seyidi (1768-1830)
(شیخ نظر سیدی , rus. Шейхназар Сеиди)
https://ali-shamil.tr.gg/Seyitn%26%23-601%3Bz%26%23601%3Br-Seyidi.htm

Seyitnəzər Seyidi 1768-ci ildə indiki Türkmənistan Respublikasının Çərjov (indiki Lebap) vilayətinin Qarabekirli rayonunun Lamma aulunda (kəndində) doğulub.

Seyitnəzər Seyidi dövründə isə nə Türkmənistan Respublikası vardı, nə də Çərjov vilayəti. Şairin doğulduğu və gəncliyini keçirdiyi bölgə Lebap adlanırdı. Bölgədə bir qarışıqlıq hökm sürdüyündən Lebaplılar da gah Buxara əmirliyinin, gah da Xivə xanlığının tabeliyində olurdular.

Bölgə uzun müddət Səfəvilər sülaləsinə tabe olduğundan bu sülalənin hakimiyyətinə son verilməsinə baxmayaraq Xorasan ətrafında dirçələn xanlar Lebapı özlərinə tabe etməyə çalışırdılar. Onlar istəklərinə nail ola bilmə-diklərindən bölgəni soyub-talayıb gedirdilər. Beləcə Lebap üç gücün arasında "nifaq alması"na çevrilmişdi.

Lebapın bəyləri, cəsur oğulları ailələrini, torpaqlarını qorumaq uğrunda cəsarətlə savaşsalar da, istədiklərinə nail ola bilmirdilər. Birincisi hər üç qüvvənin arasında elə bir fərq görünmürdü. Hər üçü idarəetmədə islahatlar aparmaq, ordunu yenidən qurmaq, silah və hərbi sursat istehsal edəcək zavodlar yaratmaq fikirindən uzaq idilər. Orta əsr idarəetməsini bir az da pozuq şəkildə qoruyub saxlamağa çalışırdılar. Əsgəri birliklərin silahları isə orta əsirlərdəki kimi kustar sexlərdə hazırlanırdı. Odlu silahların istehsalına demək olar ki, diqqət yetirilmirdi.

İkincisi Lebapın öndəgedənləri arasında da fikir birliyi yox idi. Bəziləri Səfəvi hakimiyyətinin yenidən dirçələcəyinə ümid bəslədiklərindən Nadi şah Əfşarın hökumətinin tabeliyində olmağı istəyirdisə, bəziləri Buxara Əmirliyinin tabeliyində yaşamağa üstünlük verirdilər. Əhalinin böyük əksəriyyəti Xivə xanına rəğbət bəsləsə də, ziddiyyətlər də yox deyildi.

Seyitnəzər Seydi Türkmənlərin Əsrarı tayfasından idi. Uşaqlığında Qarabegavulda Həbib xocadan Qurani-Kərimi, Sədi Şirazinin "Gülüstan", "Büstan" kitablarını oxumağı və

şəriəti öyrənir. Gənc yaşlarında Xədicə adlı Türkmən qızına könül verən Seyitnəzər Seyidi onunla da evlənir. Bu evlilikdən Bəynəzər, Sahipnəzər, Mirheydər, Mirəsən adlı oğlanları və Fatma, Zöhrə adlı qızları dünyaya gəlir.

Şair "Qal indi" şeirində yazır:
Bir atadan, Mətih, yalnız qardaşım
Bixəbərsən düşman alıbdır daşım
Naçar əməkdaşım, Oraz Bibisən
Eşitsən, yas tutub qara gey indi.

Orta yüzilin şairlərinin yaradıcılığında aparıcı xətti məhəbbət mövzusu təşkil edir. Lakin Seyitnəzər Seyidinin yaradıcılığında nə sevgilisi Xədicəyə, nə də başqa gözəllərə həsr edilmiş şeirlərə demək olar ki, rast gəlinmir. El şairinin yaradıclığının əsasını igidləri döyüşlərə, mübarizəyə səsləyən misralar təşkil edir.

Seyitnəzər Seyidinin şeirləri "Koroğlu" dastanlarındakı misraları xatırladır. Vətən, vətənin qorunması şair üçün ən önəmli olan məsələlərdəndir. Şair "Bəylər" şeirində yazır:

Vətən üçün çıxdım Qırat üstünə,
Ta canım çıxınca, dönmərəm, bəylər!
Başqa bir beytdə isə şair deyir:

Elim üçün şirin candan keçərəm mən,
Düldül minib, qanat bağlar uçaram mən.

Döyüşdə özünü Koroğluya, Rüstəm Zala, İsgəndər Zülqərneyinə, Qacar pəhlivanlarına bənzədən, düşmən üzərinə hücuma keçərkən Əliyyi Mürtazanı – Şahı Mərdanı çağıran, ömrünün çoxunu savaşlarda keçirən şairini döyüş həvəsi qan tökmək hərisliyindən gəlmir, millətinə gün ağlamaqdan, vətənini abad görməkdən gəlir.

Seyitnəzər Seyidinin yaşadığı dövrdə Lebap Buxara əmirliyinə tabe idi. Buxara əmiri Mirheydərin yeritdiyi siyasətdən narazı qalan Lebaplılar ona qarşı çıxırlar. Lakin bu etiraz hərəkatı Ənsarilər tayfasını tam əhatə etmir. Belə ki, şair şeirlərində Buxara əmiri Mirheydərə qarşı vuruşan Lebaplı Soltanniyaz bəyi tərifləyirsə, onun tərəfini saxlayan Qahharqulu bəyi də kəskin tənqid edir.

Bu məhəlli savaşdan cana doyan Ənsarilər tayfasının bir qismi Lebapdan Xivə xanlığının ərazisinə köçməli olur. Bu köçün ağrısı-acısı şairin şeirlərində də öz əksini tapır. Şairin "Lebap, xoş imdi" şeiri sanki doğma yurda bir vida nəğməsidir.

Şair yazır:

Sakar xalqı ilə Ənsarı olmuş,
Biz getdik, sən qaldın, Lebap, xoş indi.
Kimi ağlar getdi, kimi də gülüp,
Kimi çəkmiş dürlü əzap, xoş indi.

Şair şeirin son misralarını isə belə tamamlayır:

Seyidi deyər, indi tükəndi sözüm,
Gediniz, sizləri görməsin gözüm.

Eli ilə birlikdə Xivə xanlığının qədim tarixə malik Mərv bölgəsinə köçən Seyitnəzər Seyidi burada dostu şair Zəlilinin Qaraqala kəndinə yerləşir. Laki onun güzaranı burada da xoş keçmir. Şairin yaxın dostu, ona himayədarlıq edən, şair Zəlili Xivə xanı Məhəmmədrəhim tərəfindən həbs edilir. Zəlilinin 7 il həbs cəzasına məhkum edilməsindən doğan narazılıq Seyitnəzər Seyidinin şeirlərində də öz əksini tapmışdır.

Seyitnəzər Seyidi sanki dövrünün salnaməsini bədii şəkildə yazmışdı. Onun şeirlərində məhəlli savaşların təsvirinə də geniş

yer verilmişdir. Qacarların hakimiyyəti illərində Əhmədalı Mirzənin Qarrıqala Türkmənlərinə hücuma keçərək onları mərkəzi hökumətə tabe etmək istəyir. Qarrıqala Türkmənləri isə zəifləmiş Qacarlar sülaləsinin hakimiyyətinə tabe olmaq istəmir, özlərini müdafiəyə qalxırlar.

Seyitnəzər Seyidi də Qarrıqala Türkmənləri ilə birlikdə Qacarlara qarşı döyüşür. Ömrünün böyük qismini döyüşlərdə keçirən, 62 yaşında bir döyüşdə şəhid olan şairin şeirləri vaxtında toplanmadığından yaradıcılığının çox az qismi günümüzədək gəlib çatmışdır.

Şairin "Qaldın, xoş indi", "Dönməm bəylər", "Gedəlim, bəylər", "Olduğu vardır", "Ərsarının igidləri", "Bedəvsuvar indi", "Qoçaqlar", "Gəlin", "İgidlər", "Görülsün indi", "Çıxıp gedəlim", "Biçarə olup gəldik", "Gedəlim", "Qarı səvaba", "Dövranı vardır", "Gəlin igidlər", "Mübarək olsun", "Dövrandan ayrıldıq" və başqa şeirləri istər bədii dəyərinə görə, istərsə məzmuna, vətənpərvərlik, igidlik, cəsurluq hissləri aşıladığına görə bu gün də öz əhəmiyyətini itirməyib.

Şeirlərinin çoxunda doğulub boya-başa çatdığı Amudəryanın kənarındakı Lebapı yada

salan şair araşdırıcılara görə 1830-cu ildə döyüşdə şəhid olmuşdur.

Rusiya işğalı dövründə də, Sovetlər zamanında da Seyitnəzər Seyidi laiq olduğu səviyyədə təbliğ olunmurdu. Sovetlərin dağılmasından 20 ildən çox keçməsinə baxmayaraq, istər Türkmənistanda, istərsə də Türk xalqları yaşayan ölkə və bölgələrdə Seyitnəzər Seyidinin vətənpərvərlik, igidlik, cəsurluq hissləri aşılayan şeirləri gərəyincə təbliğ olunmur. Əslində milli azadlıq mübarizəsinin alovlandığı günlərdə Seyitnəzər Seyidinin yaradıcılığına daha böyük ehtiyac duyulur.

TRT və Azərbaycan İçtimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2012-ci il dekabrın , saat 12.14 də efirə getmişdir.

MOLLA NƏFƏS



Molla Nəfəs (1810-1862)(مولا نپس, türk. Mollanepes, rus. Молланéпес)
https://ali-shamil.tr.gg/Molla-N%26%23601%3Bf%26%23601%3Bs.htm

Molla Nəfəs kimi tanınan Tanrıverdi 1810-cu ildə Mərvdə, Təkə Türkmənlərinin Yazı tayfasından olan Qədirverdi adlı sərracın ailəsində dünyaya göz açıb. O, ilk təhsilini dövrünün ziyalı sənətkarlarından olan atasının evində açdığı məktəbdə alıb. İbtidai təhsilini başa vurduqdan sonra Mərv şəhərində məşhur pedaqoq Molla Məmmədsalihin yanında təhsilini davam etdirib. Oranı bitirdikdə atası onu o dövrün məşhur təhsil ocaqlarından olan Buxara və Xivə mədrəsələrində oxumağa göndərib. Gələcəyin şairi bu şəhərlərdəki mədrəsələrdə tanınmış alimlərdən dərs alır, türk, ərəb və fars dillərini öyrənməklə yanaşı həmin dövrdə tədris olunan elmləri, o cümlədən

ilahiyyat (Quran, fiqh, təfsir), riyaziyyat, hesab, həndəsə, nücum, kimya, dil, ədədbiyyat, tarix, coğrafiya fənləri sahəsində dərin bilik əldə edib.

Ədəbiyyata daha çox meyl salan gənc şair Buxarada və Xivədə klassik Şərq poeziyasının Xoca Əhməd Yəsəvi, Füzuli, Nəsimi, Nəvai, Nizami, Sədi, Hafiz, Cami kimi nümayəndələrinin əsərlərini, habelə şifahi xalq ədəbiyyatını, dastan və nağılları diqqətlə öyrənib. Ədəbiyyat nəzəriyyəsi, bədii ifadə vasitələri, ədəbi janrlar, bir sözlə, Şərq poetik sistemi haqqında dərin bilik qazanıb. Mərvdən Tanrıverdi kimi gedən uşaq illər sonra vətəninə mükəmməl təhsil görmüş ziyalı və heca vəznində şeirlər yazan şair Molla Nəfəs kimi qayıdıb.

Şeirlərindən anlaşılır ki, o, gəncliyində Durduxal adlı bir qıza aşiq olub. Lakin sevdiyi qıza qovuşa bilməyib. Bundan təsirlənən şair ilk sevdasını unuda bilməyib və ömrü boyu onu xatırlayaraq şeirlər yazıb. Beləcə Durduxal şairin ilham pərisinə çevrilib. Şair onu xatırlayaraq deyib:

Nəfəs deyər, yara belim bağlaram,
Gecə-gündüz dərya kimi çağlaram,
Ta ölüncə Durduxal der ağlaram,
Gözlərimdən axar iki çay indi.

Molla Nəfəsin şeirlərində Türküstanın, Qafqazıın, Kabilin, Heratın, Astarabadın, Həmədanın, İsfahanın, Xorasanın, Tehranın, Qəzvinin, Şamın, Bağdadın, hətta Misir, İraq, Rum, Firəng ölkələrinin də adı çəkilib. Təbii ki, bu coğrafi məkanların bir qisminin adı ənənədən gələn poetik ehtiyaca görə çəkilib. Araşdırcılar onun şeirlərinə dayanaraq şairin Azərbaycanı gəzdiyi qənaətinə gəliblər. Şair şeirində birində belə yazıb:

Təvriz diyarında olmuşam səyyad,
Həzirbaycan şəhrin gəzdim adbaad.

Bu günün özündə də Türküstanın bəzi bölgələrində Azərbaycana Həzirbaycan deyilir. Türkmən şairi Molla Nəfəs Azərbaycan şəhərlərini adbaad gəzdiyindən söz açıb. Buradan aydın olur ki, şairi Azərbaycanla bağlayan sıx tellər varmış. Bunu onun şeirlərinin ruhundan aydın seçmək olur.

Molla Nəfəs, hər şeydən əvvəl, lirik şairdir. Onun məhəbbət şeirləri saf və göz yaşı kimi dumduru bir çeşməni andırır. Bu əsərlər sadə, incə, həzin və səmimidir, mayasını və qidasını xalq yaradıcılığından, doğma Türkmən folklorundan alır. Onun bir-birindən gözəl

gəraylı, qoşma və müxəmməsləri, ictimai-siyasi məzmunlu şeirləri, dastanları onilliklərdən bəri türkmən xalqının zövqünü oxşamış, ona milli şüur aşılamış, gənc nəsilləri milli ruhda tərbiyə etmişdir.

Şərq poeziyasına xas olan epitet və bənzətmələr, məcazlar sistemi ümumən onlara hakim olsa da, şairin deyim tərzi bir çox hallarda olduqca original və yenidir. Xüsusilə onun gəraylı, qoşma və müxəmməsləri öz lirizmi ilə insanı heyrətləndirir. Məsələn:

Dilbər, yazım vəsfini,
Yandım ki fərağından.
Mən təşnəni yandırma,
Busə ver dodağından.

Və yaxud :

Tiği-peykanından bağrım dəlindi,
Razıyam, öldürüb canım al indi,
Qara zülfün üzdə yüz-yüz bölündü,
Hər zülfün üzündə yüz para könlüm.

Şairin qismən irihəcmli məhəbbət şeirləri də həm məzmununa, həm də formasına görə fərqlənir. Onun "Bu məkana gəlmişəm" adlı poeması şairin ən məşhur əsəri sayılır. Şair

əsərində peyğəmbərlərin, hətta Allahın da surəti yaradıb. Bu əsərdə eşq ən yüksək poetik səviyyədə ülviləşdirilmiş, hətta ilahiləşdirilmişdir. Bunu başqa bir şairin yaradıcılığında görmək olmur. Şair yazıb:

Çəkdi sünbül saçların nazlı dilbər üzündən,
Gün tutulub, bu aləm şölə aldı gözündən,
Mövlam taqət gətirməz, getdi şol dəm özündən,
Dedi yarım: «Həqq aşiq dönə bilməz sözündən,

Molla Nəfəsin vətənpərvərlik şeirləri də milli ruhuna görə seçilir. 19-cu yüzildə Türkistanı işğal etmək istəyən çar Rusiyası bölgəyə ardı-arası kəsilmədən əsgəri qüvvələr göndərirdi. Dövrünə görə çox yaxşı silahlanmış Rus əskəri birlikləri qarşısında pərakəndə dəstələr şəkilində döyüşən və silah təchizatı olmayan türkmən, özbək, qazax, qırğız, qaraqalpaq, tacik vətənpərvərləri duruş gətirə bilmirdilər. Rus hərbçiləri xalqın gözünü qorxutmaq üçün işğal etdikləri şəhər və kəndlərdə ağlasığmaz qəddarlıqlar törədirdilər. Qacarlar xanədanı da bölgədə nüfuzlarını itirmək istəmirdilər. Bir sözlə Türküstan döyüş meydanına çevrilmişdi.

Molla Nəfəsin vətəninin cəsur övladlarını yalnız şeirlərilə ruhlandırmırdı, özü də

döyüşlərdə fəal iştirak edirdi. Yaşı 50-n keçsə də vətəninin müdafiəsinə qatılan şair döyüşlərin birində ağır yaralanır və aldığı yaradan 52 yaşında dünyasını dəyişir. O, şəhid olsa da vətəni qoruyan Türkmən sərkərdələrinin, xanlarının, bəylərinin rəşadətini tərənnüm etmiş, döyüşçüləri qələbəyə ruhlandıran şeirləri yaşayır. Şairin Qaraoğlan, Qacarbay, Övəzmurad xan, Mir Məmməd xan və digər adlı-sanlı el qəhramanlarının şəninə həsr etdiyi 20-dən çox şeir, milləti birliyə səsləyən qoşmalar qadağa və təqiblərə baxmayaraq günümüzədək dillər əzbəri olaraq yaşamışdı.

Çox təəssüf ki, Molla Nəfəsin şeirlərinin böyük əksəriyyəti bizə gəlib çatmamışdı. Xüsusilə ötən əsrin 20-30-cu illərində keçmiş Sovet İttifaqında türk xalqlarının ziyalılarını ya məruz qoyması, türk tarixinə, mədəni irsə vurulan ağır yaralar bir sıra sənətkarlarımız kimi Molla Nəfəsin də sovet-bolşevik ideologoyası ilə ziddiyyət təşkil edən əsərlərinin toplan-masına, oxunmasına, nəşr edilməməsinə icazə verməmişdi. Elə bu səbəbə görə də Molla Nəfəsin ictimai-siyasi lirikasının, dini, milli azadlıq və vətənpərvərlik mövzusunda yazdığı əsərlərinin üstündən sovet dövründə sükutla keçilmişdi.

Molla Nəfəsin zəngin irsində “Zöhrə-Tahir” dastanı xüsusi yer tutur. Türk xalqları, xüsusən oğuz qrupu türklər arasında geniş yayılmış bu əsər Molla Nəfəs tərəfindən tamamilə yenidən işlənmişdir. Şair “Zöhrə-Tahir” poemasını Türkmən həyatının, ruhunun, mədəniyyətinin və etnoqrafiyasının ensiklopediyası səviyyəsinə çatdırılmışdı.

Şairin Molla Rəsul və Molla Rəhim adlı iki oğlu olsa da Sovet dövründəki repressiyalar şairin nəslinin kəsilməsinə gətirib çıxarmışdır.

2009-cu ildə Türkmənistanın «Miras» Milli Mədəniyyət Mərkəzi şairin “Zöhrə-Tahir” dastanını nəfis şəkildə nəşr etmiş, 2010-cu ildə isə ölkədə Molla Nəfəsin anadan olmasının 200 illiyi münasibətilə bir-birindən maraqlı tədbirlər keçirilməsi planlaşdırımışdır. Bu münasibətlə Türkmənistan Prezidenti 6 noyabr 2009-cu ildə xüsusi fərman da imzalamışdı.

TRT və Azərbaycan İçtimai Radiosunun “Qorqud Ata” proqramının “Türk dünyasının məşhurları” rubrikası ilə 2010-cü il mayın 24-də, saat 12.15-də efirə getmişdir.

ABDULHAKİM QULMUHƏMMƏDOV



Abdulhakim Qulməmmədov (1885-1931) (عبدالحكيم قول محمدوو , rus. Абдулхаким Кулмам медов) https://ali-shamil.tr.gg/Abdulhakim-Qulmuh%26%23601%3Bmm%26%23601%3Bdov.htm

Abdulhakim Qulmuhəmmədov 1885-ci ildə indiki Türkmənistan Respublikasının Lebap vilayəti Xələc rayonunun Ağdəri kəndində doğulub. Abdulhakim doğulanda hələ Türkmənistan bir inzibati ərazi bölgüsü kimi formalaşmamışdı. Bu yerlər Buxara əmirliyinə daxil idi. Qulməmməd Mergen Abulhakimin atasının adıdır. Rusiya Türküstanı işğal edəndən sonra buradakı əhalinin ata adlarının sonuna ov, yev şəkilçisi artıraraq Rusiyadakı kimi familya yaratdılar. Onun doğulduğu il, ay və gün də dəqiq bilinmir. Haqqında yazan araşdırıcılar da 1879-cu, 1885-ci və 1893-cü ildə doğulduğunu yazırlar. Göründüyü kimi rəqəmlər arasında fərq 14 ildir. Mən də Abdulhakim Qulməhəmmədov

haqqında “On çinar”, “Tale tupanı (tufanı) kitablarında və çoxsaylı məqalələr yaxmış professor Mıratgəldi Söyeqovun araşdırmalarından yararlanaraq Abdulhakimin 1879-cu ildə anadan olduğunu yazmışam. Mıratgəldi Söyeqov sonrakı kitab və məqalələrində doğum tarixinin 1885-ci il olduğu qənaətinə gəlmişdir. Lakin bu da dəqiq və ciddi qaynaqlara dayanmır. O əldə edə bildiyi sənədləri tutuşdurараq Abdulkərimin 1885-ci ildə anadan olduğu qənaətinə gəlir.

İlk təhsili haqqında da dəqiq sənədlər yoxdur. Onu yaxından tanıyan Pirnepes Babanın xatirələrinə dayanaraq belə qənaətə gəlirlər ki, ilk təhsilini atasından alıb, 8 yaşındaa Xələcdə ki məktəbə gedərək 4 il orada oxuyub, Quranı xətm edib (bitirib), Sopuı Allahyarın, Məhəmməd Füzulinin, Hoca Hafizin, Mirzə Bilalın əsərlərini oxuyub. Abdulhakimin bir adı da qaynaqlarda Abraj, Abrajqulu olduğu göstərilir. Gəncliyində yazdığı şeirlərinin möhürbəndəində də Abraj ləqəbindən istifadə edib.

Abdulhakim Qulməmmədovun gəncliyində bölgənin mərkəzi Buxara olduğundan o da təhsilini davam etdirmək üçün Buxaraya gedərək oradakı Çahar Minara və Qızıl Ayaq

mədrəsələrində oxuyub. Çar Minarə mədrəsəsin əsli Xələcdən olan Türkmən Nıyazqulu Xəlifə (Nıyazı, Həzrət İşan) 1807-ci ildə açmışdır. Təhsildə, elmdə və şəriət hüququnda böyük nüfuz sahibi olan Nıyzqulu Xəlifə öləndə Buxara əmiri demişdir ki, Buxarada iki əmir vardı, biri dünyasını dəyişdi, biri qaldı. Qaynaqlardan aydın olur ki, mədrəsədə yalnız dini elmlər keçilmirmiş. Orada riyazıyyat, həndəsə, astronomiya, fiqh (islam hüququ), sərf (motfologiya), nəhuv (sintaksis) ərəb dili, fars dili və b. elmlər də tədris edilir, gənclərə patron, soyuq silahlar düzəltmək və hərb sənəti də öyrədilirmiş. Abdulhakim yalnız mədrəsə xocalarından dərs almaqla kifayətlənmir, Buxaranın 12 məşhur müftisindən biri olan, İkram Damolla kimi tanınan müdərrisdən xüsusi dərs alır.

Pirnepes Babanın Abdulhakim Qulməm-mədovun təhsil ardınca Buxaraya getdiyini yazır. Lakin onun Buxaradakı fəaliyyəti haqqında sənədlər hələ tpılıb ortaya qoyulmayıb. Xatirələrdən aydın olur ki, mədrəsədə oxuduğu illərdə şer yazmaqla yanaşı əmirin idarəetməsindən narazı qalan gənc cədidçilərə qoşulur. Az bir zamanda Buxaradakı Gənc

Buxaralılar Cəmiyyətinin nəzdindəki Türkmən gənclərinin rəhbəri olur.

Buxarada oxuduğu illərdə Daşkəndə, Səmərqəndə, Marıya, Aşqabada, Xivə də gedən Abdulhakim Qulməmmədov çılğın xasiyyəti ilə yaşıdlarından seçilir. Səmərqənddə olarkən gənclərin "Türküstan Milli Qustuluş Cəmiyyəti qurduğundan xəbər tutur və bu cəmiyyətə üzv yazılır. Ona təşkilatda Türkmən gənclərinin nümayəndəsi olmağı tapşırırlar.

Mədrəsəni bitirib Buxara əmirliyindən seçilmiş gənclərlə birlikdə İstanbulda təhsilini davam etdirməyə gedir. İstanbul Darülfünunda (Universitetində) oxuyan Abdulhakim Qulməmmədov haqqında Mıratgəldi Söyeqov yazır ki, şəxsi arxivimdəki arayışda yazılıb: "obrazovaniye vısşeye, okonçil Konistantinopolskiy Vostoçno- Arxeologiçeskiy İnstitut" (Yəni ali təhsilli, Konistantinopol Şərq Arxeologiyası İnstitutunu bitirib" Osmanlı dövründə İstanbulda belə bir institutun adına rast gəlməmişəm. Görünür İstanbul Darülfünunda (Universiteti) oxuyarkən şərq arxeolgiyası sahəsində ixtisaslaşıb. Həmin illərdə İstanbul Darülfünunda təhsil 3 il idi.

Mıratgəldi Soyeqov Abdulhakim Qulməmmədovun İstanbulda olarkən "dövrün görkəmli alim və mütəfəkkirlərinin – Ziya Gökalp (1876–1924) və Mehmed Fuad Köpürlünün (1890–1966) mühazirələrində iştirak etmişdir. O, həmçinin sonradan Osmanlı dövlətinin hərbi naziri olmuş general Ənvər Paşa (1881–1922) ilə də tanış olmuşdur" yazsa da qaynaq göstərmir.

Abdulhakim Qulməmmədovun İstanbula nə vaxt getdiyi, orada necə oxuduğu, kimlərlə və hansı təşkilatlarla əlaqə qurduğu haqqında araşdırıcılar sənədlərə dayanan bilgi verə bilmirlər. Sənədlərdən onun 1918-ci ildə geri, vətənə döndüyü aydın olur. Onun geri dönüşü qarışıq bir dövrə təsadüf edir.

Birinci Dünya Savaşında məğlub olan çar Rusiyası bir qarmaşa içərisində idi. İdarəetmə strukturları normal işləmirdi. Çar İkinci Nikolayı taxtdan salınmışdı. Müvəqqəti Hökumət yaradan müxalif qüvvələr də ölkəni idarə edə bilmirdilər. Hakimiyyəti devirmək üçün ölkənin müxtəlif bölgələrində qiyamlar, üsyanlar baş qaldırırdı. Hökumətə qarşı baş qaldıran qiyam və üsyanları pisləyən Rsiya Kommunist (Bölşeviklər) Partiyası 1917-ci il oktyabrın 25-də (yeni

təqvimlə noyabrın 7-də) Peterburqda silahlı üsyan yolu ilə hakimiyyəti ələ alır.

Çar ailəsini qəddarlıqla məhv edən, müxalif qüvvələrə, etirazçılara qəddar divan tutan bolşeviklər sülhə nail olacaqlarını, əsarət altındakı xalqlara azadlıq bəxş edəcəklərini vəd edirlər. Onları şüarları şirin və gənc nəsilin ürəyindən olduğundan tərəfdarları sürətlə artır. Abdulhakim də bu şuarlara aldanaraq Türkmən xalqını bir bayraq altında birləşdirib dövlətlərini qurmaq arzusuyla keçmiş məsləkdaşlarından-cədidçilərdən və Gənc Buxaraçılardan ayrılır. Türkmən gəncləri arasında kommunist ideyasını yaymağa başlayan Abdulhakim Qulməmmədov Rusya Kommunist (bolşeviklər) Partiyası Buxara Təşkilatını yaradanlara qoşulur.

Rus kommunisti Kolesovun təhriki ilə Cənc Buxaralılar 1917-ci ilin aprelində və 1918-ci ilin martında monarxiyanı devirib respublika qurmaq istəyirlər. Lakin onların hər iki cəhdi uğurz olur. Martda baş verənləri tarixçilər Kolesov kampaniyası adlandırdılar. Buxara əmiri Seyid Məhəmməd Alim xan cədidçilərə və Gənc Buxaraçılara divan tutmağa başladı. Abdulhakim Qulməmmədov Rusiya hökumətinin təəbəsi (vətəndaşı) saylıdığından

Buxara Əmirinin adamları onu cəzalandırmaqdan çəkinirlər. Çünki, Əmirin hakimiyyəti zəiflədiyindən Ruslar və Rusiya təbələri ilə ehtiyatla davranılırdı. Cəzalandırılacağından ehtiyatlanan Abdulhakim Qulməmmədov mart hadisələrindən sonra Köhnə Daşkəndə gəlir və orada bolşeviklərin təşkil etdikləri Qırmızı ordunun sıralarına qoşulur. Vətəndaş müharibəsində və Xivə xanlığının Ruslar tərəfində işğal edilməsində iştirak edir.

Xalqlara azadlıq vəd edən bölşeviklər mərkəzdə özlərinə müxalif gördükləri qüvvələri sıradan çıxartdıqdan sonra Ryanın işğal etdiyi ərazilərdəki xalqların qurduqları və qurmaq istədikləri mədəni muxtariyyatları, muxtar respublikaları, eləcə də müstəqil dövlət qurduqlarını elan etmiş xalqların üzərinə yeni yaratdıqları ordu hissələrini göndərməyə başladılar. Sözdə çarizmin, onun yeritdiyi siyasətin əleyhinə olduqlarını söyləyən bolşeviklər əməldə Rusiyanın müstəmləkəçilik siyasətini yerinə yetirir, imperiyanın keçmiş sərhədlərin bərpa etməyə çalışırdılar.

Xəzər dənizini doğusunda, Rusların Zakaspi adlandırdıqları bölgədə 1918-ci il sentyabrın 25-

də Rusiya Kommunist (bolşeviklər) Partiyasının yerli rəhbər orqanı yaradılır. Abdulhakim Qulməmmədov yeni yaradılan təşkilatın bölgədə yaşayan Türkmənlərin özlərinə milli dövlət quracağına yardım edəcəklərinə inanıb onlara qoşuldu və Mərkəzi Komitəyə orunbasar (ikinci katib, rəhbəri əvəz edən-Ə.Ş.) seçilir.

Qəribəsi budur ki, mədrəsə təhsili almış, İstanbul Darülfununu bitirmiş Abdulhakim Qulməhəmmədovdan bolşeviklər ideoloji işçi kimi deyi, döyüşçü, dəstəbaşı kimi istifadə edirlər. Bu da səbəbsiz deyildi, Abdulhakim Qulməhəmmədov bölgəni yaxşı tanıyır, ətradına Türkmən dəliqanlılarını yığa bilirdi. 15 nəfərlik Türkmən bolşevikləri arasında sonralar məşhurlaşan Oraz Sərdar, Çarı Qarabəyov, Hajımurad, Bekgi Berdiyev, Xan Yomitskiy və b. olur. Onun Türkmən gənclərindən təşkil etdiyi silahlı dəstə Bayraməli bölgəsində əsas gücə çevrilir. Buna görə də bolşeviklər bu gücdən bacarıqla istifadə etməyi qərara alırlar. Abdulhakim Qulməmmədovun rəhbərlik etdiyi silahlı dəstəni Sovet ordusunun tərkibinə qatırlar.

1920-ci ilin avqustun 16-19-da Carco şəhərində Buhara Kommunist (bolşeviklər)

partiyasının keçirdiyi 4-cü qurultayda Abdulhakim Qulməmmədov Türkmənlərdə təşkil edilmiş silahlı dəstənin fəaliyyəti haqqında məruzə edir. Bolşeviklərin məşhur ideoloq və hərbiçisi, Türkfurontun (Türküstan Cəbhəsi-Ə.Ş.) komandirlərindən olan Mixail Frunze (1885-1925) yerli kadırların olmadığı bir mühitdə Abdulhakim Qulməmmədov kimisinin onlara qoşulmasını göydən düşmə bir hadisə kimi dəyərləndirir. O, böyük həvslə bu gənci ruhlandırır, döyüşlərin ən qızğın nöqtələrinə onun dəstəsini göndərir. Yerli şəraiti yaxşı bilən və cəsarətlə döyüşən Türkmənlər Sovet əsgər və zabitlərinin qazana bilmədikləri uğura imza atırlar. Onlar 1920-ci il avqustun 28-dən 29-na keçən gecə səhər saat 4-də Çərjovda xanın qalasına hücum edir və az itki ilə oranı alaraq Qırmız ordu (uzun illər bu ordu hissələri Azərbaycan Türkcəsində yanlış olaraq Qızıl ordu kimi yazılıb-Ə.Ş.) hissələrinə verirlər. Beləcə Buxara Əmirliyinə gedən yoldakı manelərin ən mühümlərindən bir aradan qaldırılmış olur.

Buxara əmiri Seyid Məhəmməd Alim xan silahlı dəstəsinin Qırmızı Ordunun qarşısında duruş gətirə bilməyəcəyini görərərk yaxın

adamları ilə birlikdə Əfqanıstana keçir. 1920-ci ilin sentyabrın 2-də Türküstanın mərkəzində sahəsi 182 min kvadratkilometr, əhalisi 2 milyon 200 mini keçən Buxara Xalq Sovet Cümhuriyyətinin qurulduğu elan edilir. Yeni cümhuriyyətin qurucularından bir də Abdulhakim Qulmuhəmmədov olur. Buxara İnqilab Komitəsinin 8 üzvündə biri olan Abdulhakim Qulməmmədovu Hərbi Komissar təyin edirlər. Döyüşlərdə göstərdiyi hünərə görə "Qırmızı ulduz" ordeni ilə təltif olunur.

Buxarada hakimiyyət dəyişikliyi baş versə də yerlərdə adamlar yeni hökumətə o qədər də xoş münasibət bəsləmirdilər. Silahlı dəstələri ləğv etmək, lokal üsyanları yatırmaq gərək idi. Buna görə də döyüşlərdə şücaət göstərmiş Abdulhakim Qulməmmədovu Buxara Mərkəzi İcraəiyyə Komitəsinin Kərki vilayətinə rəhbər təyin edirlər. Lakin onun bu vəzifədə qalması uzun sürür. Abdulhakim Qulməmmədov gördü ki, bolşeviklər verdiklri vədə əməl etmir. Bölgəni var-dövlətini çapqınçı kimi talayıb Moskva və Leninqrada göndərirlər. Onlar bərabərlik adı altında nəinki varlıları soyur, azacıq imkanı olan admlarınn da malını-mülkünü silah gücünə əllərindən alır,

müqavimət göstərmək istəyənləri güllələyirlər. Yeni qurulmuş Buxara Xalq Sovet Cümhuriyyətinnin rəhbərliyinə özünü kommunust, proletariatın tərəfkeşi sayanların münasibəti heç də yaxşı deyildi. Rusiya Kommunist (bolşeviklər) Partiyası Buxara təşkilatının üzvü Q. Qasımov Daşkəndə Türkkomissiyata, Moskvaya RK(b)P Mərkəzi Komitəsinə, Komminternin İcraiyyə Komitəsinə yazırdı: "Buxaranın hazırkı hökumətinin rəhbərlərinin dehqanlara (əkinçilərə, kasıblara) heç bir dəxili yoxdur. Hakimiyyətdəkilər burjuaziyadan ibarətdir." Bu cür məktublar təsirsiz qalmır. Moskva birinci növbədə arxasında silahlı güc dayanan Abdulhakim Qulməmmədovu aradan götürməyə çalışsa da sonra Buxara Xalq Sovet Cümhuriyyətinin Xalq Komissarlar sovetinin sədiri Osman Xocanı da həbs etməyi planlayır. (Osman Xoca da 1923-cü ilin iyul ayında Türkiyəyə qaçmalı olur).

Bu haqsızlığa dözməyən Abulhakim Qulməmmədov Ənvər Paşaya məktub yazaraq ondan kömək istəyir. Ənvər Paşa çətin vəziyyətdə olsa da Əli Rza bəyi onun köməyinə göndərir. Amudərya bölgəsindəki döyüşdə çoxsaylı bolşevik silahlı dəstələri hərbi təhcizatı

zəif olan Abdulhakim Qulməmmədovu rəhbərlik etdiyi könüllülər darmadağın edir.

Xalqına qarşı edilən bu haqsızlığa dözməyən Abdulhakim Qulməmmədov azadlıq hərakatı fəallarına qoşulur. Ruslar onları basmaçı adlandırırdı. Basmaçılar Qırmızı Ordunun əskər və zabitlərinin canına bir vicvicə salmışdı. 1921-ci ilin oktyabrın 9-da onun evində basmaçı hərəkatına rəhbərlik etməyə çalışan Ənvər Paşa ilə, basmaçı hərəkatının liderlərinin birgə toplantısı keçirilir. Onlar birgə mübarizə planı hazırlamağa çalışsalar da bu baş tütmur. Könüllülərdən təşkil edilmiş, hərbi təlim görməmiş basmaçı dəstəsinin rəhbərlərinin hər biri özünü bölgədə əsas söz sahibi görmək istəyir. Ənvər paca isə cəsarətli, lakin pərakəndə fəaliyyət göstərən qüvvələrdən nizami bir ordu yaratmağa çalışsa da istədiyinə nail ula bilmir.

Abdulhakim Qulməmmədov bolşeviklər tərəfindən aldadıldığını, basmaçılarln birgə müqavimətini təşkil etməyin mümkünsüz olduğunu görüb ailəsi ilə birlikdə Əfqanıstana keçir. O, dövrda minlərlə Türkmən ailəsi də Qırmızı ordunun zülmündən, Sovet məmurlarının idarəetmədəki haqsızlıqlarında qurtulmaq üçün ailələri ilə birlikdə Əfqanıstana

qaçmışdılar. Sovetlər məhsuldar torpaqlardan çar Rusiya zamanındakı vergilərin ondabirini toplaya bilmirdilər. Kəndlərin bir çoxu xaraba qalmış, malqara vəinsanlar, aclıqdan, xəstəlikdən qırılmış, bağlar suvarılmadığından qurumuş, əkinəyararlı torpaqlar çölə çevrilmişdi. Kasıb Əfqanısdan isə bu qədər qaçqını yerləşdirmək, yedirtmək, işlə təmin etmək gücündə deyildi.

Soydaşlarının Əfqanıstandakı ağır vəziyyətini görən Abdulhakim Qulməmmədov onları vətənlərinə dönməyə həvəsləndirir. Buna görə də bəzi tarixçilər və qələm sahibləri belə gümana edirlər ki, Qbdulhakim Qulməmmədov Sovet rejimindən qaçıb Əfqanıstana getməyib, onu bölşeviklər qaçqın Türkmənləri geri qaytarmaq üçün göndəriblər. Bu da o qədər inandırcı görünmür. Bir ilə yaxın Əfqanıstanda qalan Abdulhakim Qulməmmədov 1922-ci ilin sonlarında Buxara şəhərinə qayıdır. 1923-cü il yanvarın 21-də Buxara Kommunis (bolşeviklər) Partiyasının binasında KQB (keçmiş OGPU) əməkdaşları həbs edirlər. 1923-cü ilin oktyabrın 4-də o həbsdən qaçaraq yenidən Əfqanıstana gedir. Bir müddət sonra Sovet Hökuməti kadır çatışmamazdığından əziyyət çəkdiyində

mühacirlərin vətənə dönməsi haqqında qanunlar hazırlayır. Bu qanunlardanyararlanmağa haqqı olanlardan biri də Abdulhakim Qulməmmədov olur. Lakin o bürokratik əngəllərdən Əfqanıstanın Məzari Şarif şəhərindəki konsulluqda işazə ala bilmədiyinə görə Buxaraya dönə bilmir. İranın Məşhəd şəhərindəki, İmam Rza türbəsini ziyarətə getmək adı aoltında saxta sənəd düzəldir. Əfqanıstanın sərhədçilərinə rüşvət verərək İrana keçən Abdulhakim Qulməmədov orada çox qalmır. Məşəddən Aşqabada gələ bilir.

Abdulhakim Qulməmmədov vətənə döndükdə bölgədə xeyli dəyişiklər olmuşdu. Keçmiş Türküstanda bir neçə Muxtar Sovet Sosialist Respublikası qurulmuşdu. Bunlardan biri də Türkmənistan Sovet Sosialist Respublikası idi. Mərkəzi Aşqabad olan muxtar respublikada yerli milli kadırlar çatışmırdı. Buna görə də 1925-ci ilin fevralında Türkmənistan Muxtar Sovet Sosialist Respublikası Xalq Komissarlar Sovetinə sədir təyin edilən Kayqısız Atabayevin (1887–1938) keçmiş silahdaş Abulhakim Qulmuhəmmədovu Ümumtürkmən Mərkəzi İcraiyyə Komitəsində işlə təmin edir. Lakin ona hakimiyyət orqanlarında münasibət

birmənalı olmamışdır. Moskvada çap olunan "Novıy Vostok" jurnalı Basmaçlar arasında olanda belə Abdulhakim Qulmuhəmmədovu yuksək qiymətləndirmiş, "sağlam əsaslara dayanan əsl ziyalı" adlandırmışdı.

Aşqabadda gələn SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədiri Mixail Kalinini müşayət etməsi, ondan müsahibə alması, xoş münasibətləri də Abdulhakim Qulməmmədovu KQB əməkdaşlarının təqibindən qurtara bilməmişdi. KQB əməkdaşları belə savadlı və qoçaq bir adamın sovetlərin rəhbər idarəetmə orqanlarında işəməsilə barışa bilməmişlər. Buna görə də o, hərbi və siyasi fəaliyyətdən uzaq görünərək bədii və elmi fəaliyyətlə məşğul olmuşdur. Öncə Türkmən dilində nəşr olunan ilk qəzet və jurnalların "Türkmənistan" və "Dayhan" qəzetlərinin, "Tokmak" jurnalınına baş redaktoru, baş redaktor müavini və redaksiya heyətinin üzvü olmuşdur. O, bu qəzet və jurnallarda milli ədəbiyyat tarixini və mövcud ədəbi prosesləri ilk dəfə elmi şəkildə təhlil edən çoxsaylı məqalələr dərc etmişdir.

Qəzet və jurnallarda yeniliyin təbliği adı altında milli şüur oyadan şeirlər çap etdirir. Gənclik illərində yazdığı qəzəllərdən, sxolastik

şeirdən uzaqlaşan şair heca vəznində və ana dilinin saflığını qoruyaraq şeir və poemalar yazır. Şeirlərinin birində şair deyir:

Əvvəl qılınc tutan bahadır Türkmənsən,
Bahadırlığını dünyaya məlum edibsən.
İndi qılınc yerinə qələmini al,
Bu gün istək-muradına yetmək üçün,
Mədəniyyət üçün silahına sarıl,
Çalış vaxt boş keçməsin, sakın!

Gəncilik illərində yazdığı bu şeirdə məşhur Türkmən şairi Seyidnəzər Seyidinin ruhu açıq aydın görünür. Abdulhakim Qulmuhəmmədov Əhməd Cavad kimi təbiət hadisəsindən də siyasi məqsədi üçün istifadə edir. "Artıq yetər" şeirində yazın gəlişini tərənnüm adı altında Türkmən xalqını azadlığa çağırır.

Moskvanın göstərişilə yerlərdə təbii sərvətləri, iqtisadiyyatı, tarixi, fəlsəfəsi, incəsənəti və b. sahələri öyrənən elmi mərkəzlər qurulur. Azərbaycanda bu mərkəzin Tədqiq və Tətətöbbə Cəmiyyəti adlandırılırdı. İlk baxışda dövlət idarəçiliyindən və siyasətdən uzaq görünən bu təşkilat əslində yuxarılar üçün bir strateji mərkəz rolunu oynayırdı.

Türkmənistanda yaradılmış belə elmi mərkəzə Abdulxaliq Qurbanovu işləməyə götürürlər. Əslində bu onun idarəetmədən, siyasətdən uzaqlaşdırılması demək idi. 1926-cı ildə fəaliyyətə başlayan Türkmənistan Elmi Ədəbi Cəmiyyətinə M. Qəldiyev sədir, Abulhakim Qulməmmədov müavin seçilir.

Abulhakim Qulməmmədov "Türkmənistan" qəzetində onlarla məqalə, hekayə və povest çap etdirir. Oların içərisində "Deňsinmedik dul galar" (Tayını tapmayan dul qalar" adlı sosial-fantastik povesti müasir Türkmən nəsrinin başlanğıcı sayılır. 1926-cı ildə şeirlərinin bir qismini toplayaraq "Umud yalkımları" (Umud ilğımları) adı altında ərəb əlifbası ilə çap etdiriş. Bu kitabdakı bir çox lirik şeirlərdə o, Türkmən ədəbiyyatında ona qədər işlədilməmiş mövzulara və yeni şeir ölçülərinə müraciət etmişdir. Bu şeirlər sonralar gənclər üçün nəşr olunan "Yaş Kommunist" qəzetində yenidən dərc edilmişdir.

1925-ci ildə Əlişir Nəvainin "Mühakiimətül lüğəteyn" (İki dilin müqaisəsi) əsərini Türkmən dilinə çevirən Abdulhakim Qulməmmədov ədəbi tədqiqatlar sahəsində də məhsuldar fəaliyyət göstərmişdir. Milli ədəbiyyat tarixinin problemlərinə dair nəzəri məqalələri mütəmadi

olaraq dərc etməklə yanaşı, 1926-cı ildə klassik türkmən şairləri Seydi və Zelilinin ilk toplularını, 1927-ci ildə isə milli epos sayılan **"Sayatlı-Həmra"** dastanını çap etdirmişdir. Bu əsərlərin hamısına geniş elmi girişlər və şərhlər yazmışdır.

Tanınmış Rus şərqşünası A.N. Samoyloviç "Sayatlı-Həmra" dastanını yüksək qiymətləndirmiş və dastanı nəşrə hazırlayanın Leninqradda aspiranturada oxumasına şərait yaratmışıdr. Seyidi və Zəlilinin şeirlər toplusunu isə N.V. Brulyova-Şasakolskaya Rus dilinə tərcümə etmiş, başqa Rus şərqşünasları da araşdırmalarında bu mətni əsas götürmüşlər. Lakin siyasətçilər, KQB məmurları bu əsərlərdə bir millətçilik, geriliçilik görürdülər. Onlar klassik Türkmən ədəbiyyatı yeni proletar ədəbiyyatının yaradılmasına bir əngəl hesab edirdilər. Əslində klassik Türkmən ədəbiyyatı Oğuz Türklərinin ortaq abidəsi idi. Onları öyrənib təbliğ etmək Türk xalqlarının birliyinə xidmət etmək demək idi. Abdulhakim Qulməmmədov elmi şəkildə sübut edirdi ki, gələcək ədəbi inkişaf müasir müəlliflərin həm milli, həm də dünya ədəbiyyatını, onların əsrlər, hətta minilliklər boyu formalaşmış irsini bilməsi

və nəzərə alması olmadan mümkün deyildir. Bu da xalqları Ruslaşdırmaq siyasəti yeridən bolşevik məmurlarının ürəyindən deyildi. Türkmənistanda dil, ədəbiyyat, əlifba, türkmən tarixi məsələlərində aparıcı şəxs sayılan Abdulhakim Qulməmmədovu 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji qurultaya nümayəndə kimi göndərməyi münasib saymırlar.

1927-ci ildə gənc Türkmən respublikasını elmi kadırlarla təmin etmək üçün 15 nəfəri aspiranturada oxumağ göndərirlər. Abdulhakim Qulməmmədov Leninqrad Universitetinin filologiya fakültəsində aspiranturaya qəbul olunan ilk Türkmən gənci olur. Dissertasiyası üçün qaynaqlar əldə etməyə Buxaraya göndərilməsini xahiş edir. O, 1928-ci ilin yayında ezamiyyətdə olarkən Lebapdakı mədrəsələrdən və şəxsi kolleksiyalardan 67 qədim əlyazma toplamışdır**.** O, bu əlyazmaları elmi şəkildə təsvir edərək "Mərkəzi Asiyanın ədəbi abidələri haqqında materiallar" adlı əsərini yazmışdır. Əlyazmaları 1927–1932-ci illərdə respublika hökumətinin (Sovnarkom) nəzdində fəaliyyət göstərmiş Türkmən Mədəniyyəti İnstitutuna (Türkmənkult) təhvil vermişdi.

Onun 1931-ci ildə Aşqabadda rus dilində nəşr etdirdiyi **"Материал по Памятникам Среднеазиатским Литературным" (Mərkəzi Asiyanın ədəbi abidələri haqqında materiallar)** əsərinin girişində belə bir qeyd var. "Leninqrad A. S. Enukidze adına Şərq İnstitutunun aspirantı Abdul-Həkim Kul-Muhəmmədov, may 1929". Əbül Qazi Bahadır xanın **"Türkmənlərin şəcərəsi"** əsərinin beş əlyazma əsasında elmi nəşri (giriş və şərhlərlə) araşdırmasını isə onun ən dəyərli əsəri saymaq olar.

Abdulhakim Qulməmmədov aspiranturada oxuduğu illərdə "Türkmən yazıçılarının başlanğıcdan günümüzə qədər bioqrafik lüğəti (ədəbiyyatın tədrisi üçün materiallar toplusu), " 16-19-cu yüzillərdə farslar və türkmənlər arasında münasibətlərin tarixi" (rus dilində), "Amudərya bölgəsində yaşayan Türkmənlər haqqında 1924-cü ilə qədər olan dövr"(rus dilində),
"Ədəbiyyat nəzəriyyəsi və praktikası haqqında tədqiqat" və b əsərlər üzərində işləyib. Bu əsərlər nəşr olunmayıb. Əlyazmaların aqibətinin aqibəti də bəlli deyil. Şəsxi işində nəşrə

hazırladığı və nəşr etdirdiyi on bir kitabın siyahısı var.

Heyif ki, ilk Türkmən aspirantlarından olan Abdulhakim Qulməmmədovdissertasiyasını təqdim edib elmi dərəcə ala bilməyib.

Daim KQB-nin nəzarəti altında olan Abdulhakim Qulmuhəmmədov 1931-ci ilin iyulunda İran sərhədi yaxınlığındakı Firizədə (indiki Arçabil) səhədçilər tərəfindən güllələnir. O, güllələnərkən asistenti, Azərbaycanın tanınmış etnoqraf tarixçisi Qəhrəman Qaraqaşlı da yanında olur.

Abdulhakim Qulmuhəmmədov güllələndikdən sonra uzun illər onun adı tənqid olunan Türkmən aydınları arasında olub. Əsərlərinin nəşrinə və oxunmasına qadağa qoyulub.

Türkmənistan 1991-ci ildə müstəqilliyinə qovuşduqdan sonra Abdulhakim Qulmu-həmmədov və onun kimi bolşeviklər aldansalar da, vətən və millət üçün böyük işlər görmüş insanlara maraq artır, ömür yolları və yaradıcılıqları öyrənilərək təbliğ olunur.

P.S. Abdulhakim Qulmuhəmmədov güllənərkən yanında olduğu söylənilən

Azərbaycanlı assenti Qəhrəman Tağı oğlu Qaraqaşlı haqqında qısa bilgi. O, 1899-cu il may ayının 1-də Yelzevetpol (indiki gəncə) şəhərində anadan oolmuş tarixçi, etnoqraf. Uzun illər Azərbaycan SSR Elmlər Akademiyası Tarix Arxeologiya İnstitutunda işləyib. 1980-ci illərin sonlarında və ya 1990-cı illərin əvvəllərində ölüb. Əsas əsərləri bunlardır:



1. **Очерк по истории развития движения нового алфавита и его достижения → Yeni əlifba hərəkatının inkişaf tarixi və nailiyyətləri haqqında esse** (F. Ağazadə ilə birgə, Kazan, 1928)

2. **Об айрумах. № 8 Вып. 1 → Ayrumlar haqqında. № 8, buraxılış 1** (Bakı, Azərbaycanı Öyrənmə və Tədqiqat Cəmiyyəti, 1929)

3. **Материальная культура Азербайджанцев северо-восточной и центральной зон малого Кавказа (историко-этнографическое исследование) Kiçik Qafqazın şimal-şərq və mərkəzi zonalarının azərbaycanlılarının maddi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat) (Bakı, Azərbaycan SSR EA Nəşriyyatı, 1964)**

TRT və Azərbaycan İçtimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2013-cü il mayın 5-də, saat 12.15-də efirə getmiş verliş və Muradgeldi Soyevovun "On çinar" (1993), "Taley tupanı" (1996) kitabları əsasında nəşrə hazırlanmışdır.

P.S. Məqalənin yenidən işlənməsində və oxunub redaktə edilməsində mənə yaxından kömək etmiş Vəfa Salehə minnətdarlığımı bildirirəm

GÜMÜŞƏLİ BÖRIYEV



Gümüşəli Böriyev (1896-1942) (گوموشەلی بۆکئیئو , *Kümüşaly Böriýew* , rus. Гумушали Бориев) https://ali-shamil.tr.gg/B.oe.r.ue.yev-G.ue.m.ue.%26%23351%3B%26%23601%3Bli.htm

Gümüşəli Börü oğlu Böriyev (Rusiyada familya yazıldığına görə Ruslar türk, müsəlman xalqlarının ata adlarını onların soyadı kimi yazmağa başlamışlar.-Ə.Ş.) 1896-cı ildə indiki Qazaxıstan Cümhuriyətinin Manqışlaq bölgəsindəki Xoca kəndində Türkmən ailəsində doğulub. Burada yaşayanlar qoyun, at və dəvə saxlamaqla dolanışıqlarını təmin edirdilər.

Xəzər dənizinin quzey doğusunda yerləşən bu bölgədə qazaxlarla türkmənlər qarışıq şəkildə yaşayırdılar. Sovet hakimiyyəti illərində

kollektiv təsərrüfatlar yaradılanda əhalinin əlindən qoyun sürüləri, atları, dəvələri, nisbətən böyük evləri alınaraq kolxoz-sovxozlara verildi. Mal-mülkləri əlindən zorla alınmış insanlar da ümumi təsərrüfata laqeyd yanaşdılar. Nəticədə yüz minlərlə heyvan aclıqdan və baxımsızlıqdan öldü. Bununla da bölgədə yaşayan əhali də aclıqdan, yoluxucu xəstəliklərdən məhv olmağa başladı. Əhalinin bir qismi çətinliklə də olsa, min kilometrlərlə yolu piyada keçərək İrana gedə bildi. Beləcə Manqışlaqda əhalinin sayı azaldı, milli tərkibi dəyişdi.

Kəndlərindəki mollaxanada, yəni ibtidai məktəbdə ilk təhsilini alan Gümüşəlinin sonra rus-tuzem məktəbində (bu məktəblər Azərbaycanda rus-tatar məktəbləri kimi tanınır.) oxuduğunu yazan araşdırmaçılar da var. Onun hansı mədrəsədə oxuduğu haqqında qaynaqlarda bəlgə tapa bilmədik, 1911-1915-ci illərdə Daşkənddəki Müəllimlər Seminariyasında (rusdilli qayaqlarda gimnaziyada oxuduğu yazılır. Gimnaziya ilə seminariya fərqli idi. Giminaziya diplomu ilə ali məktəbə qəbul olunmaq mümkün idi. Lakin seminariya diplomu ilə ali məktəbə qəbul imtananına buraxılmırdı-Ə.Ş.) oxuduğu yazılır.

Daşkənddə oxuyarkən cədidçilərə qoşulan, rus dilini öyrənən Gümüşəli Böriyev ictimai-siyasi işlərdə də fəallıq göstərir. Elə buna görə də bolşeviklər Türküstanı işğal edəndə Gümüşəli Böriyevi öz tərəflərinə çəkə bilirlər. Sosial ədalət, bərabərlik, sülh, torpaqların kəndlilərə verilməsi, əsarətdə olan xalqların öz müqəddəratını təyin etmə və b. bu kimi şüarlar ona çox cəlbedici gəlir.

Savadsızlığın aradan qaldırılması uğrunda mübarizənin ön cərgəsində olan Gümüşəli Böriyevi Türküstan Muxtar Sovet Sosialist Cümhuriyyəti yaradılanda Daşkənd şəhərində Zakaspi vilayəti üzrə mətbuat, maarif və mədəniyyət nümayəndəsi vəzifəsinə təyin edilməklə yanaşı Zakaspi Vilayət İnqilab Komitəsinin üzv seçilir. 1921-ci ilin noyabrında Ümumtürküstanın 9-cu Qurultayında məşvərətçi səslə iştirak edir. Daşkənddə işlədiyi dövrdə Türküstan Respublikası Mərkəzi İcraiyyə Komitəsinə (TürkMİK – TurkmTsIK) üzv olan Gümüşəli Böriyevi Ümumtürküstanın 10-cu və 11-ci Qurultaylarında Türkmən vilayətinin nümayəndəsi seçilib .

1922-ci ildən Türküstan Muxtar Sovet Sosialist Respublikası Xalq Maarif

Komissarlığının nəzdindəki Dövlət Elmi Şurasının tabeliyində yeni yaradılmış Türkmən Elm Komissiyasına və "Türkprofobrazovaniye" "Туркестанское профессиональное образование"-Türküstan Peşə Təhsil İdarəsinə də rəhbərlik edir.

Türküstanda milli-ərazi bölgüsü aparıldıqdan və Türkmənistan SSR yaradıldıqdan sonra Gümüşəli Böriyevi Xalq Maarif Komissarlığının nəzdindəki Dövlət Alimlər Şurasının sədri təyin edilib.

Rəhbər vəzifədə işləsə də, bolşeviklərin bəzi siyasəti ilə razılaşmadığı da olur. O, dinə qarşı mübarizə adı altında milli dəyərlərin yox edilməsinə, beynəlmiləlçilik adı altında ruslaşdırma siyasətinə, bolşevik qardaşlığı adı altında bölgədə yaşayanların son tikəsini belə zorla əllərindən alıb Rusiyaya göndərilməsindən narazı qalır. Buna görə də hakimiyyətdə olan ruslarla arasında soyuqluq yaranır və xüsusi xidmət orqanları onu təqib edir, təzyiqlər göstərir. Yerli kadrlara rusların yuxarıdan aşağı baxması, xüsusi xidmət orqanlarının hüdudsuz səlahiyyət sahibi olması onu bərk narahat edir.

Türkmənistan Müxtar Sovet Sosialist Respublikası yaradılanda onu Aşqabada işləməyə göndərirlər.

SSRİ-nin əksər cümhuriyyətlərində olduğu kimi Türkmənistanda da 1925-ci ildə Türkmən Elmi Ədəbi Cəmiyyəti (Azərbaycanda bu təşkilat Tədqiq Tətəbbö Cəmiyyəti adlanırdı-Ə.Ş.) yaradılır. Cəmiyyətə Muhammet Gəldiyev sədr, Abdulhəkim Qulməhəmmədov müavin seçilir.

Gümüşəli Böriyev Elmi Ədəbi Cəmiyyətin formalaşmasında fəal iştirak edir. Qısa müddətdə cəmiyyətin ətrafına beş yüz nəfərdən çox Türkmən ziyalısı toplaşır. Onlar bölgələri gəzir, kəndlərdən qədim əlyazmaları, folklor nümunələrini toplayır, arxeoloji, etnoqrafik ekspedisyalar təşkil edirlər. Cəmiyyətin milli yönlü fəaliyyəti rəhbər vəzifədə işləyən velikarus düşüncəli bolşevikləri raharsız edir.

Çox keçmir ki, Türkmən Elmi Ədəbi Cəmiyyətinin fəaliyyəti dayandırılır. Gümüşəli Böriyev Abdulhəkim Qulməhəmmədovla birlikdə Yeni Türk Əlifba Komitəsində işləyir. Latın qrafikalı yeni türk əlifbası haqqında fikirlərini öncə qəzetdə, sonra da ayrıca kitab halında çap etdirirlər.

Yeni Türk Əlifba Komitəsində işləməsi ona Bəkir Çobanzadə, Xalid Səid Xocayev, Ahmed Bəytursunov və başqaları ilə sıx ünsiyyətdə olmasına imkan verir.

1920-ci illərin Türkmən tərcüməçilərinin ön sıralarında Gümüşəli Böriyevi görmək olur. Onu Sovet dövründə yetişən ilk tərcüməçilərdən sayırlar. Türkmən dilinə çevirdiyi ilk kitablar öncə Daşkənddə, sonra Aşqabadda nəşr edilməyə başlayır. Ana dilində yeni açılan məktəblərin tələbatını ödəmək üçün o, A. Leykin "Təbiə coğrafiyası" (1924) kitabını çevirərək nəşr etdirir.

Bacarıqlı pedoqoq olan Gümüşəli Böriyev 1924-cü ildə "Dördillik ibtidai məktəblər üçün proqram, 1925-ci ildə "Kimya", 1926-cı ildə D. Kudryavskinin "Qədim zamanlarda insanlar necə yaşamışdır, 1926-cı ildə "Müxtəlif fənnlərin tədris üsullarını öyrədən məqalələr toplusu" kitablarını çap etdirmişdir. Bu kitabların bir çoxu təkrar-təkrar nəşr edilmişdir.

Ana dilində ictimai fiyasi ədəbiyyatın nəşrində, yeni ictimai-siyasi tərminlərin dilə gətirilməsində böyük əməyi olan Gümüşəli Böriyev Rusiya Kommunist (bolşeviklər) Partiyasının nizamnamələrini, Ümumittifaq

Lenin Kommunist Gənclər İttifaqının proqram və nizamnaməsini, Kommunist Partiyasını 15-ci Konfransının qətnaməsini, G. Karpovun "Oba və kənd şuralarının qurluşuna dair yaddaş kitabı"nı (1925), Teterinin **"Kəndlilər ittifaqlarının nizamnaməsi nədir?"** (1925) əsərini, E. Yaroslavskinin **"Lenin və Gənc Kommunistlər İttifaqı — komsomol"** (1925) kitabını, K. Zelinskinin **"Orta Asiya partiya təşkilatlarında milli siyasət"** (1928 kitabını ilk dəfə Türkmən dilinə çevirərək oxuculara çatdırmışdır.

Türkmənistan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Katibliyi 1927-ci il aprelin 4-də Viladimir Leninin (Ulyanov) əsərlərini Türkmən dilinə tərcümə edilməsi üçün bacarıqlı tərcüməçi Gümüşəli Böriyevin də daxil olduğu bir komissiya yaradır. Bolşeviklər ona böyük etimad göstərərək 1926-cı ildə kommunist partiyasının sıralarına qəbul edirlər.

1926-cı ildə Türkmənistandan Bakıda keçiriləcək Birinci Türkoloji Qurultaya göndərilən 5 nəfərin arasında Gümüşəli Böriyev də olur. Bakıdan geri döndükdən sonra o, Türkmənistanda latın qrafikalı əlifbaya keçməyin qızğın tərəfdarına çevrilir. Muhammet

Gəldiyevlə birlikdə yazdığı “Latın hərfləri əsasında düzənlənən Türkmən əlifbası” kitabı 1927-1928-ci illərdə dörd dəfə nəşr edilir. Kitab yazmaqla qalmır, “Türkmənistan” qəzetində “Yazı düzgünləri” (İmla qaydaları), “Təzə əlifbanın yazı düzgünləri”, “Bütünlüklə latıncaya keçməliyik”, Rus dilində nəşr olunan “Türkmenskaya iskra” qəzetində “Türkmən əlifbasına keçərik”, başqa qəzet və jurnallarda “Türkmənistanda latın yazısı”, “Türkmən əlifbasının latınlaşdırılması” və b. məqalələrini çap etdirir.

Gümüşəli Böriyevin Muhammet Gəldiyevlə birlikdə hazırladıqları latın qrafikalı yeni Türkmən əlifbasi öncə qəzet və jurnallarda, sonra da kitab şəklində 1928-ci ildə çap olunur. Həmin il Türkmənistan Mədəniyyət İnstitutu “Türkməncə-Rusca sözlük” hazırlamaları üçün yeddi nəfər araşdırıcı ayırır. Bu qrupa Gümüşəli Böriyev rəhbərlik edir.

1928-ci ildə Türkmənistan Dövlət Mədəniyyət İnstitutunun direktoru kimi Gümüşəli Böriyevi Almaniyanın Kölün şəhərində keçirilən beynəlxalq kitab sərgisinə göndərirlər. Berlin şəhərində olarkən oradakı Asiya muzeyini də gəzir və professor Lekrokla

tanış olur. Vətənə döndükdən sonra "Türkmənskaya iskira" qəzetinin 6 avqust və 26 sentyabır saylarında səfər təəssuratını oxucularla paylaşır. Daha bilmir ki, bir neçə il sonra bu yazıları əldə əsas tütaraq KQB əməkdaşları onu Almaniyaya cəsusluqda suçlayacaqlar.

Gümüşəli Böriyev Əlişbəy Əliyevlə birlikdə öncə kiçik həcmdə-20 min sözü əhatə edən "Rusca-Türkməncə sözlük" kitabını hazırlayıb 1929-cu ildə çap etdirirlər.

1929-cu ildə isə Musa İsmayılovla birlikdə hazırladıqları "Əlifba" kitabı 1930 və 1931-ci illərdə çap olunaraq məktəblilərə paylanılır.

1929-cu ildə Türkmənistanda orfoqrafiya üzrə konfrans keçirmək qərara alındı. Lakin konfransın keçirilmə vaxtı xeyli gecikir. 1930-cu il martın 30-da Türkmən Mədəniyyəti İnstitutunda konfransa hazırlıqla bağlı yığıncaq çağrılır. Gümüşəli Böriyev toplantıda məruzə edir. Onun elmi konfransda müzakirə olunacaq məsələlərə həsr etdiyi məqalələri mart və aprel aylarında "Türkmənistan" qəzetində və "Türkmən mədəniyyəti" jurnalında çap olunur. 1930-cu il mayın 19-da Türkmən ədəbi dilini, terminlərini və orfoqrafiyasını müzakirə edən Birinci Elmi Konfrans açılır. Toplantıdan 150-

dən çox nümayəndə iştirak edir. Rusların savadsızlar diyarı saydıqları Türkmənistanda bu qədər aydının bir yerə toplanması uzun müddət Türkmənlərin savadsız olduğunu ysöyləyənlərin fikirlərini alt-üst edir. Toplantıya Sovet İttifaqının başqa respublikalarından gələn nümayəndələr də olmuşdu.

Gümüşəli Böriyev leksikoqrafik işi, lüğətin tərtibi prinsiplərini izah edərək onu sinonim və izahlı lüğətlərin prinsipləri ilə əlaqələndirir. Lüğətdə rus dilində olan hər bir söz sadəcə Türkmən dilinə uyğun bir sözlə tərcümə edilmir, həmin sözün sinonimləri və izahları da verilir. Bu Rus sözlərinin Türkmən dilinin müxtəlif dialekt və şivələrində danışan insanlar üçün daha aydın başa düşülməsinə, digər tərəfdən isə ədəbi dilin leksikasının yeni sözlər və sinonimlərlə zənginləşməsinə kömək edir.

Gümüşəli Böriyevin elmi, ədəbi məsələlərdə öz fikirlərini açıq deməkdən çəkinməyib. Türkmənistan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin birinci katibi Ş. N. İbrahimov Mərkəzi Komitənin 1928-ci ilin mart plenumunda respublikamızda milli mədəniyyət haqqında məruzə edərkən Maxtımqulunun qoşqularını çapa hazırlamış B,

Kerbabayevi kəskin tənqid etmişdi. Gümüşəli Böriyevin isə klassiklərin əsərlərinin nəşrini vacib saymışdır. Bu açıq-aşkar rəhbərliyə, kommunist partiyasının siyasətinə qarşı durmaq demək idi.

1930-cu illərin əvvəllərinə qədər Gümüşəli Böriyev xalq maarif komissarı, Türkmən Mədəniyyəti İnstitutunun direktoru, Türkmən Dövlət Nəşriyyatının müdirir işləmişdir.

Gümüşəli Böriyevin Potseluyevlə birlikdə hazırladığı 700 səhifəlik "Türkməncə-Rusca sözlük" 1931-ci ildə tamamlansa da nəşr edilmir. Nədən nəşr edilmədiyi haqqında da heç bir bilgi verilmir.

Elmi-pedaqoji fəaliyyətlə yanaşı, gizli təşkilatların işində də fəal iştirak edən Gümüşəli Böriyevi Sovet xüsusi xidmət orqanları ciddi nəzarətdə saxlayır. Təqib və təzyiqlərə baxmayaraq milli ədəbiyyat haqqında məqalələr yazaraq qəzetlərdə çap etdirir, Dövlətməhəmməd Balqızlının və başqa müasirlərinin kitablarını çapa hazırlayır.

Yeni Əlifba Komitəsinin işində fəallığı ilə seçilən Gümüşəli Böriyevin rəhbərliyi ilə Türkmənistanda ilk Yeni Əlifba Konfransı keçirilir. Konfranslardakı çıxışları, qəzet və

jurnallardakı məqalələri ona xalq arasında hörmət qazandırırsa da hökumət nümayəndələri arasında bolşevizmdən uzaqlaşan milli kadır kimi tanınmasına səbəb olur. O dövrün termini ilə fiodal-millətçi çığırdaşı adlandırılır.

1931-ci ildə Türkmən Elmi Ədəbi Cəmiyyətinin sədri Muhammet Gəldiyev müəmmalı şəkildə ölür. Cəmiyyətin katibi Abdulhəkim Qulməhəmmədov isə hökumətdən icazəsiz İrana getmək istədiyinə görə Arçabeldə (Firuzə) yaxalanaraq məhkəməsiz, istintaqsız güllələnir.

Gümüşəli Böriyev isə belə gərgin günlərdə özünü siyasi proseslərdən kənarda göstərərək ciddi elmi-pedaqoji fəaliyyətlə məşğul olsa da, ölümdən yaxa qurtara bilmir. 1932-ci il martın 19-da onu "burjua millətçisi" suçlaması ilə həbs edirlər. Yeddi aya yaxın sürən istintaqdan sonra onu Şimal Buzlu okeanın Ağ dənizindəki Solovki adalarına, həbsxanaya göndərirlər. Həbsxanada keçirilən siyasi aclıq aksiyalarında fəal iştirak etdiyinə, antisovet təbliğatına və müxtəlif vasitələrlə azadlıqda olan məsləkdaşları ilə əlaqə yaradaraq onları istiqamətləndirdiyinə görə 1937-ci il oktyabrın 9-da yenidən istintaqa cəlb edirlər. Hərbi Kollegiya ona ölüm hökmü

kəsir. Rəsmi sənədlərə görə ölüm hökmü 1937-ci ilin oktyabrın 27-də yerinə yetirilir və Karelyanın Sandormax həbsxanasının yanındakı kütləvi məzarlıqda dəfn edilir.

Başqa bir qaynaqda isə Gümüşəli Böriyevin on il həbs cəzası çəkdikdən sonra, 27 oktyabr 1942-ci ildə öldüyü göstərilir.

1958-ci il iyulun 17-də Türküstan Hərbi Dairəsinin hərbi Gümüşəli Böriyevin işi üzrə yenidən araşdırma aparır və 1933-cü il mayın 10-da və 1937-ci il oktyabrın 9-da verilmiş qərarları ləğv edir. Ona cismani bəraət verilsə də əsərlərinin oxunması, nəşri üzərindən qadağa götürülmür. Sovet hakimiyyəti illərində Gümüşəli Böriyevin kitabları, məqalələri və elmi fəaliyyəti haqqında danışmaq mümkün olmur

İosif Stalinin ölümündən sonra çökməkdə olan Sovet rejiminə yeni can vermək üçün idarəetmədəki bütün nöqsanlar onun adına yazılır. Yüz minlərlə məhkum həbsdən və sürgündən azad edilir. Sov.İKP 20-ci qurultayından sonra günahsız repressiya qurbanlarına bəraət verilməyə başlayır.

Gümüşəli Böriyevin həyat və yaradıcılığının öyrənilməsi və təbliğinə Türkmənistanın

Sovetlər Birliyindən sonra başlanılır. Bu işdə görkəmli Türkmən alimi muradgəldi Soyeqovun xidməti böyükdür.

TRT və Azərbaycan İçtimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2013-cü il iyulun 8-də, saat 12.14-də efirə getmiş verlişin mətni əsasında üzərində yenidən işlənmişdir..

İTKİLƏRİMİZ

AZƏRBAYCANI CANDAN SEVƏN TÜRKMƏN: ORAZ YAĞMUR



Qapının aramsız döyülməsinə hövlnak yuxudan durdum. Elə bildim zəlzələ və ya yanğındır. Xəbərdarlıq edirlər ki, binadan çıxaq. Ayaqyalın, başıaçıq qapını açanda gördüm öndə Tahir Kahhar, yanında bir neçə nəfər, ən sonda caydaq Oraz Yağmur durub. Kefləri kökdü. Gülüşürlər. Tahir ozünü içəri salan kimi işığı yandırıb: “Hanı xanım, haraya gizlətdin” - deyib şaqqanaq çəkib gülürdü. Qonşu otaqdakıları rahatsız etməmək üçün dəhlizdəkiləri çağırıb qapını örtdüm.

Saat neçə olduğunu müəyyənləşdirə bilmirdim. Öz-özümə fikirləşdim ki, Tahir Kahharın içkisi az olub, ona görə dostlarını yığıb bizim otağa gəlib. Amma onun "Hanı xanım, harada gizlətdin" deməsi məni çaşdırmışdı. Tahirin içki həvəskarı olduğundan mütləq simpoziumlara gedəndə ona bir butulka yüksək dozalı tut arağı verirdim. O, da dostlarını başına yığıb tut arağından içə-içə şeir deyir, lətifə danışır, hamımızı güldürürdü.

Əynimi geyinib, mən də oturanda gülə-gülə dedi: "Tut arağı verməsən, xanımı tapıb çıxaracağam". Xanım məsələsini başa düşməsəm də, gecənin bu vaxtı onları içirdib qonşuları rahatsız etmək istəmədim. Dedim: "Tahir əkə, sənin payını verdim, qalan başqasının payıdır". O, inadla: "Hər adam tut arağının qədrini bilməz. Zər qədrini zərgər bilər" - dedi. Gördüm ki, əl çəkməyəcək yarım litrlik bir butulkanı çıxarıb ortaya qoydum. Dedim sakitləşsinlər, qonşuları rahatsız etməsinlər. Düşündüyüm kimi də oldu. Sakitləşdilər, amma üzlərindən təbəssüm çəkilmədi. Tahir Kahhar araq süzüb: "Əli Şamilin xanımlarının şərəfinə" deyərək içəndə Oraz Yağmurdan başqa hamısı güldü.

Mən xanım məsələsinin üstünü vurmadım. Bildim ki, nəsə var. Tahir ağzında söz saxlayan deyil. Elə də oldu. Tahir dedi: “Yığışmışdıq mənim otağıma, sən verdiyin tut arağını da içdik, özüm aldığım rakını da. Süfrədə çərəz də bitdi. Düşünürdüm ki, durub gedərlər biz də yatıb dincələrik. Sabah iclasda mürgüləmərik. Gördüm Oraz Yağmurun getmək fikri yoxdu. Getmək istəyənləri də saxlayır. Xəbər aldım nədən durub getmir. Dedi ki, Əli gəlib çağırsın sonra gedəcəm. Mən də dedim ki, Əli indiyə qalmaz çoxdan yatıb. Cavab verdi ki, yox yatmaz. Mən nədən Əlinin yatmadığını bilirsən deyəndə cavab verdi ki, mən hollda olanda gördüm Əli Ogulcerenle asansora minib yuxarı qalxdılar.

Mən xəbər aldım ki, onların birgə yuxarı qalxmağının sənə nə dəxli var. Cavabı bu oldu ki, bəs sən demirdin ki, Ogulcereni simpoziumlara Əli gətirtdirir. Mən də fikirləşdim ki, Əli qonağını yola salanda məni gəlib çağıracaq.

Məni bir tərs gülmək tutdu. Qonşuların oyanacağına əhəmiyyət vermədən gülürdüm. Sakitləşəndən sonra Oraz Yağmurdan xəbər aldım: “Bu hardan sənin ağlına gəlib?” Oraz da

utancaq bir təbəssümlə Tahir Kahhara işarə ilə, “O demişdi” - dedi.

Tahir yenidən gülməyə başladı. Dedi: “Oraz, Ogulceren Haciyevanın simpoziumlara gəlməsindən yaman narahat olurdu. Elə bilirdi Türkmənistan KQB-si onu güdməyə göndərir. Hətta simpoziuma qatılmadan geri qayıtmaq istəyirdi. Mən də onu sakitləşdirmək üçün dedim: “Ogulcereni KQB göndərmir, Əlinin ondan xoşu gəlir deyə gətirdir. Bundan sonra Oraz əkə sakitləşdi. Mən nə bilim ki, şakamı ciddi qəbul edəcək”.

Orazı pərt etməmək üçün söhbəti dəyişmək istədim. Baş tutmadı. Bəs qədər güldülər. Arağı axıra kimi içib getdilər.

Oraz Yağmur yerinə uzanan kimi içkinin təsirindən yuxuya getdi. Sakitliyinə və səmimimiyətinə görə simpozium təşkilatçılarından xahiş edirdim bizi bir otağa yazsınlar. Çünkü təşkilatçılar bəzən adamlar arasındakı şəxsi münasibətləri bilmədiklərindən, bəzən də qəsdən bir-birindən xoşlanmayanları eyni otağa yazırdılar.

Mən isə həmin gecəni yata bilmədim. Bu yuxudan kal oyanmağımdan deyil, dünyanın gedişini ölçüb-biçməyimdən idi. Allahımla

danışırdım. Ona cavabsız suallar verirdim. Deyirdim: “Allahım necə olur ki, Oraz Yazmura “**Susmak imkansız**” şeirini yazdırırsan, amma onu qorxu içində yaşadırsan. KQB işçisindən deyil, onlarla əməkdaşlıq edə biləcəyini düşündüyü qadından bu qədər qorxur.

Sualıma cavabı da özüm verirdim. Yaşı altmışı keçmiş bu ucaboylu, sağlam bədənli adam bir dəfə də olsun KQB-yə, polisə çağrılıb istintaq edilməyib, ona görə içindəki qorxu onu həmişə sıxır.

Oraz Yağmurun:

Sus diyorsun.
Sözkonusu olunca millet ve vatan
Susmuşa derler: vatanı satan.
Susamam!!
Susmak:
Mertlerin kurşunlanması,
Milletin kuşkulanması….
tipli şeirləri çoxdur.

Şeirlərində üsyankar olan şairlərin bir çoxunu real həyatda cəsarətsiz görmüşəm. Çox ölçüb-biçdikdən sonra bu qərara gəlmişəm ki, hansı şair bir ideyanın daşıyıcısıdırsa, onlar

qorxmaz və üsyankardırlar. Həllac Mənsur, Nəsimi, Nazim Hikmət və b. kimi. Kim ki ideya daçıyıcısı deyil, onlar üsyankar görünsələr də, əsərlərində cəsarət sərgiləsələr də, həyatda çəkingən olurlar.

Tahir Kahhar ona çox zarafat edirdi. Oraz Yağmur isə bir dəfə də olun incikliyini üzə vurmurdu. Onda bir uşaq saflığı və məsumluğu vardı. Türkiyədə, Azərbaycanda keçirilən simpoziumlara böyük həvəslə qatılırdı. Amma özü qaydalara uyğun məruzə və özət yazıb göndərə bilmirdi. Kimməsə ağız açmağa da üzü gəlmirdi. Buna görə məruzə və özətlərini mənə göndərirdi ki, qaydaya salım. Mən də bu işi gənc əməkdaşlarımıza həvalə edirdim.

Başım qarışıq olduğunda bir müddət Oraz Yağmurun Türkiyəyə getmədiyindən xəbər tutmamışdım. Bir gün emailimdə ondan bir məktub gördüm, yazırdı: “Can kardeşim merhaba! Yılbaşı geliyoooor. Ömrümüzden bir yaprak düşüyooor. Ailenize mutluluk, isenlik dileklerimi iletiyorum. Siz benim gecə-gündüzlük yıldızımsınız. Sizin varlığınız için ben varım. Hepimiz var olalım. Kalemlerimiz daha derinlere erişsin. Toyda, bayramda

buluşalım. Yürekden selamlar. Dünyanın en uzun şairi Oraz Yagmur".

O, gileylənmirdi, ona nədən diqqəti azaldığıma görə incikliyini bildirmirdi. Amma bütün bunların hamısını aşağıdakı şeirində verirdi.

Türkiyeyi görmemek bana ölümdür

Gelir ihtiyarlık, gözleri bulanık,
Sırtında Azrail, sonunda ayrılık.
Fırsat bulursam emeklerim,
Emek veririm, yürürüm, sürünürüm,
Gözyaşına taşmış denizde yüzerim,
Yüz vururum, yine süzülürüm.
Çelik duvar engel olursa, üzülürüm,
Ama eritirim, erişirim,
Türkiyemde ölürüm.

Orada ölmek de büyük gururdur.
Bir avuç toprak olurum,
Düşman gözüne dolarım.
Ya bir damla kan olurum,
Şehit damarında kaynarım.
Ya da bir taş olurum,
Bir güzelin yüzüğüne kaş olurum.

Turan kaynaya kaynaya
Anadoluda dönmüş kaymağa.
O diyara son kez erişeyim,
Beni candan sevmiş,
Hoşgörülü kalabalığa karışayım.
O toprağı gözlerime süreyim.
Ilık yağmurda ıslanayım,
Kat-kat karlara gömüleyim.
Ey Azrail!
Ben sana Siz diyeceklerden değilim.
Sonra çabuk git,
Canımı bit pazarında sat.

O günlərdə bizim də güzaranımız yaxşı deyildi. Amma dollarla hesablayanda Türmənistandakından 2-3 dəfə çox maaş alırdıq. Simpozium təşkilatçıları yol, hotel, yemək xərclərimizi ödəsələr də, xırda xərcliksiz, ailə üzvlərinə, dost-tanışa hədiyyə almağın sıxıntısını yaşıyırdıq. Oraz Yağmura xırda xərcliklər verəndə etiraz etmir: "Atamdan sonra sən yeganə insansan ki, verdiyini geri qaytarmıram" deyirdi.

Türkmənistana simmpoziuma gedəndə təşkilatçılardan, hökumət məmurlarından ehtiyat etsə də, çəkinə-çəkinə bizi görməyə gəlirdi. Bir

dəfə Aşxabatda simpozium olacağından xəbər tutub Ramiz Əskərlə məni qarşılamaq üçün aeroporta gəlib. Maşını yox, maddi durumu aşağı. Ha deyirdim gecə saat birdə gəlib aeroportda bizi gözləmə. Səhər zəng vuraram görüşərik. Deyirdi: "Ürəyim dözməz. Siz gələsiniz, mən də evdə rahat yatım?"

Bir dəfə bizi qarşılamağa gəlir. Tərslikdən həmin simpoziuma nə Ramiz Əsgər gedir, nə də mən. Görünür pulu olmadığından evinə gedə bilmir. 16 saat aeropportda gözləyir ki, İraq Türklərindən olan Mehmed Ömər Kazançını qarşılasın. Tərsdikdən o da gəlmir. Bir gün sonra emailimda şeirini oxudum.

On ki Mayıs'ta gelyom dedi,
Ne Ömer var, ne Kazancı.
Ben Hazarı geçyom dedi,
Ne Ömer var, ne Kazancı.
Bağırıyor o ezancı:
Ne Ömer var ne Kazancı.

***

Uzun Oraz koşa-koşa,
Gayretleri boşa-boşa,
Zulüm olmaz bundan aşa,
Ne Ömer var, ne Kazancı.

Bağırıyor o ezancı:
Ne Ömer var, ne Kazancı.

Gəncliyində Bakıda hərbi xidmətdə olmuşdu. Təxminən 30 ildən sonra onu Bakıya simpoziuma gətirdə bildim. Geri dönəndən sonra yazdığı "Ah, Bakı rüzgarları" məqaləsində aşağıdakı parçalar vardı.

"Ömrümün bir ilini sənə bağışladım, Bakı. O sənə 1972-ci ildi. Xəzər sakindi, sular durudu. Qaradan qara saçlarımı Bakının tükənməz rüzgarları oxşayır. O rüzgär başqa rüzgärdı. O rüzgarda yardan ayrılığın həsrəti vardı. Gözyaşılarım nəmləri vardı. Mən yenə də Bakıda. Bağbaxçalar, yollar qaldırımlar düzənli. Ən mutlu dəyişim-rus dilinin yerini şirin Azərbaycan türkcəsi almış. Mənə Azərbaycan türkcəsi hər zaman mahnı-türkü dili olaraq eşidiliyor".

Oraz Yağmur Bakıda hərbi xidmətdə olduğu 1972-1973-cü illərdən yadında qalan bir lətifəni sevə-sevə danışırdı. Deyirdi: "Azərbaycanlılar deyir: "60 manat pulum var, hamsı da yüzlükdü!"

"Həzrət Əlinin xəyalı" adlı bir şeir yazmışdı. Rahatsız olduğumdan sərt bir cavab yazaraq onu

islamın müqəddəslərinə sayqısızlıqda suçladım. Şeir belə idi:

Hüseynoğlu Əli!
Əli!Əli!!Əli!!!
Həzrəti Əlinin xəyalı.
Taxt istərmi?
—Xeyir.
Taç istərmi?
—Xeyir.
Altın-gümüş?
—Xeyir.
O, Bakının
Fedakar,
Cefakar,
Yalnız dərvişi.
Onun tək istəyi:
—Millətə xeyir.
Araya-araya əski əsrdən,
Tarixin toz dumanından
Bulur bir şair,
Yada bir şeir,
Ən azından nağıl kimi bir sətir,
Həmən xalqa uzadır:
—Buyursunlar!
Sizin unutduğunuz—

Bizim ümüt tuduğumuz.
Heç bir şey yeni deyil,
Heç bir şey əski deyil.
Hüseynoğlu Əli!
Əli!Əli!!Əli!!!
Həzrəti Əlinin xəyalı!

Axşam zəng vurdu. Bilirdim ki, beynəlxalq danışıqlar bahadır. Ona görə dedim: "Mən sənə zəng vuracam, dəstəyi yerinə qoy". Neçə dəfə təkid etməyimə baxmayaraq ürəyini boşaldana kimi danışdı. Bəlkə də yarım saat çəkdi onun ürəyini boşaltması.

Oraz Yağmur məndən bir yaş böyük idi. Özünün dediyinə görə doğum ilini pasportda 1947-ci il avqustun 15-yazıblar. Yazılana inanmırdı. Deyirdi, valideynləri onu qeydiyyata gec aldırıblar. Ailəsi Marı vilayətinin Sakarçəgə qəsəbəsində yaşayırmış.

Atası Qurban ona Türkmənlərdə yayğın olan Orazdurdu adını verib. Sovetlər Birliyi çökəndə familyasının sonundakı ovu atıb. Olub Oraz Yağmur. Ailə vəziyyətləri əksər həmyerliləri kimi ağır imiş. Orta məktəbi bitirənədək Türkmənqala, Yolötən qəsəbələrində, Qızıl Baydar obasında (kəndində) oxuyub. Yeddinci

sinfi bitirəndən kolxozda suçu, traktorcü, kitabxanaçı işləyib. Kitabxanada işləyəndən məqalələrini, şeirlərini, hekayələrini də çap etdirməyə başlayıb.

1966-1972-ci illərdə Maksim Qorki adına Türkmənistan Dövlət Universitetinin Türkmən dili və ədəbiyyatı şöbəsində oxuyub. Hərbi xidmətini başa vurub geri döndükdən sonra Türkmən Dövlət Nəşriyyatında redaktor vəzifəsinə düzələ bilib. 1976-1987-ci illərdə Türkmənistan Nazirlər Sovetində referent-tərcüməçi redaktor olub. 1988-ci ildə onu SSRİ Ədəbiyyat Fondunun Türkmənistan şöbəsinə müdir göndəriblər.

Oraz Yağmurun həyatı və yaradıcılığı haqqında Türkman mətbuatında çoxlu yazılar var. 1989-cu ildə çap etdirdiyi "Duman dağılanda" romanı böyük oxucu marağına səbəb olub. Bu əsərin yüksək bədii dəyərinə görə deyil, Sovetlərdə uzun illər yasaq olmuş bir mövzudan, dövlət adamları ilə mafiyanın iş birliyində bəhs etdiyinə görə idi. Elə həmin il təkrar çap edilmiş və az zamanda 57 min tiraj satılıb qurtarmışdır.

Yazıçının ikinci romanı "Mahtumkulunamə"dir. Bu roman 1992-ci ildə

30 min tirajla, Türkmən baxşı-aşığı Qurt Yakupun həyatından bəhs edən romanı 1994-cü ildə 40 min tirajla çap olunub. Qaracaoğlanın, Yunis İmrənin, Cəlaləddin Ruminin, Hacı Bəktaş Vəlinin, Mehmet Akif Ersoyun təbliğində, əsərlərinin türkməncəyə uyğunlaşdırılıb yayılmasında böyük xidmətləri olan Oraz Yağmura Türkiyə Cumhurbaşkanının "Ləyaqət ödülü" (1999), "Beş altın" mükafatı (2005-ci il Tarsus şəhəri Türkiyə), "Türk Kültürunə xidmət ödülü" (2008) və Turkiyə Yazarlar Birliginin ..... yılında Huseyn Cavid adına mükafatı (2009) verilmişdir.



Şəkildə: Əli Şamil və Oraz Yağmur

Oraz Yağmur Türkiyədə, KKTCdə, Azərbaycanda, Qazaxıstanda, İranda, Özbəkistanda keçirilən konfranslarda, simpoziumlarda maraqlı məruzələr etmişdir. Oraz Yağmur Kəlbəcərdən olan Şair dostu, mənim tələbə yoldaşım, şair Adil Cəmilin anasına" Qabağlı annenin agıtı" adlı bir şeir ithaf edib. Duyğularını şeirlə oxucuya çatdırmağı sevən Oraz Yağmurun 2009-cu ildə Bakıda nəşr edilən kitabı da "Qabağlı annenin agıtı" adlandırılmişdir.

Dörd qız, iki oğul atası olan Oraz Yağmur son zamanlarda şeirlərini Türkiyə türkcəsində yazmağa daha çox meyl edir.

Türkiyəli İrfan Ünsal Oraz Yağmurun əsərlərindən 130 "qanadlı ifadə", deyim çevirərək "Qəzət kənarına yazılan yazı" adı altında çap elədib.

Onların bir neçəsini burada verirəm.

* Gözü açık olanların hepsinin gördüğünü sanma. Yürüyenlerin hepsinin de canlı olduğunu düşünme, "ölüm sadece mezarda yatmak değildir, kuzum" derdi.

* “Ben ingilizceyi iyi biliyorum” diye övünenlere “İngilterede deliler de ingilizce konuşuyor” diyordu.

* Kimseyi beğenmezdi azraile de “giysin kara” diyormuş.

* Senin konuştuğun gölge olmasın. Gölgeler daima aslından başka görünür.

* Ben ona deli dedim, o bana deli dedi, kimin deli olduğunu netleştirecek bir deli.

* Kutsallık, namus, vefa hakkında konuşuyorlarsa, dikkat et, en çok yalan bu konular üzerinden yapılır.

* Çürüsem de güle gübre olmak için çürüyeyim.

* Hakikate ulaşma yolu gibi uzun yol yoktur.

* Kültürü de yiyeceği de aynı terazide tartıyor.

* Halk, kendini iyi tanırsa, millet olur.

*Dilin ucu ballı, dibi tuzludur.

*Tek sermayesi utanmazlığı.

* Arını sattı namusunu kiraya verdi.

* Aklın yerini güç alsa, adalet diye birşey kalmaz

* Ona bütün dünya baş eğiyor, ama kendi köyünde selam veren, selamını alan yok.

* Şöyle bir yalnız kaldım ki ne selam veren var, ne de selam alan. Bu halimi gören gölgem de benden kaçıp gitti.

* Herkes birşey zengini, bense düşman zenginiyim.

* Bülbülden güzel kuş çok, ama bülbülün ötüşünü duyduktan sonra; "en güzel kuş bülbüldür" diyorlar.

* Birinin koltuğunun altından başını çıkarıp da kahraman olamazsın.


* Ben, gözyaşlarımı kirpiğime astım; sevdiğim beni zülfüne astı; görenler bizi gönlüne astı.

* Darağacına çektiler, bir kişi cesedimi toprağa gömmedi, ama vahşi diyeceksiniz akbabalar beni midesine gömdüler.

* Şu dünyada ne viraneler gördüm, gönlümdeki gibisini görmedim. Şimdi içimden baykuşların sesi geliyor.

* Ben öyle bir hale düştüm ki karşısında durduğum halde ayna da beni görmez oldu.

AZƏRBAYCAN RADİO VƏ TELEVİZYASINI DİNLƏMƏKLƏ BÖYÜYƏN TÜRKMƏN ALİMİ KASIM NURBATOV



Aşqabadda birinci dəfə elmi toplantıda olduğumdan araşdırıcıların çoxunu, eləcə də konfransın təşkilatçılarını tanımırdım. Türkmənistan Hökumətinin, Türkmənistan Xarici İşlər Nazirliyinin, Türkmənistan Nazirlər Kabineti yanında Tarix İnstitutunun, Sankt-Peterburqdakı Rusiya-Türkmənistan Mədəni Əlaqələr Cəmiyyətinin və Aşqabaddakı Türkmənistan-Rusiya Cəmiyyətinin "Türkmənistanın mədəni irsi: qədim keçmişi və hazırkı zamanın prespektivləri" mövzusunda 2000-ci il oktyabrın 10-13-də keçiriləcək uluslararası elmi konfransa

Azərbaycandan gedən 3 araçdırıcını Türkmənistanın Azərbaycandakı Fövqaladə və Səlahiyyətli səfirliyi gəmi ilə oktyabrın 7-də yola salmışdı. Aşqabada oktyabrın 8-də axşam çatmışdıq.

Bizi şəhərin ən gözəl hoteli sayılan "Ak altun"da yerləşdirmişdilər. Bina gözəl olmaqla yanaşı xidmət də Türkiyədəki sayaq qurulmuşdu. Bakıdan Türkmənbaşıya (Ruslar Qızılsuyun adını öz dillərinə çevirərək Krasnovodsk etmişdilər. Saparmırat Nıyazov bu şəhərin adını dəyişərək öz ləqəbini vermişdi. -Ə.Ş.) gəmi ilə, oradan da Aşqabada təyyarə ilə gəlmişdik. Bakıdan Aşqabada təyyarə ilə uzaq başı bir saata gəlinir. Bizim yolculuğumuz isə təxminən 24 saata yaxın çəkmişdi. Yorğun olduğumdan axşam tez yatsam da səhər də yuxudan tez olanıb, hotelin ətrafında bir saata yaxın gəzmişdim.

"Ak altun"da səhər yeməyini bitirib foyeyə çıxanda təşkilatçılardan Rüstəm mənə yaxınlaşaraq: "Maxtımqulu adına Dil və Ədəbiyyat İnstitutunun direktoru Kasım Nurbatov sizi axtarırdı" dedi və divanda oturub əlindəki kitabı səhifələyən qarabuğdayı, orta boylu, təxminən 50-60 yaşlı bir nəfəri göstərdi. Biz ona yaxınlaşanda ayağa durdu və köhnə tanışlar kimi mehribanlıqla görüşdü.

Sonra da əyləşib türk qəhvəsi içməyi təklif etdi. Təşəkkürümü bildirdim və üzbəüz oturduq.

O, özünü tanıdan bilgi verdi və Sabir Rüstəmxanlını, Musa Ələkbərlini, Yusif Həsənbəylini xəbər aldı, onlarla tanışlıqlarından söz açdı, geri dönəndə salamını çatdırmağı xahiş etdi. Mən də özüm haqqında qısa bilgi verəndə dodaqaltı gülümsədi. Bu sənin haqqında mən dediklərindən çox bilirəm anlamını verirdi. Konfransa göndərdiyim məruzəmin özətinə əlavə etdiyim özkeçmişim qısa idi. Türkmənistanın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli böyük elçisi Murat Çarıyev görünür toplantıya yola saldığı araşdırıcılar haqqında əlavə bilgilər də göndərmişdi.

Kasım Nurbatov əlindəki kitabı mənə uzatdı. Açıq səhifədə məruzəmin özətinin altından xət çəkilmişdi. Onun narazı qaldığı cümlələrin altından xət çəkdiyini düşünürdüm. Söhbətdə isə bunun tərsini gördüm. Dedi: "Mənim namizədlik mövzum İranda yaşayan türkmənlərin ədəbiyyatı haqqındadır. Dissertasiya yazarkən dəfələrlə İranda oldum. Müdafiədən sonra araşdırmamın üzərində yenidən əl gəzdirib kitab kimi nəşr etdirdim. Suriyada, Stavropolda da elmi ezamiyyətdə olmuşam. Türkmənlərlə bağlı araşdırmalar

aparmışam. İranın Mərkəz ostanında, Savədə yaşamış şairlərdən Tilimxanın, Türkam Mahmudun, Aşıq Rzaəlinin və b. özlərini türkman adlandırdıqlarını bilməmişəm. Bilsəydim onların yaradıcılığını da araşdırar, bununla Türkman ədəbiyyatını zənginləşdirmiş olardım. Onların həyat və yaradıcılıqları haqqında dəyərli bilgi verdiyinizə görə çox sağ olun. Doktorluq dissertasiyamda bu məsələlərə diqqəti artıracam, bizim əməkdaşlığımız bundan sonra artacaq".

Yazıma yüksək qiymət verdiyinə görə təşəkkürümü bildirdim. 18-19-cu yüzillərdə yaşayan şairlərimiz deyil hətta, Şah İsmayıl Xətai, Füzuli və başqa şairlərimiz də özlərini türkman adlandırdıqlarını, onların türkman dedikləri xalqın bugünkü türkmənlər deyil, islamı qəbul etmiş oğuzlara verilmiş ad olduğunu, hətta günümüzdə Türkiyə ədəbiyyatına aid etdikləri orta yüzil el şairlərinin də özlərini türkman adlandırdıqlarını söylədim.

Kasım Nurbatov etiraz etmədi. "Dediklərіniz bizləri birləşdirən cəhətlərdir. Onu öyrənmək və tanıtmaq bizlərin borcudur" dedi. Onun ədəbiyyata, mədəniyyətə baxışından, ortaq nöqtələr axtarmasından razı qaldım və sözümüz-söhbətimiz tutacağı qənaətinə gəldim. Kitabın çap keyfiyyətindən çox

razı qaldım. Türkmənistanda mətbəələrdəki avadanlıqların sürətlə yenilənməsinə sevindim. Kitabın titul səhifəsinə baxanda isə Aşıq Ələsgər demiş: "Sındı qol-qənədim, yanıma düşdü". Kitab Peterburqda çap olunmuşdu. Kitabda çap olunmuş özətlərin hamısı türkmən, rus və ingilis dillərinə çevrilmişdi.

Qəhvə içə-içə 10-15 dəiqəlik tanışlıq, hal-əhval söhbətindən sonra Kasım Nurbatov dedi: "Bu gün təşkilatçıların başı dünyanın müxtəlir ölkələrindən gələn qonaqları qarşılamağa qarışıb. Sizlər üçün kiçik bir gəzinti təşkil ediblər. Bu da başını qatmaq, diqqətdən kənarda galmadığınızı göstərmək üçündür. Konfransın əzəmətli açılışı sabah olacaq. İstəyirsən Maxtumqulu adına Dil və Ədəbiyyat İnstituna gedək, Aşqabadda olacağın günlərdə görəcəyimiz işləri planlayaq. Təklifi ürəyimdən oldu. İcazə istəyib paltarımı dəyişmək və gətirdiyim kiçik hədiyyələrdən özümlə götürmək üçün otağıma qalxanda Kasım Nurbatov dedi: "Mümkünsə məruzənin tam mətnini də gətirin" dedi.

15-20 dəqiqə sonra foeyə endim. Kasım Nurbatovla həyətə çıxıb bizi gözlətən maşına mindik. Təxminən 10 dəqiqə sonra Maxtımqulu adına Dil və Ədəbiyyat İnstitutuna çatdıq. "Bu yolu

gəzə-gəzə gəlsək mənə daha xoş olardı, şəhərin bir hissəsini də yaxşı görmüş olardım" deyəndə "Darıxma, vaxtımız var. Aşqabadı istədiyin qədər gəzdirəcəyəm" cavabını verdi.

İkinci mərtəbədəki sadə və uzun illər təmir edilməmiş, mebelləri köhnəlmiş kabinetinə qalxanda katibəyə müavinlərini və bir neçə işçisini çağırmağı tapşırdı. Gələnlərlə tanışlıq o qədər də uzun sürmədi. Direktor mənim haqqımda qısa bilgi verəndən sonra institutun 10 şöbəsində 100 yaxın əməkdaş çalışdığını, onlardan ikisinin Türkmənistan Elmlər Akademiyasının müxbir üzvü, 10-un elmlər doktoru, 23-ün elmlər namizədi olduğunu, institutdakı şöbələrin 5-də dilçilik, 5-də isə ədəbiyyat məsələləri araşdırıldığını, direktorun elmi işlər üzrə müavini dilçilik üzrə filologiya elmləri namizədi Maral Talqanov olduğunu söylədi.

Kasım Nurbatov mənim ədəbiyyatçı olduğumu nəzərə alıb ədəbiyyat bölməsində şöbələrin adlarını da sadaladı: 1. Tərcümə və rəsmi işgüzar nitq şöbəsi (bu şöbədə Rus, İngilis, Fransız, Alman dillərindən Türkmən dilinə tərcümə ilə məşğul olanlar çalışır-Ə.Ş.), 2. Klassık ədəbiyyat və Maxtumqulu irsinin öyrənilməsi şöbəsi, 3. Ədəbi əlaqələr şöbəsi, 4. 20-ci əsr ədəbiyyatı şöbəsi və 5. Folklor şöbəsi. O, institutun tarixindən danışarkən

bildirdi ki, Maxtımqulu adına Dil və Ədəbiyyat İnstitutu SSRİ-nin müttəfiq respublikalarında olduğu kimi yaranıb və fəaliyyət göstərib. Türkmənistan prezidentinin fərmanı ilə 1998-ci ildə Akademiya ləğv edilib. 1998-ci ilin iyunundan Maxtımqulu adına Dil və Ədəbiyyat İnstitutu bir sıra elmi tədqiqat institutları kimi Türkmənistan prezidentinin yanında Ali Elm və Texnika Şurasının tabeliyinə verilib.

Kasım Nurbatov strukdur dəyişikliyinin elmin inkişafına təkan verəcəyini, prezident aparatının bu sahəyə diqqətinin artırdığını söyləyəndə gülümsəyirdim. Elə bir ciddi dəyişiklik olmayacağını direktor yaxşı bilirdi. Sadəcə o, vəzifə borcunu yerinə yetirərək rəhbərliyin atdığı addımı alqışlayırdı.

Direktor sözünü bitirib çalışdığım təşkilat haqqında bilgi verməyimi xahiş etdi. Mən də işlədiyim Azərbaycan Milli Elmlər Akademiyası Ədəbiyyat İnstitutunun Folklor Sarayı Elmi Mədəni Mərkəz, onun şöbələri, oradakı işçilərin sayı, çap etdirdiyimiz kitaplar, araşdırmalar haqqından təxminən 10 dəqiqəlik bir çıxış etdim.

Kasım Nurbatov Folklor Sarayı Elmi Mədəni Mərkəzin fəaliyyəti haqqında əlavə sual verəndə dedim: “Kasım əkə, bu yeni bir qurumdur.

İnstitutut içərisində kiçik bir institutdur. İki-üç ilə Folklor İnstitutuna çevriləcək". O, heyrətlə: "Bunu bacaracaqsınızmı? SSRİ dövründə belə bir institut müttəfiq respublikalar o yana, heç Moskvada da yox idi" deyəndə gülərək: "Sovet dövrü deyil ki, folklor, etnoqrafiya institut açmağa qoymayalar, həmin sahələri ciddi öyrənməyə imkan verməyələr. Daha Rusiyanın əsarətində deyilik. Bir iş görəndə də onlardan icazə istəməyəcəyik. Allah qismət eləsə iki-üç ilə Sizi Azərbaycan Milli Elmilər Akademiyasının Folklor İnstitutuna dəvət edəcəyik" dedim. O, bir az inamsız yanaş-dığındanmı, yoxsa "Rusiya əsarətində" sözümdənmi ehtiyatlandığındanmı söhbətin yönünü dəyişdi.



Şəkildə: soldan Kasım Nurbatov və Əli Şamil Aşqabatda Ak Altun höteli qarşısında

Mən Bakının rəsmi olan hədiyyəlik boşqabı institutumuz adından (əslində xarici ölkələrə gedərkən institutumuzun adından bağışladığım hədiyyələrdən nə drektorumuzun, nə də işçilərimizin xəbəri olurdu) Kasım Nurbatova bağışladım ki, kabinetində divara vursun. O, hədiyyəyəni alıb təşəkkürünü bildirdi və Aşqabadda belə hədiyyələr hazırlanmadığını təəssüflə bildirdi. Mən də ona bu hədiyyələrin Çində düzəldilib Bakıya gətirildiyini deməyə utandım.

İnstitutun əməkdaşları sual verməyə, Azərbaycandakı vəziyyətlə maraqlanmağa həvəsli deyildilər. Toplantının sonunda Kasım Nurbatov mənim məruzəmin mətnini "Tərcümə və rəsmi işgüzar nitq şöbəsi"nin müdiri Murat Bayramdurdu oğluna (Tovakov) verərək tez Türkməncəyə çevirməsini tapşırdı. «Adebiyyat və sanat» qəzetinə göndərəcəyini dedi.

İşçilər gedəndən sonra Kasım Nurbatovdan həyat hekayəsini danışmağı xahiş etdim. O, dedikcə mən bloknotumda qeydlər aparırdım. Ömür yolu Türkmənlərin, Özbəklərin, Azərbaycanlıların və Sovetlər Birliyində yaşamış aydınlarınkından o qədər də fərqlənmirdi.

Kasım Nurbatov dedi ki, 1951-ci il iyulun 3-də Xəzərin Doğusundakı Balkan (keçmiş Xələç) Vilayətinin Esenqulı (keçmiş Həsənqulu) rayonunun Acıyap kəndinin Taqanqılıç yaylasında anadan olmuşam. Doğulduğum ay, gün, il haqqında bilgilər təxminidir. Bir mənim deyil kəndimizdə, rayonumuzda, vilayətimizdə, hətta bütün Türkmənistanda yaşayan yaşıdlarımın əksəriyyəti mənim günümdədir.

1970-ci illərdən sonra uşaqların doğulduğu tarix doğru-duzdün yazılmağa başladı. Uşaqlıq və yeniyetməliyim çox ağır keçdi. İlin çoxunu pambıq tarlasında kətmən vurmaqla, pambıq toplamaqla, təyyarələrin pambıq kollarının yarpaqlarını yeyən sovka qurdunu öldürmək üçün havadan səpdiyi zəhərli dərmanın korladığı bulanlıq suları içməklə keçirmişəm. Bu günədək necə sağ qaldığıma özüm də təəccüb qalmışam. Bütün gücümü yığmışdım ki, Karıl Marksın qul əməyi adlandırdığı pambıq əkib-becərməkdən canımı qurtarım.

Kənddə xarici dil öyrənmək, özünü inkişaf etmək, idmanla, musiqi ilə, bir sözlə incəsənətin hər hansı bir növü ilə məşğul olmağa imkan yox idi. Bizdən böyüklərin söylədikləri folklor ən böyük məktəbimiz oldu. Evlərimizdəki radiolar Aşqabaddan türkmən dilində yayınlanan

verlişlərdən çox Bakıdan efirə çıxan radio dalğalarını tuturdu. Azərbaycanca televizya verlişləri efirdə görünəndən sonra çox evdə xüsusi antena qurub Bakı televizyasına baxırdıq. Balkan bölgəsinin çoxunda vəziyyət belə idi.

Acıyap böyük kənd idi. 1958-ci ildə kəndimizdəki 2 saylı məktəbdə birinci sinfə getdim. Ailəmiz tez-tez yaşayış yerini dəyişməli olduğundan 1959-1965-ci illərdə Qaradərə kəndində, 1968-ci ildə rayonumuzun Ekerem qəsəbəsindəki 6 saylı orta məktəbdə oxudum.

Yeniyetməliyimdən yazdığım şeirlər qəzet və jurnallara çap olundu. İlk şeirim 1966-cı ildə "Pioner" jurnalında çap olunması həyatımı dəyişdi. Şeirə, poeziyaya həvəs məni Maksim Qorki (indiki Maxtımqulu) adına Türkmən Dövlət Universitetinin Türkmən filologiyası fakültəsinə apardı. 1968-1973-cü ildə universitetdə qiyabi oxudum. 1972-1973-cü illərdə "Mıdam tayyar" (Həmişə hazır) qəzetində ədəbi işçi kimi çalışmağa başladım. Maaş çox az olduğundan 1973-cü ildə Qaratəpə kəndindəki 10 saylı məktəbdə müəllim işləməyə başladım. 5 il sonra ictimai işlərdə fəallığıma, mətbuatda yazılarım çıxdığına, Sov.İKP üzvü olduğuma görə məni rayonumuzdakı "Qörelde" qəzetinin "Partiya həyatı" şöbəsinə

müdir təyin etdilər. O dövrdə rayon qəzetlrində "Partiya həyatı" şöbəsinin müdiri redaktor müavini sayılırdı. Prespektivli gənc olduğuma görə elə həmin il məni Esenquli rayon Xalq Deputatlar Sovetinə deputat seçdilər. Yaxşı bilirsən Sovetlərdə adı seçki gedirdi, amma deputatlar rayon partiya komitəsinin birinci katibi tərəfindən öncədən təyin edilirdi.

1978-ci ildə. SSRİ Yazıçılar İttifaqının üzv oldum. Rayonda işləyərkən nəşriyyata göndərdiyim şeirlər kitabım 1979-cu ildə "Edigen" (Böyük Ayı) adı ilə çap olundu.

1980-ci ildə məni təhsil aldığım Qaratəpə qəsəbəsindəki 10 saylı orta məktəbə direktor təyin etdilər. Orada üç il işlədikdən sonra Aşqabada köçdüm. Paytaxtda ilk iş yerim Türkmənistan Yazıçılar İttifaqında ədəbi məsləhətçi ştatı oldu.

Moskvanın icazəsi ilə müttəfiq respublikalarda yeni nəşriyyatlar yarandı. Mən "Maarif" nəşriyyatında Uşaq və gənclər şöbəsinin müdiri keçdim. Bir il işlədikdən sonra məni direktor vəzifəsinə irəli çəkdilər. Direktor işlədiyim illərdə orta məktəblərin 6-cı və 7-ci sinifləri üçün "Ədəbiyyat" dərsliklərini yazdım. 1986-cı ildən 1993-cü ilədək "Maarif" nəşriyyatının direktoru oldum.

Qəzetlərdə, jurnallarda çap olunan şeirlərim, hekayələrim və məqalələrim məni yalnız ədəbi mühitdə deyil, ictimai siyası həyatda da tanıtdı. Gənc yaşımda Türkmənistan Lenin Kommunist Gəncəlr İttifaqı Mərkəzi Komitəsinin laureatı oldum. Bu mükafat bütün müttəfiq və müxtar respublikalarda vardı. Adına qısaldılmış şəkildə "Komsomol mükafatı laureatı" deyirdilər.

Bədii yaradıcılıqla yanaşı elmlə də məşğul oldum.1993-cü ildən 1999-cu ilədək Maxtımqulu adına Dil və Ədəbiyyat İnstitutunda elmi işçi və böyük elmi işçi vəzifəsində işlədim. Az bir müddət Türkmənistan Elmlər Akademiyasında ekspert də işləmişəm. Aspiranturanı bitirib filologiya elmlər namizədi elmi adını aldım. Ötən il də məni direktor təyin etdilər. Var gücümlə institutun işini canlandırmağa çalışıram.

İnsitutların Türkmənistan prezidentinin yanında Ali Elm və Texnika Şurasının tabeliyinə verililməsi məndə ümid yaradıb ki, elmə gərəyincə vəsait ayrılaşaq, əsaslı bir dəyişiklik olacaq. Sovetlər Birliyi dağılandan aspiranturaya qəbul dayandırılıb, elmi şuralar ləğv edilib. Yeni kadırlar hazırlanması problemə çevrilib.

İndiyədək ədəbiyyat, dil, etnoqrafiya, pedaqoqika və folklorla bağlı 200 yaxın elmi

məqaləm çap olunub. Türkiyədə, Misirdə, Əfqanıstanda, Suriyada, İsveçdə, Bolqarıstanda və SSRİ-nin bir neçə respublikasında elmi ezamiyyətdə olmuşam. Ən uğurlu işim namizədlik dissertasiyam əsasından hazırladığım "Eyran (İran) türkmənlərinin ədəbi durumuşu" monoqrafiyamdır. Uzun sürünürməçilikdən sonra 1997-ci ildə Aşqabadda nəşr olundu. Bizdə kitab çap etdirmək çox çətinləşib. Kitab satışı şəbəkəsi də dağılıb, oxucular da elə bil yoxa çıxıb. Sovet dövründə 30-40 min sayda çap olunan kitab bir iki ilə satılıb qurtarırdı. İndi 500-1000 ədəd kitab illərlə satılmır.

Bizim etam indiki Balkan vilayətinə daxildir. Türkmənistanda Xələç adı ilə bağlı toponimlər çoxdur. İrandaİslam Respublikasında, Azərbaycanda da Xələç adlı kəndlərin olduğunu bilirəm. Dil və Ədəbiyyat İnstitutunun diretoru olsam da Türkmənistandakı Xələclərlə Azərbaycandakı, İrandakı xələcləri müqayisəli şəkildə öyrənilməsinə can atmamışam. İçimdə bir hiss var ki, bu xələçlərin hamısının kökü birdir. Amma elmi çəhətdən öyrənilməyib. Bir birlərindən ayrılandan sonra nəyi itirib, nəyi saxlayıblar onu bilmirik.

Kasım Nurbatov Aşqabatda olacağım günlər üçün plan hazırladı. Konfransın gündəliyini pozmamaq şərtilə mətbuata və radioya müsahibə

verməyim, telefizyaya çıxışa getməyim, rəhbərlik etdiyi Dil və Ədəbiyyat İnstitutunun kollektivi ilə görüşməyim bu plana daxil idi. Etiraz etmədim. Söhbətini başa çatdıranda saat 13.00 az qalırdı. O, məni nahara "Ak altun" hötelinə çatdırmaq istədi. Dedi: "Gəzintiyə getmiş toplantı iştirakçıları da geri dönmüş olarlar."

Mən yeməyə ehtiyacım olmadığını söylədim və Azərbaycan Türkmənistan folklorçuları arasında əlaqələr yaratmaq üçün "Folklor" şöbəsinin işçiləri ilə görüşmək istədiyimi bildirdim. Etiraz etmədi. Əksinə böyük həvəslə mənimlə birlikdə birinci mərtəbəyə, "Folklor" şöbəsinə gəldi. Otaqda 50-60 yaşlarında arıq bir qadın üzümlə çörək yeyirdi. Ürək açıqlığı ilə bizi də bir salxım üzümünə və yarım çörəyinə qonaq etmək istədi. Təşəkkürümüzü bildirdik. O, mənə alimdən çox pambıq tarlasında kətmən vurmaqdan əldən düşmüş kolxozçunu xatırlatdı.

Kasım Nurbatov "Folklor" şöbəsinin müdiri, filologiya elmlər namizədi Kurbanjamal İlyasova ilə məni tanış etdi və haqqında xoş sözlər söylədi. Kabinetində məni işçilərə tanıtdığından indi əlavə bilgi verməyə ehtiyac duymadı.

Folklor şöbəsinə də üzərində mülli müsiqi alətlərimiz olan hədiyyəni bağışladım. Kasım

Nurbatov və Kurbanjamal İlyasovanın hədiyyəni bir neçə dəfə o tərəf bu tərəfinə çevirib diqqətlə gözdən keçirdilər. Aşqabadda da belə hədiyyələrin hazırlanmasının vacib olduğunu dilə gətirdilər.

Kurbanjamal İlyasovadan şöbəsinin işçilərinin sayı, hansı mövzular üzərində işlədikləri haqqında bilgi verməsini xahiş etdim. O da Oğulqurban Xocamuradovanın Qorqud Ata və ertekilər, Şirin Annanəpəsovanın xubdular, Oğultac Təcovanın yanıltmaclar, Jemal Kummanovanın kimbilmeşeklər, rəvayətlər, uşaq folkloru, Nuru Seyidovun sanuaclar, matallar və mərasimləri mövzusunda araşdırmalar apardıqlarını dedi.

Danışıqda elə bir çətinliyimiz olmasa da türkməncə söylənən folklor terminlərini başa düşmədiyimdən Kasım Nurbatova baxdım. O, məni başa düşərək dedi: "Elə bilirsiniz Türkmənlərin hamısı bu terminləri başa düşür? Folklorşünaslığı formalaşdıranda elə terminlər seçiblər, bu gün bir birimizi başa düşmürük. Türkmənistanın bölgələrinin çoxunda nəinki yaşlı nəsil, filoloji təhsili olmayanların çoxu da bu terminləri bilmir. Doğulduğum Balkan vilayətində folklor terminləri Azərbaycanda işlədilən folklor terminləri ilə demək olar eynidir. Elmi ədəbiyyatımızdakı xubduya siz layla, matala

tapmaca, ertekə nağıl, hüvdiyə oxşama deyirsiniz. Kimbilmeşek yazılı ədəbiyyatdan folklora gəlib. Ona siz deyişmə deyirsiniz.

Kasım Nurbatova təşəkkürümü bildirdim və türk xalqlarındakı folklor terminləri sözlüyünün yaradılmasının vacibliyindən, ortaq terminləri ədəbi dildə aktivləşdirməkdən danışanda o, fikrimlə şərik çıxsa da reallaşdırmağın çətin olduğunu söylədi.

Mən Azərbaycan Türkmənistan folklorcularının arasında əlaqələrin genişləndirilməsindən, onları Azərbaycanda, Türkiyədə və b. ölkələrdə keçirilən elmi toplantılara dəvət edə biləcəyimdən söz açanda Kurbanjamal İlyasova razılığını bildirirsə də bunu candərdi dediyini hiss edirdim.

Söhbətimiz bitəndə Kasım Nurbatov məni maşınla "Ak altun" hotelinə aparmaq istədi. İşindən ayrılmamasını, mənim də gəzə-gəzə getməyimə icazə verməsini xahiş etdim. Bir neçə dəfə maşınla aparmasını təklif etsə də rasılaşmadım. Sonra gülərək "Türkmənlərdən seçilmirsən, kimdən xəbər alsan hotelin yolunu göstərəcək" dedi. Axşam hazırlıq görməsini, sabah hotelə gəlməməsini konfransın açılışında görüşməyimizi təklif etdim.

Mən uzun illər yaşadığım şəhərdə gəzirəmmiş kimi, heç kimdən heç nə soruşmadan, yolu azmadan "Ak altun" hötelinə gəldim.

Konfrans son illərdə tikilmiş əzəmətli və göz oxşayan, milli üslubda tikilmiş "Ruhaniyyət" Sarayında olacaqdı. Qısa müddətdə Aşqabadın belə abadlaşdırılmasına, bir birindən gözəl milli memarlıq üslubunda tikilmiş binalarına və meydanlarına heyran qalmışdım. Hərbi gücü ilə dünyanı lərzəyə salan Sovetlər Birliyinin 70 ildə görmədiyi işi Türkmənlər müstəqillik əldə etdikdən sonra 7-8 ildə gördülər. "Ruhaniyyət" Sarayının ətrafındakı bir birindən yaraşıqlı 10-15 binanın hər birini Sovet inşaatçıları 10-15 ilə tikə bilməzdilər. Heç Moskva və Leninqradda belə gözəl saraylar tikilməyib.

"Ruhaniyyət" Sarayında Kasım Nurbatovla görüşdük. Avtoqraf yazılmış bir neçə kitabını mənə bağışladı və müsahibə verməyim üçün bir neçə jurnalistlə tanış etdi. Toplantı iştirakçıları qeydiyyatdan keçib salona girəndə gördüm qarşıda 4 sıra boşdur. Qalan bütün yerlər tutulub. Hamısı da milli geyimliydi. Qonaqları öndəki 4 sırada oturtdular. Səbirsizliklə iclasın açılışını gözlədik.

İçəri girənlərin heç birinə çölə çıxmağa icazə vermirdilər. Sağımda-solumda oturanlar da mənim kimi qonaqlardı. Bir birimizdən toplantının gecikməsinin səbəbini xəbər alsaq da cavab verən olmurdu. Təxminən 30-40 dəqiqədən sonra salonu

gurultulu alqış bürüdü. Təşkilatçılar bizə də ayağa durub alqışlamamıza işarə etdilə. Giriş qapısına baxanda öndə və arxada bir neçə cangüdənin olduğu Saparmurat Nıyazov Türkmənbaşı içəri daxil olduğunu gördüm. O, keçib qonaqların oturduğu sıra ilə Türkmənlərin oturduğu sıranın arazındakı boşluqa qoyulmuş əzəmətli taxtında oturdu. Alqış sədaları kəsilmək bilmirdi. Kiminsə işarəsindən sonra eyni vaxtda başlamış alqış eyni vaxtda da başa çatdı.

Toplantıda Türkmənistanın prezidenti Saparmırat Nıyazov Türkmənbaşı sürəkli alqışlar altında türkmənlərin xoşbəxt gələcəyindən alovlu bir nitq söylədi. Bu Qurultaylar sarayında Leonid Brejnevin çıxışlarını yadıma saldı. Onları mən televizyada görmüşdüm, indi isə alovlu çıxışın, sürəkli alqışın canlı şahidi olurdum. Nahar fasiləsinədək plenar iclas başa çatdı. Günortadan sonra elə bir tədbir olmadığından yenə də Kasım Nurbatovun yardımı ilə mətbuata müsahibələr verdim, birlikdə Murat Bayramdurdu oğlunun (Tovakov) Türkməncəyə çevirdiyi məruzəmi redaktə etdik. Kasım Nurbatovdan məruzəmin düzəliş edilmiş variantını bilgisayarda yığdırıb mənə qaytarmasını xahiş etdim. Məruzəni axşam bir neçə dəfə oxuyub səhər

də Türkmən dilində çıxış etmək istədiyim onun çox xoşuna gəldi.



Şəkildə: soldan türkmən Çarı Şirliyev, Əli Şamil, noqay Şaxidat Söyünova və türkmən Kasım Nurbatov AMEA Folklor İnstitutunun qarşısında

Səhər Kasım Nurbatovla foyedə görüşdük. Birlikdə avtobusla şəhər kənarında yeni tikilmiş Türkmənbaşı adına Milli Muzeyə getdik. Bizim məruzə oxuyacağımız "Mədəni irsin çoxsahəliliyi: ədəbiyyat və sənət" adlı 6-cı bölmənin iclasları burada keçiriləcəkdi. Bölmə iclasları şəhərin müxtəlif yerlərindəki salonlarda keçirildiyindən iştirakçıların başqa bölmədəki məruzəni dinləmək

imkanı yox idi. Qısa bir zamanda quruculuq işlərində böyük uğurlara imza atılmış Türkmənistanda konfrans hazırlığı Sovet dövründən qalma idi. Bölməmizdəki 17 məruzəçinin adı, soyadı və məruzəsinin adı sıra ilə yazılmışdı. Məruzələr nə vaxt başlayacağı, nə vaxt bitəcəyi, nahar fasiləsi nə zaman olacağı göstərilməmişdi.

Bölməmizdə oxunacaq məruzələrin əksəriyyəti musiqi və incəsənət sahəsinə aid olduğundan mənə maraqlı görünmürdü. Ədəbiyyat və dil ilə bağlı məruzələri sona saxlamışdılar.

Bölməmizdə Kamil Vəli Nərimanoğlu və Kasım Nurbatovdan başqa tanıdığım üçüncü bir adam yox idi. 3-4 məruzəni dinlədikdən sonra Kamil Vəli Nərimanoğlu dedi:"Bizim üçün maraqlı olmayan məruzələri dinləməkdənsə gedib bir çay içsək yaxşı olar". Şəhərdən kənarda olduğumuzu, muzeyin binasında çayxana-bufet olmayacağını düşündüyümdən və ikimizin eyni vaxtda getməyimizin diqqəti çəkməsini istəmə-diyimdən mən getmədim. Məruzəçilərin bəziləri gəlmədiyindən sıra pozulurdu

Kamil Vəli Nərimanoğlunun getməsindən 5-6 dəqiqə sonra təşkilatçılardan biri mənə yaxınlaşıb kiçik kağız parçası verdi. Orada Rus dilində

yazılmışdı: “В можете подняться на 3-й этаж и вынить чашку чая». Salonua göz gəzdirdim, lakin kağızı kim göndərdiyini müəyyənləşdirə bilmədiyimdən Kasım Nurbatova göstərdim. O, oxuyub başını buladı. Birlikdə 3-cü mərtəbiyə qalxmağı təklif etsəm də razılaşmadı. Sakitcə dedi: “Mən gedə bilmərəm. Sonadək salonda olmalıyam”. Məruzə bitirəndə salondan çıxıb 3-cü mərtəbəyə qalxdım.

3-cü mərtəbədəki 312-ci otağa girəndə süfrənin şirniyyat və quru meyvələrlə bəzədildiyini gördüm. Milli geyimli qızlar məni görəndə qonaqpərvərliklə süfrəyə dəvət etdilər. “Gög çay” (Azərbaycanda ona yaşıl çay deyirik), qara çay, yaxud qəhvə içəcəyimi xəbər aldılar. Gög çay içəcəyimi dedim və dəhlizə çıxdım. Mərtəbəni dolaşdım, ortadakı boşluqdan aşağıdakı mərtəbələri gözdən keçirdim. Kamil Vəli Nərimanoğlunu axtarırdım. Görsəm qızların birini onu çağırmağa göndərəcəkdim. Lakin o, heç yerəd görünmürdü. Otağa qayıtdım. Qızlar gətirdiyi gög çayı içdim. Məndən xəbər almadan ikinci fincanı da gətirdilər.

İçəriyə bir gənc girdi. Onu görəndə məndə bir çaşqınlıq yarandı. Elə bil gəncliyim qarşımda durmuşdu. Qardaşlarım, yaxın qohumlarım arasında mənə belə oxşayan yox idi. Alınının

enliliyi, gözlərinin azacıq qıyıqlığı, burunu, ağız quruluşu, çənəsi, hətta üst dodağının sol tərəfindəki qara xalı eynilə mənimki kimi idi. Amma deyəsən, o, mənim qədər təəccüblənmədi. Yaxın gəlib əl verib görüşdü və qarşımda oturdu. Ona da çay gətirdilər. Çaşıb qalmışdım. Bilmirdim, söhbəti nədən başlayım. Qarşımda oturan gənc isə danışmağa meyilli deyildi. Gülümsəyərək baxırdı.

Ondan az sonra bizim bölmə iclasını aparanlardan, Türkmənistan Mədəniyyət Nazirinin müavini Qızılgül Vasova içəri girdi. Gülə-gülə mənə müraciətlə: "Gördüm qardaşıma çox ox-şayırsan. Maşını göndərdim, gətirtdirdim. Tanış olun" dedi. Otaqdakı qızlar da maraqla bizə baxır, söhbətimizi dinləmək üçün müxtəlif bəhanələrlə yanımıza gəlirdilər.

Bacısının gəlməsi qardaşı söhbətə həvəsləndirdi. Mənim haradan gəldiyimlə, atam-anamla, yaşımla, adım-soyadımla maraqlandı. Sonra da axşam dostlarımı da götürüb onlara qonaq getməyimi xahiş etdi. Bacısı isə bizim söhbətimizi maraqla dinləyir və gülümsəyirdi.

Oturduğumuz otağın divarları şüşədən idi. İçəridən dəhlizdən keçənlər görünürdü. Amma dəhlizdən keçənlər otaqların içərisini görmürdülər. Kamil Vəli Nərimanoğlunun dəhlizdən keçdiyini

gördüm. Qızlardan onu otağa dəvət etmələrini xahiş etdim. Kamil müəllim içəri girəndə qarşımızdakı çay süfrəsini görüb, giley-güzarla dedi: "Axtarmadığım yer qalmadı, bir stəkan çay tapa bilmədim. Sən də burada oturub keflə çay içirsən. Bayaqdan mənə deyəydin. Dağa-daşa düşməyəydim!". Mən "qardaşım"a və bacısına vizit kartlarımı verdim, Azərbaycana qonaq dəvət etdim.

Toplantıdan sonra hotelə qayıdanda yol boyu ağ mərmər üzlüklü binaları, fantanları, səliqə-səhmanlı parkları gördükcə heyranıığımı gizlədə bilmirdim. Türkmənlərin qısa müddətdə abadlıq və quruculuq işlərindəki uğurlarına sevincimi Kasım Nurbatovla bölüşürdüm. Bir azdan o qulağıma tərəf əyilərək pıçıltı ilə dedi: "1980-ci illərdə bu yerləri şəhərdə yaşayan aydınlara, sənət adamlarına, müəllimlərə bağçılıq-bostançılıq təsərrüfatı yaratmaq üçün payladılar. Hamı həvəsə gəldi. Borc-xərc torpağı əkinə yararlı hala saldıq. Su çəkdirdik, ting əkdik, yüngül evlər tikdik, evlərə yaşayış üçün lazımi əşyalar gətirdik. . Çox sevinirdik. Şənbə, bazar, bayram günləri burada olur, həm əkdiklərimizi becərir, həm də görüşüb dərdləşirdik. Lakin sevincimiz uzun sürmədi. Sovetlər Birliyi dağılandan sonra Suriyaya elmi ezamiyyətə göndərilmişdim. Sevinc içərisində

idim. Geri qayıdanda gördüm buradakı bütün evləri, bağçaları yerlə bir ediblər. Öncə xəbər etsəydilər heç olmasa evdəki əşyalarımı götürərdim. Yarımçıq əsərlərimi, kitablarımi məhv etdilər. Bizə dəyən zərərin ödənilməsindən söhbət belə getmədi. Kimə, hansı təşkilata müraciət etdiksə, bir cavab aldıq: "Türkmənbaşının tapşırığı vaxtında yerinə yetirilməli idi. Yubada bilməzdik". Bu sözdən sonra etiraz etmək bilirsiniz nə ilə nəticələnər?!"

Axşam Kasım Nurbatov Türkiyədən Ahmet Bican Ercilasun, Peterburqdan İvan Steblin-Kamenskini və məni Türkmənistan televiziyasına apardı. Yolda Türkmənbaşının "Ruhnamə" səsəri haqqında bir neçə kəlmə xoş söz söyləməyimizi xahiş etdi. İvan Steblin-Kamenskinin danışacağına söz verdi. Ahmet Bican Ercilasun susdu. Mən: "Birincisi oxumadığım əsər haqqında heç nə deyə bilmərəm, ikincisi rəhbərlər haqqında indiyədək mədhiyyə deməmişəm" dedim. Kasım Nurbatov daha heç nə demədi.

Birinci proqramla 1 saat 20 dəqiqə yayınlanacaq verilişə aparıcılığı Kasım Nurbatov edirdi. Ekran qarşısında özünü sərbəst aparmasından televizyada tez-tez çıxış etdiyi bilinirdi. O, öncə İvan Steblin-Kamenskiyə söz

verdi. O, çıxışında bir neçə dəfə "İran dilləri" ifadəsini işlətdi. Cümləsinin arasındakı fasilədən istifadə edərək İran dilləri terminin yerində işlədilmədiyini, İranın çoğrafi ərazi olduğunu, ordada bir birindən fərqli dil qrupunda danışan türklərin, ərəblərin, farsların yaşadığını söylədim. İran dilləri əvəzinə fars dilləri termini işlədilməsinin doğru olduğunu dedim. İvan Steblin-Kamenski dediklərimi anlamasa da söhbətinə müdaxilə etməyim onu heyrətlndirmişdi. Fikrimi davam etdirmək, geniş izahat vermək istəyəndə Kasım Nurbatov sözümü kəsib özü danışmağa başladı. Canlı yayın olduğundan mən də onun sözünü kəsib əlavə izahat verməyə ehtiyac duymadım.

Ahmet Bican Ercilasunun danışığına mən diqqətlə qulaq asdım. Amma bilmədim onun dediklərini Türkmənlər başa düşəcək, ya yox. Növbə mənə çatanda Kasım Nurbatov o biri çıxışçılar kimi mənim haqqımda daqısa bilgi verdi və konfransda hansı məruzəni oxuyacağımı soruşdu. Məruzəmin Türkmən dilinə tərcümə edilmiş mətni əlimdə olduğundan ona baxa-baxa aramla danışırdım. Türkmən tamaşaçıları söhbətimi başa düşsünlər deyə bacardığımı əsirgəmirdim.

İranın Savə bölgəsində yaşamış Tilimxanın, Mahmudun ömür yollarından və yaradıcılıqlarından qısa bilgi verdikdən sonra şeirlərinin möhürbəndində özlərini Türkman adlandırmalarına daha çox vaxt ayırdım. Orta yüzillərdə yaşamış Şah İsmayıl Xətainin, Məhəmməd Füzulinin və b. aydınların özlərini Türkman adlandırdıqlarından da söz açdım. Türkman sözünün islamı qəbul etmiş oğuzlara verilmiş ümumiləşdirici ad olduğunu, bugünkü anlamda türk adına uyğun gəldiyini dedim, "Kitabi-Dədə Qorqud"dan və başqa qaynaqlardan misallar gətirdim.

Kasım Nurbatovun "Ruhnamə" haqqında dediyinə Ahmet Bican Ercilasun da mən də əməl etmədik. İvan Steblin-Kamenski isə Türkmənbaşının "Ruhnamə" əsərini yüksək qiymətləndirdi.

Səhərisi gün Kasım Nurbatov bizi Maxtumqulu adına Dil və Ədəbiyyat İnstitutunda apardı. Salona daxil olanda paltoda, plaşda, gödəkçədə oturmuş 70-80 nəfərin bizi gözlədiyini gördük. Kasım Nurbatov hər birimizi araştırıcılara tanıtmağa çalışdı. Sonra çıxış üçün sözü Ahmet Bican Ersilasuna, onun ardınca İvan Steblin-Kamenskiyə və mənə verdi. Məndən öncə çıxış edənlər ciddi elmi məruzələr oxudular.

Salondakıların yorunluğunu nəzərə alıb konfransda edəcəyim məruzəni oxumadım. Məruzəmin özətinin konfrans materialları kitabında çap olunduğunu, istəyənin oradan oxuya biləcəyini, oxumayanlar da televiziyadakı çıxışımıza baxacaqlarını düşündüm.

Çıxışımı yüngül söhbət şəkilində qurdum. Təxminən belə başladım: "Azərbaycandan kənarda məni görənlər soruşurlar: "Türkmənsənmi?" cavabım təsdiqedici olur. Soyköküm qarapapaqlara dayandığına görə qarapapaq olduğumu da söyləyirəm. Oğuzlarla bağlılığım olduğuna görə özümü oğuz da sayıram. Bu gün bizi rəsmi sənədlərdə azərbaycanlı kimi qeyd etsələr də, mən özümü türk, yaşadığım ərazini Azərbaycan sayıram. İranda da, Türkmənistanda da, Özbəkistanda da, Amerikada da, Avropada da yaşasam mən türk olaraq qalacam. 1937-ci ilədək Azərbaycanda bizim ata və analarımıza verilən sənədlərdə milliyyəti qrafasının qarşısında türk yazılırdı. Qəzet, jurnallarımız, kitablarımız türk dilində nəşr olunduğu göstərilirdi. Teatrlarımız, məktəblərimiz türk teatrı, türk məktəbi adlandırılırdı.

İranda 35 milyondan çox türk var. Lakin onlar İrandilli deyillər. Ümumiyyətlə, irandilli,

dağıstandilli ifadələri yanlışdır. İran, Dağıstan, Pakistan, Əfqanıstan coğrafi adlarıdır. İrandilli deyil farsdilli, türk dilli deyil türksoylu deməli və yazmalıyıq. 1925-ci ilədək İrandakı 16 fars soylu xalq bir-birini çətin başa düşürdü. Şah fərmanla, sərt qaydalarla Tehran dialektini farsların ortaq ədəbi dilinə çevirdi.

Bizə türkdilli xalq deyənlər yanılır. Biz türk dilini sonradan qəbul etməmişik. Neçə min ildir, indi danışdığımız dildə danışmışıq. Yaşadığımız coğrafi ərazi geniş olduğundan dillərimizdə fərqlər yaranıb. Bu gün birlikdən danışırıq. Birliyə nail olmağın yolu mədəniyyətimizə, ortaq ədəbiyyatımıza, ortaq sözlərimizə sahib çıxmaqdan keçir.

Mən özümün oğuz, türkmən, qarapapaq soyundan gəldiyini bilsəm də, bu gün türk olduğumu deyirəm. Bəs bu salonda oturanlardan kim özünü türk sayırsa əlini qaldırsın.

Salondakılar mənim çıxışımı sakit qarşıladılar. Əl qaldıran da olmadı. Toplantıdan sonra isə mənim ətrafıma toplaşanlar, sual verənlər, adresimi istəyənlər çoxaldı. İvan Steblin-Kamenski diqqətlə söhbətimizi izləyirdi. Kasım Nurbatov məni işçilərinin arasından çıxarıb maşına oturdanda Ahmet Bican Ercilasun gülümsəyərək əlimi sıxdı.

İvan Steblin-Kamenski isə sərt şəkildə "Qatı pantürkist" dedi.

Səhərisi gün Kasım Nurbatov məni görəndə kənara çəkib, narahatlıqla xəbər aldı: "Dünən bizimlə televiziyaya çıxışa və instituta görüşə gedənin kim olduğunu bilirdinmi?" Kimə işarə etdiyini bildiyimdən "Birinci dəfə görüşsək də, əsərləri ilə tanışam. Sankt-Peterburq Universitetinin professorudur. "Avesta"nı rus dilinə çevirib. Fars dilləri uzmanıdır. Səhv etmirəmsə, 3-4 il öncə Rusiya Federasiyasının Elmlər Akademiyasına müxbir üzv seçilib. Dilçi-etnoqraf kimi tanınır. Doğunu yaxşı tanıyır. Yazılarında qaynaqlardan bacarıqla istifadə etdiyi görünür. Araşdırma metodu yanlışdır. Köhnə qəliblərdən çıxa bilmir" deyəndə Kasım Nurbatov sözümü kəsərək: "Siz nə danışırsınız! Dünyada məşhur alimdir. Necə yəni onun faktlara yanaşma metodu yanlışdır?!" deyə danışmağa başlayanda mən onun sözünü kəsərək: "Kasım Nurbatov, onun məşhurluğunu inkar etmirəm. Mən onun faktlara yanaşmasını, baxışındakı yanlışlığı qəbul etmirəm. Dünən siz televiziyada mənim onunla mübahisəyə girməyimə imkan vermədiniz. Bu gün də gəlib onun haqqında mif yaratmağa çalışırsınız. 200 ildir Avropa alimləri yanlış və ya planlı "İran dilləri" deyə bir

termin işlədirlər. İran bir yayla, ərazi adıdır. Orada fars da yaşayır, lor da, türk də, ərəb də. İran dilləri deyiləndə gərək bu dillərin hamısı nəzərdə tutula. Amma onlar İran dilləri deyəndə sadaladığı dilləri deyil, yalnız fars dil qrupuna daxil olan dilləri nəzərdə tutur. Mən buna və bu kimi yanaşmaya etiraz edirəm. Elmdəki bu yanlışlıqlar aradan qaldırılmalıdır. Biz də onlara qoşulub yanlışlıqları təkrarlamamalıyıq. Azərbaycanda 8 xalq yaşayır. türklər aparıcı olsalar da, orada fars dil qrupuna daxil olan tatlar, talışlar, kürdlər, dağ yəhudiləri deyilən xalq, etnik qrup kimi qriqorian inanclı tatlar, İber-Qafqaz dil qrupuna daxil olan ləzgilər, saxurlar, rutullar, tabasaranlılar, hətta xristian udinlər də var. Sizcə, biz onların hamısını birləşdirib Azərbaycan dil qrupu adlandıra bilərikmi?!" dedim.

Kasım Nurbatov sualıma cavab vermədi. Bir xeyli üzümə baxıb, başını bulayaraq getdi. Fikrimi qəbul etmədiyi o yana, narazı qaldığını da büruzə verdi. Hümanitar sahə üzrə institut direktorunun, özünü millətsevər sayan araşdırıcının, vətənsevər şairin köhnə qəliblərdən çıxa bilmədiyinə ürəyim ağrıdı. Düşündüm ki, gör hələ qarşımızda görüləsi nə qədər ağır işlər durur.

Bu söhbətdən sonra Kasım Nurbatov məndən uzaq duracağını düşünürdüm. Yanılmışdım. Konservatoriyanın prorektoru Yaylım Orazovun Sovet dövründə xruşşovka adlandırılan alçaq tavanlı, üç otaqlı mənzilində təşkil etdiyi qonaqlığa məni də apardı. Yerdən salınmış süfrənin arxasında oturub Türkmən xörəklərinin dadına baxır, canlı ifada Türkmən musiqisi dinləyirdik.

Evin quruluşundan, içərisindəki avadanlıqlardan burada kasıb bir aydın ailəsi yaşadığı görünürdü. Buna baxmayaraq, imkanı daxilində gözəl bir süfrə açmışdı. Ət xörəkləri bizim ağız dadımıza uyğun idi. Uyğun olmasa belə, ev sahibinin, xörəyi bişirən xanımın xatiri xoş olsun deyə tərifləyirdik. Ev sahibinin könlünü xoş etməkdə Kamil Vəli Nərimanoğlu fəallıq göstərirdi.

Qonaqlıq da qarşıdurmasız keçinmədi. Kazım Yaşar Kopraman və Erdoğan Merçili Türkmən musiqisinin bəsit olduğunun söyləyəndə Kamil Vəli Nərimanoğlu çox nəzakətlə çalınan musiqini sözlə ifadə etdi. Lakin onun fikrilə razılaşmadılar. Söhbət uzandı və müxtəlif mövzular üzərinə gəldi. Kazım Yaşar Kopraman və Erdoğan Merçili Türkmən əlifbasını tənqid edəndə Ahmed Bican Ercilasun sərt şəkildə dedi: “Türkiyədəki əlifbada üç hərifi dəyişə bilmirsiniz. Bunlar bizə görə 32

hərifi dəyişdilər. Siz yenə narazılıq edirsiniz!" Bu dəfə mən məsələyə qarışmadım. Çünki Ahmed Bican Ercilasun mənim də düşündüklərimi sərtliyi ilə Türkiyəli Kazım Yaşar Kopramana və Erdoğan Merçiliyə bildirdi.

Sonrakı görüşlərimizdə Kasım Nurbatov Suriyaya, İraqa, Liviyaya, Əfqanıstana və b. ölkələrə səfərlərindən söz açdı. "Türkmenistan" qəzetinin 1998-ci il aprelin 25-də çap olunmuş "Bu dağlar" şeirinin Azərbaycanda çap olunmasın yardımçı olmağımı xahiş etdi..

Bu dağlar

Azərbaycanlı şair dostum Sabır Rüstəmxanlıya bağışlayarın

Çoban qardaş, könlün daima şad olsun.
Bu dağlarda şad olmamaq günaxdı...
Sabır Rüstəmxanlı

Sabır qardaş, yer qideli dağlara,
Dağlar barka qama batmak? Bu nədir?
Dova istəp yürəkdəki dağlara,
Yer qideli, dağlar bize panadır,
Bu dağlarda şat bolmazlık qünədir.

Çür baçında Qeroqlunun adı bar,
Qorqut atan yakın qidən adı bar,
Oğuz xandan, Nux atadan penadır,
Bizim dağlar düne dörəp binadır,
Bu dağlarda şat bolmazlık qünədir.

Yalnız qalıp yüz tutanda səs beren,
Qol yazarsan, qolun tutup, dest beren,
Rüstəm Zala, Rüstemxana ders beren,
Qoja dağlar dilimizə senadır,
Bu dağlarda şat bolmazlık qünədir.

Bu dağların qayası bar, kerti bar,
Kemeri bar çür başına merduban,
Daqa geler yürüginde derdi bar,
Belent dağlar daşımıza qaladır,
Bu dağlarda şat bolmazlık qünədir.

Eteqi zemindir, başları asiman,
Dağlarikarada otırlar sarsman,
Dağlara yüz tutsak-başında aman,
Yüz öbürsək-başımıza bəladır,
Bu dağlarda şat bolmazlık qünədir.

Əzik beşik, yenə pəli beyik dəl,
Beyiklərə qelişmeyer beyik gel,
Qoja dağlar sınan qövin seyiklər,
Dağlar neni sıqınşında qörədir,
Bu dağlarda şat bolmazlık qünədir.

Getdiyim şəhərlərin bazarlarını gəzmək, bəzən bir şey almasam belə, oraya muzey kimi baxmaq adətimdir. Yalnız elmi toplantıılarda deyil bazara gedəndə də Kasım Nurbatov yardımçım oldu. Aşqabad şəhərinin mərkəzindəki böyük bazara əhalinin əksəriyyəti "Ofiser (rusca zabit deməkdir) bazarı" deyir. Bazara hədiyyələr almaq üçün gedəndə Kasım Nurbatovdan xəbər aldım ki, ofiserin bazarla nə əlaqəsi? Niyə buraya "Ofiser bazarı" deyirlər?

Kasım Nurbatov köks ötürərək dedi: "Biz qəribə millətik. Bazarın adı keçmişdə türk tayfalarından olan ovşarların (avşar, əfşar) adından yaranıb. Bu bazarı quran, oraya gələn, mal satanlar əsasən ovşarlar olub. Ruslar ovşar sözünün mənasının tayfa adı ilə bağlı olduğunu bilmədiklərindən, dillərinə yatmadığından ona "ofiser bazarı" deyiblər. Biz də başlamışıq onların dediklərini təkrarlamağa".

Ovşar bazarından bir şey almasam da, Təkə bazardan nəinki quru meyvə, püstə, ərik dənəsi və b. çərəzlərlə yanaşı, çöldən yığılıb gətirilmiş təzə göbələk də aldım. Beləcə, konfransın rəsmi və qeyri-rəsmi hissəsini başa vurmuş oldum.

Aşqabadda olarkən Azərbaycan Türkmənistan ədəbi, elmi əlaqələrinin inkişafı üçün çox adamla görüşdüm. Hamsı da mənim fikirlərimi bəyəndi. Araşdırıcıların Uluslararası elmi toplantılara qatılmalarına yardımçı olacağımı vəd etdim. Razılaşdılar. Sözdə razılıq verdikləri işlərin reallığına o qədər də inanmırdım. Çünki institutut direktoru və müavini işləyən araşdırıcıların əksəriyyəti elektron poçtdan istifadə etmirdi. Kasım Nurbatov kimi dünyanın neçə ölkəsində elmi ezamiyyədə olan bir adam onunla əlaqə qurmam üçün şöbə müdiri Murat Bayramdurdu oğlunun (Tovakov) emailini vermişdi.

Kamil Vəli Nərimanoğlu və Qüdrət İsmayılzadəni Aşqabaddan Bakıya təyyarə ilə, Roza Arazovanı, Tarix Dostiyevi və məni isə gəldiyimiz yolla da geri göndərdilər. Türkmənistan səfər təəssuratımın bir hissəsini "Türkmənistan milli oyanışla avtoritarizm arasında" adı altında "Ayna" qəzetində çap etdirdim. Qəzetin bir neçə nüsxəsini də poçtla Türkmənistan Prezidenti

Türkmənbaşının ünvanına göndərdim. Təxminən bir ay sonra məni Türkmənistan səfirliyinə çağırdılar. Getdim. Amma nə səfir məni qapıda qarşıladı, nə də gülərüz göstərdi. Salamımı dilucu alıb qaş-qabaqlı halda "Ayna" qəzetini göstərərək narazılığını bildirdi. Dedi ki, belə yazılar Türkmənistan Azərbaycan əlaqələrinə zərər vurur. Mən yazıdakı yanlışlığı, təhrifi göstərməsini xahiş etdikdə o, xarab olmuş köhnə patefon valları kimi eyni sözləri söylədi.

Mən isə səfirin fikirlərinə əhəmiyyət verməyərək var gücümlə Türkmənistan Azərbaycan əlaqələrinin gücləndirilməsinə çalışdım. Türkmənistanda olarkəm Kasım Nurbatovun, dil və ədəbiyyat institutunun böyük elmi işçisi Şirin Kurbanovanın və b. səslərini yazmışdım. O səslər əsasında Azərbaycan radiosunda apardığım "Qonaq eldən gələr" proqramının 2000-ci il noyabrın 1-də və dekabrın 6-da gedən verlişləri Türkmənistana həsr etdim. Görünür həmin verlişlərə Türkmənistan səfirliyindən qulaq asan olmamışdı. Qulaq asan olsaydı yəqin yenə məni səfirliyə çağırıb narazılıqlarını bildirərdilər. Çünki onlar hələ də Sovet dövrünün qəliblərinidən çıxmamışdılar. Yalnız tərif və tərənnüm istəyirdilər.



Şəkildə: soldan Kasım Nurbatov, Qazax Zaken Taymagambetov və Əli Şamil

Adətən bir adam xarici ölkəyə gedəndə gedəcəyi ölkənin konsulluğundan viza alır. Türkmənistdanda, Özbəkistanda isə bir az fərqlilik vardı. Xaricə getmək üçün mütləq öz ölkənin xarici işlər nazırliyindən də icazə almalı idin. Belə icazəni almağa isə araştırıcılar ehtiyat edirdilər, onlar gözləyirdilər ki, rəsmi dairələr onları çağırıb filan yerə gedin desin.

Kasım Nurbatovla əlaqəmizin kəsilməsini istəmirdim. Vaxtaşırı gah Murat Bayramdurdu oğlunun (Tovakov) emailinə məktublar yazır,

bildiyim simpozium dəvətlərini göndərir, gah telefonla danışırdım. Murat Bayramdurdu oğlunun (Tovakov) Allah insafını kəssin, 3-4 emailimdən birinə çavab verirdi. Telefon danışıqlarımız az-az olsa da çox səmimi keçirdi.

Türkmən araştırıcılarının elmi toplantılara qatılmalarına yardım məqsədilə Türkmənistan prezdenti Türkmənbaşının ünvanına bir məktub göndərdim. Məktubun məzmunu təxminən belə idi: "Cənab prezident xarici işlər nazirliyinin əməkdaşları Sizi və Sizin "Ruhnamə" əsərinizi təbliğ etmək istəyən araşdırıcılara əngəl olur. Onların uluslararası elmi toplantılara qatılmasına icazə vermirlər."

Yenə məni Türkmənistanın Azərbaycandakı Fövqaladə və Səlahiyyətli böyük elçisi Murat Çarıyev yanına çağırtdırdı. Yenə qaş-qabaqla narazılığını bildirdi. Mən isə ona yenə də haqlı olduğumu bildirdim. Türkmənbaşına yazdığım məktubdan Murat Çarıyev narazılığını bildirsə də təsirsiz də ötüşmədi. 2004-cü il martın 18-21-də keçirdiyimiz "Ortaq türk keçmişindən ortaq türk gələcəyinə. 2-ci Uluslararası Folklor Konfransına Maxtımqulu adına Dil və Ədəbiyyat İnstitutundan bir neçə Türkmən araşdırıcısı da qatıldı.

Kasım Nurbatovu çox çətinliklə də olsa 2005-ci il noyabrın 13-16-da Bakıda keçiriləcək ”Ortaq türk keçmişindən ortaq türk gələcəyinə”. 3-cü Uluslararası Folklor Konfransı”na gətirdə bildim. O, tək deyildi. Özü ilə mənimlə dostluq edən araşdırıcı şair Orazdurdu Yağmurovu (Oraz Yağmur) və Türkmənistanın cins atlarını və itlərini yetişdirib xarici ölkələrə satan iş adamı Çarı Şirliyevi gətirmişdi.Çarının milli məsələyə önəm verməsi məni çox sevindirdi. Ona valideyinləri Məhəmməd adı qoysalar da böyüyəndə adını dəyişib Çarı yazdırmışdı. Çarı Şirliyev özü ilə bərabər şirkətinin reklamlarını da çox gətirmişdi. Lakin nə onun söhbətləri, nə də reklamları bir işə yaradı. Azərbaycanda onunla at və it almaq üçün müqavilə bağlayan olmadı.

Bakını yaxşıca gəzdilər. Oraz Yağmur sovet dövründə Bakıda əsgəri xidmətdə olmuşdu. Şəhərdəki dəyişiklərə heyran qalmışdı. Kasım Nurbatov da gördüyümüz işləri alqışlasa da ən çox xoşuna gələn senzuranın aradın qaldırılması, fikirimizi sərbəst deməyimiz, iqtidardakıları kəskin tənqid etməyimiz oldu. Onu televizyaya, radioya çıxarda, mətbuata müsahibə verdirə bilmədim.

Bir il olardı onu “Miras” Milli Mədəni İrs Mərkəzinə direktor müavini təyin etmişdilər. Geri

dönəndə incidəcəklərindən çəkinirdi. Mənə açıq şəkildə dedi ki, hökumətə yaxın adamam. Mənə etibar edib dünyanın hər yerinə göndərirlər. Sənin Türkmənbaşıya yazdığın məktub xarici işlər nazirliyinin işçilərinin canına vicvicə salıb. Amma Azərbaycana elm, mədəniyyət, ədəbiyyat adamlarının gəlməsini istəmirlər. Qorxurlar. İstəmirlər Türkmənistanda da sərbəstlik, fikir, söz azadlığı olsun.

Sizin böyük elçiliyiniz bizə viza vermək üçün dəvət edən günün səhəri Türkmənistan Xarici İşlər Nazirliyinə çağrıldıq, Orada bizimlə qabaqlayıcı söhbətlər apardılar. Sənin məktubundan da söz açdılar. Haqqında yaxşı fikirdə deyillər. Çalış bundan sonra Türkmənistana gəlmə, səni ilişdirə bilərlər.

Onunla söhbətlərimizdə nə qədər səmimi olsaq da siyasi məsələlər baxışımızda əks qütblərdə dururduq. Mənə Türkmənistana gəlmə dediyinə baxmayaraq 2006-cı il sentyabrın 12-13-də Aşqabatda keçiriləcək konfransa özət göndərdim. Düşünürdüm ki, mən Türkmənistanda rəsmi şəkildə arzuolunmaz adam olsam özətimi qəbul etməzlər və viza verməzlər. Əksinə oldu. Nəinki mənim özətimi qəbul etdilər, hətta Azərbaycandan

dəvət ermək istədikləri araşdırıcıları mənimlə məsləhətləşdilər.

Bakıda mənə " Türkmənistana gəlmə" deyən Kasım Nurbatov konfrans günlərində daim yanımda oldu, Oraz Yağmur, Çarı Şirliyevlə birlikdə şəhərdən 50-60 kilometir aralıdakı Kov Ataya getdik. Dağın 200 metir dərinliyindəki kiçik kükürdlü gölünü təbiət möcüzəsi saymaq olar. Oraya enib çimdikdən sonra Türkmən kababı da yedik.

Türkmənistanda konfranslarda olduğum müddətdə sərbəst danışdığıma görə irad tutsalar da məni cəzalandırmaq istəyən, sərt təpki göstərən olmadı. Əksinə hamının yanında mənə irad tutanlar təklikdə olanda alqışlayırdılar və haqlı olduğumu deyirdilər.

Kasım Nurbatov söhbət zamanı uşaq ədəbiyyatının çox vacib sahə olduğundan, uşaqlar üçün böyük tirajla "D*enzing düybündeki öy"* (1986), "Q*aradepeli oğlancık"* (1988), " *Ak çaraklar* (1988), "*Öveleme-döveleme* (1991) adlı şeirləri kitabının çapından söz açanda dedi ki, Türkmən yazılı ədbiyyatında 20 yüzilədək uşaq şeirinə rast gəlinmir. Onu xalq ədəbiyyatı və Sovet xalqlarının yazılı ədəbiyyatındakı uşaq şeirlərini örnək alaraq yaratdıq. Türkmənistanda uşaq

ədəbiyyatında türklərin təkərləmə, sanavac, sizlərin sicilləmə dediyiniz janr daha çox inkişaf etdi. Türkiyə türkcsində desəm Türkmən sanavaçları kendi içerisinde oyun tekerlemeleri, sayı tekerlemeleri, alay özelliği taşıyan tekerlemeler, hayvanlar ve kuşlarla ilgili tekerlemeler olmak üzere çeşitli başlıklara ayrılmıştır.

O, kinossenarisindən, bədii və elmi əsərlərindən böyük həvəslə danışır və özündən asılı olmayaraq Sovet dövrünü tərifləyirdi. Mən etirazımı bildirəndə uşaq səmimiyyəti ilə: “ İndi ailəni dolandırmaq çox çətindir. Sovet dövründə firavan yaşayırdıq. Aldığımız maaş ailəmizi görürdü. Vaxtli-vaxtında elmi adımızı, orden medallarımızı verirdilər” deyirdi.

Kasım Nurbatovun Türkmənistana gəlmə deməyinə baxmayaraq elə oldu bir ildə 2-3 dəfə Türkmənistanda keçirilən konfranslara qatıldım. Konfransların hesabına Marını, Taşoğuzu gəzdim, onlarla türkmən alimi ilə dostluq əlaqələri qurdum. Onların bir çoxu ilə əlaqələrimiz bu gün də davam edir. Amma Kasım Nurbatovla sonra əlaqəmiz kəsildi. Səbəb onu direktorluqdan çıxarıb yerinə elmi dərəcəsi olmayan, zərgərlikdən doktorluq yazan Qızılgül Qıyasovanı qoydular.

Kasım Nurbatov Türkmənistanın bəxti üzdə olan, özünün dediyi kimi hakimiyyətə yaxın olan şairlərdən olmuşdu. Aşqabada gələndən sonra vəzifə pillələri ilə irəliləmiş, kitabları nəşr edilmişdir. 1985-ci ildə "Dəniz beşiyi". 1989-cu ildə "Ağ qağayılar", 1993-cü ildə "Ak oy" ("Ağ ev") adı kitabları nəşr edilmişdir.

"Mana yumuş buyursalar" ("Məndən soruşsalar"), "Dəniz xuvdusi" ("Dəniz kənarı") kitablarına görə Türkmənistan Lenin Komsomolu Mükafatına layiq görülmüşdür (1989). "Qaradəpəli oğlan" kitabına görə 1989-cu ildə Moskvada keçirilən SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri sərgisinin "Sovet mətbuatı" pavilyonunda onun kitabı gümüş medala laiq görülmüş, 2-ci Ümumittifaq müsabiqəsinin uşaq şeirləri naminasiyasında "Ən yaxşı uşaq kitabı" diplomunu almışdı.

İctimai işlərdə fəallıq edən Kasım Nurbatov 1990-cı ildə SSRİ Jurnalistlər İttifaqına, 2015-ci ildə isə Türkmənistan Rəssamlar İttifaqına üzv olmuşdur.

1994-cü ildə "Əxməd Axundov-Gürgenlinin ədəbi irsi" mövzusunda yazdığı dissertasiyaya görə filologiya elmlər namizədi elmi dərəcəsi almışdır. Ona "Türkmənistan xalq maarif əlaçısı" fəxri adı,

“Vətənə olan sevgisi üçün” və b. medallar verilmişdir.

Əsərləri rus, özbək, qazax, belarus, tacik, fars, türk dillərində nəşr olunan türkmən poeziyası antologiyasına daxil edilmişdir. Əsərlərindən ümmtəhsil məktəblərində geniş istifadə edilmiş, dünya uşaq ədəbiyyatının bir sıra ən yaxşı əsərlərini türkmən dilinə tərcümə etmişdir.

Kasım Nurbatov işdən çıxarılandan sonra çox bədbinləşmişdir. Bir daha konfranslar keçirilən yerə, hətta görüşmək üçün hotelə belə gəlmədi. Aşqabada gedəndə evinə zəng vurub danışırdım. Çox bədbin idi. İşdən çıxarılması onu sarsıtmışdı. Azərbaycana gəlməyin, Türkiyədəki simpoziumlara qatılmağın onun üçün təhlükəli olduğunu deyirdi. Amma bu təhlükənin nədən ibaərt olduğunu açıqlamırdı.

2006-2007-ci illərdə Oğuz Xan adına “Türkmənfilm” Birliyində baş redaktor, 2007-2008-ci illərdə Türkmən Televiziyasında redaktor, 2008-ci ildə Saparmirat Türkmənbaşı adına Dövlət Dram Teatrında ədəbiyyat şöbəsinin müdiri vəzifələrində, 2008-2009-cu illərdə “Türkmən irsi” təsərrüfat təşkilatının baş mütəxəssis, 2009-2021-ci illərdə isə Aşqabaddakı sənət məktəbində müəllim işləyib.

Kasım Nurbadov 2021-ci il aprelın 30-da dünyadan köçəndə vəsiyyətinə görə onu doğulduğu kənddəki "İlyas Molla" qəbiristanlığında dəfn ediblər.

Kasım Nurbatovun dünyasını dəyişməsindən təxminən bir il sonra xəbər tutdum. Dedilər qızı Maxtumqulu adına Dil və Ədəbiyyat İnstitutunda çalışır. Onunla da əlaqə qura bilmədim. Oraz Yağmurun Türkiyədə təhsil alan qızı məktublarıma bir neçə dəfə cavab versə də Kasım Nurbatovun qızı susmağa üstünlük verdi. Axır ki, Maral Taqanovanın sayəsində Kasım Nurbatovun qızı Gülälek Hangeldiyeva məktubuma cavab verdi.

13 avqust 2024-cü il

“CORATLI” TÜRKMƏN AKADEMİKİ ANNAQURBAN AŞIROV



Toplantıdan çıxanda foyedə tanımadığım bir nəfər qoluma girərək məni foyedəki şirniyat, çay və qəhvə verilən yerə aparanda “necəsən?”-deyə xəbər aldı. Onunla tanışlığım yox idi. İlk dəfə bu günkü plenar iclasda ona söz veriləndə Türkmənistanın Türkiyədəki böyük elçisi Annaqurban Aşırov olduğunu bildim. Səsində bir səmimiyyət vardı. “Çox sağ olun, yaxşıyam” cavabını verdim. “Haralısan?”-sualına verdiyim “Ermənistanlı” cavabım onu qane etmədi. “Harada doğulduğunu xəbər almaq istəmirdim. Harada yaşayırsan?”- dedi. Qısaca “Bakıda”-deyə cavab verdim. Onun suallarına qısa

cavablarımın səbəbi beynimdəki suallar idi. Düşünürdüm: “Böyük elçi toplantının açılışında təbrik nitqini Türkiyə türkcəsində etdi, özü türkməndi. Mənimlə Azərbaycan türkcəsində danışır. Ləhcəsindən isə türkmən olduğu açıq bilinir. Onun mənimlə maraqlanmasının səbəbi görəsən nədir?”

Annaqurban Aşırovun: “Corat kəndini tanıyırmısan?”- sualına “Bəli” -cavabını verəndə gülərək: “Mən də coratlıyam”-dedi. “Azərbaycanlılar Türkənistanda çoxdur”- deməklə onun sözünə qüvvət verməyə çalışdım. O, mənim

hansı universiteti bitirdiyim, harada işlədiyimlə və Türkmənistandan kimləri tanıdığımla maraqlandı. Çay içə-içə suallarını cavablandırsam da fikirləşirdim ki, söhbətin axari məni haraya aparacaq. 2000-ci il otyabırn 10-13-də Aşqabadda keçirilən “Türkmənistanın Mədəni Mirası: Qədim qaynaqlar və hazırkı zaman” mövzusunda keçirilən Beynəlxalq Konfransda iştirak etdiyimi söyləyəndə: “Necə olub görüşməmişik?”- dedi və mənim cavabımı gözləmədən “Görünür başımın qarışıq, işimin çox vaxtına düşüb. Həmin günlərdə məni 10 ildən çox işlədiyim Türkmənistan Elmlər

Akademiyası əlyazmalar şöbəsindən ayırıb yeni yaradılmış Türkmənistan Prezidenti yanında Mərkəzi Asiya və Doğu Xalqlarının Mədəni Mirası İnstitutuna direktor təyin etmişdilər. Yeni təşkilatın hansı işləri görəcəyi haqqında aydın bilgimiz olmadığı kimi institutun hansı şöbələri olacaq, orada kimlər işləyəcək, bunlar da məlum deyildi. Milli Əlyazmalar İnistitutunun yaradılması haqqında əmri də yeni almışdım. Orada da direktoru əvəz edirdim. Prezident yanında "Miras" adlı jurnal da yaradılırdı. Baş redaktor təyin ediləcəyimi söyləmişdilər. Jurnal və institut üçün kadırlar toplamaqla məşğul olsam da konfransın əsas idarəedicilərindən idim" dedi.

O, vəzifələrini sayırdı. Mən isə onun Coratla bağlılığı haqqında daha geniş bilgi əldə etmək istəyirdim. Türkmənistanda onminlərlə azərbaycanlının yaşadığından xəbərdardım. "Şərq qapısı" qəzetində işləyəndə Türkmənistanda yaşayan azərbaycanlılar haqqında xeyli bilgi toplamışdım. Qəzetin gənclər şöbəsində işləyəndə redaktor məni kabinetinə çağırıb vacib bir mövzuda felyoton hazırlamaq üçün Naxçıvam MSSR Daxili İşlər Nazirliyinə göndərdi. Tapşırdı ki, "insan alveri" işə məşğul

olan qurupun istintaqı aparılır. Faktları toplayıb felyoton yazım.

Nazirliyə gedib əməliyyat işçilərilə görüşdüm. Bir qrup işbazın Naxçıvandan qızları aparıb Türkmənistanda ərə verdiklərini öyrəndim. Türkmənistanda "kalım"- "başlıq" pulunun yüksək olduğundan oğlanlar evlənməkdə çətinlik çəkirmiş. Bundan yararlanan bizim işbazlar da, Naxçıvandan, Azərbaycanın başqa rayonlarından qızları aparıb orada ərə verirlərmiş. Ərə verdikləri qızların onların qohumu olduğunu deyib türkmən gənclərinin valideyinlərindən 300-500 manat kalım ("başlıq pulu") alırlarmış. Türkmənlərə ərə gedən qızlardan boşanıb geri qayıdan olmurmuş.

Naxçıvanda bibisi, xalası 1950-ci illərdə Türkmənistana ərə getmiş tanışlarım vardı. Onlardan da bir narazılıq eşitməmişdim. Qohumluq əlaqələri, gediş gəlişləri vardı. Türkmənistana ərə qedənlərin övladlarının orada ali təhsil alıb, yüksə vəzifə tutduqlarını da söyləyirdilər. Redaktordan töhmət alsam da "insan alverçiləri" haqqında felyeton yazmadım.

Annaqurban Aşırovdan coratlı qohumları ilə əlaqə saxlayıb, saxlamadığını xəbər aldıda gülərək dedi: "Orada heç bir qohumumuz

yoxdur. Mən Balkan viayətinin Cecirs kəndində anadan olmuşam. Yeniyetməlik və gənclik illərimdə Aşqabaddakı radio və televizya verlişləri bölgəmizdə yaxşı tutmadığından "Danışır Bakı"nı dinləyir, televizyada da oranın verlişlərinə baxırdıq. Toylarımızda da əsasən Azərbaycan mahnıları və rəqsları çalınırdı. Ona görə də bölgədə yaşayan türkmənlər Azərbaycan türkcəsini rahat başa düşürdülər. Radio və televiziya sayəsində Azərbaycanı az qala Türkmənistan qədər tanıyırdıq.

Bazar-dükana adətən Türkmənbaşı şəhərinə (keçmiş Krasnovodsk (Qızılsu) gedirdik. Bir dəfə bazarda 3-4 nəfər qocanın bizim kəndin yaşlıları kimi danışdığını gördüm. Geyimləri isə bizimkilərin geyiminə oxşamırdı. Maraq mənə güc gəldi. Onlara yaxınlaşıb söhbətə tutdum. Haralı olduqları ilə maraqlandım. Azərbaycandan gəldiklərini söylədilər. Mən onlara danışıqlarının Azərbaycan radiosunda və televiziyasında eşitdiklərimdən fərqləndiyini dedim. Onlar da mənə Sumqayıt şəhəri yaxınlığındakı Corat kəndindən olduqlarını, danışıqlarının radio-televizyada danışılan dildən fərqləndiyini söylədilər.



2009-cu il martın 11-13-də Aşqabadda keçirilən " Səlcuqlar dövrünün ədəbiyyatı və mədəniyyti" adlı beynəlxalq konfransda Annakurban Aşırov Türkiyəli professor Nicati Dəmirlə söhbət edərkən. Əyləşənlərdən soldan: Azərbaycanlı prof. İsmayıl Kazımov, Əli Şamil və kırımlı dos.İsmet Zaatov

Mən onlardan bizim kimi danışanların Azərbaycanda çoxmu olduğunu xəbər alanda mehribanlıqla dedilər: "Sənin kimi danışanlar yoxdur. Amma sizin ağsaqqallar kimi danışan qocalar Bakı ətrafında, Abşeron yarımadasının kəndlərində, eləcə də Xəzər sahilindəki bəzi kəndlərdə var. O gündən Corat kəndinin adı elə

bil beynimə qazıldı. Azərbaycanlılarla görüşəndə zarafatla coratlı olduğumu söyləməyə başladım. Dediyimə inananlar da oldu. İndi Balkan adlandırılan vilayətdə Xələclərlə bağlı toponimlər var. Bildiyimə görə Azərbaycanda da xeyli Xələc adlı kənd var. O, kəndlərin bəziləri Xəzər dənizinin Batı sahillərinə yaxındır. Heyif ki, gedib o kəndləri gəzib, etnoqrafik material, folklor nümunələri, diakekt toplaya bilmədim. Gedə bilməsəm da içimdə bir hiss var ki, onlarla biz eyni tayfadan olduğumuza görə, dilimizdə də, folklorumuzda da, etnoqrafiyamızda da yaxınlıq çoxdur."

Annaqurban Aşırov ayrılanda mənə vizit kartını verdi. Tapşırdı ki, Ankaraya gələndə mütləq ona zəng vurum. İşi çox olduğundan fasilədən sonrakı toplantıya qalmayacağını söyləyib getdi.

2004-ci ildə yenidən Türkiyəyə elmi simpoziuma gedəndə Türkmənistanın Ankaradakı böyük elçiliyinə zəng vurdum. Annaqurban Aşırovla görüşmək üçün vaxt ayırmlarını xahiş etdim. Cavab verdilər ki, Annaqurban Aşırov indi Aşqabadda "Miras" Milli Mədəniyyət Mərkəzinin sədri və Dünya

Türkmənlərinin Humanitar Təşkilatının vitse-prezidenti vəzifələrində işləyir.

Annaqurban Aşırovla birdə 2006-cı il sentyabrın 12-13-də Aşqabadda keçirilən "Müqəddəs "Ruhnamə" və dünyanın ruhu genişliyi" Beynəlxalq elmi konfransında görüşdük. Azərbaycanda və keçmiş Sovetlər Birliyində onun tutduğu vəzifə kimi bir vəzifə yox idi. Belə təşkilatlar Türkmənistanın prezidenti Saparmurad Türkmənbaşının (Niyazov) şəxsi göstərişi ilə yaradılırdı. Annaqurban Aşırov məni Ankaradakı kimi deyil, soyuq qarşıladı. Elə bildim məni tanımadı. Sonra bildim ki, toplum arasında məsafəli davranır. Mənim bölmə iclaslarından birinə rəhbər təyin edildiyimdən və sonrakı illərdə Türkmənistanda keçirilən elmi konfranslara tez-tez dəvət edilməyimdən anladım ki, yanılmışam. Bəzən adamların, xüsusən işçilərinin yanında mənimlə məsafəli davransa da arxada müdafiəçim olurdu.

Bir dəfə elmi konfransın sonunda Axal vilayət hakimi açıq havada konfrans iştirakçılarına qonaqlıq verirdi. Zəngin süfrə açılmışdı. Annaqurban Aşırov məni solunda əyləşdirsə də diqqəti məclisdəkilərdə idi.

Türkmənistanlılar özlərini çəkingən aparsalar da kənardan gələnlərin əhval-ruhiyyəsi yaxşı idi. Annaqurban Aşırov mənə tərəf dönərək sakit bir səslə: “Bizim işçilər desə yaxşı çıxmaz, sənin özbəklərlə aran yaxşıdır. Onlar çox içirlər, qorxuram sərxoş olub məclisdə qarışıqlıq salarlar. Dur get onları sakitləşdir”.

Mən sakitcə durub özbəklərin süfrəsinə gəldim. 5-6 nəfər idilər. Mehribanlıqla görüşdüm. Həvəslə bir-birinin şəninə sağlıq deyərək içirdilər. Yaxşıca hallanmışdılar. Onlar mənim gəlişimə sevindilər. Sağlıq demək üçün sözü mənə verdilər. Gördüm onlara az için deməyin mənası yoxdur. Badəni əlimə alıb ayağa durdum. “Gəlin bu badələri Özbək xalqının böyük oğlu, vətənsevər və cəsur ziyalı, ömrünü xalqının azadlıq və müstəqilliyinə həsr etmiş, demokratiya yolunun cəsur yolçusu Məhəmməd Salehin sağlığına içək!” dedim. Özbəkistandan qovulmuş, mühacir həyatı yaşıyan, Özbəkistan prezidenti İslam Kərimovun xalqa düşmən kimi tanıtdığı Məhəmməd Salehin adını eşidən kimi özbək alimləri badələri stolun üstünə qoyub hərəsi bir tərəfə dağıldı. Mən tək qaldım.

Axşamüstü Aşqabada dönəndə Annaqurban Aşırov məni təklikdə bərk danladı. Dedi: “bura nə Türkiyədir, nə də Azərbaycan. Türkmənistanla Özbəkistanın münasibətləri soyuq olsa da bizimkilər də Məhəmməd Salehi sevməzlər və onun adının belə çəkilməsini istəmirlər”.

Türkiyədəki Abant İzzet Baysal Universitetinin müəllimi Ali Yamanla ölçdük-biçdik ki, türk xalqlarının ortaq dastanı “Koroğlu” ilə bağlı bir simpozium keçirək. Ali Yaman universitetinin rektoru, mən də AMEA Folklor İnstitutunun derektoru ilə danışdım. Abant İzzet Baysal Universitetinin rektoru prof. Dr. Atilla Kılıç simpoziumun bütün xərclərini-dəvətlilərin yol, qonaqlama, yemək və s. xərclərini, eləcə də hər il keçirilməsini təşkil edəcəyini vəd etdi. Qalırdı Türküstanın elm ocaqlarının və universitetlərinin təşkilatçılar sırasına qatılmasını və alimlərin gətirilməsini təşkil etmək. Prof.dr. Atilla Kılıç açıq şəkildə dedi ki, Özbəkistanın və Türkmənistanın rəhbərləri sözdə Türkiyə ilə dost görünsələr də çox ehtiyatlı davranırlar. Biz dəvət etsək müxtəlif bəhanələrlə təklifimizi rədd edəcəklər. Azərbaycanla münasibətləri Türkiyəyə nisbətən

daha yaxşıdır. Yaxşı olar ki, onlarla siz AMEA Folklor İnstitutunun adından danışıb razılıqlarını alasınız.

Onların razılığını almağı da mənim boynuma qoydular. Amma Abant İzzet Baysal Universitetinin əməkdaşı olmadığımdan Türkmənistana gedib-gəlmək xərcimi ödəməyəcəklərini bildirdilər. Eyni zamanda Folklor İnstituntu da ezamiyyə xərci verilməyəcəyini bildirdi.

Çətin vəziyyətdə qaldığım bir vaxtda Aşqabaddan 2009-cu il martın 11-13-də Aşqabadda "Səlcuqlar dövrünün ədəbiyyatı və mədəniyyəti" mövzusunda Beynəlxalq Elmi Konfrans keçiriləcəyi xəbərini aldım. Məruzə yazıb göndərdim. Konfransa dəvət məktubu alanda bərk sevindim. Qərara aldım ki, Aşqabada Bakıdan birbaşa deyil, Daşkənddən gedim. Fikrimi Aşqabadda konfrnsın təşkilatçılarından olan Kakacan Janıbekova yazdım. Bakıdan Aşqabada uçan Alman təyyarəsinin bileti Özbəkistan Hava Yollarının təyyarəsinin biletindən 200 dollardan bir az çox olsa da mühasibatlıqda işləyənlər mənim uçuz biletlə gəlməyimi əngəlləmək istəyirdilər. Annaqurban Aşırov işə qarışandan sonra mənim

Özbəkistan Hava Yollarının təyyarəsi ilə gedib-gəlməyə icazə verildi.

Bu yol yorucu və xeyli uzun idi. Belə bir yolu seçməyim təsadüfi deyildi. Qarşıma məqsəd qoymuşdum ki, Daşkənddə Özbəkistan Elmlər Akademiyasının Dil və Ədəbiyyat institutunun direktoru, akademik Törə Mirzəyevlə danışıb onu Boluda keçiriləcək simpoziuma qatılmağa razı salaram. Oradan da Ürgəncə uçaram. Ürgəncdən maşınla Türkmənistanın Daşoğuz şəhərinə, oradan da Aşqabada gedərəm. Eyni yolla da geri qayıdaram.



2010-ci il aprel 8-10-da Mərv şəhərində keçiriləcək "Molla Nəpəs və 19-cu yüzildə Türkmən həyatı" mövzusunda Beynəlxalq elmi

konfransa dəvət edilmiş Azərbaycanlı araşdırcıları aprelin 7-də Annakurban Aşırov Aşqabadda qarşılayıb onlara çay süfrəsi açarkən. Şəkildə soldan konfransın əsas ağırlığını daşıyan Türkmən Kakacan Janıbekov, Əli Şamil, Elmira Fikrətqızı, Annakurban Aşırov, Ramiz Əskər və....

Daşkənddə akademik Törə Mirzəyevdən öncə institutun əməkdaşlarının bir neçəsi ilə görüşüb onları Türkiyəyə getməyə həvəsləndirdim. Törə Mirzəyevin kabinetində söhbət edəndə əməkdaşlar mənimlə görüşmək bəhanəsilə otaga gəldilər və söhbətimiz bitənədək də geri dönmədilər. Direktor çox ehtiyatla davranırdı. Bəhanə gətirirdi ki, simpoziumun xərclərini çəkməyə, əməkdaşlarının yolpulunu və oradakı xərclərini ödəməyə vəsaitləri yoxdur. Onu dilə tutdum. Butün xərcləri Türkiyə tərəfin ödəyəcəyinə söz verdim. Söhbətimizi dinləyən institutun rəhbərləri, şöbə müdirləri də pulsuz-parasız Türkiyəyə getmək, məruzələrini xaricdə nəşr etdirmək istəyirdilər. Necə deyərlər onlar yumşaq da olsa mənim səsimə səs verdilər. Beləcə akademik Törə Mirzəyevi razı saldıq.

Ondan rəsmi məktub alıb Atilla Kılıça göndərdim.

Xeyli rahatlanıb uzun yolçuluğumu davam etdirdim. Aşqabadda Annaqurban Aşirov məsələni müzakirə edəndə açıq şəkildə dedi: "Bilirsən vəziyyət heç istədiyimiz kimi deyil. Azərbaycanla, Özbəkistanla Türkmənistan arasında diplomatik münasibətlər yaxşı deyil. Türkiyə ilə də çox ehtiyatla davanırlar. Ona görə də belə konfransa icazə ala bilmərəm. "Koroğlu" dastanları mövzusunda elmi konfrans keçirilməsini istəmirsənsə onun Türkmənistanda yüksək səviyyədə keçirilməsinə icazə alım. Hansı ölkədən kimləri istəyirsən dəvət et. Bütün xərclərini ödəyəcəyik. Amma xarici ölklərin elm ocaqlarının adını təşkilatçılar siyahısına əlavə edə bilməyəcəm"

Bakıya dönəndə söhbətlərizin məzmunu haqqında Ali Yamana və Atilla Kılıça bilgi verdim.

Boluda simpozium 2009-cu il oktyabrın 17-18-də keçirilməsi qərara alında və araşdırıcılara çağırış məktubları göndərildi.

Annaqurban Aşırav sözünün üstündə durdu. 2009-cu il sentyabrın 23-25-də Daşoğuz şəhərində keçiriləcək "Koroğlu süjeti və Şərq

ədəbiyyatı” mövzusunda Beynəlxalq Konfransa məni və məsləhət bildiyim araşdırıcıları dəvət etdi. Biletimi yenidən Daşkənd üstündən aldım. Akademik Törə Mirzəyevlə və institutun əməkdaşları ilə görüşüb Boluda keçiriləcək simpoziuma hazırlığın vəziyyətini müzakirə etdik. Hər şey normal görünürdü. Mən oradan Ürgənc şəhərinə uçdum. Ürgənc Universitetinin professoru Jumaboy Yusupov məni qarşıladı. Gözlədik ki, mənim xahişimlə Daşoğuzda keçiriləcək konfransa dəvət edilmiş Özbəkistan EA Dil və Ədəbiyyat İnstitutu folklor şöbəsinin müdiri Mamatkul Jurayev və professor Rüstəm Abdullayev də Daşkənddən gəlsinlər, birlikdə maşınla Daşoğuza gedək.

Daşoğuz kiçik bir əyalət şəhəri olsa da konfransa Aşqabaddakı kimi hazırlaşmışdılar. Hər şey normal görünsə də güdükçülərin davranışı məni əsəbləşdirirdi. Qaldığımız hotellə yemək yediyimiz restoranın arasında kiçik bir park vardı. Hoteldən oraya 10 dəqiqəyə piyada getmək mümkün idi. Lakin konfrans iştirakçılarını hotelin qarşısındakı avtobuslara mindirib restorana aparmaları yarım saatdan çox çəkirdi. Vaxt itkisindən çox sərbəstliyimizin məhdudlaşdırılması məni bərk əsəbləşdirirdi.

İkinci gün mən hoteldən çıxanda avtobusa minmədim, gəzə-gəzə restorana doğru yol aldım. Bu zaman arxamca qaça-qaça gənc bir güdükçü gəldi ki, məni geri qaytarıb avtobusa mindirsin. Arxamca gələn güdükçü mənə çatan kimi ağzını açmağa imkan vermədim. Parkdan keçən üç yaraşıqlı Türkmən qızını göstərərək dedim: "Bilirəm, pulun yoxdur. Xərclərini mən çəkəcəm. Sən gəncsən, get o qızları axşam bara dəvət et". Güdükçü gözlənilməz təklifimdən çaş-baş qaldı. Mən onun çaşqınlığına əhəmiyyət verməyib restorana getdim.

Axşam yeməyinə getmək üçün birinci mərtəbəyə enəndə dedilər ki, restorana getməyim, hotelin foyesində gözləyim. Nədən məni gözlətdiklərinin səbəbini soruşmadım. Adamlar yeməyə gedəndən 15-20 dəqiqə sonra hotelin qarşısında qara mersedes dayandı. Maşından düşən gənc məni nəzakətlə maşının arxa oturacağına dəvət edib, özü də qarşı oturacaqda əyləşdi. Heç beş dəqiqə çəkmədi ki, Daşoğuz Vilayət Hakiminin binasına çatdıq. Mən bu yolu böyük həvəslə piyada gələrdim. Lakin haraya gedəcəyimi, kiminlə, hansı mövzuda danışacağımı bilmədiyimdən gözləməli olmuşdum. Bələtçim məni ikinci

mərtəbəyə, hakimin (bizdə icra hakimi dediyimiz vəzifəyə onlar hakim deyirlər) otağına apardı. İçəri girəndə Annaqurban Aşırovu da orada gördüm. 30-35 yaşlı hakim gəlib qapının yanında mənimlə görüşdü. Onun sifətindən və məni qarşılamasından qanqaraldıcı bir şey olmayacağını başa düşdüm. Kabinetdən qonşu otağa keçdik. Orada zəngin bir süfrə açılmışdı.

Süfrə arxasında əyləşəndən sonra hakimin mədəniyyət məsələlərinə baxan qadın müavini və iki nəfər də gəldi. Yemək sürəsində Annaqurban Aşırov məni təqdim etdi və haqqımda xoş sözlər söylədi. Bakıda çap olunan "Ayna" qəzetindəki məqaləmdə Heydər Əliyev və Saparmurad Türkmənbaşı haqqında yazdığım məqalənin qısa məzmunundan və mənim davranışımdakı bəzi cəhətlərdən də söz açdı. Söhbətin məzmunundan anladım ki, səhər yeməyə gedərkən güdükçüyə dediklərimi rəhbərliyin ovucuna qoyublar. O, məsələni dəqiqləşdirmək üçün Annaqurban Aşırovla danışıb. O da qanımın arasına girib. Mənim zarafat etdiyimi deyib.

Bir sözlə məclisimiz deyə-gülə keçdi. Hətta gənc rəhbərin süfrə arxasında Əbülfəz Elçibəyin

adını çəkməsi və haqqında xoş sözlər söyləməsi məni heyrətləndirdi.

Türkmənistanın arxeologiyası və etnoqrafiyası: nailiyyətlər və gələcək vəzifələr" mövzusunda Beynəlxalq Elmi Konfransda mən yenə də bölmə iclası rəhbəri idim. Annaqurban Aşırov bir nəfər, uca boylu, idmançı görnüşlü gənci göstərərək ərkyana dedi: "O, prezidentə yaxın adamdır, Moskvada ali təhsil alıb, KQB-də işləyir. Onunla işin olmasın". Anlaya bilmədim ki, mənim onunla nə işim ola bilər ki?!

Amma iş elə gətirdi ki, onunla toplantının gedişində höcətləşməli olduq. Mən toplantını Türkmən dilində aparmağa çalışırdım. Moskvadan glmiş professor əsəbiliklə nədən iclası rus dilində aparmadığımı xəbər aldı. Mən çox təmkinlə -"Bura Türkmənistandır, dövlət dili də türkmən dilidir" deməklə işimi davam etdirmək istədim. Lakin Annaqurban Aşırovun mənə göstərib "onunla işin olmasın" dediyi gənc icazəsiz ayağa durub məndən tələb etdi ki, qonaqlara görə toplantını rus dilində aparım. Mən ona cavab vermədən Rostovdan gəlmiş, bölmə iclasında məruzə edəcək gənc alimlərdən birindən (onlarla dünən axşam xeyli söhbət

etmişdim və söz vermişdim ki, onları Türkiyədə keçirilən simpoziumlara dəvət etdirəcəyəm) xəbər aldım: “Siz bir neçə ay öncə Parisdə elmi konfransda olubsunuz. Orada məruzənizi hansı dildə oxudunuz?” O, sualı nə məqsədlə verdiyimi başa düşməsə də “fransızca” deyə cavab verdi. Mən təkrar sual verdim: “Türkiyəyə getsəniz məruzəni hansı dildə oxyacaqdınız?”. O, incik şəkildə dedi: “Türk dilində. Buradakı simpoziumda da məruzəmi türk dilində oxuyacağam!”.

Mən KQB əməkdaşına üzümü tutaraq: “Parisə gedən fransızca, Londona gedən ingiliscə, Türküyəyə gedən türkcə məruzə edirsə siz nədən Aşqabadda mənim toplantını türkmən dilində aparmağıma etiraz edirsiniz?, Yoxsa siz Türkmənbaşının verdiyi qanunlarla razı deyilsiniz?.Türkmənistan qanunları ilə bu ölkədə dövlət dili türkmən dilidir” dedim. Toplantı otağındakılar bərkdən güldülər. KQB əməkdaşı pərt halda otaqdan çıxdı. Sonra bildim ki, Moskvadan arvadı ilə birlikdə dəvət etdirdiyi professor onun müəllimi imiş.

Toplantını başa vurub fasiləyə çıxanda gördüm Annaqurban Aşırov məni axtarır. Danlayacağını bildiyimdən gözündən yayınsam

da nahardan sonra məni yaxaladı. “Sənə neçə dəfə demişəm, KQB işçiləri ilə işin olmasın. Sən gedirsən, sonra mənə irad tuturlar. Rəhbər işçiləri də saya salmırsan. Bura Türkiyə, Azərbaycan deyil” – dedi. Mən də: “Aşırov, onda məni bir daha simpoziuma çağırmayın. Bilirsiniz ki, dəyişən deyiləm” – deyəndə sakit və gülümsəyərək: “Çox vaxt ürəyimdən keçənləri, demək istəyib deyə bilmədiklərimi sən deyirsən. Türkmənlər görür ki, belə sözləri dilə gətirmək olar. Alimlərimiz, xüsusən gənclər sizlərin davranışından nümunə götürməyə çalışırlar, cəsarətlənirlər” – dedi.

Annaqurban Aşırovla təklikdə təşkil etdiyi kiçik məclislərdə çox səmimi və mehriban söhbətlərimiz olurdu. Adətən Azərbaycan Türkcəsində danışar, Azərbaycan mahnılarından parçalar oxuyardı. Məndən bir yaş kiçik olduğundan zarafatla deyirdi: “Vəzifədə böyük mən olsam da yaşda böyük sənsən. Bizə uşaqlıqdan ağsaqqala hörmət etməyi öyrədiblər”.

1949-cu ildə Balkan vilayətinin Sərdar (keçmil Kızıl Arvat) Cecips kəndində doğulan Annaqurban Aşıroğun da yaşkağızında mənim kimi doğulduğu il yazılsa da ay, gün yazılmamışdı. Bir dəfə ad günü münasibəti ilə onu

təbrik etmək istədiyimi söyləyəndə: "İlin hansı günü istəyirsən təbrik edə bilərsən" dedi. Bu qənaətə gəldim ki, özü də doğulduğu günü və ayı bilmir.

1976-cı ildə Aşqabaddakı Türkmən Dövlət Universitetini bitirdikdən sonra 1976-1978-ci illərdə "Gənc kommunist" qəzetində ədəbi işçi kimi yazıb-yaradıb. 1978-ci ildə Türkmənistan Elmlər Akademiyasının Dil və Ədəbiyyat İnstitutunda böyük laborant işləməyə başlayıb. Aspiranturada oxuyub. Müdafiə edib elmlər namizədi adı alandan sonra institutda müxtəlif vəzifələrdə işləyib.

Tanıdığım adamların əksəriyyəti onun təşkilatçılıq qabiliyyətini yüksək qiymətləndirirdi. Deyirdilər ki, o, əlyazmalar şöbəsinə müdir təyin ediləndən sonra zirzmisində yerləşən kiçik şöbəni akademiyanın Əlyazmalar İnstitutuna çevirməyi bacardı. Yalnız Türkmənistandan deyil, dünyanın hər yerindən olduqca dəyərli əlyazmalar toplatdırıb institutun fondunu zənginləşdirib.



2012-ci il mayın 14-15-də Aşqabadda keçirilən "Dövlətməhəmməd Azadi və 18-ci yüzil Türkmən həyatı" adlı Beynəlxalq elmi konfransın iştirakçılarının qarşılanması. Şəkildə: soldan Annakurban Aşırov və Əli Şamil.

Təşkilatçılıq bacarığını nəzərə alan Saparmurad Türkmənbaşı onu 2001-ci ildə Türkmənistanda Təhsil Naziri təyin edib. 2002-ci ilin avqustunda isə onu Türkiyəyə Türkmənistanın səfiri göndərir. Səfirlikdən geri çağrılandan sonra elmin təşkili sahəsində çalışan Annaqurban Aşırov dəfələrlə Azərbaycanda da olmuşdu. Azərbaycan Türkmənistan əlaqələrinin

yaxşılaşması üçün əməkdaşlarını da Bakıya elmi ezamiyyətə göndərərdi. Azərbaycanlı araşdırcılarda Ramiz Əskərə, İsmixan Osmanlıya, Elmira Fikrət qızına, Tərlan Quliyevə və b. hörməti böyük idi. Ramiz Əsgərin Türkmən şairlərinin əsərlərini Azərbaycan türkcəsinə çevrilməsinə uşaq kimi sevinir, Ramiz Əskərin Türkmənistanda tanıdılması, mükafatlar alması üçün əlindən gələni əsirgəmirdi.

Elmin təşkilinə daha çox vaxt ayırdığından elmi araşdırmalarla ardıcıl məşğul ola bilmirdi. Buna baxmayaraq, Maxtımqulu Fərağinin ömür yolunun dəqiləşdirilməsi, şairin divanının elmi-tənqidi mətninin, eləcə də Nurmuhammet Andalıbin "Qoşqular" kitablarının hazırlanıb nəşr edilməsi onun adı ilə bağlıdır.

2017-ci ildə təqaüdə göndərilən Annaqurban Aşırov xəstəliyinə görə ardıcıl elmi yaradıcılıqla məşğul ola bilmirdi. Onunla əlaqələrimiz də zəifləmişdi. Kakacan Janıbekov vasitəsilə bir-birimizlə əlaqə saxlayırdıq.

2025-ci ilin dekabrın 10-da Kakacan Janıbekov Aşqabadda yaşayan Annaqurban Aşırovun dünyasını dəyişdiyini, onun doğulduğu kənddə, Cecirsdə torpağa tapşırıldığını dedi.

Türkmənistan Elmlər Akademiyasının müxbir üzvü Annaqurban Aşırovun doğulduğu kənddə dəfn edilməsini normal qarşıladım. Türkmənistan Elmlər Akademiyyası Dil və Ədəbiyyat İnstutunun keçmiş direktoru, şair və nasir, tərcüməçi Kasım Nurbadov da Balkan Vilayətinin Esenqulı rayonunun Acıyap kəndindəndi. Dünyadan köçəndə onu da öz kəndlərindəki "İlyas Molla" qəbiristanlığında dəfn etmişdilər.

Aşqabadla Balkan vilayəti arasındakı məsafə çox olsa da dünyadan köçənlərin doğulduğu kəndlərinin qəbristanlığında dəfn edilməsinə önəm verirlər.

Türk xalqlarının birliyini çox arzulayan, lakin istəklərini reallaşdırmağa imkan tapa bilməyən Annaqurban Aşırov dünyadan köçsə də yetirmələri onun arzularını yerinə yetirmək üçün əllərindən gələni əsirgəmirlər.

Allah rəhmət etsin gözəl dostum!

10.02.2026

AZƏRBAYCAN-TÜRKMƏN ƏDƏBİ ƏLAQƏLƏRİNDƏ PROFESSOR RAMİZ ƏSKƏRİN ROLU



Azərbaycanda türkmən şairi Dövlətməhəmməd Azadinin (1700-1760) ömür yolunun öyrənilməsi, əsərlərinin çevrilməsi, nəşri və radioda, televiziyada tanıdılması məsələləri professor Ramiz Əskərin adı ilə bağlıdır. Onun məqalə və radio-televiziya verlişlərindən başqa, çap etdiyi "Məxdumqulu Fəraqi. Seçilmiş əsərləri" (2010), "Türkmən şeiri antologiyası" (2011), "Türkmən müəmmaları, deyişmələri və vücudnamələri" (2011), "Dövlətməhəmməd Azadi. Seçilmiş əsərləri" (2012), "Məxdumqulu Fəraqi. Aşiq olmuşam" (2024), "Türkmən ədəbiyyatı tədqiqatları" (2024)

və digər əsərlərində Dövlətməhəmməd Azadi haqqında olduqca dəyərli bilgilər mövcuddur.

Ramiz Əskər yalnız Dövlətməhəmməd Azadinin və onun oğlu Məxdumqulu Fəraqinin dövrünü, ömür yollarını və əsərlərini öyrənib tanıtmamış, həm də Türkmən ədəbiyyatı haqqında nəşr etdiyi kitabların sayını 15-ə çatdırmışdır. Son əsəri isə filologiya elmləri doktoru, dosent Nailə Əskərlə birgə hazırladığı üç cildlik "Goroğlu. Türkmən qəhrəmanlıq dastanı"dır. Olduqca işgüzar bir araşdırıcı olan Ramiz Əskər, 27 illik elmi fəaliyyətində 94 kitab nəşr etdirmişdir. Bu kitabların əksəriyyəti Türk xalqlarının ədəbiyyatı, tarixi və mədəniyyəti ilə bağlıdır. Türklük sevdası onun ruhuna və qanına hopmuşdur. Bunun səbəbi bir tərəfdən gen yaddaşı ilə əlaqədar, digər tərəfdən isə doğulub boya-başa çatdığı mühitlə bağlıdır.

1954-cü il yanvarın 10-da keçmiş Sovetlər Birliyinə daxil olan Ermənistan Sovet Sosialist Respublikasının Amasiya rayonunun Əzizbəyov (Qaraçanta) kəndində ziyalı ailəsində doğulan Ramiz Əskər, necə deyərlər, sovet təbliğatının təsiri altına düşməmişdi. Gözünü bu dünyaya açandan, söz eşidib başa düşəndən, ailəsində, məktəbdə ona Türk olduğunu demişlər. Hətta rayon mərkəzinə, Gümrü, Yerevan şəhərlərinə gedəndə, oradakı

ermənilər də ona və soydaşlarına Türk olduqlarını xatırlatmışlar.

Onun doğulduğu Əzizbəyov (Qaraçanta) kəndi Batı Arpaçayın sağ sahilində yerləşirdi. Kənddən Türkiyə-Ermənistan sərhəddinə cəmi üç-beş kilometr məsafə vardı. Evlərindəki radio və televizorlarda daim Türkiyə kanalları izlənilirdi. Buna görə də bölgədə yaşayanların əksəriyyəti Türkiyədə baş verənlər barədə Sovetlər Birliyindəki hadisələrdən daha yaxşı məlumatlı idilər.

Türkiyə Türkcəsini ana dili kimi bilən, dərs əlaçısı olan Ramiz Əskər, Türkiyə-Sovet münasibətlərinə qatqı vermək üçün diplomat olmağı planlaşdırırdı. Orta məktəbdə oxuduğu illərdə şeirləri və məqalələri rayon və respublika qəzetlərində dərc olunan Ramiz Əskər, 1971-ci ildə kənddəki orta məktəbi "Qızıl medal" ilə bitirir. Diplomata və jurnalistə çevrilmək arzusu ilə sənədlərini Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun Beynəlxalq jurnalistika fakültəsinə təqdim edir. Lakin qəbul imtahanını keçə bilmir. İlk ciddi imtahan ona həyat dərsi verir. Onunla birlikdə qəbul imtahanları verən yaşıdları ilə söhbət etdikdən sonra görür ki, yalnız dərsləri yaxşı oxumaq və suallara düzgün cavab vermək uğurun yarısıdır. Sovetlər Birliyinin ən nüfuzlu ali

məktəbində qəbul edilən gənclərin bilikləri ilə yanaşı, milli mənsubiyyətləri, ailələrinin dövlət idarəetməsindəki rolu da nəzərə alınır.



Şəkildə: 2010-ci il aprelin 8-10-da Mərv şəhərində keçiriləcək "Molla Nəpəs və 19-cu yüzildə Türkmən həyatı" mövzusunda Beynəlxalq elmi konfransa dəvət edilmiş Azərbaycanlı araşdırıcılar açılış mərasimində. Səkildə soldan dos. Elmira Fikrətqızı, Əli Şamil və prof. Ramiz Əsgər.

Gələcəyin diplomatları və xarici ölkələrə jurnalist işləməyə göndəriləcək şəxslər, milli

ucqarlardan gələn savadlı və geniş dünyagörüşlü gənclər deyil, ölkənin yüksək rütbəli generallarının, diplomatiya sahəsində rəhbər partiya sovet idarələrində, təhlükəsizlik xidmətində rəhbər vəzifələrdə çalışanların ailələrindən olanlar arasında seçilirdi.

Reallığı qiymətləndirməyi bacaran, onunla barışan, dövlətin təbliğatına o qədər də alüdəçiliklə yanaşmayan Ramiz Əskər, 1972-ci ildə sənədlərini Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Jurnalistika fakültəsinə təqdim edir. Orta məktəbi "Qızıl medal" ilə bitirdiyinə görə, ilk imtahanda aldığı əla qiymətlə tələbə biletini qazanmış olur. Onun jurnalistika fakültəsinə qəbul olunması, tanışlığımızın və dostluğumuzun əsasını qoydu.

1972-ci ilin sentyabrında Jurnalistika fakültəsinin birinci kursuna yeni qəbul olunmuş tələbələr arasında bir qrup istedadlı gənci seçib onları Tələbə Elmi Cəmiyyətinə üzv olmağa həvəsləndirdim. Son kursda oxuyarkən birinci kursa qəbul olunan gənclərlə görüşüb söhbət etdim. Onların arasında Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsinə yeni qəbul olunmuş gənclərdən Ramiz Əskər, Müştaba Əliyev, Amaliya Pənahova və bir neçə başqasına

Tələbə Elmi Cəmiyyətinə üzv yazılmalarını məsləhət gördüm. Zaman göstərdi ki, bu seçimdə yanılmamışam. Həmin tələbələr fakültəni bitirdikdən sonra uzun illər mətbuatda çalışsalar da, elmi fəaliyyətə də biganə qalmadılar. Onlar daim axtarışda oldular və dəyərli elmi əsərləri ilə toplumun etimadını qazandılar.

İlk tanışlıqdan sonra Ramiz Əskərlə aramızda xoş münasibət yarandı. Qrup yoldaşlarının bir çoxundan yaşca kiçik olsa da, sərbəst davranmağı, ünsiyyətcilliyi və elmi biliklərə marağı ilə seçilirdi. Mən onu tələbə yoldaşımdan çox, kiçik qardaşım kimi sevirdim. O da mənə özündən böyük kimi hörmət edir, gələcək planlarını mənimlə bölüşürdü.

1973-cü ildə universiteti bitirərək təyinatla Naxçıvana işləməyə getdikdən sonra da jurnalistika fakültəsinin elmə marağı ilə seçilən gənclərlə əlaqəmi kəsmədim. Tələbə Elmi Cəmiyyətinə üzv yazılmalarını məsləhət gördüyüm gənclərin elmi konfranslarda fəallıq etmələri, oxuduqları məruzələrlə yalnız fakültədə deyil, universitetdə müəllim və tələbələrin diqqətini özlərinə çəkmələri ilə qürurlanırdım.

Jurnalistika fakültəsində oxuyan tələbələr dərs ili başa çatdıqdan sonra bir aylıq mətbuata təcrübə keçməyə göndərilirdilər. Rayon qəzetlərinə və

radiolarına təcrübəyə göndərilən tələbələrə ezamiya xərcləri verilmir, buna görə də gənclərin əksəriyyəti xərcləri çıxmasın deyə ailələrinin yaşadığı bölgələrdəki qəzetlərə və yerli radiolara təcrübəyə getməyə üstünlük verirdilər. Ramiz Əskər Bakıdakı qəzetlərdə və radio-televiziyada, yaxud Azərbaycanın rayonlarındakı qəzetlərə və yerli radiolara təcrübəyə getsəydi, aldığı təqaüd onu qarşılamayacaqdı; ailəsi mütləq ona pul göndərməli idi.

Ramiz Əskər 10 bacı-qardaşın ən böyüyü idi. Ailə yalnız ataları Baxşəli müəllimin əmək haqqına arxalanırdı. Həyətyanı təsərrüfatdan qazanc əldə etmək mümkün olmadığından, müəllim maaşı ilə böyük ailəni saxlamaq çox çətin idi. Bu çətinliyi nəzərə alaraq, ona Naxçıvana gəlməyi məsləhət gördüm. Naxçıvanda təcrübə keçərdisə, bizim evdə qalardı, bizimlə birlikdə yeyib içərdi. Beləliklə, mehmanxanaya və yeməyə pul xərcləməzdi. Üstəlik, mənim işlədiyim qəzetə məqalələr yazmaqla yanaşı, Naxçıvan radio və televiziyası üçün verilişlər hazırlamasına da kömək edərdim. Bu halda əlavə xərclər çıxmazdı, həm də cibxərci qazanmış olardı.

1975-ci ilin iyulunda Ramiz Əskər Naxçıvana tək gəlmədi, tələbə yoldaşı Tehran Vəliyevlə birlikdə gəldi. Tehran çox qalmadı və

valideynlərinin yanına, Cəbrayıl rayonunun Mahmudlu kəndinə döndü. Ramiz isə bir aydan çox Naxçıvanda qaldı. Muxtar respublikada yaşayan insanları daha yaxşı tanıması üçün dostlarımın yaşadığı Xanağa kəndinə göndərdim ki, Əlincə qalasını görsün. Sonra isə Şahbuz rayonunun Yuxarı Qışlaq kəndinə göndərdim ki, oradan Batabat yaylağına qalxsın və yol üstündə İslam Səfərlinin şəninə şeir qoşduğu "Xalxal Meşəsi"ndəki kababxanada oturub kabab yesin.



Şəkildə: 2010-ci il aprelin 8-10-da Mərv şəhərində keçiriləcək "Molla Nəpəs və 19-cu yüzildə Türkmən həyatı" mövzusunda Beynəlxalq elmi konfransın iclas salonundan bir görüntü. Soldan Sivas Universitetinin müəllimi, dos. Doğan Kaya, prof. Ramiz Əskər və Əli Şamil

Naxçıvan Duz Mədəninə, Ordubad, İliç (indiki Şərur) rayonlarına səfərlərindən də əliboş qayıtmırdı. Getdiyi yerlərdən materiallar toplayır, məqalələr və radio-verlişlər üçün mətnlər yazırdı. Yazdıqlarının zəhmət haqqını (qonararını) həmin vaxt vermirdilər. Aradan bir neçə ay keçəndən sonra isə yaşadığı ünvana göndərilirdi.

Naxçıvandan Amasiyaya valideynlərini görməyə gedən Ramiz Əskər, Bakıya döndükdən sonra yaşadığı ünvana gəlmiş qonarar kağızlarını görəndə heyrətlənmişdi. Bir ay ərzində yazdığı məqalələrə görə ona üç ayda aldığı təqaüd qədər pul göndərilmişdi. Bu, həm yazı bacarıqlarının inkişafına, həm də maddi durumunun nisbətən yaxşılaşmasına səbəb oldu.

O illərdə fakültəmizin ən yaxşı tələbələrindən hər il bir nəfər M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Jurnalistika fakültəsində təhsil almağa göndərilirdi. Ramiz Əskər də 1975-ci ildə bu imkanı qazandı və Moskvaya göndərildi. O, Moskvada təhsil alarkən Naxçıvanla bağlı məqalələr yazıb, "Sovet Naxçıvanı" qəzetinə və radio-televizyaya göndərməklə kifayətlənmirdi, həmçinin yay tətillərində öncə bizə, sonra isə Amasiyaya gedirdi. Beləliklə, Naxçıvan mətbuatı

və radioteleviziyası onun üçün ilk sınaq yeri olmuşdu.

Moskva Dövlət Universitetində təhsil aldığı illərdə SSRİ Mədəniyyət Nazirliyi ilə əlaqə qurmuşdu. Türk dilini yaxşı bildiyi üçün Mədəniyyət Nazirliyi onun xidmətlərindən istifadə edirdi. O, Türkiyədən gələn mədəniyyət işçilərinə və sənət adamlarına tərcüməçilik və bələdçilik edirdi. Mədəniyyət Nazirliyi tərcüməçi-bələdçi kimi işə başladığı günlərdə ona üç manat əlli qəpik zəhmət haqqı və restoranlarda yemək üçün 14 manatlıq talon verirdilər. Bu böyük fərq ona çox gülməli gəlirdi.

Ramiz Əskər, çətinliklərə dözümlü və nikbin bir şəxs idi. Dördüncü kursu bitirəndə onları iki aylıq hərbi təlim-məşqə göndərmişdilər. Təlim-məşq zamanı onlar çadırlarda qalmalı idilər. Bölgə yağışlı olduğundan çadırlar suyu saxlamır, içəri su dolur və yataqlarını isladırdı. Bu vəziyyətdən gileylənmək əvəzinə, o, incə yumorlu məktublar yazırdı. Çadırdan içəri tökülən damcıları Leylinin göz yaşlarına bənzədirdi. Mən onun məktublarını oxuyanda vəziyyətlərinin necə ağır olduğunu bilsəm də, heç bir köməklik edə bilmirdim. Ancaq əsgər xidməti çəkən və oradakı çətinliklərdən yazan

gənclərə Ramiz Əskərin məktublarını göndərir, onları ruhlandırmağa çalışırdım.

1978-ci ildə ali təhsilini başa vurub Bakıya dönən Ramiz Əskər çox çətinliklə də olsa, Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin Xarici Verilişlər Şöbəsinin Türkcə Verilişlər Redaksiyasında işə götürüldü. O dövrdə işə qəbul olmaq üçün mütləq pasport qeydiyyatına düşmək lazım idi. Bakı şəhərinə, Ermənistandan, Gürcüstandan və digər respublikalardan, eləcə də Azərbaycanın rayonlarından gələnlərin qeydiyyata salınmasına qadağalar qoyulmuşdu. Bu qadağaları aşmaq yalnız rüşvət verməklə vəzifəli şəxslərin tapşırığı ilə mümkün idi.

Ramiz Əskər, çətinliklə də olsa, Bakı şəhərində pasport qeydiyyatına düşərək 1983-cü ilə qədər Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin Xarici Verilişlər Şöbəsinin Türkcə Verilişlər Redaksiyasında işləmişdir. Mən onun savadına, biliyinə və elmi axtarışlarına yaxından bələd idim. Buna görə də onun aspiranturaya (indiki doktorantura) qəbul olunmasını və elmi fəaliyyətlə məşğul olmasını istədim. Lakin vəziyyət mənim arzu etdiyim kimi deyildi. Aspiranturaya daxil olsaydı, verilən təqaüdün yarısı ev kirayəsinə gedəcək, qalan məbləğ isə onun gündəlik xərclərini

qarşılamağa kifayət etməyəcəkdi. Radioda işləyərkən aldığı maaş və qonarar ilə ən azından ev kirayəsini ödəmək və özünü dolandırmaq mümkün olurdu.



Şəkildə Aşqabaddan təxminən 50-60 kilometir aralıdakı Kov Ata deyilən yerdəki mineral suda. Soldan Çarı Şirliyev, Oraz Yağmur, Elmira Fikrətqızı, Ramiz Əskər və Əli Şamil

Ali məktəbi bitirdikdən sonra M.V.Lomonosov adına Moskva Dövlət Universitetində oxuyan Solmaz xanımla ailə quran Ramiz Əskər, 1983-cü ildə Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətində işə başladı. Burada, yeddi dildə (Azərbaycan, rus, ingilis, fransız, alman, türk, ərəb, fars) çıxan "Azərbaycan bu gün" jurnalının baş redaktoru oldu. 1983-1987-ci illərdə Dostluq Cəmiyyətində, 1988-1991-ci illərdə isə "Vətən" Cəmiyyətində kiril, latın və ərəb əlifbaları ilə nəşr edilən "Odlar Yurdu" qəzetinin baş redaktoru vəzifəsini icra etdi. "Odlar Yurdu" qəzeti Azərbaycan SSR-in ilk demokratik mətbuatı sayılaraq, 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Respublikasının siyasi xadimləri, himni, bayrağı, gerbi və digər milli simvolları haqqında çap etdiyi yazılarla milli şüurun oyanmasında və milli azadlıq hərəkatının inkişafında mühüm rol oynadı.

Ramiz Əskərin millətçiliyi, vətənpərvərliyi və cəsarəti "Odlar Yurdu" qəzetinin nüfuzunu Avropaya, ABŞ-a, Türkiyəyə və İrana qədər yaydı. Kiçik formatlı bu qəzet, respublikada ən oxunan mətbuat orqanına çevrildi.

Yaşamını təmin etmək və ailəsini dolandırmaq məqsədilə Ramiz Əskər, 20 il ərzində ardıcıl olaraq

elmi axtarışlardan uzaq qalmışdır. 1991-1992-ci illərdə "Hürriyet" (İstanbul) qəzetinin və Uluslararası Haber Ajansının (UHA) Azərbaycan üzrə xüsusi müxbiri, 1993-1994-cü illərdə isə Xarici Turizm Şurasının informasiya, reklam və mətbuat idarəsinin rəisi vəzifələrini icra etdi. 1994-1995-ci illərdə "XXI Əsr" qəzetinin baş redaktoru, 1995-96-cı illərdə isə "Xalq Qəzeti"nin baş redaktorunun müavini olaraq çalışdı. 1997-ci ildən isə Azərbaycan Jurnalistlər Birliyinin baş katibi (ictimai əsaslarla) olaraq fəaliyyət göstərdi. Bu illəri Ramiz Əskərin ömrünün itən illəri hesab etmək olar, lakin çağdaşları ilə müqayisədə yenə də böyük işlər gördüyü etiraf edilməlidir.

Ramiz Əskər jurnalistika sahəsində qəzet və jurnallarda işlədiyi illərdə elmi araşdırmalardan uzaq qalmadı. 1994-cü ildə Yusif Balasaqunlunun "Qutadğu Bilig" əsərini Azərbaycan Türkcəsinə çevirib nəşr etdirdi. Onun akademik karyerası isə 2002-ci ildə Bakı Dövlət Universiteti ilə bağlı olmuşdur. 2002-2006-cı illərdə Bakı Dövlət Universitetinin Türkologiya kafedrasının əvəzçi-müəllimi kimi "Qədim Türk Yazılı Abidələri", "Orta Türk Dövrü Abidələri", "Türkologiyaya Giriş", "Türk Mədəniyyət Tarixi" fənlərindən dərs

demiş, həmçinin "Qutadğu bilig" və "Divanü lüğat-it-türk" əsərləri üzrə xüsusi kurslar aparmışdır.

2007-ci ildə Bakı Dövlət Universitetinin "Azərbaycan mühacirət ədəbiyyatı və bədii tərcümə" elmi-tədqiqat laboratoriyasının baş elmi işçisi, 2009-cu ildə isə laboratoriya müdiri olmuş Ramiz Əskər, 2012-ci ildə Türk xalqları ədəbiyyatı kafedrasının müdiri seçildi. Türkologiyanın ən məhsuldar araşdırıcılarından biri olan Ramiz Əskər, Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" və Yusif Balasağunlunun "Qutadğu bilig" əsərlərini Azərbaycan türkcəsinə çevirib nəşr etdirdi. Bu əsərlər haqqında namizədlik və doktorluq dissertasiyaları yazmış, eyni zamanda iri həcmli monoqrafiyalar hazırlamışdır. Onun nəşr etdiyi əsərlər arasında "Qutadğu bilig", "Mahmud Kaşğari və onun "Divanü lüğat-it-türk" əsəri", "Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" əsəri üzrə biblioqrafik və qrammatik göstərici" kimi qiymətli kitablar da mövcuddur.

Azərbaycanda Türkmən ədəbiyyatı haqqında araşdırmalar çox az idi. Lakin Ramiz Əskər bu sahəyə xüsusi maraq göstərmişdi və türkmən ədəbiyyatının klassik nümunələrini dərindən öyrənmişdi. Mən ona Məxdumqulunun əsərlərini Azərbaycan dilinə uyğunlaşdırıb nəşr etdirməsini

təklif edəndə, əvvəlcə bir qədər tərəddüd etdi. Söhbətimizdən hiss etdim ki, o, Məxdumqulunun şeirlərinin yalnız Azərbaycanda çap olunan hissələri ilə tanışdır. Mənim Türkmənistana səfərim zamanı gətirdiyim Məxdumqulunun əsərlərini ona bağışladım və onu diqqətlə oxumağa təşviq etdim. Bir neçə ay sonra Ramiz Əskər mənə zəng vuraraq görüşdü və Məxdumqulunun şeirlərinə heyran olduğunu bildirdi, onu "18-ci yüzil Oğuz türklərinin ən böyük şairi" adlandırdı.

Məxdumqulunun şeirlərini Azərbaycan türkcəsinə uyğunlaşdırarkən Ramiz Əskər bəzən çətinliklərlə üzləşirdi. O, bəzi sözlərin mənalarını lüğətlərdə tapa bilmirdi. Belə vəziyyətlərdə Türkmən dostlarımızdan yardım istəyirdik. Lakin bəzən onlar da istədiyimiz məlumatı verə bilmirdilər. Vəziyyətdən çıxmaq üçün mən Məxdumqulunun şeirlərinin ərəb əlifbası ilə olan variantlarına müraciət etməyi təklif etdim. Bu təklif Ramiz Əskərə məqbul gəldi. O, Məxdumqulunun Türkmənistanda ərəb əlifbası ilə nəşr olunan nüsxələrini oxumağa başladı və Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda saxlanılan əlyazmalarla müqayisə etdi.



Şəkildə: 2012-ci il mayın 14-15-də Aşqabadda keçirilən "Dövlətməmməd Azadi və 18-ci yüzil Türkmən həyatı" mövzusunda Beynəlxalq Elmi Konfransda. Soldan: uyğur Murad Əziz, Əli Şamil, Ramiz Əskər və filologiya elmləri doktoru Mırat Tuvakov

Ramiz Əskər, universitetə qəbul olunarkən ərəb əlifbası ilə çap olunan qəzet, jurnal və kitabları oxumağı bacarırdı. Sonralar isə bu sahədə öz bacarığını daha da inkişaf etdirmişdi. Məxdumqulunun ərəb əlifbası ilə olan mətni üzərində işləyərkən gördü ki, bəzi sözlər, Türkmən araşdırıcıları tərəfindən bugünkü Türkmən ləhcəsinə uyğunlaşdırıldığından, orijinal mənaları itirilmişdi. Nəticədə, Türkmənistanda kiril əlifbası ilə nəşr

edilmiş kitablardakı mətnləri əsas götürərək, əlyazmalarla müqayisə etdi və beləliklə, dəyərli bir kitab ortaya qoydu.

Məxdumqulunun şeirlərini nəşrə hazırlamaq Ramiz Əskəri Türkmən ədəbiyyatına və Türkmənistana bağladı. O, 2009-cu ildə Aşqabadda keçirilən "Türkmənistan: Səlcuq dövrü ədəbiyyatı və mədəniyyəti" adlı beynəlxalq konfransda, 2010-cu ildə "Oğuznamə tarixi və mədəni mənbə kimi" və 2010-cu ildə "Molla Nəfəs və XIX əsr türkmən həyatı" mövzusunda təşkil olunan beynəlxalq konfranslarda iştirak etdi. Sonrakı illərdə də o, 2012-ci ildə "Dövlətməmməd Azadi və XVIII əsr türkmən həyatı", 2011-ci ildə isə "Nurməhəmməd Əndəlibə həsr olunmuş beynəlxalq konfrans" və digər elmi toplantılara qatıldı.

Ramiz Əskər Məxdumqulunun şeirlərini Azərbaycan dilinə çevirib nəşr etməklə kifayətlənmədi. O, şairin atası, Azadi ləqəbilə tanınan Dövlətməmməd haqqında da dəyərli araşdırmalar apardı və onun şeirlərindən seçmələri dilimizə çevirərək 2012-ci ildə Bakıda nəşr etdi. Kitaba yazdığı "Mütəfəkkir şair Dövlətməmməd Azadi (1700-1760)" adlı önsözdə belə qeyd edir: "Böyük şair-mütəfəkkir Dövlətməmməd Azadi türkmən ədəbiyyatı tarixində müstəsna bir yer tutur.

O, didaktik-fəlsəfi şair kimi məşhurdur. Qələmini və ömrünü gənc nəslin təlim-tərbiyəsinə həsr etmiş, öz tədris üsulunu və pedaqoji məktəbini yaratmış, bunu dəstəkləyən əsərlər yazmışdır. Bu mənada onu "türkmən Sədisi" adlandırmaq olar.

Göklən boyunun gərkəz tayfasına mənsub olan Dövlətməmməd Azadi 1700-cü ildə Türkmənistanın Ətrək vilayətində öz dövrünün qabaqcıl ziyalısı sayılan Məxdumqulu Yonaçının ailəsində dünyaya gəlmişdir. Azadinin atası da şair olmuş, bir sıra maraqlı şeirlər yazmışdır. Onun "Gürgənin" adlı şeiri indi də məşhurdur. Azadi sonralar böyük şair olan oğlu Məxdumqulu Fəraqiyə öz atasının adını qoymuşdur".

2012-ci ilin fevralın 10-da yazılmış ön söz, elmi dəyərinə görə olduqca qiymətli olmaqla yanaşı, çağdaşlığı ilə də seçilir. Ramiz Əskər bu ön sözdə qeyd edir: " Elm aləminə Azadinin bədii irsinin az bir hisssəsi məlumdur, onun bir sıra əsərləri itib-batmışdır. Üstəlik, ateist sovet rejimi şairin dini-didaktik mahiyyətli yaradıcılığına biganə münasibət bəsləmişdir. İdeoloji səbəblərə görə şairin əsərləri aktual olmamış, çox az tədqiq və nəşr edilmişdir.

... Azadi bəşəriyyətin ən ilkin arzularından biri olan ədalət problemini, Nizami dövründən bəri

Şərq ədəbiyyatında aparıcı mövzulardan biri olan adil şah problemini qoymuşdur. Ədalət anlayışının tərifini verən, onun həm bu dünyada, həm də axirətdə faydasından söz açan şair bəzi tarixi və əfsanəvi şəxslərin (Süleyman, Davud, Ömər, Keyqubad, Bəhram, Ənuşirəvan, Harun ər-Rəşid, Səbük təkin, İsmayıl Samani, Abdulla Tahir və sair) həyatından, peyğəmbər əfəndimiz həzrəti Məhəmmədin (s.ə.s) hədis və tövsiyələrindən ibrətamiz misallar gətirmiş, ... Şahları, naibləri, vəzir-vəkilləri, dövləti idarə edənləri, qazıları ədalətə dəvət edən Azadi göstərir ki, bir saatlıq ədalət altmış il ibadət etməkdən daha böyük səvabdır. Məzlumlara, miskinlərə, sadə xalqa adil və müşfiq yanaşmaq, onların qəlbini almaq lazımdır".

Türk xalqlarının ədəbi və mədəni əlaqələrində böyük əməyi olan professor Ramiz Əskər türkmən ədiblərindən yalnız Dövlətməhəmməd Azadi və onun oğlu Məxdumqulu Fəraqinin ömür yolunu, yaradıcılığını araşdırmaqla və şeirlərini Azərbaycan türkcəsinə çevirməklə kifayətlənməmişdir. Onun 2010-cu ildə çap etdirdiyi "Molla Nəfəs. Seçilmiş əsərləri" və "Molla Nəfəs. Bu məkana gəlmişəm", 2011-ci ildə nəşr etdirdiyi "Nurməhəmməd Əndəlib. Şeirlər. Poemalar. Dastanlar", "Abdulla

Şahbəndə. Seçilmiş əsərləri", "Türkmən şeiri antologiyası" və "Türkmən müəmmaları, deyişmələri və vücudnamələri" adlı kitabları türkmən klassik ədəbiyyatını öyrənmək baxımından olduqca dəyərli qaynaqlardır.

2009-cu ildə çap etdirdiyi çağdaş türkmən şairi Oraz Yağmurun "Qarabağlı ananın ağısı", eləcə də 2011-ci ildə nəşr olunan Qurbanqulu Berdimühəmmədovun "Axaltəkə atı" kitabları isə çağdaş türkmən ədəbiyyatını və mədəniyyətini işıqlandırır.

Türkmən şairlərindən Annaqılınc Möhtaci, Dostməmməd, Dövlətməmməd Balqızıl, Əvəztaqan Katibi, Qayıbnəzər Qayıbi, Qurbanəli Məğrubi, Qurbandurdu Zəlili, Məmmədvəli Kəminə, Miskin Qılınc, Murad Talibi, Nurməhəmməd Əndəlib, Oraz Aşiqi, Orazpolad Qurdoğlu, Seyidnəzər Seydi, Seydulla Seydi, Şeydayi və digərlərinin əsərlərinin tərcüməsi və onlar haqqında yazdığı ensiklopedik məqalələr Ramiz Əskərin Azərbaycan -Türkmən ədəbi əlaqələrindəki mühüm rolunu nümayiş etdirir.

Ramiz Əskər türkmən şairlərinin əsərlərini yalnız Azərbaycan türkcəsinə çevirməklə kifayətlənmirdi. O, eyni zamanda bu sənətkarlar haqqında Türkiyə, Rusiya və Avropa mətbuatında

dəyərli məqalələr çap etdirir, beynəlxalq tədbirlərdə məruzələr ilə çıxış edirdi.



Şəkildə: 2012-ci il mayın 14-15-də Aşqabadda keçirilən "Dövlətməmməd Azadi və 18-ci yüzil Türkmən həyatı" mövzusunda Beynəlxalq Elmi Konfransda. Soldan Rəfael Hüseyinov və Ramiz Əskər

Ramiz Əskərin tərcümə və araşdırmalar apardığı əsərlər arasında Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" (4 cild), Yusif Balasağunlunun "Qutadğu bilig" poemasını, Faruq Sümərin "Oğuzlar", Bahəddin Ögelin "Türk mifologiyası", Zəhirəddin Məhəmməd Baburun "Baburnamə", Sultan Hüseyn Bayqara, Babur və

Mehri Xatunun divanları, eləcə də Azadi, Əndəlib, Məxdumqulu, Molla Nəfəs, Abdulla Tukay, Əli Ağbaş, Oraz Yağmur, Todur Zanetin seçilmiş əsərləri yer alır. O, həmçinin "Monqolların gizli tarixi", "Türk ədəbiyyatı tarixi" (2 cild), özbək və türkmən poeziyası antologiyalarını da tərcümə etmişdir.

Özbək ədəbiyyatının Azərbaycanda tanıdılmasında böyük əməyi olan Ramiz Əskər ilk dəfə Əlişir Nəvainin xəmsəsini tərcümə etməklə qalmadı, bir neçə monoqrafiya da yazdı.

Elmi və ədəbi fəaliyyətinə görə Ramiz Əskər bir sıra nüfuzlu beynəlxalq mükafatlara layiq görülmüşdür. O, Türkiyənin "Türk dünyasına xidmət", Özbəkistanın "Babur", Ukraynanın "Bəkir Çobanzadə", Türkmənistanın "Altın əsr" mükafatlarını, eləcə də Avrasiya Yazarlar Birliyi və TürkSOY-un fəxri mükafatlarını almışdır. Qazaxıstanda Qasım Amanjolovla bağlı tədqiqat və tərcümələrinə görə "Qasım Amanjolov" yubiley medalı, Tatarıstanda isə Abdulla Tukayın əsərlərinin tərcüməsinə görə "Mədəniyyət sahəsində uğurlar" medalı ilə təltif olunmuşdur.

2011-ci ildə o, Ankarada yerləşən Avrasiya Tərcüməçilər Birliyinin sədri seçilmişdir.

Ömrünün son illərində Ramiz Əskər “Kitabi Dədə Qorqud” un Türkmənsəhra nüsxəsini və Türkmənistanın “Qoroğlu” dastanlarını (3 cildlik “Türkmən Qoroğlu”) bacısı Nailə Əskərlə birgə nəşrə hazırlamış və çap etdirmişdir.

Ramiz Əskər üçün heç bir qurum qrant layihəsi ayırmadı. Ona hansı kitabları çevirməyi və nəşr etdirməyi də tapşırmadı. Öz ürəyinin səsi və dostlarının məsləhətilə işlədi. Yazmaq, tərçümə etmək bir işdirsə, yazdıqlarını nəşr etdirmək üçün vəsait tapmaq, çap olunan kitabları yaymaq ondan da ağır işdir. Ramiz əskər bunların hamısını təkbaşına görə biləcək bir gücə sahin insan idi.

Ramiz Əskər 2024-cü il mayın 22-də ürək əməliyyatından sağ çıxmadı. Onun daha həyata keçirəcək nə qədər yarımçıq işi, tamamlayacağı neçə-neçə tərcümə, yazacağı neçə-neçə məqalə, tanıdacağı neçə-neçə söz adamı vardı... Amma o, arxasında elə bir iz qoydu ki, bu yolun davamı mütləq olacaq. Onun yarımçıq qalan işləri – gələcək nəsillərə bir vəsiyyət, bir yol xəritəsidir.

20.05.2025

PUBLİSİSTİK MƏQALƏLƏR

Türkmən inciləri

Görkəmli türkmən şairi, türkmən ədəbiyyatının novator sənətkarı Məxdumqulu Fəraqinin anadan olmasının 250 illik yubileyini təntənə ilə qeyd etməyə hazırlaşdığımız günlərdə "Yazıçı" nəşriyyatı oxuculara gözəl bir hədiyyə - "Klassik türkmən şeri" antologiyasını təqdim etmişdir. Kitaba XVIII-XIX əsrlərdə yaşayıb yaratmış 5 türkmən şairinin şeirləri daxil edilmişdir. Şeirləri türkmən dilinin gözəl bilicisi, türkmən ədəbiyyatının yaxın dostuFəxrəddin Əliyev tərcümə etmişdir.

Antologiya Məxdumqulu Fəraqinin (1733-1782) şeirləri ilə başlayır. Türkmənistan tarixinin ən ağır dövrlərində, feodal dağınıqları, türkmən qəbilələrinin bir-biri mənasız və boş yerə vuruşduğu, dinc əhalinin İran şahları və qonşu əmirliklərin talanına məruz qaldığı bir dövrdə yaşayan M. Fəraqinin şeirlərindəki mübariz ruh xalqı daim birləşməyə, yağılara qarşı ölüm-dirim mübarizəsinə çağırmışdır.

Məxdumqulu üsyankar, mübariz ruhlu əsərlərlə yanaşı, lirik, intim şeirlərin də müəllifidir. Orta Asiyanın, Yaxın Şərqin bir çox şəhər və kəndlərinigözəl M. Fəraqi Azərbay-

canda da olmuşdur. Onun respublikamızın gözəl guşəsi Şəkiyə həsr etdiyi şeirdə deyilir:

Gedək seyrə çıxaq Nuxa mülkünü,
Könlünü oxşayan yaylaqları var,
Dərib qoxulayaq qönçə gülünü
Yaşıl reyhanları, zanbaqları var

Təmiz havasında xəstə sağalar,
Qəribin, miskinin üzü ağ olar,
Bir fidan becərsən , dönüb bağ olar,
Əcəb ov etməli ovlaqları var.

Türkmən şeirinə yeni ruh gətirən, poeziya dilini xalq dilinə yaxınlaşdıran, heca vəznində gözəl şeirlər yaradan M. Fəraqinin yaradıcılığından bəhs edərkən filologiya elmləri doktoru Araz Dadaşzadə deyir: Məxdumqulu şeirləri ilə aşıqlarımızın, Vaqif və Vidadi şeirinin tipoloji əlaqələri də çox aydın müşahidə edilir. Məxdumqulunu oxuyarkən Abbas Tufarqanlının nəsihətçiliyi ilə də, Vidadinin kədəri ilə də rastlaşırıq.

Məxdumqulunun şeirləri ilə Azərbaycan oxuyucuları əvvəllər də tanış idi. 1960- cı ildə şairin "Şeirlər" kitabı çap olunmuşdur. Klassik

türkmən antologiyasında dərc olunmuş Məxdumqulu şeirləri 60- cı ildə kitabda çap ediləndən orijinala yaxınlığı ilə fərqlənir. Bu da sözsüz ki, tərcüməçinin hər iki dili gözəl bilməsinin nəticəsidir.

Məxdumqulu məktəbinin ləyaqətli davamçısı olan Molla Vəli Kəminə (1770-1840) isə türkmən şeirinin satirik qolunu güclən-dirmişdir. Onun satirasında ictimai məzmun da güclüdür. Şairin tənqid hədəfi bəylər, qazılar, oğrular və bir də zəhmətkeş kütləni kasıb, yoxsul vəziyyətinə gətirən cəmiyyətdir.

Kasıblıq Azərbaycan aşıq şeirində də ən geniş yayılmış mövzu olmuşdur. Hər bir sənətkar bu məsələyə öz münasibətini bildir-mişdir. Kəminə isə daha bədii ifadə vasitələri taparaq deyir:

Gündə yüz yol qovsam uzağa getməz,
Yük tutub qapımda yatar kasıblıq.

Kəminə satirik şeirlər yazsa da, əsasən lirik şair kimi tanınmışdır. Onun lirik şeirlərində XVIII-XIX əsrlərdə yaşayıb yaratmış Azərbay-can aşıq və şairlərinin şeirləri ilə tipoloji yaxınlıq vardır.

Antologiyada şeirləri dərc edilmiş şairlər arasında Seyidnəzər Seydi (1775-1836)

mübarizliyi, vətənpərvərliyi və coşğunluğu ilə seçilir. Seydi şairdən çox el qəhrəmanını, yenilməz sərkərdəni xatırladır. Şairin şeirləri bizə Koroğlu dastanındakı qoşma və gəraylıları yada salır. Şair igidləri elini, obasını qorumağa, vətən ugrunda qan axıtmağa çağırır. Sanki Koroğluya çevrilib dəli nərə çəkərək deyir:

Vətən deyib mindim Qırat belinə,
Ölərəm, geriyə dönmərəm, bəylər!
Uymaram düşmənin fitnə-felinə
Qandan göl yaradıb çimmərəm,bəylər!

...Vuruşa girəndə olaram aslan,
Gəlsə yüz min ləşkər salaream tufan,
Bir əlimdə toppuz, birində qalxan,
Mənə od vursalar, dinmərəm, bəylər!

Vətənin əmin-amanlığını təmin etmək, ağ gününü görmək, xoş dövran sürmək üçün şair birinci növbədə düşməni məhv etməyi lazım bilir. Odur ki, deyir:

Əgər işimizə mövlam yar olsa,
Gəlin düşmən üstə varalım, bəylər!
Hər kəs əsir tutub intiqam olsa
Onun nəmərini verəlim, bəylər!

Müxənnətlər qoy cərgədən üzülsün
Bədoyatlı ərlər səf-səf düzülsün!
Düşmənlərin bənd-bərəsi tökülsün,
Vuruşda şir kimi duralım, bəylər!

Şair – sərkərdə igidləri döyüşlərə səsləyərkən bir qaşıq qanından qorxanları, dar gündə ailəsini, elini atıb canını qoruyanları, yağıların yağlı dilinə , yağlı tikəsinə aldananları öldürücü satira atəşinə tutur. Onları hətta təhqir etməkdən belə çəkinmir.

Elə biizmlə bir olmadı, igidlər
Gəlin bu vətəndən çıxıb gedəlim.
Düşmənin yalına hürəyən itlər
Getməsə, xaltasın taxıb gedəlim!

Şeri oxuyanda aydın olur ki, şair vətəni tərk etmək istəyir. Ancaq ümumi ruhdan görürsən ki, vətənə qanı ilə, canı ilə bağlı olan bu el qəhrəmanı heç zaman vətəni tərk etməz, onu dar gündə qoyub qaçmaz.

Seydi sevgiyə də, vətənə də, dostluğa da sadiq və möhkəm olmuşdur. Şair dostu Zəlili əsri düşərkən Seydi yazırdı:

Bu necə bəxtdir ki, qalmaz yerindən
Vurdular töküldü qanım burnumdan
Qılınc başdan dəydi, nizə qarnımdan
Mərdliyi qalxantək tutdun, Zəlili.

Almanaxa yığcam və maraqlı ön söz yazmış (1852) və Mollanəfəsin (1810-1862) də xeyli şeiri verilmişdir. Kitabda dərc olunmuş şeirlər azərbaycan oxucularına o qədər doğma və yaxındır ki, onların tərcümə olunduğu hiss edilmir. Almanaxa yığcam və maraqlı ön söz yazmış professor P. Xəlilov haqlı olaraq qeyd edir ki, "XVIII-XIX əsrlərdə Azərbaycanda yaranan realist şeirin təşəkkül amillərinin yalnız bizim deyil, qardaş xalqların da ədəbi mühiti üçün qanunauyğunluğunu görüb, yeni yaradıcılıq metodunun tarixi əhəmiyyətini müəyyənləşdirməyə əsas verən faktla qarşılaşırıq. Nəhayət, bir də ona görə maraq doğurur ki, şairlərin şəxsi yaradıcılıq əlaqələri olmadan da ədəbi prosesin qanunauyğunluğu sayəsində müştərək motivləri müştərək bədii inikas vasitələrinin, oxşar obrazlar silsiləsinin, xüsusən qohumdilli poeziyada eyni janrların daha geniş yayılmasının şahidi oluruq".

Tərcüməçi şairlər haqqında yığcam tərcümeui-hal verməklə kitabı daha da oxunaqlı etmişdir. Yəqin ki, bu almanax Azərbaycan-Türkmən ədəbi əlaqələrinin daha geniş öyrənilməsinə təkan olacaq və oxucuların rəğbətini qazanacaqdır.

Çap olunub: "Sovet Naxçıvanı" qəzeti
30 oktyabr 1983-cü il, sayı 252 (13687).

TÜRKMƏN ELİNİN TÜRKOLOQ ÖVLADI



Maral Taqanova ilə ilk tanışlığımız onun çalışdığı institutda oldu. Kası Nurbatov dedi: "Bizim gənc dilçimizdir. Leninqrad (indiki Sant-Peterburq) Dövlət Universiteti bitirib. 1991-ci ildə müdafiə edib. Bir ay deyil elmi işlər üzrə müavin təyin edilib". O, Maral xanımın Leninqradda oxumasını xüsusi vurğu ilə qeyd etməklə yanaşı onu hansı məşhur dilçilərdə dərs aldığını da söylədi.

Maral xanım qonaq olduğuma görə mənə diqqət və qayğı göstərdi. Azərbaycandakı dilçi alimlərin durumunu soruşdu, onların yaradıcılığı ilə maraqlandı və söhbətinin sonunda 1995-ci ildə

Aşqabadda nəşr eilmiş çapı o qədər keyfiyyətli olmayan "Türkmen Türkçesinde Hareketin Tekrarı" kitabına avtoqraf yazıb mənə bağışladı. Toplantıda olan araşdırıcıların bağışladıqları kitablardan bu qənaətə gəldim ki, Sovetlər Birliyi dağılandan sonra Azərbaycanda nəşriyyat sənayesində xeyli irəliləyiş var, Türkmənistanda hələ elə bir dəyişiklik görünmür.

Mənim Maxtumqulu adına Türkmənistan Dil və Ədəbiyyat İnstitutuna getməyimin və həmin gün işdə olan əməkdaşlarla görüşüb söhbət etməyimin səbəbkarı direktor Kasım Nurbatov oldu.

Aşqabadda keçirilən elmi toplantıya ilk dəfə getmişdim. 2000-ci il oktyabrın 10-13-də keçirilən toplantıya dəvət edilən araşdırıcıların çoxunu, eləcə də konfransın təşkilatçılarını tanımırdım. Türkmənistan Hökumətinin, Türkmənistan Xarici İşlər Nazirliyinin, Türkmənistan Nazirlər Kabineti yanında Tarix İnstitutunun, Sankt-Peterburqdakı Rusiyanın Türkmənistan ilə Mədəni Əlaqələr Cəmiyyətinin və Aşqabaddakı Türkmənistan-Rusiya Cəmiyyətinin "Türkmənistanın mədəni irsi: qədim keçmişi və hazırkı zamanın prespektivləri" mövzusunda keçirilən konfransa çox xərc

çəkilmişdi. Qonaqlara Aşqabadda son illər xaricilərin tikdiyi beşulduz hoteldə yer ayırmışdılar.

"Ak altun"da səhər yeməyini bitirib foeya çıxanda təşkilatçılardan Rüstəm mənə yaxınlaşaraq: "Maxtımqulu adına Dil və Ədəbiyyat İnstitutunun direktoru Kasım Nurbatov sizi axtarırdı" dedi və divanda oturub əlindəki kitabı səhifələyən qarabuğdayı, orta boylu, təxminən 50-60 yaşlı bir nəfəri mənə göstərdi. Biz ona yaxınlaşanda ayağa durdu və köhnə tanışlar kimi mehribanlıqla görüşdü. Sonra da əyləşib türk qəhvəsi içməyi təklif etdi. Təşəkkürümü bildirdim və üzəbəüz oturduq.

O, özünü təqdim etdikdən sonra Sabir Rüstəmxanlını, Musa Ələkbərlini, Yusif Həsənbəylini xəbər aldı, onlarla tanışlıqlarından söz açdı, geri dönəndə salamını çatdırmağı xahiş etdi. Mən də özüm haqqında qısa bilgi verəndə dodaqaltı gülümsədi. Bu, "sənin haqqında dediklərindən mən daha çox bilirəm" anlamını verirdi. Konfransa göndərdiyim məruzəmin özətinə əlavə etdiyim özkeçmişim qısa idi. Türkmənistanın Azərbaycandakı Fövqalədə və Səlahiyyətli böyük elçisi Murat Çarıyev görünür toplantıya yola saldığı araşdırıcılar haqqında əlavə bilgilər də göndərmişdi.

Kasım Nurbatov əlindəki kitabı mənə uzatdı. Açıq səhifədə məruzəmin özətinin altından xətt çəkilmişdi. Onun narazı qaldığı cümlələrin altından xətt çəkdiyini düşünürdüm. Söhbətdə isə bunun tərsini gördüm. Dedi: "Mənim namizədlik mövzum İranda yaşayan Türkmənlərin ədəbiyyatı haqqındadır. Dissertasiya yazarkən dəfələrlə İranda oldum. Müdafiədən sonra araşdırmamın üzərində yenidən əl gəzdirib kitab kimi nəşr etdirdim. Suriyada, Stavropolda da elmi ezamiyyətdə olmuşam. Türkmənlərlə bağlı araşdırmalar aparmışam. İranın Mərkəz ostanında, Savədə yaşamış şairlərdən Tilimxanın, Türkam Mahmudun, Aşıq Rzaəlinin və b. özlərini türkman adlandırdıqlarını bilməmişəm. Bilsəydim onların yaradıcılığını da araşdırar, bununla Türkman ədəbiyyatını zənginləşdirmiş olardım. Onların həyat və yaradıcılıqları haqqında dəyərli bilgi verdiyinizə görə çox sağ olun. Doktorluq dissertasiyamda bu məsələlərə diqqəti artıracam, bizim əməkdaşlığımız bundan sonra artacaq".

Yazıma yüksək qiymət verdiyinə görə təşəkkürümü bildirdim. 18-19-cu yüzillərdə yaşayan şairlərimiz deyil, hətta Şah İsmayıl Xətai, Füzuli və başqa şairlərimiz də özlərini Türkman adlandırdıqlarını, onların Türkman dedikləri xalqın

bu günkü Türkmənlər deyil, islamı qəbul etmiş Oğuzlara verilmiş ad olduğunu, hətta günümüzdə Türkiyə ədəbiyyatına aid etdikləri orta yüzil el şairlərinin də özlərini Türkman adlandırdıqlarını söylədim. Kasım Nurbatov dedi: "Bu gün təşkilatçıların başı dünyanın müxtəlir ölkələrindən gələn qonaqları qarşılamağa qarışıb. Sizlər üçün kiçik bir gəzinti təşkil ediblər. Bu da baş qatmaq, diqqətdən kənarda qalmadığınızı göstərmək üçündür. Konfransın əzəmətli açılışı sabah olacaq. İstəyirsiniz Maxtumqulu adına Dil və Ədəbiyyat İnstitutuna gedək. Aşqabadda olduğunuz günlərdə görəcəyimiz işləri planlaşdıraq. Təklifi ürəyimdən oldu. İcazə istəyib paltarımı dəyişmək və gətirdiyim kiçik hədiyyələrdən özümlə götürmək üçün otağıma qalxanda Kasım Nurbatov dedi: "Mümkünsə məruzənin tam mətnini də gətirin".

15-20 dəqiqə sonra foeyə endim. Kasım Nurbatovla həyətə çıxıb bizi gözləyən maşına mindik. Təxminən 10 dəqiqə sonra Maxtımqulu adına Dil və Ədəbiyyat İnstitutuna çatdıq. "Bu yolu gəzə-gəzə gəlsək mənə daha xoş olardı, şəhərin bir hissəsini də yaxşı görmüş olardım" deyəndə "Darıxma, vaxtımız var. Aşqabadı istədiyin qədər gəzdirəcəyəm" cavabını verdi.

İkinci mərtəbədəki sadə və uzun illər təmir edilməmiş, mebelləri köhnəlmiş kabinetinə qalxanda katibəyə müavinlərini və bir neçə işçisini çağırmağı tapşırdı. Gələnlərlə tanışlıq o qədər də uzun sürmədi. Direktor mənim haqqımda qısa bilgi verəndən sonra institutun 10 şöbəsində 100-ə yaxın əməkdaş çalışdığını, onlardan ikisinin Türkmənistan Elmlər Akademiyasının müxbir üzvü, 10-nun elmlər doktoru, 23-nün elmlər namizədi olduğunu, institutdakı şöbələrin 5-də dilçilik, 5-də isə ədəbiyyat məsələləri araşdırıldığını söylədi.

Kasım Nurbatov mənim folklor institutunda işlədiyimi nəzərə alıb ədəbiyyat bölməsində şöbələrin adlarını da sadaladı:

Tərcümə və rəsmi işgüzar nitq şöbəsi (bu şöbədə Rus, İngilis, Fransız, Alman dillərindən Türkmən dilinə tərcümə ilə məşğul olanlar çalışır-Ə.Ş.), 2. Klassık ədəbiyyat və Maxtumqulu irsinin öyrənilməsi şöbəsi, 3. Ədəbi əlaqələr şöbəsi, 4. 20-ci əsir ədəbiyyatı şöbəsi, 5. Folklor şöbəsi. O, institutun tarixindən danışarkən bildirdi ki, Maxtımqulu adına Dil və Ədəbiyyat İnstitutu SSRİ-nin müttəfiq respublikalarında olduğu kimi yaranıb və fəaliyyət göstərib. Türkmənistan prezidentinin fərmanı ilə 1998-ci ilin iyunundan akademiya ləğv edilib, Maxtımqulu adına Dil və

Ədəbiyyat İnstitutu da başqa elmi ocaqları kimi Türkmənistan prezidentinin yanında Ali Elm və Texnika Sovetinin tabeliyinə verilib.



Şəkildə: Maral Taqanova (soldan 3-cü) 2016-cı il oktyabrın 10-16-da keçirilən Yunus Emre günlərində

Kasım Nurbatov strukdur dəyişikliyinin elmin inkişafına təkan verəcəyini, prezident aparatının bu sahəyə diqqətinin artırdığını söyləyəndə gülümsəyirdim. Elə bir ciddi dəyişiklik olmayacağını direktor yaxşı bilirdi. Sadəcə o, vəzifə borcunu yerinə yetirərək rəhbərliyin atdığı addımı alqışlayırdı.

Direktor sözünü bitirib çalışdığım təşkilat haqqında bilgi verməyimi xahiş etdi. Mən də

işlədiyim Azərbaycan Milli Elmlər Akademiyası Ədəbiyyat İnstitutunun Folklor Sarayı Elmi Mədəni Mərkəzi, onun şöbələri, oradakı işçilərin sayı, çap etdirdiyimiz kitaplar, araşdırmalar haqqında təxminən 10 dəqiqəlik bir çıxış etdim.

Kasım Nurbatov dedi: ”Dediklәriniz bizlәri birlәşdirәn cәhәtlәrdir. Onu öyrənmək və tanıtmaq bizlərin borcudur”. Onun ədəbiyyata, mədəniyyətə baxışından, ortaq nöqtələr axtarmasından razı qaldım və sözümüz-söhbətimiz tutacağı qənaətinə gəldim.

Kasım Nurbatov Folklor Sarayı Elmi Mədəni Mərkəzin fəaliyyəti haqqında əlavə sual verəndə dedim: “Kasım əkə, bu yeni bir qurumdur. İnstitut içərisində kiçik bir institutdur. İki-üç ilə Folklor İnstitutuna çevriləcək”. O, heyrətlə: “Bunu bacaracaqsınızmı? SSRİ-də belə bir institut müttəfiq respublikalar o yana, heç Moskvada da yox idi”- deyəndə gülərək: “Sovet dövrü deyil ki, folklor, etnoqrafiya institutu açmağa qoymayalar, həmin sahələri ciddi öyrənməyə imkan verməyələr. Daha Rusiyanın əsarətində deyilik. Bir iş görəndə də onlardan icazə istəməyəcəyik. Allah qismət eləsə iki-üç ilə Sizi Azərbaycan Milli Elmilər Akademiyasının Folklor İnstitutuna dəvət edəcəyik” dedim. O, bir az inamsız

yanaşdığındanmı, yoxsa "Rusiya əsarətində" sözümdənmi ehtiyatlandığındanmı söhbətin yönünü dəyişdi.

Almazjan, oz tamanyzdan ylmy makalanyzy hem oberin. Men baradaky makalanyzy okadym Oran gowy bolupdyr. Bir hayysh: Menin hakyky doglan gunum 12-nji dekabr. Menin dokumentimde yalnysh yazylypdyr. Duzetmek uchin kan ish etmeli bolanson, shol yalnyshlygyna hem galdy Hormat bilen, Maral.Konfran günlərində isə Maral Taqanova ilə gah fasilələrdə, gah yemək süfrəsində, kollektiv gəzintidə söhbətləşirdik. Kasım Nurbatov işə ora-bura çox getməli olduğundan Maxtımqulu adına Türkmənistan Dil və Ədəbiyyat İnstutunda elmi işçilərlə Türkiyə Dil Kurumunun başqanı Ahmet Bican Ercilasunla, Peterburqlu professor İvan Steblin-Kamenskiylə və mənimlə görüşü təşkil etməyi Maral Taqanovaya tapşırmışdı. Maral xanım institutda yeni işləsə də təşkilatçılıq bacarığını göstərdi.

Gənclikdən Türk xalqlarından tanıdığım adamların hansı bölgədən olması ilə maraqlanmağımın səbəbi onların danışığının Azərbaycanda hansı bölgənin, hansı kəndin, hansı tayfanın ağızına uyğun gəldiyini öyrənmək idi. Maral Taqanovanın danışığı Türkmənistanın Balkar

vilayətində yaşayan Türkmənlərin danışığına oxşamırdı. Balkarlılar Azərbaycanda Xəzərin doğusunda yaşayan Türklərin danışığına oxşasa da Sumqayıt şəhəri yaxınlığındakı Çorat kəndində yaşayan qocaların danışığı ilə demək olar ki, eyni idi. Ondan haralı olduğunu soruşanda 1960-cı il dekabrın 12-də Lebap vilayətindəki Xələc bölgəsinin Çohrette qəsəbəsində doğulduğunu söylədi. Mən bütün gücümü topladım ki, görüm onun danışığında Şərur, Salyan Ucar rayonundakı Xələc kəndlərində yaşayanların ləhcələri ilə Maral xanımın danışığı arasında bir uyğunluq tapa bilirəmmi. Ya mən adını çəkdiyim kəndlərin ləhcələrini yaxşı bilmədiyimdən, ya da Maral Taqanovanın Türkmən ədəbi dilində danışdığınıdan elə bir yaxınlıq tapmadım. Mən Azərbaycandakı Xələc kəndləri haqqında bilgi veərəndə Maral Taqanovanın diqqətini çəkdi.

Sonrakı illərdə Türkmənistana tez-tez gedirdim. Elə olub bir ildə 2 və ya 3 konfransda iştirak etmişəm. Gedişlərimdə əsas məqsədim Türkmənistan araşdırıcılarının Azərbaycanla, Türkiyə ilə və Türkoloji mövzuda keçirilən konfranslarla əlaqələrini yaratmaq idi. Həmin illərdə Türkiyədəki ziyalılar Azərbaycanlı aydınlardan istifadə edərəl, keçmiş Sovetlər

Birliyindəki Türk xalqlarının aydınları ilə əlaqə qurmağa maraqlı idilər. Simpoziumlara Türk xalqlarından təklif etdiyimiz adamları dəvət edir, Türküstanda keçirilən elmi toplantılar haqqında onlara xəbər verir, getmələriniə şərait yaradırdıq. Bir sözlə hər il Türkmənistanın 30-dan çox aliminə Türkologiya ilə bağlı keçirilən 40-50 simpoziumun dəvətini döndərirdim. Lakin zamanı gəlib yetişmədiyindən onlar gedə bilmirdilər.

İlk tanış olduğumuz günlərdə Maral Taqanovaya da Türkiyədə keçirilən simpoziuma qatılmağı və orada nəşr olunan jurnallara məqalə göndərməyi təklif etdim. Öncə razılıq verdi. Sonralar Aşqabadda olanda Türkmən araşdırıcıları kimi ona da "Nədən Türkiyədə, Azərbaycanda keçirilən elmi toplantılara getmirsiniz, jurnallara məqalə göndərmirsiniz"-deyə sual verəndə, Maral xanım: "Azərbaycana, Türkiyəyə baxmayın Türkmənbaşı burada sərt bir rejim yaradıb. Adətən xarici ölkələrə səfərə çıxanlar gedəcəyi ölkənin səfirliyindən viza alır. Bizdə isə qayda başqa cürdür. Getmək istədiyimiz ölkənin səfirliyindən viza istəməzdən öncə gərək Türkmənistanın Xarici İşlər Nazirliyinə gedək, onların cansıxıcı, əsəbdoğuran suallarına cavab verək. Gedişimizin məqsədini izah edək. Cavabı da neçə ay gözləyək.

Ona kimi də simpozium başa çatır. Simpoziumların üstündən aylar keçsə də Türkmənistan Xarici İşlər Nazirliyindən heç bir cavab gəlmir".

2007-ci ildə Türkmənistana gedəndə Maxtımqulu adına Dil və Ədəbiyyat institunda olarkən Maral Taqanovanı da görmək istədim. Dedilər o iş yerini dəyişib. İndi Türkmen Devlet Haberler Ajansında işləyir. Həmin illərdə Türkmənistanda tez-tez struktur dəyişikləri olurdu. Kasım Nurbatov da institutun direktorluğundan uzaqlaşdırılmışdı. O da Türkmən Televizyasında redaktor işləyirdi. Yerinə elmi dərəcəsi olmayan, incəsənət sahəsində elmi iş yazan Qızılgül Qiyasovanı təyin etmişdilər. Adətən mətbuatda işləyən, bir müddət jurnalist işləyənlər, yaşa dolduqda, biliklərini artırdıqda elmi-pedaqoji sahəyə keçirlər. Türkmənistanda isə tərsinə idi.

Türkmənistanın elm ocaqları ilə Azərbaycanın, Türkiyənin elmi təşkilatları arasında birgə simpoziumlar təşkil edə bilməyəcəyimi gördükdən sonra, yəni 2012-ci ildən sonra Aşqabada getməsəm də araşdırıcılarla əlaqəmi kəsmədim. Müntəzəm emaillə yazışır, votsap işə düşdükdən sonra telefonda danışırdım. Maral Taqanova ilə ondan sonra görüşə bilməsəm də yaradıcılığını izəyirdim. Bilirdim ki, Türkmənistan Elmlər

Akademiyasının Əlyazmalar İnstitunda işləməyə başayıb (sonra Əlyazmalar institutu Türkmən Dil və Ədəbiyyat İnstitutu ilə birləşdirildi).

Maral Taqanovanın 2015-ci ildən sonra xarici ölkələrdə keçirilən elmi toplantılara tez-tez getdiyindən xəbər tutdum. Gah sorağı Peterburqdan, gah Ufadan (Başqırdıstan), gah Kazandan (Tatarıstan) gah Yoşkar-Oladan (RF Mari) və b. yerlərdən gəlirdi. Onun sorağını Türkiyədən alanda daha çox sevindim. Çünki Türkiyədə iştirak etdiyi simpoziumların məruzələri və çap olunan məqalələri saytlarda olurdu. Onları oxuyub gənc dilçi araşdırıcılarla müzakirə edə bilirdik.

Maral xanım həm də xeyirxah insandır. Türkmənistanla bağlı yazılarımda çətinə düşəndə ona müraciət edirəm. Sağ olsun imkanı daxilində sorğularımı cavablandırır. Kasım Nurbatovun dünyasını dəyişməsindən təxminən bir il sonra xəbər tutdum. Dedilər qızı Maxtumqulu adına Dil və Ədəbiyyat İnstitutunda çalışır. Onunla da əlaqə qura bilmədim. Oraz Yağmurun Türkiyədə təhsil alan qızı məktublarıma cavab versə də Kasım Nurbatovun qızı haqqında sorğuma cavab vermədi. Axır ki, Maral Taqanovanın sayəsində Kasım Nurbatovun qızı Gülälek

Hangeldiyevanı tapdım və atası haqqında mənə lazım olan faktları ondan aldım.

Neçə-neçə dilçi alimin yetişməsinə əmək sərf etmiş Maral Taqanova son illərdə Türkologiyaya daha çox vaxt sərf edir, Türkiyə ilə əlaqələrini genişləndirir. Elmi və pedoqoji fəaliyyətini bu sahəyə yönəldib. Bu da məni sevindiri.

12 noyabr 2025-ci il

TÜRKMƏNİSTANDA ÇAP OLUNAN YAZILARIM

1. Salmanın hünəri (Drujina onun adının daşıyır) // “Pioner”(Türkmənista) jurnalı. – 1982, sayı 3-4...

2. Türkmen şairi Tilimhan.Türkmenistanın Medeni Mirası: Gadumu çeşmeler ve hazirki zaman Mümkünçülükleri Halkara Konfransıyası. Türkmenistanın Daşaru İşler Ministirligi, Türkmenistanun Ministrler Kabineti yanındakı Tarih İnstitutu, Rusiyanun Türkmenistan bilen Medeni Araqatnaşuklar Jemiyyetinin yardam etmiginadı. Aşğabat, 2000, 10-13 oktyabr.

3. Türkmən Tilimxanın təcnisləri. «Adebiyyat və sanat» (Aşkabad) qəzeti, 2000, 17 oktyabr.

4. Müqəddəs Ruhnamədə Koroğlu. Müqəddəs «Ruhnamə» və dünyanın ruhu genişliyi. (Halklara ılml maslahatın nutuklarının qısqaca beyanı, Ruhname -2006-ncı yılın sentyabr ayının 12-13-i), Aşgabat, 2006, səh. 174 (Türkməncə), səh.449(İngiliscə), səh.681(Rusca).

5. Mahmit Zamanşarı ve Azerbaycanın ılmı-edebi ümmanı. Mahmit Zamanşarı ve

gündoğarın ılmı-edebi galkınışı. Halklara ılmı maslahatın gısgaça beyanı. 2007-ncı yılın Magtumgulu(may) ayının 23-25. Aşgabat-Daşauz, 2007, seh.106(Türkmənсə), səh. 310(İngilisce), səh.471.(Rusca)

6. Müqəddəs Ruhnamə türk halklarının ümumi mədəniyyətinin yolgöstericisi hökmündə. "Müqəddəs Ruhnamə taze mün-yilliyin pelsefesi. Halklara ılmı maslahatın nutuklarının qısqaça beyanı", (H.İsmayılovla birlikdə) Aşkabat, 2007, 12-13 sentyabr, səh.260(türkmənсə), 448(ingilisce), 680(rusca)

7. Abulsait Abulhayri və onun ideyalarının Mir Hamza Seyid Nigari tərəfindən davam etdirilməsi. Abulsait Abulhayrı Gündoğarın böyük ağıldarı.Uluslararası elmi konfransın özetləri, Aşxabat, 2007, 13-15 Noyabır, səh. 148(türkmənсə), ingiliscə(338), rusca (515)

8. Salman Mümtaz və Əmin Abid Maxtımqulu haqqında (1920-ci illər) "Mahtumkuli and Spiritual-Cultural Values of the World" will be jointly held in Ashgabat, by the National Cultural Centre of Turkmenistan "Miras", the Ministry of Culture and Broadcasting, Supreme Council of Turkmenistan on Science and Technology under

the President of Turkmenistan and Balkan Velayat Hyakimlik. (12-14 May 2008) Aşxabad, 2008.

9. "Şerhü's-sünne ve'l-mesalih" eserinin yazıldığı ortam-Tebriz mühiti. "Nedjemeddin Kubra and spiritual-cultural world of Orient" National Cultural Centre of Turkmenistan "Miras", the Ministry of Culture and Broadcasting, Supreme Council of Turkmenistan on Science and Technology under the President of Turkmenistan and Dashoguz Velayat Hyakimlik (4-6 Sentyabr 2008-ci il), Aşxabad, 2008.

10. Kafiyeddin Omar ibn Osmanın sağlık öyi ve Abusagit Abulhayrı, seh. 83. Health house(Darushshupa) of Qafi Ed-Din Omar ibn Osman and Abu Seyit Abulhayyri, seh.2006., Дом здаровья(Дарушшафа) Кафиеддин Омар ибн Османа и Абу Сейит Абулхайыр, стр. 345, Selcuklar Dövrünin Edebiyati ve medeniyeti atlı halkalar maslahati 11-13 mart 2009 (Leterature and culture of the Seljuk epoch international scientific conference 11-13 mart 2009), Aşgabat, 2009.

11. Koroğlunun Türkmən torpağına getməyi ("Koroğlu" dastanının xələk nüsxəsi əsasında),

səh.148-149 (türməncə), Koroghlus Turkmen visit in Halec version, 259-261(İngiliscə), Tyrkmenckiy poxod Koroqlu v xaladjskiy versii. (rusca)səh.274-275. Koroğlu yordumu ve gündoğar ədəbiyatı (halkların yılmı nutuklarının qısqaca beyanı), Plot of Gorogly and the oriental literature, 2009-ncı yılın 23-25-nji sentyabr. Daşoğuz, 2009.

12. Mollanepesin "Zöhre-Tahir" dessanı barada (səh.106), About the "Zokhre and Takhyr" destan bu Mollanepes (230), O destane Mollanepese "Zoxre i Taxir" (355), Mollanepes ve XIX asyr Türkmen durmuşy (Halklara ylmy maslahatyn nutuklarynyn gysgaça beyanı 2010-njy yylyn 8-10 njy aprel), Marıy, 2010.

13. XX asırırn yıgriminci yillarında Azerbaycanda "Oğuznama" bağışlanan ılmı iş. (səh.86-87), İnvestigation on the "Oguznama" prindend in 1927 in Azerbaycan. (səh. 181-182), Исследование под названием «Огузнаме», завершенное в 1927-ом году в Азербайджане. (стр.279). "Oğuznama" yordumu-taryhy ve medeni çeşme hökmünde. (Halklara ylmy maslahatyn nutuklarynyn gysgaça beyanı 2010-njy yylyn 14-15- njy oktybry), Aşgabat, 2010.

14. Azerbaycandakı “Türkmenler” diyilep atlandırılyan etnik topar hakda(səh.75), About ethnic group called Turkmans in Azerbayijan (səh.190) Об этнической группе, называемой туркманами в Азербайджане(стр. 310)Taze galkynyş ve beyik özgertmeler eyyamında Türkmenistanın arheologiya ve etnografiya ylmy: yetilen sergiler ve önde duran vezifeler (Halklara ylmy maslahatyn nutuklarynyn gysgaça beyanı 2010-njy yylyn 10-11-njy noyabry), Aşgabat, 2010.

15. Dövletmammet Azadi-pelsepesçi sopı (səh.72), Dovletmammet Azadi as a sufi-philosopher (210), Довлетмаммед Азади как философ-суфист (стр. 341), Dövletmammet Azadi XVIII asır Türkmen durmuşı-Dovletmammet Azady and Turkmen lıfe ın the XVIII century- Довлетмаммед Азади и жизнь Туркмен XVIII века. (Halklara ylmy maslahatyn nutuklarynyn gysgaça beyanı 2012-nji yylyn 14-15-nji maıy), Aşgabat, 2012.)

16. Роль Рамиза Аскера в представлении наследия Махтумкулу в Азербайджана, Махтымкулу Фараги и общечеловеческое культурное ценности (Международной научной конференции), Ашхабат,

издателство «Ылым», 2014, стр.9-10, The role of Ramiz Asker in introducing trace of Makhtumkulu in Azerbayidjan, Makhtumkulu pyragy and universal human cultural values (Abstract of reports of the International Scientific Confrence), Ashhabat, Yilym, 2014, seh. 9-10, Azerbayjanda Magtımgulının edebi mirasını beyan etmekde Ramiz Askerin hizmeti, Magtımgulı Paragı ve umumadamzat medeni gımmatlıkları (Atlı halklarına ılmı maslahatıy), Aşgabat, 2014, seh.9-***10.***

ƏLİ ŞAMİL

TÜRKMƏNİSTAN: YOL QEYDLƏRİ, MƏQALƏLƏR

Direktor: **Səbuhi Aslan**
Dizayner: **Nigar Sadıqova**
Texniki redaktor: **Hüseyn Məmmədov**

Çapa imzalanmışdır: 21.06.2026
Ofset çapı. Əla növ kağız
Tiraj: 100
Ünvan: Bakı, Mətbuat prospekti 529-cu məhəllə
Telefon: (012) 538-18-87, (050) 263-16-16
email: imza_nesrler_evi@mail.ru

Qeyd üçün: